
Aydın Əlizadə
Antik
fəlsəfə tarixi
Ali məktəblərin tələbələri üçün dərs vəsaiti

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

**AYDIN ƏLİZADƏ**

# ANTİK FƏLSƏFƏ TARİXİ

***Ali məktəblərin tələbələri üçün dərs vəsaiti***

*AMEA Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının 23 dekabr 2015-ci il tarixli qərarı ilə ali məktəblərin tələbələri üçün dərs vəsaiti kimi çapa buraxılmışdır (protokol 12).*

**Bakı – 2016**

*Müəllif kitabın çap olunmasında göstərdiyi köməyə görə*
*"Safi Care" şirkətinin təsisçisi **Səbinə Rəhimovaya***
*öz dərin təşəkkürünü bildirir.*

**Elmi redaktor:** fəlsəfə üzrə elmlər doktoru
**İlham Məmmədzadə**

**Məsul redaktor:** fəlsəfə üzrə fəlsəfə doktoru
**Elsevər Səmədov**

**Rəyçilər:** fəlsəfə üzrə elmlər doktorları:
**Adil Əsədov, Lalə Mövsümova;**
fəlsəfə üzrə fəlsəfə doktoru
**Radif Mustafayev**

Əlizadə A.A. **Antik fəlsəfə tarixi**. Ali məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı-2016, 288 s.

*Fəlsəfənin əsasını və bünövrəsini antik dövrün fəlsəfəsi təşkil edir. Antik dövr fəlsəfəsini öyrənmədən fəlsəfə haqqında ümumi təsəvvür yarana bilməz. Sonrakı əsrlərdə formalaşan fərdi və ictimai şüur tarixi bu və ya digər dərəcədə antik fəlsəfəyə bağlıdır. Bu mövzuya həsr olunmuş "Antik fəlsəfə tarixi" kitabı Ali məktəblərdə təhsil alan tələbələr üçün dərs vəsaiti, eləcə də fəlsəfi problemlərlə maraqlanan geniş oxucu kütləsi üçün məlumat xarakterli ədəbiyyat kimi nəzərdə tutulmuşdur.*

$\frac{030}{15032016}$ qrifli nəşr

**İSBN –5-89968-061-X**

© A. Əlizadə

# İÇİNDƏKİLƏR


**GİRİŞ ........................................................................5**

**I. QƏDİM YUNAN FƏLSƏFƏSİ**

1.1. Yunan fəlsəfəöncəsi dövrü ............................................8
1.2.Müstəqil filosoflar .....................................................22
1.3. Milet məktəbi ...........................................................30
1.4. Elea məktəbi .............................................................35
1.5. Pifaqorçular məktəbi ...............................................42
1.6. Qədim yunan atomçuları ..........................................55
1.7. Sofistlər ....................................................................60
1.8. Klassik yunan fəlsəfəsi ............................................67
1.9. Sokratçı məktəblər ..................................................100
    1.9.1. Kinik məktəbi ................................................100
    1.9.2. Kirena məktəbi ..............................................105
    1.9.3. Meqara məktəbi .............................................110
    1.9.4. Eretriya məktəbi .............................................115

**II. ELLİNİZM VƏ ROMA DÖVRLƏRİNİN FƏLSƏFƏSİ**

2.1. Ellinizm və Roma dövrünün ümumi səciyyəsi ........119
2.2. Skeptisizm ..............................................................122
2.3. Epikürçülük .............................................................131
2.4. Peripatetizm ............................................................144
2.5. Stoaçılıq ...................................................................161
    2.5.1. Qədim stoa .....................................................161
    2.5.2. Orta stoa .........................................................170

2.5.3. Roma stoaçılığı .................................................. 176
2.6. Akademiklər ............................................................. 195
2.6.1. Qədim platonçuluq ......................................... 196
2.6.2. Orta platonçuluq ............................................. 202
2.7. Ellinizm və Roma dövrlərində dini-fəlsəfi təlimlər.. 229
2.7.1. Hermetizm ........................................................ 230
2.7.2. Yeni pifaqorçuluq ............................................ 233
2.7.3. Qnostisizm ....................................................... 241
2.7.4. Mitraizm ........................................................... 244
2.8. Yeni-platonçuluq ..................................................... 249
2.8.1. Roma məktəbi ................................................... 252
2.8.2. Apameya məktəbi ............................................ 261
2.8.3. Perqama məktəbi .............................................. 264
2.8.4. Afina məktəbi .................................................. 268
2.8.5. İskəndəriyyə məktəbi ...................................... 273
2.9. Antik fəlsəfənin sonu ............................................. 279
Qədim Yunan əlifbası ................................................... 287

# GİRİŞ

**Fəlsəfə** (yun. *Φιλοσοφία*) sözü yunancadan tərcümədə *"müdrikliyi sevmək"* deməkdir. Qədim təsəvvürlərə görə müdriklik xüsusi bir anlayış və həyat tərzidir ki, o da yalnız tanrıya məxsusdur. İnsan isə müdrikliyə tam yüksələ bilməz, yalnız ona doğru yönələ və ya onu sevə bilər. Buna görə də müdriklik sözünü "həqiqət" kimi də anlamaq mümkündür. Beləliklə, fəlsəfə sözünün mənasını *"həqiqətə yönəlmə"* kimi də vermək olar. Fəlsəfi düşüncəyə məxsus insan dünyanı olduğu kimi dərk etməyə və qavramağa çalışır.

İnsanları hisslərlə ölçülə bilməyən anlayışlar haqqında düşüncələrə yönəltmək fəlsəfənin ən əhəmiyyətli xüsusiyyətlərindən biridir. Digər elmlər ayrı-ayrı obyektləri araşdırır, onları təcrübədən keçirir, fəlsəfə isə bütün elmlərin üstündə duraraq onların əldə etdikləri nəticələri ümumiləşdirir, onların arasında əlaqə yaradır və bilikləri məntiqi ardıcıllığa salır.

Fəlsəfə şübhələrdən başlayır, çünki filosof hər şeyi anlamağa, şeylərin mahiyyətinə varmağa çalışır. Şübhəçilik istənilən sahədə, o cümlədən cəmiyyətin həyat tərzinə və ictimai qaydalara münasibətdə yarana bilər. Şübhə hansısa səbəblər üzündən yaranır. Bu səbəblərin ən əsası kökləşmiş dəyərlərin və anlayışların böhran həddinə çatmasıdır.

Fəlsəfənin tarixi qədim zamanlardan başlamışdır. İnsan nə qədər mövcud olmuşdursa, onun düşüncəsi, ifadə etdiyi fikirləri də o qədər vardır. Düşüncənin inkişafı isə

analitik təfəkkürün formalaşmasına gətirib çıxarır. Elə bu andan da fəlsəfə bir anlayış kimi ortaya çıxmış olur.

Ən qədim zamanlarda insanların düşüncələri daha çox təcrübəyə yönəlmişdir. Onlar yalnız ətraflarında baş verən hadisələrlə kifayətlənməmişdirlər. O dövrdə insanların dünyagörüşü inanclar üzərində qurulur və buna görə də fəlsəfə bir bilik sistemi kimi mövcud olmamışdır. Yalnız ona doğru aparan yollar var idi.

Bu vəziyyət təxminən miladdan öncə V – IV yüzilliklərdə dəyişmişdir. Antik dövrün filosofları fəlsəfəni artıq sistemli şəkildə ortaya qoya bilmiş, mifoloji dünyagörüşündən ayrılmağa başlamışdırlar. Buna bənzər proseslər qədim Hindistan və Çində də müşahidə edilirdi. Ancaq sonralar dünyanın inkişafı üçün antik fəlsəfənin əhəmiyyəti daha da artmışdır.

Antik dövrdə təfəkkürün inkişafı qarışıq və xaotik olaraq deyil, sosial və tarixi təməllər üzərində məqsədəuyğun şəkildə qurulurdu. Fəlsəfə özündə mifoloji düşüncə ilə elmi bilikləri birləşdirirdi. Yunan filosofları dünyanı yalnız əsatirlər və inanclarla izah etməkdən imtina etmişdirlər. Onlar artıq hər şeyi sağlam düşüncə, məntiq, məqsədəuyğunluq baxımından izah edirdilər. Hətta, əsatirlər və dini rəvayətlərə belə yeni mənalar vermiş, onları düşüncənin arqumentlərinə uyğunlaşdırırdılar. Bu da mifoloji və dini dünyagörüşünün böhranının başlanması demək idi.

Bununla belə, antik filosoflar və düşünən insanlar qədim adətlərdən, cəmiyyət içində yayılmış vərdiş etdiyi anlayışlardan və dəyərlərdən tam olaraq aralanmamış-

dırlar. Onların çoxu cəmiyyətdə yaşanan həqiqətlərə yeni mənalar vermiş, onları gerçəkliyə uyğunlaşdırmağa çalışmışdırlar. Filosoflar cəmiyyətdə yayılmış dəyərlərin bəzilərini tənqid edib rədd etmişdirlərsə də başqalarını bəyənmiş, onları zamanlarına uyğunlaşdırmış və modernləşdirmişdirlər. Son olaraq bu adətlər yeni anlamlar qazanmış, gerçəkliyə uyğunlaşdırılmışdırlar.

Oturuşmuş adətlərin və dünyagörüşünün böhranı və yeni fəlsəfi düşüncənin yaranmasının obyektiv sosial, siyasi, ictimai, ekoloji və başqa səbəbləri olmuşdur. Antik dövrdə quldarlıq quruluşunun böhranı, gəmiçiliyin və ticarətin genişlənməsi, insan azadlıqları haqqında yaranan təsəvvürlər kimi amillər də fəlsəfənin yaranıb inkişaf etməsində böyük rol oynamışdır. Məsələn, qədim yunanlar başqa xalqlarla münasibətlər qurur və onların dünyagörüşləri ilə tanış olurdular. Bütün bu proseslər ellinizm dövründə daha da sürətlənmişdir.

Dünyanın olduğu kimi dərk edilməsi antik filosofların başlıca məqsədi olmuşdur. Ona görə də, onlar təbiət və insanla bağlı olan bütün sahələr haqqında fikirlər irəli sürmüşdürlər. İlk olaraq ətraf mühit və kainat, sonra isə insanla bağlı təlimlərin əsasını qoymuşdurlar. Sonralar isə bunların əsasında fundamental elmlər yaranmışdır.

# I. QƏDİM YUNAN FƏLSƏFƏSİ

## 1.1. Yunan fəlsəfəöncəsi dövrü

Yunan fəlsəfəöncəsi dövrü mifoloji və dini dünyagörüşləri ilə səciyyələnir. *Mifoloji dünyagörüşü* inkişafın ilkin mərhələsi, dünyanı dərketmə üsulu və ictimai düşüncəsinin formasıdır. ***Mifologiya*** qədim cəmiyyətlərin əfsanə və əsatirlərindən ibarətdir. Orada tanrılardan, igidlərdən və başqa əfsanəvi personajlardan söhbət açılır. Həm də bu əsatirlərdə daha da dərin düşüncəvi problemlərə toxunulurdu.

Mifologiyanın özəlliyi dünya ilə insanın, düşüncə ilə emosiyaların, obyektlə subyektin fərqlərinə varılmamasındadır. Bu anlayışlar əsatirlərdə fərqləndirilmir.

Əsatirlər (miflər) ibtidai düşüncədən doğur. Onlar bütünlüklə yunanların və başqa dünya xalqlarının dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır. Bütün bu xalqlar əsatirlərin vasitəsi ilə mənəviyyatlarını və mədəniyyətlərini formalaşdıra və dəyərlər sistemlərini yarada bilmişdirlər. Əsatirlər incəsənət, poeziya, musiqi və ədəbiyyatın inkişafına təkan vermişdir.

***Dini dünyagörüşü*** də qədim yunan fəlsəfəsinin yaranması yolunda önəmli amillərdən biri olmuşdur. Dində varlıq dünyəvi və səmavi olmaqla ikiyə bölünür. Səmaviliyin önəmi daha böyükdür. Qədim yunan dininin əsa-

sında tanrılara və başqa mifik xarakterlərə inanc dururdu. Onlar insanın və bütün varlığın işlərinə qarışmış, onları yönəltmiş, qanunlar qoymuşdurlar. İnsanın bütün həyatı, düşüncə və davranışları onlara inancla bağlı idi. Eyni zamanda, qədim Yunanıstanda təktanrılığa keçid əlamətlərinə, ənənəvi dinin tənqidinə də rast gəlmək mümkündür.

Qədim yunan dinində bütün təbii və ictimai hadisələr sayları çox olan tanrılarla əlaqələndirilirdi. Yunanların düşüncəsində bu tanrıların hər birinin özlərinə məxsus fəaliyyət sahələrinin olduğu inancı yer alırdı. Yunan panteonunun[1] başında **Zeus**[2] (yun.[3] *Ζεύς*) adlı tanrı dururdu. Yunanların inanclarına görə tanrılar *Olimpus* dağında yaşayırdılar və insanların həyatına təsir edirdilər. İnsanların borcu isə onlara ibadət etmək idi. Bunun üçün tapınaqlar (məbədlər) və başqa müqəddəs yerlər fəaliyyət göstərirdi. Orada tanrıların heykəlləri qoyulur, onlara dualar oxunur və qurbanlar kəsilirdi. Bunların əvəzində isə insanlar tanrılardan müəyyən istəklərinin yerinə yetirilməsini tələb edirdilər. Nə qədər çox ibadətlər, nəzirlər və qurbanlar verilirdisə, tanrılar da əvəzində o qədər çox nemətlər verməli idilər. Bundan başqa yunanlar müqəddəs daşlara da tapınırdılar, kütləvi dini mərasimlər həyata keçirdirdilər.

Tanrılara xidmətçi olan kahinlər ibadətlər təşkil edirdilər. *Orakl* (lat.[4] *oraculum*) adlanan kahinlər də var idi.

---

[1] **Panteon** (yun. *Πάνθειον*) – Qədim Yunan dinində tanrıların ümumi təmsil olunduqları yerdir.

[2] Rus ədəbiyyatında onun adı *Zevs (Зевс)* kimi verilir. Bundan başqa, bu tanrının adı *Dios, Teos, Dii, Dia, Zeu* kimi də səslənə bilər.

[3] Burada və bundan sonra *"yunanca"* sözünün ixtisarıdır.

[4] Burada və bundan sonra *"latınca"* sözünün ixtisarıdır.

Yunanlar inanırdılar ki, onlar tanrılardan gələcək haqqında xəbərlər alır. Orakllardan ən tanınmışı Delfi şəhərində yerləşən Apollon tanrısının məbədində (tapınaqında) idi.

Qədim yunan dininin hər hansı bir vahid təlimi, müqəddəs kitabı ya da mərkəzi olmamışdır. Hər yerin öz adətləri var idi. Ümumiyyətlə, yunanlar Yaxın Şərq millətləri kimi təəssübkeş dindar olmamışlar, onlar Şərq xalqlarından fərqli olaraq həyatlarında daha da sərbəst idilər. Onların əsas əxlaqi dəyərləri igidlik və ədalət olmuşdur. Bu sərbəstliyin də fəlsəfənin yaranıb inkişaf etməsində böyük rolu olmuşdur. Sonralar isə yunan dini dünyagörüşü Romaya da təsir etmişdir.

Təxminən miladdan öncə VII – VI yüzilliklərdə Yunanıstanda **Orfizm** adlanan bir din yaranmışdır. Onun təlimində kifayət qədər fəlsəfi görüşlər də olmuşdur. Orfizmin adı mifik igid, musiqiçi və incəsənətin rəmzi olan **Orfeus**'la (yun. *Ὀρφεύς*) bağlıdır. Əfsanələrə görə o, çay tanrısı *Oyaqros* (yun. *Οἴαγρος*) və *Kalliope* (yun. *Καλλιόπη*) adlı *müzun*[5] (yun. *μοῦσα)* oğlu idi. Olimpus dağının yanında bir qəsəbədə yaşayırdı. Sonra Misirə səfər etmiş, bir müddət orada yaşamış və kahinlərdən elm öyrənmişdir.

Orfeus bir neçə döyüşlərdə iştirak etmiş və igidlik göstərmişdir. O tanrı Dionisusa deyil, günəş tanrısı Apollona tapınmışdır. Apollon da onu sevmiş, ona qızıl lira

---

[5] **Müzlər** ya da **musalar** (yun. *Μοῦσαι*) – yunan mifologiyasında incəsənət və elmlərin himayəçiləri olan tanrıcalardır. "Musiqi" sözü bu sözdən törəmişdir.

bağışlamışdır. Onun vasitəsi ilə heyvanları əhliləşdirmək, qayaları tərpətmək kimi möcüzələr göstərmək olurdu. Beləliklə, Orfeus ən mükəmməl musiqiçi və incəsənət adamı olmuşdur.

Orfeus *Evridike* (yun. *Εὐρυδίκη*) adlı bir meşə *nimfi*[6] (yun. *νύμφαι*) ilə evlənmişdir. Ancaq, az sonra Evridike ölmüşdür. Onu sevən Orfeus onunla yenidən birləşmək üçün yeraltı məkana düşmüş və tanrılarla anlaşaraq az qala Evridikeni oradan çıxarda bilmişdir. Ancaq son anda Evridike tanrıların qoyduğu şərti pozmuş və yeraltı məkandan çıxa bilməmişdir. Bundan sonra Orfeus həyatının sonuna qədər ona sadiq qalmış və ölümündən sonra Evridike ilə yeraltı məkanda birləşmişdir. Orfeusun ölümü haqqında çoxlu əfsanələr vardır. Bu rəvayətlərdən birinə görə, onu tanrı Dionisusun sevgililəri olan *mainadalar* (yun. *μαινάδες*) onların sevgisini rədd etdiklərinə görə parçalamışdırlar.

Orfizm dini cərəyan kimi miladdan öncə VI yüzillikdə yaranmışdır. Bu dinin yazılı ədəbiyyatı da olmuşdur. Məlumdur ki, orfizm yunanların ənənəvi dini baxışlarından fərqlənirdi, onlarla rəqabət aparırdı. Bu dinin təlimində ilk fəlsəfi fikirlər də olmuşdur. Bu da orfiklərin dünyanın yaranması haqqında təsəvvürlərində özünü göstərmişdir.

Orfizmin ***kosmologiasına***[7] görə öncə əbədi zaman olan *Xronos* (yun. *Χρόνος*) var idi. Ondan *qarışıqlıq* (yun. *χάος*) və

---

[6] **Nimflər** – yunan mifologiyasında gözəl qadın görkəmində təsəvvür edilən çay axarı ya da dağ və meşələrin gözəlliyi kimi təbii olayların təcəssümüdürlər.

[7] **Kosmologia** – kainatın quruluşu haqqında nəzəriyyələrdir.

*efir*[8] yaranmışdır. Sonra Xronos onlardan özündə dünyanı əhatə edən yumurta yaratmışdır. Bu yumurtadan işıq və sevgi tanrısı olan hermafrodit *Fanes* (yun. *Φάνης*) çıxmış və o, tanrıları və bütün canlıları doğmuşdur. (8)

Tanrılardan biri Dionisus olmuşdur. *Titanlar*[9] (yun. *τιτᾶνες*) onu parçalayıb yemişdirlər. Ona görə də, baş tanrı *Zeus* onları ildırımla yandırmışdır. Titanların külündən isə insanlar yaranmışdır. Ona görə də onların ***ikili təbiəti*** vardır. Biri insanların şər olan *titanik,* digəri isə xeyir olan *dionisik* təbiəti mövcuddur. Ona görə də insan həyatının məqsədi titanik təbiətə qalib gələrək dionisik həyat yaşamaqdır. (8)

Bu baxımdan da orfiklərin dini ayinləri olmuşdur. Onlar bədənin təmizliyinə riayət etmiş, ət və paxla yeməmiş, çoxlu dualar oxumuşdurlar. Onların inancına görə insan titanların Dionisusa qarşı etdiyi cinayətin daşıyıcısıdır və buna görə də günahkardır. Ancaq, orfik həyat tərzi insanı dünya həyatının əzablarından qurtara, ruhuna isə azadlıq verə bilər[10]. (8)

Orfizmə görə əsl həyat ölümdən sonra başlanır. Orada ölənlərin ruhu həyatda etdiyi əməllərə görə cavab verir. Orfiklər ruhların bir bədəndən digərinə köçməsinə

---

[8] **Efir** (yun. *αἰθήρ*) – yunan mifologiyasına görə göyün üst qatı, tanrıların yaşadığı məkandır.

[9] **Titanlar** – yunan mifologiyasında ikinci nəslin (əsas yaradıcı tanrılardan sonra gələn) tanrılarıdırlar. Onlar göy tanrısı *Uranus* (yun. *Οὐρανός*) və yer tanrıcası *Qaia*’dan (yun. *Γαία*) törəmişdirlər.

[10] Xristianlıqda da hər bir insan Adəmin ilk günahına görə günahkardır. Bu günahdan insanı yalnız İsaya iman qurtarır. Bu inancla orfizmin bənzərliyi vardır.

də inanırdılar. Sonralar orfizm Roma imperiyasında dirçəlmiş və müəyyən qədər yayılmışdır. Bu dini təlimin prinsipləri pifaqorçular, platonçular və digər düşünürlərin fəlsəfəsi görüşlərinə təsir etmişdir. (8)

Qədim Yunanıstanın fəlsəfəöncəsi ənənəsində *dastanlar* da böyük rol oynamışdır. Onları şairlər və ədiblər yazırdılar. Onlardan biri **Homer** (yun. *Ὅμηρος*, m. ö.[11] VIII yüzillik) olmuşdur. Onun kimliyi haqqında bilgilər olduqca azdır. Hətta, onun anadan olduğu yer də dəqiq bilinməməkdədir.

Homer ***"İliada"*** (yun. *Ἰλιάς*) və ***"Odisseia"*** (yun. *Ὀδύσσεια*) adlanan dastanların yazarı olmuşdur. Onlarda yunanların mifoloji və dini dünyagörüşü əks olunmuşdur. Bu dastanlarda insan həyatı və tarixi olaylar mifik varlıqların və tanrıların həyatı ilə bağlılıqda təsvir olunmuşdur. Olumpus dağında yaşayan tanrılar savaşlarda və başqa hadisələrdə tarixin gedişinə və insanların həyatına qarışmış, başqa mifoloji varlıqlar isə insanlarla birlikdə müxtəlif hadisələrdə iştirak etmişdirlər. "İliada"da Troya savaşı ilə bağlı hadisələrdən, "Odisseyada" isə bu savaşdan sonra *Odisseus* (yun. *Ὀδυσσεύς*) adında bir igidin vətəninə qayıtması zamanı rast gəldiyi hadisələrdən söhbət açılmışdır. Hər iki dastan sonralar formalaşan antik və Avropa ədəbiyyatının formalaşmasında böyük rol oynamışdır. Homerin əsərlərində fəlsəfi baxımdan əhəmiyyətli məqamlar yoxdur, bu əsərlər yunanların qədim inanclarını və dünyagörüşünü əks etdirir.

---

[11] Burada və bundan sonra *"miladdan öncə"* sözlərinin ixtisarıdır.

Bununla bərabər fəlsəfəöncəsi yunan ədəbiyyatının ilklərindən biri də **Hesiodos** (yun. *Ἡσίοδος*, m. ö. VIII – VII yüzilliklər) olmuşdur. O Aeolis[12] bölgəsində anadan olmuş, sonra Beotiada[13] yaşamışdır. Rəvayətlərə görə ona şairliyi nimflər vermişdirlər. Hesiodosun günümüzə çatmış əsərlərindən biri ***"Əməklər və günlər"dir*** (yun. *Ἔργα και Ἡμέραι*). Bu əsərdə onunla vərəsəlik məsələləri barəsində məhkəməyə çıxan qardaşı Persusa nəsihətlər verilir. Ona deyilir ki, pulla alınmış hakimlərə ümid bəsləməsin, işlərini öz əməyi ilə yerinə yetirsin. Daha sonra burada əkinçi və gəmiçilərin əməyindən söhbət açılmışdır. Bu əsərdə ilk tarixi inkişaf mərhələləri də təsvir edilmiş, insanlığın öncə "qızıl dövrdə" yaşaması, sonra isə durumunun ağırlaşdığı və həyatın çətinləşdiyi barəsində fikirlər irəli sürülmüşdür. Əsərdə çoxlu nəsihət, deyim, atalar sözləri və miflər də vardır (5, 63).

Hesiodosun daha bir tanınmış əsəri ***"Teoqonia"***[14] (yun. *Θεογονία*) adlanır. Bu əsərdə o yunanların arasında tanrılar haqqında dolaşan müxtəlif rəvayətləri sistemləşdirməyə, onları məntiqi ardıcıllığa gətirməyə çalışmışdır. Bu dastan yunanların ilk mifoloji əsərlərindən biri hesab edilir.

Əsərdə tanrılar, titanlar, igidlər haqqında bəhs olunur. İlk olaraq ***Qarışıqlıq*** (Xaos) olmuşdur. Ondan *Gecə,*

---

[12] Çağdaş Türkiyənin Ege dənizinin sahillərində yerləşən ərazidir.

[13] Çağdaş Yunanıstanın mərkəzində, Peloponessus yarımadasının şimalında yerləşən tarixi vilayətdir.

[14] Tanrıların yaranması haqqında inanclar toplusudur.

yer tanrıcası *Qaia*[15], yeraltı məkan *Tartarus* və sevgi tanrısı *Eros* yaranmışdır. Gün gecədən doğmuşdur. Qaiadan göy tanrısı *Uranus* və dəniz *Pontus* yaranmışdır. Sonra Qaia Uranusla evlənmişdir. Bu evlilikdən *titanlar* adlandırılan ilk tanrılar, *təpəgözlər* və əlli başlı div olan *hekatonxeirlər (*yun. *εκατογχείρες)* doğulmuşdurlar. Bundan sonra müxtəlif nimflər və başqa mifoloji varlıqlar yaranır. Tanrılar zaman-zaman bir-biri ilə hakimiyyət uğrunda savaşmışdırlar. Öncə titanlar Uranusu devirmiş, sonra isə onlara Zeus qalib gəlmişdir. Bundan sonra titanlar Tartarusa atılmış, Zeus isə baş tanrı olmuşdur. *Apollon, Artemis*[16], *Hermes* və başqa məşhur tanrılar ondan törəmişdirlər. Dionisus və Herakles isə Zeusun insan cinsindən olan arvadlarından doğulmuş oğulları idilər.

İnsanların yaradılması haqqında Hesiodos heç nə yazmamışdır. Ancaq, onun adına yazılan bəzi yazılarda onları *Prometeus* adlı bir titan torpaqdan yaratmış, yunan tanrıcası *Afina* isə onlara nəfəs vermişdir. Öncə tanrılar insanları sevməmiş, onları incitmişdirlər. Hətta, Zeus insanlara odu belə verməmiş, onu gizlətmişdir. Ancaq Prometeus onu oğurlayıb insanlara vermişdir. Buna görə də, Zeus qəzəblənərək *Pandora* adında qadına bir qutu verərək onu insanların yanına göndərmişdir. Ancaq yolda Pandora qutunu açmış və dünyaya şər və bədbəxtliklər yayılmışdır. Bundan sonra insanlar tanrılara ibadət etməyə başlamış və münasibətlər düzəlmişdir.

---

[15] Rus ədəbiyyatında onun adı *Geya (Гея)* kimi səslənir.
[16] Rus ədəbiyyatında onun adı *Artemida (Артемида)* kimi səslənir.

M. ö. VII yüzillikdə Krit adasında **Epimenides** (yun. *Ἐπιμενίδης*) adlı bir müdrik insan yaşamışdır. Onun haqqında deyirdilər ki, o çoxlu möcüzələr göstərmişdir. Bir rəvayətə görə gənc yaşlarında Epimenides bir mağarada yuxuya getmişdir. Ayıldıqdan sonra geri qayıdanda isə görmüşdür ki, doğma şəhəri dəyişmişdir[17]. Sonra bilinmişdir ki, o 57 il yatmışdır (2, 50). Elə o zaman da ona özəl biliklər verilmişdir. Bundan sonra Epimenides tanınmış və siyasətlə məşğul olmuş, kahinlik etmişdir.

Epimenides ilk dəfə insanlar tərəfindən iddia edilən fikirlərdə daxili ziddiyyətlərin olmasına fikir vermişdir (10). O, bir kritlinin *"Bütün Krit sakinləri yalançıdır"* iddiası haqqında düşünərkən belə qərara gəlmişdir ki, bunu deyən özü yalançıdır. Əgər bütün kritlilərin yalançı olduğunu iddia edən özü də kritlidirsə, deməli onun dediyinə inanmaq olmaz. Çünki belə olarsa o, özü də yalançı olur. Beləliklə, buna bənzər iddiaların daxilində ziddiyyət vardır və onlara *"antinomiya"* deyilir. Sonralar isə Zenon və Eubulides kimi filosoflar buna bənzər ziddiyyətlərin çoxlu örnəklərini ortaya çıxara bilmişdilər.

Yunan fəlsəfəsinin yaranmasında **"Yeddi müdrikin"** (yun. *Οἱ ἑπτὰ σοφοί*) çox böyük rolu olmuşdur. Bu insanlar öz müdriklikləri ilə seçilmiş, yunan ictimai fikrində dərin iz qoya bilmişdirlər. Tarixçilər "Yeddi müdrik" kimi *Fales, Pittakus, Bias, Solonun* adını qeyd

[17] Bu əfsanənin Quranda "Əshabi-Kəhf" haqqında rəvayəti (18-ci surə) ilə müəyyən qədər bənzərliyi vardır. Mağarada yatmış və uzun illərdən sonra ayılıb şəhərlərinə qayıtmış gənclər haqqında rəvayətlər xristian ənənəsində də vardır.

edirlər. Qalan üç nəfərin adları isə müxtəlif şəkildə verilir. Məsələn, Platona görə ("Protaqoras" dialoqu) onlar *Kleobulos, Mison, Xilon*'dur. Başqa müəlliflər Misonu deyil, *Perianderi* müdrik kimi göstərmişdirlər.

Diogenes Laertius[18] (yun. *Διογένης ὁ Λαέρτιος*) isə bir çox müdrik insanların adlarını çəkmişdir ki, onların arasında həmin "Yeddi müdrik" sayılanlar da ola bilərdi (2, 21-22). Onların hamısı m. ö. VII – VI yüzilliklərdə yaşamışdılar.

"Yeddi müdrik" hesab edilən insanlar həyatın təcrübəsindən bəhrələnərək hikmətli sözlər və kəlamlar demişdirlər. Bu da onların müdrikliklərindən irəli gəlirdi. Bu əxlaqi kəlamlar xalqın yaddaşında qalmış, nəsillərin tərbiyə edilməsində böyük rol oynamışdır. Onların fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, bu kəlamlarda dini və mifoloji məzmun olmamışdır. Bu da o zaman ənənəvi yunan dünyagörüşünün böhran keçirməsindən xəbər verir. Burada tanrılar və igidlər aləminə qarşı ***qnome***'lər (yun. *γνώμη* – fikir) adlanan qısa aforizmlər şəklində verilmiş müdrik ifadələr yer almışdır. Bununla da əsatirlər və dini inanclardan asılı olmayan dünyagörüşünün əsasları qoyulurdu ki, bu da fəlsəfənin yaranması üçün çox vacib amil olmuşdur. "Yeddi müdrikin" qnomelərinin nümunələri bunlardır:

"Görkəminlə deyil, əməlinlə seçil" (*Fales*);

---

[18] Miladi III yüzillikdə yaşayan yunan yazarı, ***"Filosofların həyatı, təlimləri və kəlamları"*** (yun. *Βίοι καὶ γνῶμαι τῶν ἐν φιλοσοφίᾳ εὐδοκιμησάντων*) adlı kitabın müəllifi idi. Bu kitab bizim zamanımıza çatan antik dövrün fəlsəfə tarixi mövzusunda yazılmış ən mükəmməl kitablardan biridir.

“Yeni dostları qazanmağa, köhnələri rədd etməyə tələsmə” (*Solon*);

“Sözü yalnız yeri gələndə de” (*Bias*);

“Hər şeyi qədəri ilə et, həddi aşma” (*Pittakus*);

“Verdiyin sözü pozma” (*Periander*);

“Bədən və ruhun sağlam olmalıdır” (*Kleobulos*);

“Dilin ağlının önünə keçməsin” (*Xilon*). (7, 94-96)

Daha bir qədim yunan müəllifi **Siroslu**[19] **Ferekides** (yun. *Φερεκύδης*, təxminən m. ö. 584 – 499) olmuşdur. Suda ensiklopedik lüğətinə (DK 7.A.2)[20] görə o, finikiyalılardan elm öyrənmiş (9, 84-85), sonra yunanların “yeddi müdriklərindən” biri olan Pittakusun öyrəncisi olmuşdur (2, 53-54). O, orfizmə çox yaxın idi. Ferekides ***“Beş kitab”*** (yun. *Πεντέμυχος*) adlanan əsərində öz teoqonia və kosmologiasını vermişdir. Onun əsərlərindən bəzi fraqmentləri günümüzə gəlib çatmışdır. Ferekides həm də Pifaqorun müəllimi olmuşdur.

“Beş kitabda” tanrıların və dünyanın yaranması təsəvvürləri Hesiodosun “Teoqonia”sından fərqlənir. Ferekides antik dünya təsəvvürlərini sadələşdirmək fikrinə düşmüşdür. Bunun üçün o, bir çox tanrıları bir-biri ilə eyniləşdirərək və adlarına yeni məzmun gətirərək onların sayını azaltmışdır. Bu da mifə əsaslanan yunan dünyagörüşünün böhrana uğramasının göstəricisi idi.

Hesiodosa görə hər şeyin başlanğıcında sularla eyniləşdirilən *Qarışıqlıq* (Xaos) durur. Feredides isə dünyanın başlanğıcını maddə ilə deyil, tanrılarla bağlayırdı.

---

[19] **Siros** (yun. Σύρος) – Ege dənizinin mərkəzində adadır.

[20] X-cu yüzillikdə Bizansda tərtib olunmuşdur.

Belə ki, *Zas* (Zeus) – *Xtonia* (Qaia) – *Kronos* (zaman) üçlüyü əbədi olmuş, yaradılmamışdırlar (3, 56-60). Burada Zeus həm də məhəbbət təcəssümü olan Erosla eyniləşdirilir (3, 62). Onlar birlikdə vəhdət təşkil edən ilk tanrılardır. Bu üçlük hava, su və odu yaratmışdırlar. Sonra bu ünsürlərdən tanrılar, yarıtanrılar, demonlar[21] və başqa mifoloji varlıqlar yaranmışdır. Qeyd edilən tanrılar, yarıtanrılar və demonlar ikinci dərəcəlidirlər. Bir zaman qara qüvvələr Zeusa qarşı üsyan etmiş, ancaq yenilərək *tartarusa*[22] atılmışdırlar (3, 66-67). Zeus isə Olimpusda baş tanrı olaraq möhkəmlənmişdir.

Ferekides həm də ruhun ölməzliyini, onun bir bədəndən başqasına köçməsini iddia edirdi (1, 29).

**Epixarmus** (yun. *Ἐπίχαρμος*, təxminən m. ö. 540 – 450) da fəlsəfəöncəsi dönəminin ən görkəmli nümayəndələrdən biri idi. O, qədim dövrün müəlliflərindən bir olmuşdur. Pifaqorun mühazirələrində iştirak etməsinə (2, 368) baxmayaraq onu pifaqorçulara aid etmirlər. Bəzi tarixçilər onu "Yeddi müdrikin" biri hesab edirdilər.

Epixarmusun İtaliyanın cənubunda anadan olduğu güman edilir. O, çoxlu komediya janrında əsərlər yazmış, bu janrın yaradıcılarından biri hesab edilmişdir. Dövrümüzə onun ***"qnome"***lər adlanan qısa müdrik ifadələri gəlib çatmışdır. Bundan başqa, onun təbiət və təbabət haqqında zamanımıza çatmayan əsərləri də olmuşdur (2, 368).

---

[21] Yunan mifologiyasında tanrılarla insanların arasında olan özəl varlıqlardır.
[22] Yunan mifologiyasında yeraltı məkan, dərin quyunun dibidir. Zeus o məkanda titanları məhbus kimi saxlayırdı.

Epixarmus hər şeyi ikilikdə (dualizmdə) təsəvvür edirdi. Onun təliminə görə *maddi* və *düşüncə ilə qavranılan* başlanğıclar vardır. Maddi başlanğıc od, hava, yer və sudan ibarətdir. Ona görə maddi başlanğıc dəyişkəndir. Düşüncə ilə qavranılan başlanğıc isə müxtəlif ideyalardır ki, onlar hər şeyin formasını təşkil edir. O başlanğıc dəyişkənliyə uğramır və hərəkətsizdir. (6, 340)

İnsan təbiəti də ikilidir. Bir tərəfdən onun maddi, başqa tərəfdən isə ilahi (onun ruhu) əsası vardır. İnsan diri ikən onlar birlikdədirlər, ölüm baş verən kimi isə ayrılırlar. Bədən məhv olur, ruh isə varlığını davam etdirir. Əslində isə insanın "Mən"ini təşkil edən ruhdur. Bədən isə onun zindanıdır. Ona görə də ruhu təkmilləşdirmək lazımdır ki, insan şəhvətlə dolu həyat sürməsin. (6, 341)

Qnomelərinin birində Epixarmus insan xasiyyətləri haqqında düşünür (6, 360). Yalnız şər insanlar yoxdur, çünki hamıda həm yaxşı, həm də pis xüsusiyyətlər vardır. Sadəcə bəzi adamlarda pis cəhətlər yaxşıları üstələyir. Onlar naqis adamlardır. Başqalarında isə yaxşı cəhətlər daha çox olur. Onlar isə müsbət insanlardır. Beləliklə, ən yaxşı insan o kəsdir ki, onun yaxşı xüsusiyyətləri, mənfi xüsusiyyətlərini üstələsin.

Başqa bir qnomesində isə Epixarmus demişdir ki: "Ölü olmaq qorxulu deyil. İnsanları ölmək anı qorxudur" (11, 214).

**Mövzu ilə əlaqəli suallar:**

1. Mifoloji və dini dünyagörüşü nədir?
2. Yunan dininin özəllikləri nədən ibarət olmuşdur?
3. Orfizmin əsatirləri və dini-fəlsəfi təliminin əsasında hansı müddəalar durur?
4. Homerin "İliada" və "Odissea" dastanlarının ümumi məzmunu nədən ibarətdir?
5. Hesiodosun əsərlərində nədən bəhs edilir?
6. Ferekidesin dünyanın yaranması haqqında təsəvvürləri necə olmuşdur?
7. Epimenidesin antinomiyası nədən ibarətdir?
8. Yeddi müdrik kim idi, onların fəaliyyəti nədən ibarət olmuşdur?
9. Epixarmusun fəaliyyəti və dünyagörüşü necə olmuşdur?

**Ədəbiyyat:**

1. Cicero. Tusculan disputations / Translated by Andrew P. Peabody. Boston: Little, Brown, and Company, 1886.
2. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.
3. Kirk G., Raven J., Schofield M. The Presocratic Philosophers. Cambridge University Press, 2003.
4. Гесиод. Теогония (О происхождении богов). М.: Библиотека античной литературы, 1963.

5. Лосев А. Ф., Сонкина Г. А., Тахо-Годи А. А., Тимофеева Н. А., Черемухина Н. М. Античная литература. М.: Просвещение, 1986.

6. Маковельский А. О. Досократики. Минск: Харвест, 1999.

7. Мещеряков Б.Г., Мещерякова И. А., Введение в человекознание. М.: Российский гуманитарный университет, 1994.

8. Орфики // Античные писатели. Словарь. СПб.: Лань, 1999.

9. Фрагменты ранних греческих философов / Составитель А. В. Лебедев. Ч. 1: От эпических теокосмогоний до возникновения атомистики. М.: Наука, 1989.

10. Эпименид // Энциклопедический словарь Брокгауза и Ефрона: в 86 т. (82 т. и 4 доп.). СПб., 1890 – 1907.

11. Эпихарм. Гнома 165 // Душенко К. Мысли и изречения древних с указанием источника. М.: Эксмо, 2007.

## 1.2. Müstəqil filosoflar

Yunan fəlsəfəsinin ilk dövrlərində bir çox filosoflar heç bir fəlsəfi məktəbə bağlı olmayaraq müstəqil şəkildə fəaliyyət göstərmişdirlər. Onlardan biri də **Heraklit**[23]

[23] Rusca səslənmədə verilmişdir. Dünya dillərinin çoxusunda onu latın səslənməsinə uyğun olaraq *"Heraklitus"* adlandırırlar.

(yun. Ἡράκλειτος, təxminən m. ö. 530 – 470) olmuşdur. O, indiki Türkiyənin ərazisində yerləşən antik dünyanın mədəni mərkəzlərindən biri hesab edilən Efesdə anadan olmuş və orada yaşamışdır. Rəvayətlərə görə o, abid həyatı yaşamış, ***"Təbiət haqqında"*** adlı kitabın müəllifi olmuşdur. Onun yalnız bəzi fraqmentləri günümüzə gəlib çatmışdır.

Onun fəlsəfəsinin əsasında dünyanın dəyişkən olması ideyası dayanır (1, 317). Bu barədə Heraklitin *"İki dəfə bir axara girmək olmaz"* (4, 344-345) kimi məşhur ifadəsi də vardır. Platon Heraklitin bu ifadəsini "Kratilles" dialoqunda işlətmişdir.

Heraklit həm də *dialektikanın*[24] əsasını qoyan filosoflardan biridir (1, 19). O qeyd edir ki, dünyada hər zaman varlıqlararası mübarizə müşahidə edilməkdədir. Bir varlıq başqasını yox etməyə çalışır və bunu edərkən o özü üçün həyat qazanmış olur. Beləliklə, soyuq-isti, qaranlıq-işıq kimi dualistik anlayışlar bir-biri ilə ziddiyyət və mübarizədədirlər. Bu kimi qarşıdurmaların nəticəsində inkişaf və dəyişikliklər baş verir. Çünki, bu ziddiyyətlər olmasaydı dünyada durğunluq müşahidə edilərdi. Eyni zamanda, bu ziddiyyətlər bir-biri ilə vəhdətdədir. Məsələn, qaranlıq olmasaydı işığın, soyuq olmasaydı istinin nə olduğu bilinməzdi.

Heraklit hesab edirdi ki, dünyanın əsasında ilk maddə durur. Onun fikrincə bu maddə *oddur* (2, 378). O,

---

[24] Qədim yunanlara görə **dialektika** (yun. *διαλεκτική*) mübahisədə rəqibin sözlərində ziddiyyət taparaq onun ortadan qaldırılması yolu ilə həqiqətin üzə çıxarılmasıdır.

odun şölələnməsində varlığın dəyişkənliyini və formasını dəyişdirdiyini görürdü. Heraklitə görə hər şey oddan yaranır və oda qayıdır. Ona görə bu proses daim təkrarlanmaqdadır. Bu səbəbdən də Heraklit qeyd edirdi ki, əgər bu dünya məhv olarsa odun şölələnməsi nəticəsində başqa dünya yaranar (2, 378). Odun ən çox cəmləşdiyi yer günəşdir. Araşdırmaçılara görə Heraklitin bu baxışları Zərdüştiliyin təsiri altında formalaşmışdır.

Heraklitə görə dünyada olan dəyişkənlik *"yuxarı və aşağıya doğru hərəkətdir"* (2, 379). Belə ki, od qatlaşaraq suya, sonra isə bərkiyərək torpağa çevrilir. Bu məhz aşağıya doğru hərəkətdir. Digər tərəfdən yer və sudan buxarlanma baş verir və bu da yuxarıya doğru hərəkətdir. Göründüyü kimi bu fikirlərdə hər şeyin dairəvi hərəkətdə olması və maddələr mübadiləsi ideyaları ortaya çıxır.

Buxarlanma "qaranlıq" və "işıqlı" olur. İlin fəsilləri, gündüzün gecə ilə dəyişməsi kimi olaylar bunun nəticəsidir. Gün və yay "işıqlı", gecə və qış isə "qaranlıq" buxarlanmalardan doğur. (2, 379)

Heraklitə görə dünyanı heç kəs yaratmamışdır. O əbədidir, hər zaman hərəkətdədir (6, 15). Ancaq onu idarə edən bir prinsip var, bu da ***"Loqos"***dur. Loqos qanunauyğunluq, mütləq qanun, fələk, tale və alın yazısıdır. Hər şey, hətta tanrılar belə ona tabedir (6, 15 və 21).

Heraklitə görə həqiqətin meyarı kütlələrin razılaşdığı fikir ya da ayrı-ayrı adamların rəyi deyil. Həqiqət Loqosdur. Bizim fikirlərimiz onun bir hissəciyidir. Ona görə həqiqət hər kəsdə vardır. Ancaq, köz oddan uzaq düşəndə sönən kimi, fərdi düşüncə də Loqosa yaxınlaşmasa

həqiqətdən uzaqlaşır. Həqiqətə çatmaq istəyən hər şeyi başqa şeylərlə və dünya ilə bağlılıqda görməlidir. Şeylərin bir-birindən ayrılıqda təsəvvür edilməsi yanlışlıqdır. Əslində çoxluq yoxdur, yalnız birlik vardır və o müxtəlif formalarda özünü göstərir. Buna görə də, kainatda ümumi qanunauyğunluq vardır. Beləliklə, Loqos həm birlik, həm də qanunauyğunluqdur. (8, 245)

Heraklit hesab edirdi ki, insan dünyanı duyğular və düşüncə ilə qavrayır. Ancaq o, duyğulara etibar etməmiş, yalnız həqiqətin tək bir meyarı kimi düşüncəni tanıyırdı. Onun fikrincə yetkin insan duyğulara etibar etməz, bunu cahil adamlar edirlər. Eyni zamanda, hər bir düşüncə də həqiqəti açmır. Bunu yalnız Loqosa uyğunlaşan düşüncə edə bilir. Beləliklə, insan öz təbiətinə görə ağılsızdır. Yalnız öz üzərində işləməklə, düşünməklə, çevrəni (ətrafı) anlamaqla, bilikləri əldə etməklə ağıl sahibi olur. (5, 86)

Müstəqil filosofların ən tanınmışlarından biri olan **Empedokles** (yun. *Ἐμπεδοκλῆς*, təxminən m. ö. 490 – 430) güney İtaliyanın *Aqraqant* şəhərindən idi. Tədqiqatlara görə onun ziddiyyətli şəxs olduğu qeyd edilir. Rəvayətlərə görə o özünü tanrı elan edərək püskürən vulkana atmışdır. Onun ***"Təbiət haqqında"*** və ***"Təmizlənmələr"*** adlı kitablarından zamanımıza bəzi fraqmentlər gəlib çatmışdır. O, Elea fəlsəfi məktəbinin nümayəndəsi olan Parmenides kimi varlığın əbədiliyini və dəyişməzliyini iddia edirdi. Ancaq, Parmenides bütün varlığı tamlıq şəklində görürdüsə, Empedokles növlərin də mövcud olmasını inkar etmirdi. Deməli, onun fikrincə dünyada həm tam, həm də növlər vardır.

Empedoklesə görə hər şeyin əsasında od, hava, su və torpaq durur (2, 368). Hər şey bu ünsürlərin birləşməsindən yaranır. Şeylərin məhv olması isə onların dağılması deməkdir. Dünyanı heç kəs yaratmamışdır, çünki yoxluqdan varlıq yarana bilməz.

Empedokles fəlsəfəsində bir-biri ilə savaşan *Sevgi* və *Nifrət* dualizmi[25] vardır ki (3, 14-15), o da bu ünsürləri hərəkətə gətirir. Öncə Sevgi hökmranlıq edir. O bütün dünyanı birləşdirir, tamlıqda saxlayır. Sonra Nifrət gəlir, o isə hər şeyi parçalayır, ayırır və bunun nəticəsində növlər yaranır. Bu proses də daim təkrarlanmaqdadır. Tədqiqatçılara görə Empedoklesin bu düşüncələri ilə Zərdüştlük arasında bənzərliklər vardır. Belə ki, Zərdüştlükdə də xeyrin substansiyası[26] olan *Hörmüzün* şərin təcəssümü olan *Əhrimənlə* qarşıdurması dünyanın əsasını təşkil edir.

Empedoklesə görə canlılar cansızlardan yaranmışdır. Öncə ayrı-ayrı cansız bədən üzvləri yaranmış, sonra *Sevginin* hakimiyyəti gücləndikcə onlar birləşmiş və beləliklə, canlılar yaranmışdır. Sonra canlılar arasında qarşıdurma olmuş, bunun sonu olaraq ən güclüləri yaşamış, zəiflər isə məhv olmuşdur. Burada isə "*təbii seçim*" nəzəriyyəsinin ilk təzahürləri müşahidə edilir ki, onu XIX əsrdə *Çarlz Darvin* öz bioloji nəzəriyyəsində istifadə etmişdir (7, 50).

---

[25] **Dualizm (**lat. *dualis* – ikili) – istənilən sahənin başlanğıcında bir-birinə zidd olan iki başlanğıcın (substansiyanın) durması haqqında nəzəriyyədir.

[26] **Substansiya** (lat. *substantia* – əsasında duran şey) – mövcudluğu özü-özündən doğan və varlığı başqa şeylərdən asılı olmayan başlanğıcdır.

Bundan başqa Empedokles belə bir fikir irəli sürmüşdür ki, fəzada işığın yayılması üçün ona müəyyən bir vaxt lazımdır. İşığın surəti o qədər böyükdür ki, biz onu duyğu orqanlarımızın sərhədlərini aşdığı üçün izləyə bilmirik. Bu fikirlər isə yalnız müasir dövrdə elmlərin inkişaf etməsindən sonra təsdiq edilmişdir (7, 49-50).

Empedoklesə görə ətraf mühiti qavrama (dərk etmə) prosesi bədənin orqanlarının quruluşundan asılıdır. Onlar qavranılan obyektə uyğun olmalıdır. Bu uyğunluq olarsa ətrafdakı şeylər dərk edilir, uyğunluq olmazsa edilmir.

Antik dövrün müstəqil filosoflarından biri də **Anaksaqoras** (yun. *Ἀναξαγόρας*, təxminən m. ö. 500 – 428) olmuşdur. O, Klazomenai şəhərindən idi. O, Afina hökmdarı *Periklesin* yaxın adamı olmuşdur. Ancaq, sonra onun düşmənləri Anaksaqorası tanrılara inanmamaqda suçlamışdırlar. Səbəbsə bu idi ki, o günəşi tanrı deyil, adi planet hesab edirdi (2, 61). Hətta o, bundan sonra sürgün belə edilmişdi. Ümumiyyətlə, Anaksaqorasın fikrinə görə yunan əsatirlərini hərfi deyil, məcazi mənada başa düşmək lazımdır. Bu məsələdə onun mövqeyi *Ksenofanesl*ə üst-üstə düşmüşdür.

Anaksaqorasa görə yer yastı olaraq hava üzərində durmuşdur. Ulduzlar efirin fırlanması nəticəsində yaranan daşlardır. Günəş *Peloponnesus* yarımadası həcmində böyük bir daşdır (2, 59). Dünyanı idarə edən qüvvə isə *taledir*. O həm də demişdir ki, ağda qaranın, qarada ağın olduğu kimi hər şeydə başqa şeyin əlaməti vardır.

Anaksaqorasın məqsədi yunan fəlsəfəsində hallandırılan dünyanın əbədilik ideyasını gerçək duyğulara uy-

ğunlaşdırmaq idi. Onun fikrincə dünya sonsuz sayda *"toxumlardan"* ibarətdir (2, 59). Onlar sonsuzluğa qədər bölünürlər. Ancaq, bundan başqa o hər hansı bir fövqəl gücün olmasını da zəruri hesab edirdi. Çünki, bu dünyanı hərəkətə gətirən bir güc olmalıdır. Bu gücü isə o, ***"Əql"*** (yun. *Νούς*) adlandırmışdır (1, 386).

Anaksaqorasın kosmoqoniası ondan ibarətdir ki, öncə Əql olmuşdur. Sonra o başqa şeylərlə əlaqəyə girmiş, nəticədə dairəvi hərəkət yaranmışdır. Öncə bir olan varlıq parçalanmışdır. Quru nəmdən, işıq qaranlıqdan, isti isə soyuqdan ayrılmışdır. Beləliklə, iki aləm: *odlu efir* və *hava* yaranmışdır. Sonra qatlaşma prosesi başlamış və bunun nəticəsində buludlar yaranmışdır. Sonra buludlardan su, sudan yer, yerdən daşlar əmələ gəlmişdir (7, 51). Bununla da Anaksaqorasın (eləcə də Empedoklesin) materializmi[27] sonralar Leukippus və Demokritin maddəçi fəlsəfəsi üçün zəmin yaratmışdır.

**Mövzu ilə əlaqəli suallar:**

1. Dialektika nədir və Heraklit onu necə təsəvvür edirdi?
2. Heraklitə görə hansı maddə dünyanın əsasında durur?
3. Heraklitin fəlsəfəsində dünyada hərəkət hansı istiqamətlərdə baş verir?
4. "Loqos" nədir və həqiqətin meyarı nədədir?

---

[27] **Materializm** – maddənin hər şeyin səbəbi və başlanğıcı olduğu haqqında fəlsəfi təsəvvürdür.

5. Empedoklesin fəlsəfəsində ilk ünsürlər hansılardır, o dünya quruluşu və onun hərəkətini necə təsəvvür edirdi?

6. Empedoklesə görə canlı aləm necə yaranmışdır?

7. Anaksaqorasa görə hər şeyin əsasında nə durur?

8. Anaksaqoras dünya quruluşunu necə təsəvvür edirdi?

**Ədəbiyyat:**


1. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor, 1801.

2. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

3. Empedocles. Fragments // Early Greek Philosophy by John Burnet, 3rd edition . London: A & C Black Ltd., 1920.

4. Plato, The Dialogues of Plato. Vol. 1 / Translated by B. Jowett, M. A. Oxford University Press, 1892.

5. Две книги против логиков // Секст Эмпирик. Сочинения. Том. 1. М: Мысль, 1976.

6. Гераклитъ Ефесскій. Фрагменты. М: Мусагетъ, 1910.

7. Краткий очерк истории философии / под редакцией М. Т. Иовчука, Т.Н. Ойземана, И. Я. Щипанова. М.: Мысль, 1975.

8. Маковельский А. О. Досократики. Минск: Харвест, 1999.

## 1.3. Milet məktəbi

Mifoloji və dini dünyagörüşlərindən fərqli olaraq fəlsəfi dünyagörüşü daha çox sağlam düşüncənin, intellektual fəaliyyətin, təhlilin üzərində qurulmuşdur. Belə olduqda xalq arasında yayılmış miflərə, əsatir və rəvayətlərə, sağlam düşüncəyə, məntiqə və həqiqətə uyuşan yorumlar verilmiş və bununla da cəmiyyətdə oturuşmuş ənənələr dəyişkən dünyaya uyğunlaşdırılmışdır.

*Milet fəlsəfi məktəbi* qədim yunan fəlsəfi məktəblərinin ilki olmuşdur. Milet şəhəri (yun. *Μίλητος*) müasir Türkiyənin Qərbində, Ege dənizinin sahilində yerləşirdi. Bu məktəbi təmsil edən filosoflar ilk dəfə dini inanc və əsatirlərdə olan kosmoqonik[28] və kosmoloji baxışlara elmi praktiki yöndən baxmağa başlamışdılar. Onlar üçün bütün bunlar artıq inanc və adətlər deyil, araşdırma obyekti olmuşdur. Məhz ona görə də, miletlilər müasir fizika, astronomiya, meteorologiya, biologiya, coğrafiya və başqa elmlərin təməllərini qoymuşdular.

Milet filosoflarının irəli sürdüyü ilk problem ***ontologiya***[29] olmuşdur. Bu da təbiidir, çünki düşüncə fəaliyyəti birinci növbədə *varlıq* probleminə yönəlir. Ondan isə müxtəlif məsələlər ortaya çıxır. Məhz bu baxımdan, ilk filosoflar *dünyanın yaranması* probleminə önəm vermiş, bununla bağlı anlayışların tərifini və anlamını izah etməyə çalışmışdırlar. Beləliklə, bu filosofların

---

[28] **Kosmoqoniya** – dünyanın yaranması haqqında nəzəriyyələrdir.
[29] **Ontologiya** – varlıq haqqında təlimdir.

fəaliyyətləri nəticəsində mif və onun əsasında formalaşan dinə baxış bucağı dəyişmişdir.

Milet filosofları hesab edirdilər ki, dünyanın və varlığın başlanğıcında müəyyən bir ***ilk maddə*** durur. Onlar, bu ilk maddənin nə olduğu haqqında düşüncələrini də irəli sürmüşdülər. Çünki, ətrafda olan müxtəlifliyə baxmayaraq, dünya bir tamlıq və vahidlik durumundadır. Ona görə də, dünyanın bir başlanğıcı olmalıdır. Ancaq bu filosoflar dünyanın yaradılışı məsələsində yaradıcı Tanrı haqqında heç nə demirdilər. Çünki onlar hesab edirdilər ki, dünyanın əsasında yaradıcı qüvvə deyil, maddi ünsürlər durur. Tanrılar və insanlar isə artıq var olan materiyadan hər şeyi yaradırlar. Məhz bu baxımdan da Milet filosofları ilk maddə haqqında fərqli fikirlər irəli sürmüşdülər. Onu da qeyd etmək lazımdır ki, dünyanın əsasında hansısa maddənin durması haqqında rəvayətlərə Misir və Babil mifologiyasında da rast gəlmək müm-kündür. Ancaq, miletlilər bu kimi mifoloji təsəvvürlərə fəlsəfi baxımdan yanaşmağa başlamışdılar.

Eyni zamanda qeyd olunmalıdır ki. miletlilər dünyanın ***yermərkəzçi*** (geosentrik) quruluşu haqqında qədim təsəvvürlərə fəlsəfi baxımdan yanaşırdılar. Bu baxımdan onlar hesab edirdilər ki, yer kainatın mərkəzində durur. Yerin kainatın mərkəzində durması inancı dünya elmində orta əsrlərin sonlarına qədər hakim olmuşdur. Yalnız *Renessans*[30] dövründə bu inanc şübhə altına alınmış, daha sonra isə iflasa uğramışdır.

---

[30] **Renessans** (fransızca *renaissance* – dirçəlmə) Avropanın inkişafında müstəsna rol oynayan, antik zamanların nailiyyətlərinin dirçəlməsi ilə müşayiət edilən və orta əsrləri əvəz edən bir tarixi dövrdür.

Bundan başqa miletlilər canlı aləmin yaradılışı haqqında ilk elmi nəzəriyyələr irəli sürmüşdülər. Bu nəzəriyyələrdə canlıların ***təkamül*** nəticəsində formalaşması ehtimallarına da rast gəlinir.

Milet fəlsəfi məktəbinin fəaliyyətinə miladdan öncə V yüzillikdə son qoyulmuşdur. O zaman Milet şəhəri Əhəmənilər tərəfindən ələ keçirilmişdir. Buna baxmayaraq onların təlimi başqa yunan şəhərlərinə yayılmış və inkişaf etmişdir.

Milet məktəbinin birinci filosofu **Fales** (yun. *Θαλής*, təxminən m. ö. 640 – 548) olmuşdur. O öz dövrünün ən bilikli adamlarından biri hesab edilirdi. Fales bir çox ölkələrə səfərlər etmiş, öz dünyagörüşünü genişləndirmişdir. Buna görə də o, öz biliklərinin əsasında dünyanın yaranması və quruluşu haqqında düşüncələrini irəli sürə bilmişdir.

Falesin fikrincə, varlıq ***sudan*** yaranmışdır (3, 15). Bu iddiaya qədim Misir miflərində də rast gəlinir. Ona görə də tədqiqatçılar hesab edirlər ki, Fales qədim Mesopotamiya və Misir dünyagörüşü və elmindən geniş istifadə etmişdir.

Falesin fikrincə yer yastıdır və suyun üzərində durur (2, 8), o hər tərəfdən su ilə əhatələnmişdir. Kainatda hər şey suyun buxarlanmasından yaranır. Suyun və ondan yaranan şeylərin həyatverici ruhu vardır, onlar ölü deyildirlər (3, 15). Bunu əsaslandırmaq üçün Fales maqnitin dəmiri özünə doğru çəkməsini örnək kimi göstərirdi (1, 17). Bu fikir sonralar *hilozoizm* (maddi aləmin canlı olması) adlandırılmışdır.

Fales ilk dəfə olaraq ay işığının əslində günəş şüalarının yansıması (əks olunması) olduğunu iddia etmişdir. O həm də, günəşin tutulmasının səbəbi kimi ayın onun qabağına keçməsini göstərmişdir. O, həndəsə elmində "*Fales teoremi*" adlanan qanunauyğunluğu kəşf etmişdir.

Milet məktəbinin ikinci tanınmış filosofu **Anaksimander** (yun. *Ἀναξίμανδρος*, təxminən m. ö. 610 – 547) olmuşdur. O, dünyanın yaranması və quruluşu haqqında fikirlərini "***Təbiət haqqında***" (yun. *Περί φύσεως*) adlı kitabında açıqlamışdır. Bu kitab yunanların ilk elmi kitabı hesab edilir. Ancaq günümüzə onun yalnız bəzi fraqmentləri gəlib çatmışdır.

Anaksimander də öz dönəminin ən bilikli adamlarımdan biri olmuşdur. O ilk dəfə "*qanun*" anlayışını cəmiyyətə deyil, həm də elmə və təbiətə aid etmişdir (6, 15). O, Yunanıstanda ilk dəfə olaraq günəş saatını kəşf etmiş, həm də günümüzə çatmayan dünya xəritəsini çəkmişdir.

Anaksimanderə görə yer kainatın mərkəzində yerləşir, silindr formasındadır və bir sütuna bənzəyir. Onu hər tərəfdən od bürüyür. Hər şey ***"apeiron"*** (yun. *απειρον*) adlanan ilk maddədən yaranmışdır (7, 26). O da özündə bütün varlığın əsaslarını birləşdirir. Bu baxımdan, kainat canlıya bənzər varlıqdır. O yaranır, yaşayır, sonra yenidən yaranmaq üçün məhv olur. Sonda isə hər şey yenidən "apeirona" qayıdır.

Onun fikrincə həyat dənizdən başlamışdır (7, 26). Sonra təkamül nəticəsində bütün canlılar yaranmışdır. İlk olaraq sudan iynə dərili heyvanlar əmələ gəlmiş, sonra onlar lildən çıxaraq iynələrini itirmişdir. İnsan isə çox zəif

olduğundan başqa cür yaranmışdır. O, öncə balıqların içində olmuş, sonra oradan çıxaraq müstəqil həyat sürməyə başlamışdır.

Milet məktəbinin daha bir filosofu **Anaksimenes** (yun. *Ἀναξιμένης*, təxminən m. ö. 528 – 524) idi. O, *"havanı"* ilk ünsür saymış və hər şeyin ondan yaranmasını iddia etmişdir (5, 116). Başqa şeylər isə havanın qatlaşması və seyrəkləşməsindən əmələ gəlmişdir. Onun iddiasına görə, hava seyrəkləşdikcə oda, qatlaşdıqca bərk maddə və mayelərə çevrilir. O həmçinin qeyd etmişdir ki, bunun nəticəsində hər şey müxtəlif formalar alır.

Fales kimi Anaksimenes də yeri yastı şəkildə təsəvvür edirdi (4, 20). O qeyd edirdi ki, yer havada üzür, həm də o həyatverici rol oynayır. Ruhlar havanın nəfəsi və onun əsməsidir. Həm də hava ruhları səmada planetləri saxladığı kimi saxlayır. Anaksimenes planetlərin yerə yaxınlıq məsafəsini də düzgün təyin etmişdir. O deyirdi ki, yerə ən yaxın olan planet aydır, ondan sonra isə günəş gəlir. Ən uzaqda olanlar isə ulduzlardır.

**Mövzu ilə əlaqəli suallar:**

1. Milet məktəbinin filosofları hansı fəlsəfi problemlərə diqqət yetirmişdirlər?
2. Falesin, Anaksimanderin, Anaksimenesin fəlsəfəsində ilk maddələr hansılar idilər?
3. Miletlilər dünyanın yaranması və quruluşunu necə təsəvvür edirdilər?
4. Milet filosoflarının bioloji təkamül haqqında fikirləri necə olmuşdur?

**Ədəbiyyat:**

1. Aristotle. De Anima / Translated by R. D. Higs. Cambridge University Press, 1907.

2. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor, 1801.

3. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

4. Fairbanks A. The First Philosophers of Greece. London: K. Paul, Trench, Trübner, 1898.

5. Guthrie, W.K.C. A History of Greek Philosophy. V. 1. Cambridge: Cambridge University Press, 1962.

6. Park. D. The Grand Contraption. Princeton University Press, 2005.

7. Асмус В.Ф. Античная философия. М.: Высшая школа, 1976.

## 1.4. Elea məktəbi

Miladdan öncə VI və V yüzilliklərdə güney İtaliyanın **Elea** (yun. *Ἐλέα*, lat. *Velia)* şəhəri qədim dünyanın mədəni və elmi mərkəzlərindən birinə çevrilmişdir. Bu şəhərdə fəlsəfi fikir də inkişaf etmişdir. Elea filosofları varlıq haqqında düşünmüş, onun nə olduğunu bilmək istəmişdilər. Bu problemi çözərkən onlar məntiqi düşüncənin real duyğularla ziddiyyətdə olması ehtimalını irəli sürmüşdürlər. Elealılar həm də bütün dünyanın

vahidliyini iddia etmişdilər. Eyni zamanda, Elea filosofları yunan dininin bir çox aspektlərinin tənqidçiləri kimi də tanınmışdılar.

M. ö. VI – V yüzillikdə yaşamış **Ksenofanes** (yun. *Ξενοφάνης*) Elea məktəbinin ilk filosofu hesab edilir. O, indiki Türkiyənin Qərbində yerləşən Kolofon (yun. *Κολοφών*) şəhərindən idi. Sonra Cənubi İtaliyaya səfərlər etmiş və sonradan Eleaya köçmüşdür.

Ksenofanes çoxtanrılı yunan panteonunu şiddətli tənqid etmişdir. O hesab edirdi ki, *Olimpus* dağında yaşayan yunan tanrıları əslində şairlərin uydurduqları və xalq təxəyyülündə formalaşan mifik obrazlardan başqa bir şey deyildir. Ksenofanesə görə insanlar özlərinə bənzər tanrılar yaratmışdılar. Bu baxımdan hər bir xalqın tanrılar haqqındakı təsəvvürləri məhz öz dünyagörüşləri əsasında formalaşmışdır. Yenə Ksenofanesə görə əgər öküzlər, atlar və başqa heyvanların düşüncəsi olsaydı, onlar tanrılarını elə özlərinə bənzər təsvir edərdilər (2, 67).

Tanrıların təbiəti və başqa xüsusiyyətləri haqqında doğru biliyi əldə etmək olmaz, bu barədə ancaq ehtimal edilə bilər. Buna görə də, Ksenofanes qədim yunan şairləri *Hesiodos* və *Homeri* tanrılara insan xüsusiyyətlərini aid etməkdə günahlandırmışdır[31] (1, 283).

Eyni zamanda, Ksenofanes ateist də olmamışdır. O, dini və tanrını özünəməxsus tərzdə təsəvvür edirdi. Onun fikrincə yunan toplumunda olan baxışlar ibtidai səviyyədə

---

[31] Tanrını insan görkəmdə və ya hansısa keyfiyyətlərdə insana bənzər şəkildə təsəvvür etmə *"**antropomorfizm**"* (yun. *Ανθρωπος*-insan + *μορφή*-görkəm) adlanır.

olmuşdur. Buna görə də Ksenofanes yunanların dini dünyagörüşləri ilə razılaşmayaraq öz fikirlərini açıqlamışdır. Onun fikrincə Tanrı bir və bölünməzdir; eyni zamanda, o dünyadan ayrı bir şey də deyildir (2, 67). Beləliklə, Ksenofanes Tanrını dünya ilə eyniləşdirmiş, onu təbiətdən ayırmamışdır[32]. Buna görə də, dünya yaradılmamış, həmişə var olmuş və hər zaman da olacaqdır. Bu baxımdan Ksenofanes panteizmin əsasını qoyan filosoflardan biri olmuşdur. O güman edirdi ki, dünya əbədi, məhv olunmaz və vahiddir. Ona görə vahidlik elə Tanrının özüdür.

Ksenofanes ay, günəş və ulduzları tanrılaşdırmamış, onları fiziki cisimlər kimi təsəvvür etmişdir. Onun fikrincə dünyaların sayı sonsuzdur. Yağışlar isə yerdən günəş şüalarının təsiri altında baş verən buxarlanmanın nəticəsidir (1, 383). Buxar göyə qalxır və yenidən su olub yerə yağır. Onun fikrincə insanlar və başqa canlılar su və torpağın qarışığından yaranmışdırlar[33] (1, 383).

**Parmenides** (yun. *Παρμενίδης*, təxminən m. ö. 540 – 470) də ən tanınmış Elea filosoflarından idi. Ksenofanesin öyrəncisi olmuşdur. O, ***"Təbiət haqqında"*** adlı kitabın yazarı hesab edilir. Ancaq bu kitabın özü deyil, onun bəzi fraqmentləri dövrümüzə gəlib çatmışdır. Parmenidesin fəlsəfəsi Heraklitin dünyagörüşünə qarşı yönəlmişdir. Onun fikrincə dünya və bütün varlıq heç bir boşluqları

---

[32] Bu kimi təsəvvürləri "***panteizm***" (yun. Παν-hər şey + θεός-tanrı) adlandırırlar.

[33] Qədim Misir dinində də insanları qoyunbaşlı tanrı Hnum torpaqdan (gildən) yaratmışdır. İnsanın torpaqdan yaradılması haqqında rəvayətlər Yəhudilik, Xristianlıq və İslamda da vardır.

olmayan tam ***hərəkətsiz kürədən*** ibarətdir (3, 286-298). Beləliklə, Parmenides ilk dəfə yerin kürə olması fikrini irəli sürən düşünürlərdən biri olmuşdur.

Bu kimi iddialar ondan irəli gəlmişdir ki, Parmenidesin fəlsəfəsində varlıq və yoxluq problemi kəskin olaraq qoyulmuşdur. Onun fikrincə var olan şey yoxluqdan yarana bilməz. Deməli, var olan şeylər hər zaman mövcuddur. Əks təqdirdə belə çıxır ki, onlar nə vaxtsa olmamışlar. Bu isə imkansızdır. Çünki *yoxdan nəsə var ola bilməz*. Həmçinin, heç bir şey məhv də ola bilməz. Ona görə ki, bu halda o yenə də yox olmalıdır. Deməli, var olan şeylər hər zaman olacaqdır.

Hər bir şey əbədi və sonsuzdur. O formasını dəyişə, bir haldan başqasına keçə bilər, ancaq məzmunca hər zaman var olmaqdadır. Beləliklə, Parmenidesə görə gerçək olan yalnız varlıqdır, yoxluq isə yoxdur və onun haqqında düşünülməz (3, 286-298). Yoxluq olmadığına görə yaradılış və məhv olma prosesləri də ola bilməz. Belə deyilsə, onda yoxluq anlayışı ortaya çıxır. Bu isə mümkün deyildir. Yoxluğun mümkün olmamağına görə varlıq hərəkətsizdir və birdir. Hərəkət olsa onda deməli o məhvə doğru getməlidir, bu isə var olan bir şeyi yoxluğa gətirib çıxarar. Ona görə də, hərəkət ola bilməz.

Varlıq vahiddir, hərəkətsizdir və sükunətdədir. Çünki, o hissələrdən ibarət olarsa, onlar bir-birindən ayrıla bilər. Bu isə varlığın məhv olmasına gətirərdi. Həm də varlıqda boşluqlar da yoxdur, çünki olsaydı şeylər hərəkət edərdilər.

Bununla belə, insan hər şeyin dəyişkənliyini və hərəkətdə olmasını görür. Beləliklə, burada duyğularla düşüncələrin qarşıdurması baş verir (3, 286-298). Belə olan halda isə düşüncələrə üstünlük verilməlidir, çünki *"düşünmək və var olmaq eyni şeydir"* (3, 286-298). Beləliklə, Parmenides insanları öz duyğularına inanmamağa çağırmışdır və buna görə də tənqidlərə məruz qalmışdır. Onun fəlsəfəsində həqiqət *idealizmlə* əvəz olunur ki, bunu da sonra Platon inkişaf etdirmişdir.

Parmenidesin təsəvvürlərində dünyanın mərkəzində sevgi tanrıcası *Afrodita* durur və varlığı idarə edir. O, ruhları görünən və görünməyən dünyalarda yerləşdirmişdir. Hər şey kişi və qadın başlanğıcların (substansiyaların) qovuşmasından yaranır, (3, 286-298).

Parmenidesin öyrəncisi **Zenon** (yun. *Ζήνων*, m. ö. 490 – 430) isə müəllimini şiddətli tənqidlərdən qurtarmaq üçün bir sıra yeni ideyalarla çıxış etmişdir. Zenonun tərəfindən bir neçə paradoksal müddəa irəli sürülmüşdür. Onları ***"aporiyalar"*** (yun. *ἀπορία*) adlandırırlar[34]. Filosof onların vasitəsi ilə varlığın tam, boşluqsuz, vahid və hərəkətsiz olduğunu sübuta yetirməyə çalışmışdır. Zenonun aporiyaları haqqında *Apistotel* "Fizika" əsərində xəbər vermiş, onu *dialektikanın* yaradıcısı hesab etmişdir.

***"Dixotomiya"*** (yun. *διχοτομία* – ikiyə bölünmə) adlı aporiyasında Zenon iddia edir ki, hər bir məsafəni keçmək üçün öncə onun yarısı, sonra yarısının yarısı, daha sonra o yarının yarısı və s. keçilməlidir (4, 199). Bu keçidlər

---

[34] **Aporiyalar** (ya da paradokslar) – həll olunmayan ziddiyyətlərdir.

sonsuzluğa qədər davam edəcəkdir. Sonsuzluğu isə keçmək mümkün deyildir.

Məhz bu fikirdən çıxış edərək Zenon ***"Axilles və tısbağa"*** adlı aporiyasında sübut edir ki, yunan əsatirlərinin tanınmış qəhrəmanı *Axilles* nə qədər surətlə qaçsa da, tısbağanı ötə bilməz (4, 199). Çünki Axilles məsafəni qısaltdıqca bu məsafə sonsuz hissələrə bölünəcək və onların hamısını keçmək lazım olacaqdır. O da onları keçmək üçün hərəkət edərkən tısbağa bir addım qabağa irəliləyəcək və nəticədə Axilles tısbağaya çata bilməyəcəkdir.

***"Ox"*** adlı aporiyada isə Zenon sübut edir ki, buraxılan ox əslində hərəkət etmir və sükunətdədir (4, 183-184). O yenə də zamanı sonsuz anlara, fəzanı isə sonsuz hissələrə bölür. Beləliklə, hər an atılan ox bəlli olan bir yer tutur. Bu yer onun uzunluğuna bərabərdir. Bu isə o deməkdir ki, ox sükunətdədir, çünki hərəkət ehtimal edilsə də, onda belə çıxır ki, ox həmin an fəzada özündən daha da çox yer tutur, bu isə mümkün deyildir. Deməli, hərəkət əslində yoxdur və o sükunətlərin cəmidir. Beləliklə, hərəkət anlayışının olduğu ehtimal edilərsə, o zaman mütləq ziddiyyətlər yaranacaqdır[35].

Elea məktəbinin daha bir tanınmış filosofu **Melissus**[36] (yun. *Μέλισσος,* təxminən m. ö. 485 – 425)

---

[35] Bu aporiyanın müddəalarını çağdaş dönəmdə animasiyalarda görmək mümkündür. Orada hərəkət edən şeylər əslində sükunətdə olan şəkillərin cəmidir.

[36] Burada və bir çox başqa yerlərdə filosofların adları Azərbaycan dilində latın səslənməsində verilmişdir. Bunun da səbəbi odur ki, dünya elmində (özəlliklə də ingilis, fransız, alman, ispan və s. ədəbiyyatında) onların adlarını

olmuşdur. O da başqa eleaçılar kimi varlığı bir tamlıq kimi təsəvvür edərək hərəkətin varlığını və boşluqların mövcud olmasını inkar edirdi. Melissusa görə varlıq elə kainatdır və o zaman içində sonsuzdur (4, 62). Deməli, sonsuzluq təkcə zamana deyil, həm də fəzaya aid edilir. Ehtimal olunur ki, Melissus ilk dəfə kainatın sonsuzluğu fikrini ortaya atmışdır. Həmçinin o qeyd etmişdir ki, tanrılar haqqında fikir yürütmək mümkün deyildir, çünki onlar dərk edilməzdir (1, 386).

**Mövzu ilə əlaqəli suallar:**

1. Ksenofanesin yunan dini və tanrıları haqqında fikirləri necə olmuşdur?
2. O tanrını necə təsəvvür edirdi?
3. Parmenides varlığı necə təsəvvür edirdi?
4. Hansı dəlillərə əsaslanaraq Parmedides hərəkətin olmasını inkar edirdi?
5. Zenonun aporiyalarının yaranma səbəbi nə olmuşdur, orada o hansı müddəalarla çıxış etmişdir?
6. "Dixotomiya", "Axilles və tısbağa", "Ox" adlı aporiyaların məzmunu və məntiqi nədən ibarətdir?
7. Melissusun fəlsəfəsinin əsas müddəaları hansılardır?

---

bu səslənmədə tanıyırlar. Bununla belə, onların yunanca orijinal adları və ehtiyac olanda rusca səslənmələri də göstərilmişdir.

**Ədəbiyyat:**

1. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

2. Xenophanes. Fragments and Commentary // The First Philosophers of Greece. London: K. Paul, Trench, Trubner, 1898.

3. Парменид. Фрагменты. О природе. // Фрагменты ранних греческих философов / Составитель Лебедев А.В. Ч. 1. М.: Наука, 1989.

4. Физика // Аристотель. Сочинения в четырех томах / Том 3. Перевод В. П. Карпова: М. Мысль, 1981.

## 1.5. Pifaqorçular məktəbi

**Samoslu Pifaqor**[37] (yun. *Πυθαγόρας ὁ Σάμιος*, lat. *Pythagoras*, təxminən m. ö. 570 – 490) Samos şəhərində dünyaya gəlmişdir. Sonra isə Cənubi İtaliyanın *Krotona* şəhərinə köçmüşdür. O, dövrünün ən bilikli adamlarından biri olmuş, bir çox elmi nəzəriyyələrin yaradıcısı idi. Onun ən məşhur elmi kəşfi *"Pifaqor teoremi"* adlanan düzbucaqlı üçbucağın hipotenuz ilə katetlərinin nisbəti qanunudur (2, 342-343). Cüt və tək ədədli rəqəmlər haqqında riyaziyyat təlimini, rəqəmlərin həndəsi anlamı nəzəriyyəsini də Pifaqor kəşf etmişdir. O, həm də *"kosmos"* anlayışını

[37] Rusca səslənmədə verilmişdir. Başqa dillərdə onun adı *Pithaqoras*, *Pisaqor* və *Pitaqor* kimi səslənir.

müasir anlamda, bütün dünyanı əhatə edən sonsuzluq mənasında işlətmiş, onun ahəngini və qanunauyğunluqlarını göstərməyə çalışmışdır.

Pifaqor haqqında bütün bilgilər onun ardıcılları tərəfindən vermişdir. Bir çox araşdırmaçılar hesab edirlər ki, onun öz əsərləri olmamışdır. Ancaq, antik tarixçi Diogenes Laertius yazmışdır ki, o ***"Tərbiə haqqında"***, ***"Dövlət haqqında"*** və ***"Təbiət haqqında"*** adlı dövrümüzə gəlib çatmayan kitabların müəllifi olmuşdur (2, 340-341). Pifaqorun elmi bilgiləri qədim Babil və Misir kahinlərindən alması haqqında rəvayətlər də vardır (3, 9).

Daha sonra Pifaqor Krotonada **"Pifaqorçular ittifaqı"** adlı dini-fəlsəfi cəmiyyət yaratmış və ona başçılıq etmişdir. Orada tərbiyə edilən gənclər bilikləri ilə seçilmiş və onlar gələcəkdə yüksək vəzifələr tutmaq üçün hazırlanırdı. Bu birliyin fəaliyyətinin bir çox məqamları həmçinin gizli saxlanılmış, onun barəsində məlumatlar cəmiyyətə açıqlanmırdı. Yeni üzvlər "Pifaqorçular ittifaqına" yalnız müəyyən edilmiş sınaqları keçdikdən sonra girə bilərdilər (3, 37).

Ancaq bir sürə sonra Krotonada siyasi durum gərginləşmiş, şəhər sakinləri pifaqorçuların gizliliyindən ehtiyat edərək onları təqib etməyə başlamışdılar. Bu təqiblər zamanı pifaqorçuların mərkəzi dağıdılmış, onlardan bir çoxları öldürülmüşdür. Pifaqorun da o hadisələrdə öldürüldüyü güman edilir. Ancaq başqa xəbərlərə görə o, baş vermiş hadisələrdən üzülərək özünü aclığa məruz qoyaraq ölmüşdür. Sağ qalan pifaqorçular isə şəhərdən qaçaraq antik dünyanın müxtəlif bölgələrində məskunlaşmış

və fəaliyyətlərini davam etdirmişdirlər. Zaman keçdikcə pifaqorçuluq platonçuların təlimi ilə qarışmışdır. Yalnız Roma imperiyası dönəmində "yeni pifaqorçular" cərəyanı meydana gəlmiş, müəyyən bir müddət ərzində fəaliyyət göstərmişdir.

Pifaqorun ideyaları bir çox məqamlarda *mistikaya*[38] yaxın idi. Ona görə də, sonralar onun məktəbinin ənənələrini *yeni-platonçu* filosoflar davam etdirmişdilər. Pifaqor bir sıra mənəvi və əxlaqi prinsiplər də irəli sürmüşdür. Onun təliminə görə insanlar yetkinliyə doğru inkişaf etməlidir. Buna da yalnız gözəlliyə, eləcə də faydalı şeylərə yönəlməklə çatmaq mümkündür. Məhz, pifaqorçular Yunanıstanda ilk dəfə *"Kamil insan"* ideyasını irəli sürmüşdülər. Bu da sonralar başqa dinlərdə və fəlsəfi təlimlərdə təkrarlanmışdır. Pifaqora görə kosmosun gözəlliyi yalnız mənəvi cəhətdən yetkin və intizamlı insan üçün açılır. Həyatın mənası da kosmosun ahənginin insan həyatında əks olunmasıdır.

Pifaqor həm də ruhların bir bədəndən başqasına köçməsinə (*reinkarnasiyasına*) inanırdı (3, 30). Onun fikrincə, hər şey müəyyən vaxtdan sonra dünyaya yenidən gəlir və əslində yeni olan heç nə yoxdur. Ruh günahların ağırlığına görə bədəndə qalmağa məhkumdur. Məqsəd də onu bədəndən azad etməkdir. Buna görə də, mənəvi həyat yaşamaq üçün ət və paxla kimi bəzi yeyəcəklərdən çə-

---

[38] **Mistika** (yun. *μυστικός* – gizli) – insanın bağlı olduğu və ünsiyyət qura biləcəyi təbiətüstü qüvvələrin olmasına inanc; tanrı və başqa təbiətüstü güclərə qovuşmaq məqsədi güdən dini-mənəvi təcrübədir. Bu kimi təcrübələri əsaslandıran təlimlər *"mistisizm"* adlanır.

kinmək lazımdır (2, 351-352). Burada isə qeyd etmək lazımdır ki, Pifaqorun bu kimi yanaşması ilə hind dünyagörüşü arasında bənzərliklər vardır.

Pifaqor və onun ardıcılları hakimiyyət məsələlərinə də diqqət yetirirdilər. Onların fikrincə cəmiyyət hakimiyyətsiz yaşaya bilməz. Bu baxımdan da ən yüksək hakimiyyət tanrılara məxsusdur. Onlara hamı ibadət etməlidir. Tanrılardan sonra hökmdarlar, hörmətli insanlar, valideynlər və ən sonda qanunun aliliyi gəlir. Beləliklə, hakimiyyət *iyerarxik*[39] sistemlə qurulmalıdır.

Pifaqor məktəbinin təliminə görə biliyin mənbəyi vardır. Bunu da "*matemata*" adlandırırlar. Onun hikmətini isə yalnız yüksək məqama çatmış müdriklər bilir. Onlar bu biliyi özləri bildikləri kimi öyrəncilərinə ötürürdülər. Öyrəncilər də bu bilikləri sual vermədən dəlilsiz qəbul etməli idilər. Buna da "*akusmata*" deyirdilər (3, 13). Bu prinsiplər sonralar dinlərin, mistik təriqətlərin, mənəvi qardaşlıqların qaydalarında təkrarlanmışdır.

Pifaqorun və onun ardıcıllarının ***kosmoqonik*** baxışlarına görə, hər şey 4 ünsür: *od, su, yer* və *havadan* yaranmışdır. Yer isə kürə şəklindədir (2, 348). O sonsuz və əbədi boşluqdan yaranıb, o boşluqla nəfəs alır. Bunun nəticəsi olaraq dünya genişlənir və daralır. Bu səbəbdən məkan, zaman, göy cisimləri və onların hərəkəti yaranır. Dünyanın mərkəzində od, baş tanrı Zeusun məbədi və təbiətin qanunu ("*fatum*" və ya "*loqos*") durur. Sonra isə

---

[39] **İyerarxia** (yun. *ἱεραρχία* – müqəddəs hakimiyyət) – hansısa bir silsilə sistemdə hər bir üzvün özündən öncə gələnə tabe olmasıdır.

oddan yaranmış və onun ətrafında fırlanan yer, planetlər və ulduzlar gəlir.

Beləliklə, Pifaqorun ardıcılları yeri kürə şəklində təsəvvür etmiş və onu dünyanın mərkəzində yerləşdirmişdirlər. Bu baxışlar isə orta əsrlərin sonuna qədər dünya elmi və fəlsəfəsində qüvvədə olmuşdur. Ancaq sonra ***Nikolay Kopernik*** (XVI yüzillik) yer kürəsinin dünyanın mərkəzində olmasını inancını şübhə altına almışdır. Sonralar isə inkişaf edən elm sübut etmişdir ki, yer dünyanın mərkəzində yerləşmir.

Pifaqorun çox maraqlı *rəqəmlər fəlsəfəsi* olmuşdur. O hesab edirdi ki, dünya və çevrəmizdə olan şeylər heç də bizim gördüyümüz və duyduğumuz kimi deyildir. Onlar duyğularımızla yox, düşüncəmizlə qavranıla və anlaşıla bilər. Hər şeyin arxasında bir birlik durur. Əlbəttə dağ dağdır, insan insandır, daş daşdır. Ancaq, bu kimi müxtəlifliyin bir başlanğıcı, birləşdirici nöqtəsi vardır. Bu da rəqəmlərdir. Onlar hər şeyin pərdə arxası və başlanğıcıdır, çünki istənilən şeyi rəqəmlə göstərmək mümkündür, hər şeyin rəqəmlə ölçülən ölçüsü vardır. Məsələn, suyun miqdarını litrlə, ağırlığın çəkisini kiloqramla, bitkilərin sayını ədədlə göstərmək olar. Deməli, rəqəmlər hər şeyin əsasında durur.

Beləliklə, dövrünün başqa filosoflarından fərqli olaraq Pifaqor hər şeyin ilkin səbəbini maddədə deyil, dərk olunmayan şeylərdə axtarırdı. Sonralar bu fikri ***Platon*** daha da inkişaf etdirərək *ideyalar* haqqında təlimlə çıxış

etmişdir. Bu baxımdan Pifaqoru *fəlsəfi idealizmin*[40] yaradıcısı hesab etmək olar. Ancaq onu da qeyd etmək lazımdır ki, bu kimi fikirlər ondan öncə Misir və Babil kahinlərinin arasında da yayılmışdır. Ehtimal olunur ki, Pifaqor mistikanı məhz onlardan öyrənmişdir.

Eyni zamanda, rəqəmlər həndəsi mənada da anlaşılırdı. Nöqtə ***Bir*** rəqəmini ifadə edirdi. Bu rəqəm isə hər şeyin başlanğıcı və əsası hesab edilirdi. Pifaqor üçün Bir rəqəmi həm də Tanrıdır. Başqa şeylər isə müxtəlif rəqəmlərin cəmidir. Belə ki, iki nöqtədən düz xətt alınır, üç nöqtə isə artıq düz müstəvidir. Dörd nöqtə isə fəzadır. Bu rəqəm *dörd ünsür* olan od, yer, su və havanın təməlində durur ki, bu da hər şeyin başlanğıcında duran səbəbdir.

Həmçinin, bu nöqtələrdən üçbucaq, dördbucaq və s. fiqurlar yaranır. Üçbucaq dünyaya gəlmənin və hər şeyin yaradılmasının səbəbidir. Dördbucaq Tanrı təbiətinin təcəssümüdür. Pifaqorun ardıcıllarının rəmzi isə *pentaqram* (yun. *πεντάγραμμον* – beş guşəli ulduz) olmuşdur. Bu gizli rəmz vasitəsi ilə onlar bir-birini tanıyırdılar.

Pifaqorun ardıcıllarının müqəddəs rəqəmi 36 idi (4, 69). Çünki, 36 rəqəmi 1+2+3 kombinasiyasından yaranır. ***Bir*** dünyanın birliyinin rəmzidir. Hər şey ondan başlayır deyə, o *Tanrı* ilə eynilik təşkil edir. ***İki*** hər şeyin xeyir-şər, işıq-qaranlıq kimi dualistik göstəricisidir. ***Üç*** isə kamil rəqəmdir. Çünki onda *başlanğıc, orta* və *son* vardır. Həm də 36 rəqəmində elə sirlər var ki, onlar başqa rəqəmlərdə yoxdur (örnək: 1+2+3+4+5+6+7+8=36).

[40] **İdealizm** – hər şeyin əsasında ideyanın durduğu haqqında fəlsəfi təsəvvürdür.

Beləliklə, rəqəmlər Pifaqor məktəbində universal obyektlərdir. Onlar təkcə riyazi deyil, həm də həqiqətin çoxluğunun göstəricisidir. Onlara görə hər şeyin, o cümlədən mənəvi məsələlərin də riyazi mahiyyəti vardır.

**Krotonalı Filolaus** (yun. *Φιλόλαος*, m. ö. V yüzilliyin ikinci yarısı) Pifaqorun ən tanınmış öyrəncilərindən biri olmuşdur, onun təlimini kitablarda açıqlayan ilk filosoflardan biri sayılır (3, 104). Ondan öncə bu qardaşlığın təlimi gizli saxlanılırdı. Filolaus ***"Təbiət haqqında"*** adlanan və zamanımıza yalnız bəzi fraqmentlərdə çatan kitabın müəllifi olmuşdur. Orada o, kosmoloji və riyazi mövzulara toxunmuş, eləcə də ruhla bağlı fikirləri ortaya qoymuşdur.

Aristotel "***Göy haqqında***" (6, 438) əsərində yazırdı ki, Filolaus yeri hansısa mərkəzin ətrafında fırlanan bir kürə kimi təsəvvür edirdi. O mərkəz isə Hestia tanrıcası ilə təcəssüm olunan *Əbədi Oddur*. O heç zaman sönmür, dünyanı işıqlandırır. Onun ətrafında isə yer, günəş, ay və o zamanlar məlum olan daha beş planet fırlanır. Bunlardan başqa Əbədi Odun ətrafında daha bir planet də fırlanır ki, bu da bizim yerimizə qarşı duran *Antixton*dur (yun. *Ἀντίχθων*). Planetlər öz oxu ətrafında fırlanmır, ona görə də onların yalnız bir tərəfi Əbədi Oddan işıqlanır. Ancaq onlar onun ətrafında fırlandığına görə gecələr gündüzlə əvəz olunur. Filolausa görə günəş isə Əbədi Odun işığını güzgü kimi əks etdirir, onun özü istilik mənbəyi deyil. O başqa planetlərdə həyatın olmasını da istisna etmirdi.

Filolausun dünya quruluşu haqqında fikirləri müasir təsəvvürlərdən fərqli, bir çox durumlarda isə fantastik

olsa da, o ilk dəfə olaraq yerin kainatın mərkəzində durmaması və hansısa başqa "odlu" fələyin ətrafında fırlanmasını iddia etmişdir. Bu fikir sonralar Samoslu Aristarxus, daha sonra isə Nikolay Kopernik tərəfindən inkişaf etdirilmiş, *heliosentrik* sistem adlandırılmışdır (5, 553 və 562).

Empedokles kimi Filolaus da hesab edirdi ki, dünyanın əsasında 4 ünsür durur, ancaq bunlara beşinci olan *efiri* də əlavə etmişdir (9). Onun fikrincə kosmos efirdən ibarətdir.

Bütün təbiət ziddiyyətlərin vəhdəti üzərində yaranmışdır. Buna ən bariz örnək insandır. O bədən və ruh ziddiyyətlərinin birliyidir. Bu vəhdət qırıldıqda fəsadlar baş verir, insan xəstələnir. Ona görə də, hər şeydə ölçüyə riayət etmək lazımdır. Yeməkdə, davranışda, müəyyən bir insan üçün uyğun olan mühitdə ölçünü aşmaq olmaz (9). Ümumiyyətlə isə insanın bədəni onun ruhunun zindanıdır. Ruh ondan azad olmaq istəyir.

Başqa pifaqorçular kimi Filolaus da dünyada olan hər şeyin rəqəmlərdə təcəssüm edildiyini iddia edirdi. Rəqəm idrakın əsasıdır, onsuz heç nə bilinməz. Ən yetkin rəqəm isə 10-dur (8, 322-323). O bölünən və bölünməyən başqa rəqəmləri özündə ehtiva edir, çünki ikini beşə vuranda on alınır. O ilk rəqəmdir ki, onda böyüklük, kiçiklik və bərabərlik vardır.

Tanınmış pifaqorçulardan biri Filolausun öyrəncisi **Tarentli Arxitas** (yun. *Ἀρχύτας ὁ Ταραντῖνος*, m. ö. 428 – 347) olmuşdur. O, siyasətlə məşğul olmuş və yüksək hərbi vəzifələrdə çalışmışdır. Arxitas Cənubi İtaliyaya gələn

Platonu Siciliya hökmdarı II Dionusiusun qəzəbindən qoruya bilmişdir (2, 369). Bundan sonra Platon onun yaxın dostu olmuşdur. Onun zamanımıza yalnız fraqmentlərlə çatan ***"Riyazi elmlər"*** və ***"Söhbətlər"*** əsəri bilinməkdədir.

Arxitasın fəlsəfi fikirləri haqqında zamanımıza çox az bilgi çatmışdır. Məlumdur ki, o kainatın sonsuz olmasını iddia edirdi. Arxitas əsasən həndəsə elmində böyük uğurlar qazanmış, bir necə qanunlar kəşf etmiş, ilk dəfə mexanizmlərin həndəsi rəsmini vermişdir (2, 369-370).

Daha bir tanınmış pifaqorçu **Metapontumlu Hippasus** (yun. *Ἵππασος ὁ Μεταποντῖνος,* m. ö. V – IV yüzilliklər) olmuşdur. O Pifaqorun öyrəncisi olmuş, ancaq sonra ona qarşı çıxış etmişdir. Hippasus ilk dəfə olaraq öncə gizli saxlanılan pifaqorçular təlimini cəmiyyətdə açıqlamış və bununla da ixtilaflara yol açmışdır (3, 42).

Hippasus da əsasən həndəsi və riyazi problemlərlə məşğul olmuş və bu sahədə ixtiralar etmişdir. Onun fəlsəfi fikirləri haqqında isə bilgilər çox azdır. Heraklit kimi o da hesab edirdi ki, hər şeyin başlanğıcında od durur (1, 9). Bu fikirlər odu dünyanın mərkəzinə qoyan Filolausun dünyagörüşü ilə eynilik təşkil edirdi. Həm də Hippasus kainatı bir canlı orqanizm kimi təsəvvür etmiş, var olan şeyləri onun hissəcikləri olaraq qəbul etmişdir. Başqa pifaqorçular isə hər şeyi nəm-quru, isti-söyuq kimi bir-biri ilə mübarizə aparan ikiliklərdə görürdülər. Hippasus həm də kainatın sonlu olduğunu iddia etmişdir (2, 371).

**Krotonalı Alkmeon** (yun. *Ἀλκμαίων ο Κροτωνιάτης,* təxminən m. ö. V – IV yüzilliklər) ilk yunan filosoflarından

biri idi. O eyni zamanda alim və təbib olmuşdur. O, həmçinin zamanımıza çatmayan ***"Təbiət haqqında"*** kitabın müəllifi kimi bilinməkdədir. Zoologiya, botanika və anatomiya elmləri üzrə araşdırmalar aparmış və özəl fikirlərlə çıxış etmişdir. Zamanının başqa filosoflarından fərqli olaraq Alkmeon dünyanın yaranması və quruluşu haqqında fikirlərə önəm verməmişdir.

Alkmeon beyinə gedən göz sinirlərini araşdırarkən belə nəticəyə gəlmişdir ki, görmək, eşitmək, hiss etmək kimi duyğular göz, qulaq, dəri kimi orqanlardan özəl kanallar vasitəsi ilə beyinə ötürülür. Orada onlar "emal" olunur və düşüncə yaranır. Beləliklə, beyin düşüncənin və idrakın mərkəzidir. Antik botanik Teofrastus "***Duyğular haqqında***" kitabında yazmışdır ki, bununla Alkmeon düşüncə ilə duyğu anlayışlarını bir-birindən ayırmışdır. Onların hər ikisi insandadır; heyvanlarda isə yalnız duyğusallıq vardır (6, 268). Burada o *duyğusallığa* (empirizmə) üstünlük verərək deyirdi ki, hər şeydən öncə duyğu gəlir, onsuz dünya qavranılmaz.

Alkmeon ibtidai embrioloji fikirlərlə də çıxış etmişdir. Onun fikrincə, embrion (döl) kişi və qadın toxumlarının birləşməsindən yaranır. Bu birləşmədə kişi toxumu çoxluqda olanda oğlan, qadın toxumu çoxluqda olanda isə qız doğulur. Ana bətnində ilk olaraq baş yaranır. Qidanı isə embrion hansısa orqanı ilə deyil, bütün cismi ilə anadan alır.

Ümumiyyətlə, döl haqqında antik həkimlər çoxlu araşdırmalar aparmışdırlar. Miladi III yüzillikdə yazılan ***"Arifmetik ilahiyyat"*** kitabında dölün ana bətnində

inkişaf etməsindən maraqlı məlumatlar verilir. Orada qeyd edilir ki, yaranmasının yeddinci günündə döl su kisəsinə bənzər görkəmdə olur. O qabığı olmayan yumurtaya bənzərdir. İkinci həftə ərzində o kisədə qan əlamətləri görsənir. Üçüncü həftədə maye əmələ gəlir və dördüncü həftədə qatlaşır. Qatlaşandan sonra laxtalanmış qan və ət qarışığı əmələ gəlir. Bu inkişaf 28-ci günə yaxın tamamlanır və artıq bəlli olan canlı yaranır. 35-ci gündə onun ortasında arıya bənzər arıq bir döl yaranır. Artıq onun başı, boynu, bədəni və ayaqları da olur[41]. (8, 322-323)

Alkmeon həm də insanın yetkinliyə çatmasını bitkilərdə gedən proseslərlə müqayisə edirdi. Belə ki, toxum atmaqdan öncə bitkilər gül açır. Eləcə də, yetkinlik çağı gəlməmişdən öncə insanın cinsi orqanlarının ətrafında tüklər böyüyür.

Alkmeona görə, insan sağlamlığı onun içində olan isti-soyuq, quru-nəm, şirin-acı kimi bir-birinə qarşı duran qüvvələrin bərabərliyidir. Bunu o *"izonomiya"* adlandırmışdır. Bu qüvvələrdən hansısa biri başqalarına üstün gəlirsə, onda xəstəlik başlanır. Bunu da Alkmeon dövlət və cəmiyyətin qanunları ilə müqayisədə görürdü. Toplumda da qüvvələr nisbəti bərabər paylaşanda stabillik olur. Bu müvazinət pozulduqda isə qarışıqlıq yaranır. Müvazinətin pozulmasını, eləcə də bir qüvvənin başqalarını üstələməsini Alkmeon dövlət quruluşu ilə müqayisə edərək "monarxiya" (krallıq) adlandırmışdır. (7, 378)

---

[41] Quran ayələrində (23: 12-14) də dölün yaranması və inkişafı haqqında bu kimi antik baxışlara bənzər bilgilər vardır.

Alkmeon insanı mikrokosm[42] kimi dəyərləndirmiş və onu kosmosun hissələri olan cisimlərlə müqayisə edirdi. Belə ki, ölməz olan insan ruhu kosmosun ölməz hissələri olan günəşə, aya və ulduzlara uyğundur. Onun ruhu kosmik cisimlər kimi dairəvi hərəkətdədir. Bu hərəkət dayanan kimi ölüm baş verir. Ruhun ən yüksək hissəsi insanın beynində yerləşir.

**Mövzu ilə əlaqəli suallar:**

1. Pifaqorun hansı elmi ixtiraları olmuşdur?
2. Pifaqorun fəlsəfi və əxlaqi fikirləri nədən ibarət olmuşdur?
3. "Pifaqorçular ittifaqı" necə yaranıb inkişaf etmişdir?
4. Pifaqorçuların hakimiyyət haqqında fikirləri hansılardır?
5. Pifaqorçuluqda biliyin mənbəyi nədir?
6. Pifaqorçuluğun kosmoqonik baxışları necə olmuşdur?
7. Pifaqorçuluğun rəqəmlər fəlsəfəsinin mahiyyəti nədən ibarətdir?
8. Filolaus dünya quruluşunu necə təsəvvür edirdi?
9. Tarentli Arxitas və Metapontumlu Hippasusun fəlsəfi fikirləri hansı problemləri əhatə edirdi?

---

[42] **Mikrokosm** (yun. *μικρός*-kiçik + *κόσμος*-kainat) – insanın kiçik kainat olması haqqında antik təsəvvürdür. Bu təsəvvürə görə, insanda gedən proseslər kainatda baş verənlərin kiçik modelidir.

10. Alkmeon fəlsəfəsinin fərqləndirici özəllikləri nədən ibarətdir?

11. Alkmeon duyğuların yaranması, dölün inkişafı və insan sağlamlığı haqqında hansı fikirlərlə çıxış etmişdir?

**Ədəbiyyat:**

1. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor, 1801.

2. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

3. Iamblichus. Life of Pyhhagoras or Pithagoric life / Translated by Taylor T. London: J. M. Watkins, 1818.

4. Manly P. Hall. The Secret Teachings af all Ages an Encyclopedic Utline of Masonic, Hermetic, Qabbalistic and Rosicrucian Symbolical Philosophy. San Francisco, 1928.

5. Коперник Н. О вращениях небесных сфер. Малый комментарий. Послание против Вернера. Упсальская запись. М.: Наука, 1964.

6. Лебедев А. В. Фрагменты ранних греческих философов. М.: Наука, 1989.

7. Маковельский А. О. Досократики. Минск: Харвест, 1999.

8. Теологумены арифметики // ΣΧΟΛΗ. Философское антиковедение и классическая традиция. Т. 3. Вып. 1, Новосибирск, 2009.
9. Филолай // Философская Энциклопедия / Под редакцией Ф. В. Константинова. В 5-х т. М.: Советская энциклопедия. 1960-1970.

## 1.6. Qədim yunan atomçuları

Qeyd edildiyi kimi, qədim filosoflar daha çox dünyanın nədən yaranması, varlığın mahiyyətinin nədən ibarət olması kimi suallara cavablar axtarırdılar. Atomçuluğun əsasını **Leukippus**[43] (yun. *Λεύκιππος*, m. ö. V yüzillik) qoymuşdur. O hesab edirdi ki, dünyada hər şey sadə, bölünməz kiçicik hissəciklər olan ***atomlardan*** (yun. *ἄτομος*) ibarətdir. Eləcə də Parmenidesdən fərqli olaraq o, boşluqların var olduğunu iddia edirdi. Bu da atomları bir birindən ayıran məkanlardır. Atomlar onların arasında hər zaman hərəkət edir (2, 388-389). Dünyada bütün şeylər və olaylar atomların burulğanından yaranır.

Onun öyrəncisi olan **Abderalı Demokrit**[44] (yun. *Δημόκριτος*, təxminən m. ö. 460 – 370) bu təlimi davam etdirmişdir. O, tanınmış alim olmuş; psixologiya, siyasət, pedaqogika, riyaziyyat, fizika, kosmologia elmləri üzrə zamanımıza çatmayan kitablar qələmə almışdır. Demokrit hesab edirdi ki, yalnız hissələrdən ibarət olan bölünən

[43] Rus ədəbiyyatında onun adı *Levkipp (Левкипп)* kimi səsləndirilir.
[44] Rusca səslənmədə verilmişdir. Başqa dünya dillərinin çoxusunda onu latın səslənməsinə uyğun olaraq *"Demokritus"* adlandırırlar.

şeylər doğulur, dəyişir, ölür və dağılır. Belədirsə, deməli dünyanın əsasında bölünməz bir şey durur ki, hər şey ondan ibarətdir. Bu da kiçicik hissəciklər olan atomlardır. Onlar əbədidir: olub, var və olacaq.

Hər şey bir-biri ilə əlaqədə olan atom və boşluqlardan ibarətdir. Atomlar öz forması, yerləşməsi və hərəkəti baxımından bir-birindən fərqlənirlər. Bu fərqlilikdən də müxtəlifliliklər yaranır. Onların birləşməsi hər şeyi yaradır, dağılması isə məhv edir (1, 13). Yaradıcı qüvvə atomların burulğanıdır. Beləliklə də, dünya hər zaman hərəkətdədir.

Atomların hərəkəti bəlli qanunauyğunluqlara tabe olduğuna görə hər şey zərurətdən doğur və təsadüf yoxdur. Bizim tərəfimizdən təsadüf kimi başa düşülən şey əslində qanunauyğunluqdur. Demokrit buna örnək olaraq küçədə bir insanın başına əşyanın düşdüyünü göstərirdi (3, 62). O insan hansısa bir iş üçün küçəyə çıxmışdır, əşya isə elə o anda yerə düşməli idi. Deməli, bu hal bizə təsadüf kimi görsənsə də, qanunauyğunluqdur.

Atomçuluğu Demokrit həm də həyat və ruha aid edirdi (2, 394-395). Bütün orqanizmlərin həyatı və ölümü atomların birləşməsi və ayrılması üzündən baş verir. Həyatverici atomlar girdə və hamar olur, ölçüləri də çox kiçikdir. Ruh isə odlu atomlardan ibarətdir və onların müvəqqəti birləşməsindən yaranır. Atomların bağları qırılan kimi ruh da məhv olur. Beləliklə, Demokrit ruhun ölməzliyini inkar edirdi. Onun fikrincə insanlar öz ölümlərindən qorxub ruhun ölməməzliyi haqqında əfsanələr uydurmuşdurlar.

Demokritə görə əslində biz bu dünyanı gerçək görkəmində görmür, duymur və qavramırıq. Onun atomlardan və onların boşluqlarda sonsuz hərəkətindən ibarət olan görünməyən tərəfləri vardır. Bu dünyanı anlamaq üçün o pərdəarxası aləmi anlamaq və araşdırmaq lazımdır. Beləliklə, burada pərdəarxası "həqiqət", anlamaq isə "ümumi rəy" əks etdirir (3, 65). Hər şeyin həqiqəti vardır, ona görə də onu araşdırmaq və ona doğru gedilməlidir. Belə etdikdə dünya olduğu kimi insan üçün açılır. "Ümumi rəy" isə cəmiyyətdə oturuşmuş fikirlərdən ya da bizim subyektiv yanaşmamızdan doğan şeylər haqqında təsəvvürlərdir. Onlar həqiqəti əks etdirmir.

Ətraf mühitin dərki *duyğusal* və *düşüncəvi* olur. Dünyada baş verən hadisələr bizim atomlardan ibarət olan ruhumuza daxil olaraq düşüncə tərəfindən "emal" olunur. Bunun vasitəsi ilə biz onlar haqqında bilgi alırıq. Ancaq, əslində daxil olanlar şeylərin obrazlarıdır. Bu obrazlar insanda o anda olan durumla (halla) qarışaraq hər şey haqqında təsəvvür yaradır. Durumlar (hallar) isə insanın tərbiyəsi, mədəniyyəti, bilik səviyyəsi, fiziki halları, qavram və analitik düşüncə qabiliyyəti kimi xüsusiyyətlərdir. Deməli daxil olan obrazlar insan özəllikləri ilə qarışır və beləliklə, insanda dünyadakı şeylər haqqında bilgi formalaşmış olur. Bu isə obyektiv bilgi deyil ***"bütlərdir"*** (3, 69). Elə ona görə də insanların şeylər haqqında təsəvvürləri fərqli olur. Hətta zaman keçdikcə və insanın durumları (halları) dəyişdikcə o eyni şey haqqında fərqli fikir söyləyir. Beləliklə, insanlar çevrənin həqiqətlərini deyil, yalnız onlar haqqında nisbi təsəvvür yaradan "bütləri"

qavrayır və ona görə də onlar yanlışlıqlar içindədirlər. Məqsəd isə "bütlərdən" azad olub həqiqətə çatmaqdır. Bunu da yüksək məqama və müdrikliyə çatdıqdan sonra əldə etmək olar. Məsələn, atomların varlığını duymaq ol-mur. Ancaq ağıl işlədən adam bu həqiqəti anlaya bilər. Obyektiv biliyin əldə edilməsinin imkansızlığı ideyasını sofistlər də irəli sürürdülər. "Bütlər" haqqında fikri isə yüzilliklər keçdikdən sonra ingilis filosofu *Frensis Bekon* inkişaf etdirmişdir.

Din haqqında fikir irəli sürən Demokrit hesab edirdi ki, insanlar tufan, şimşək, zəlzələ kimi olaylardan dəhşətlənərək onların tanrılar tərəfindən yaradıldığını sanmışlar. Məhz, tanrılara inancın səbəbi də budur. Daha sonra Demokritə görə əslində tanrılar yoxdur, çünki hər bir millətin və yerin öz tanrısı vardır. Deməli, onları insanlar öz şəraitinə uyğun olaraq uydurmuşdurlar. Ona görə də, Demokrit bu tanrıların varlığını şübhə altına qoyaraq bəzən təbiəti, bəzənsə insan düşüncəsini tanrılaşdırırdı. (3, 290-293)

Əxlaq məsələlərinə toxunan Demokrit hesab edirdi ki, insan *xoş əhvala*da olmalıdır. Kədər isə pisliyin əla-mətidir, ona görə də ondan uzaqlaşmaq lazımdır. İnsan xoş əhvalı əldə etmək istəyirsə, hər bir yükün altına onu qaldıra biləcək qədər girməlidir. Ondan artıq yükü boynuna götürməməlidir, təbiətinə zidd getməməlidir. İstər özün üçün, istərsə də cəmiyyət üçün olsun istənilən şey ölçüsündə edilməlidir, ölçünü aşmaq olmaz. Buna əməl etməyən kəs kədərə qərq olur. (3, 307)

Leukippus və Demokritin atomlar nəzəriyyəsi sonrakı dövrlərdə öz təsdiqini tapmışdır. Müasir dövrümüzdə elm

onların varlığını və daim hərəkət etməsini sübut etmişdir. Fərq yalnız ondadır ki, Leukippus və Demokrit atomları bölünməz və tam hissəcik kimi təsəvvür edirdilər. Müasir elm isə sübut edib ki, atomlar öz növbəsində nüvə və elektronlar kimi daha da kiçik hissəciklərdən ibarətdir.

**Mövzu ilə əlaqəli suallar:**

1. Leukippusun atomçuluğunun əsas müddəaları hansılardır?
2. Demokritin atomçuluq nəzəriyyəsinin əsas müddəaları hansılardır?
3. Demokrit təsadüf və zərurət haqqında nə düşünmüşdür?
4. Demokritə görə dünyanın dərk edilməsi prosesi necə baş verir?
5. Demokrit din və əxlaq haqqında nə düşünmüşdür?

**Ədəbiyyat:**

1. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor, 1801.
2. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.
3. Маковельский А. О. Древнегреческие атомисты. Баку: Издательство АН Азербайджанской ССР, 1946.

## 1.7. Sofistlər

M. ö. V yüzillikdə *tiranlıq*[45] və *aristokratiya*[46] quruluşunun yerinə quldarlıq *demokratiyası* gəlmişdir. Bu quruluşda xalq yığıncaqları və azad məhkəmələrin böyük əhəmiyyəti olmuşdur. Ona görə də o zaman gözəl nitq söyləməyi və məntiqi mülahizələr irəli sürməyi bacaran adamlara ehtiyac yaranmışdır. Bu kimi adamlar siyasi və hüquqi biliklərə dərindən yiyələnmiş, onları fəlsəfə ilə birləşdirmişdilər. Onlara **"Sofistlər"** (yun. *Σοφιστής*, lat. *Sophistes* – müdriklik ustaları) deyirdilər. Sofistlər bəlağət, natiqlik, məntiq, polemika kimi fəlsəfi istiqamətləri inkişaf etdirmişdilər. Onların hansısa bir ortaq təlimləri olmamışdır, dünyagörüşləri müxtəlif təlimlərin qarışığından (*eklektika*'dan)[47] ibarət idi. Sofistlərin bir çoxu öyrəncilərə ödənişlə müdriklik və mübahisədə qalib gəlmək dərslərini keçmişdilər (3, 131).

Ancaq sonralar *"sofist"* adını həqiqətin nə olduğunu bilmək istəyən adamlara deyil, bir şeyin yanlış olduğunu bilən, buna baxmayaraq onu bilərəkdən formal dəlillərlə əsaslandırmağa çalışan adamlar üçün deyirdilər. Çünki, bu kimi adamlar fəlsəfi bilikdən ayrılaraq bütün bacarıqlarını mübahisə etdiyi adamlara qalib gəlməyə yö-

---

[45] **Tiranlıq** (yun. *τυραννίς* – dərəbəyilik) – zorakılıq yolu ilə əldə edilmiş və bir şəxsin idarəçiliyi əsasında qurulmuş hakimiyyətdir.

[46] **Aristokratiya** (yun. *ἀριστεύς*-sayğın + *κράτος*-hakimiyyət) – sayğınlar (əsilzadələr) zümrəsinin idarəçiliyi əsasında qurulmuş hakimiyyətdir.

[47] **Eklektizm** (yun. *ἐκλέγω* – seçirəm) – müxtəlif fəlsəfi təlimlərin qarışığından ibarət olan fəlsəfi təlimdir.

nəltmişdilər. Bunun üçün onlar mübahisələr zamanı söz-bazlığa, söz quraşdırmalara, boşboğazlığa da əl atırdılar. Ona görə də ***"sofizm"*** anlayışı yarandı ki, bu da bir kəsin haqlı olduğunu sərgiləmək və söz çəkişməsində (mübahisədə) rəqibini dolaşdırmaq üçün yürüdülən mürəkkəb mülahizələr, cümlələr və dolaşıq fikirlər deməkdir. Sofizmin bir örnəyi: *"Oğru pis olan bir şeyi götürmək istəməz, ancaq yaxşı şeyi götürər. Yaxşı şeyin əldə olunması isə yaxşı işdir. Deməli oğru oğurluq edərkən yaxşı iş görür".*

Mübahisələr zamanı öz sofizmlərini əsaslandırmaq üçün sofistlər ortaya həqiqətin bir deyil, çox olması iddiasını atdılar. Onların fikrincə hər bir fikir, baxış ya da iddia nisbidir. Ağ olan bir şey başqası üçün qara da ola bilər. Belə olanda hər iki iddiaçı haqlıdır. Nə qədər insan var, o qədər də həqiqət vardır.

Daha sonra sofistlər bu nisbiliyi hər şeyə, hətta anlayışlara, əxlaqi qaydalara da aid edirdilər. Sofistlər əxlaqı insanın maraqları və məqsədlərinə bağlayırdılar. Əslində insanın öz təbiətinə görə əxlaqı, xeyir və şər məsələləri haqqında təsəvvürləri vardır. Cəmiyyətdə qəbul olunmuş əxlaq isə ona uyğun deyil, onunla ziddiyyət təşkil edir (1, 192). Ona görə də cəmiyyətdə oturuşan əxlaqi qaydalara yalnız görüntü üçün riayət edilməlidir. Bunu başqa adamların qarşısında cəzalardan və ictimai qınaqdan qorunmaq üçün etmək lazımdır. Əslində isə həyat təbii əxlaqa uyğun yaşanmalıdır. Beləliklə, insanın şəxsi və ictimai həyatı olmalıdır (11).

Sofistləri *"böyük"* və *"kiçiklərə"* bölünürlər. "Böyük" sofistlərin ən görkəmli nümayəndəsi **Protaqoras** (yun.

*Πρωταγόρας,* m. ö. 481 – 411) deyirdi ki, *"İnsan hər şeyin ölçüsüdür"* (4, 216). Diogenes Laertiusa görə Protaqoras hər şeyin həqiqət olduğunu və düyğularla bilindiyini iddia edirdi. Eləcə də o deyirdi ki, hər bir irəli sürülən fikrə qarşı ona əks olan fikir yürüdüb, onu əsaslandırmaq olar (2, 397-398). Deməli Protaqorasa görə obyektiv olan bir şey yoxdur. İnsan bu ya da başqa şeyin nə olduğunu yalnız özü üçün təyin edir. Onun qərarı başqası ilə üst-üstə düşməyə də bilər.

Beləliklə, sofistlər subyektiv yanaşmanın və nisbiliyin (*relativizmin*) əsaslarını qoymuşdular. Protaqorasın təlimi isə Demokrit, Heraklit, Parmenides və Empedoklesin nisbilik nəzəriyyələrindən irəli gəlmişdir. O, materiyanın axıcı və duyğuların nisbi olduğunu iddia edirdi.

Protaqoras başqa sofistlər kimi dinə qarşı da şübhələrlə yanaşırdı, nisbilik nəzəriyyəsini o dinə də aid edirdi (9, 9). Onun fikrincə tanrıların varlığı haqqında birmənalı heç nə demək olmaz. Bununla o dini müddəalara qarşı *aqnostik*[48] mövqedə dayanırdı. Ümumiyyətlə, o zaman bir çox sofistləri ateizmdə ittiham etmişdilər.

Böyük sofistlərin daha bir tanınmış nümayəndəsi **Qorgias** (yun. *Γοργίας,* təxminən m. ö. 480 – 380) olmuşdur. O müdrikliyi deyil, natiqliyi öyrətdiyini iddia edirdi. Çünki, hamı üçün bir olan həqiqət yoxdur. İnsan hətta öz yaşadığı anları nisbi olaraq yada salır. Qorgias ***"Təbiət ya da mövcud olmayan şey haqqında"*** əsərində

[48] **Aqnostisizm** (yun. *ἄγνωστος* – bilinməyən) – Tanrı və başqa fövqəl anlayışların, eləcə də dünya və onun qanunauyğunluqlarının dərk edilməsini imkansız sayan fəlsəfi konsepsiyadır.

iddia etmişdir ki, *"heç nə mövcud deyil; nəsə mövcud olsa belə, onu qavramaq* (dərk etmək) *olmaz; o şey qavranılsa belə, onu sözlə ifadə etmək olmaz* (10, 235). Bununla da Qorgias aşağıdakıları demək istəyirdi:

1. Əgər varlıq əbədidirsə, onda hüdudsuzdur; hüdudsuzdursa, onda o heç yerdə yoxdur. Əgər varlıq əbədi deyilsə, onda o mövcud olan bir şeydən yaranmalıdır. Bu isə imkansızdır, çünki bu halda varlıq özündən qabaq mövcud olardı. Ya da varlıq yoxluqdan yaranmışdır. Ancaq bu da imkansızdır, çünki yoxluqdan nəsə yarana bilməz. Onda deməli heç nə mövcud deyildir.

2. Varlıq mövcuddursa da, onun barəsində düşünmək olmaz, çünki düşünülənlə gerçəkliyin fərqi vardır. Belə olmasaydı, onda bizim düşüncəmizdə olan hər bir fikir gerçəkləşərdi.

3. Varlıq haqqında düşünülsə belə, onu başqasına anlatmaq olmaz. Çünki, anlatmaq üçün biz sözlərdən istifadə edirik. Söz isə o şeyə tam uyğun gəlmir. Əksinə, biz sözləri şeylərlə izah edirik.

Beləliklə, şeylər haqqında birmənalı heç nə demək olmaz. Onlar haqqında yalnız həqiqətə nisbətən uyğun fikir yürütmək mümkündür. Bu kimi müddəalar aqnostik dünyagörüşünün əsasında durur.

Daha bir tanınmış böyük sofist **Prodikus** (yun. *Πρόδικος*, təxminən m. ö. 465 – 395) dilçilik elmi və əxlaq problemləri ilə məşğul olmuşdur. O həm də dinlərin yaranması nəzəriyyəsini irəli sürmüşdür (8). Onun fikrincə insanlar onlara xeyir gətirən günəş, çaylar, dənizlər kimi təbiət obyektlərini tanrılaşdırmışlar. Buna o, Misirdə

Nil çayının tanrılaşdırılmasını örnək gətirirdi. Prodikusa görə bundan sonra insanların fəaliyyətlərinə uyğun olaraq şərabçılıq, dəmirçilik, sənətkarlıq və s. tanrıları uydurulmuşdur. Beləliklə Prodikus hesab edirdi ki, tanrıların yaranması insan fəaliyyəti və duyğuları ilə bağlıdır. Buna görə də, onlara ibadət edilməsinin heç bir mənası yoxdur. Bu fikirləri açıqladıqdan sonra Prodikus təqiblərə məruz qalmışdır.

Başqa böyük sofist **Hippias** (yun. *Ἱππίας*, təxminən m. ö. 460 – 400) riyaziyyatçı və natiq kimi tanınmışdır. O, fəlsəfədə daha çox əxlaqi məsələlərə önəm verirdi. Hippias dövlət qanunlarının insana əzab verməsini iddia edir, onların əhəmiyyətini kiçildir, ata-anaya sayğı kimi ümumbəşəri dəyərlərin tanrılardan gəldiyini iddia edirdi. O cəmiyyətdə köləliyə son verməklə insanların eyni hüquqlu vətəndaş olmaları fikrin müdafiə etmişdir. Deməli, ehtimal etmək mümkündür ki, Hippias köləliyin əleyhinə çıxırdı (5).

*Kiçik sofistlərin* dövrü isə m. ö. IV yüzillikdən başlayır. Onlar haqqında bilgilər o qədər də çox deyildir. Zamanımıza çatan fraqmentlərə dayanaraq demək olar ki, onlar əxlaqi və ictimai problemlərə diqqət yetirmişdirlər. Məsələn, **Likofron** (yun. *Λυκόφρων*, m. ö. IV) və **Alkidama**s (yun. *Ἀλκιδάμας*, m. ö. IV yüzillik) ictimai siniflərin imtiyazlarını inkar edirdilər (6, 16). Likofrona görə əsilzadəlik uydurulmuş və əsassız anlayışdır. Alkidamas isə hesab edirdi ki, insanlar dünyaya azad gəlirlər və ona görə də köləlik təbiətdən deyil, sonradan sosial və iqtisadi səbəblərdən ortaya çıxan bir reallıqdır.

**Trasimaxus** (yun. *Θρασύμαχος,* təxminən m. ö. 459 – 400) bilginin nisbi olması ideyasını həm də ictimai və əxlaqi məsələlərə aid edirdi. Onun fikrincə güclü insanın yaratdığı hər şey ədalətlidir.

*"Ədalətli" və "ədalətsiz"* anlayışlar rəiyyət üçündür. Rəiyyət hökmdarların qanun kimi qoyduqları ədalətli və ədalətsiz saydıqları şeylərə əməl etməlidirlər. Hər bir siyasi quruluş özünə lazım olan qanunları yaradır. Belə ki, demokratik hakimiyyət demokratik, tiranik hakimiyyət tiranik, aristokratik hakimiyyət isə aristokrat təbəqə ilə uzlaşan qanunlar yazır. Hökmdar öz tabeliyində olanlara çobanın qoyunlara qulluq etdiyi kimi qayğı göstərməlidir. Bu qayğı rəiyyətin ədalət kimi saydığı anlayışlarla ölçülməz. Buna sübut gündəlik həyatda baş verən hadisələrdir. Çünki, çox zaman ədalətsizlik ədalətin üzərində üstünlük qazanır. Ədalətsizlik cinayətlərinin sayının çoxalması ilə daha da artır. Beləliklə, hökmdarın əxlaqı və ədaləti olmalıdır, ancaq bu anlayışlar rəiyyətin anladıqlarından fərqlənməlidir. Onun üçün hansısa ehkam halını almış əxlaq qaydaları olmamalıdır, çünki onun məqsədi dövləti və rəiyyəti saxlamaqdan ibarətdir. Bu yolda nə daha uyğundursa, onu da etməlidir. (7, 20-21) Sonralar Makiavelli və Nitşe kimi düşünürlər bu fikirləri təkrarlamış və onları daha da inkişaf etdirmişdirlər.

**Mövzu ilə əlaqəli suallar:**

1. Sofistlərin fəlsəfəsinin əsas müddəaları nədən ibarət olmuşdur?

2. Protaqorasın nisbilik nəzəriyyəsinin əsasında hansı müddəalar dururdu?

3. Qorgias həqiqi biliyin əldə olunmasının imkansızlığına dair hansı dəlillərlə çıxış edirdi?

4. Prodikus yunan dini haqqında hansı fikirlər irəli sürmüşdür?

5. Hippiasın dünyagörüşü hansı problemləri əhatə edirdi?

6. Likofron və Alkidamasın ictimai fikirləri nədən ibarət olmuşdur?

7. Trasimaxusun əxlaqın nisbiliyi haqqında fikirləri hansı müddəalarla əsaslandırılırdı?

**Ədəbiyyat:**


1. Aristotle. Nicomachean Ethics / Translated by D. P. Chase. London: George Routledge & Sons, 1910.

2. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

3. Platon. Protaqoras // The Dialogues of Plato / Translated by B. Jowett. Vol. 1. Oxford University Press, 1892.

4. Platon. Theaetetus // The Dialogues of Plato / Translated by B. Jowett. Vol. 4. Oxford University Press, 1892.

5. Гиппий // Философская Энциклопедия / Под ред. Ф. В. Константинова. В 5-х т. М.: Советская энциклопедия. 1960-1970.

6. Ивин, А. А. Основы социальной философии. М.: Высшая школа, 2005.

7. Маковельский А. О. Софисты. Баку, 1941.
8. Продик // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция. 2008.
9. Секст Эмпирик. Против математиков // Маковельский А. О. Софисты. Баку: Азербайджанский Государственный Университет им. С. М. Кирова, 1940.
10. Софистика. Горгий Леонтийский: Трактат «О не-сущем, или О природе» в современных интерпретациях. Новосибирск: НГУ, 2014.
11. Софисты // Философия: Энциклопедический словарь / Под ред. А. А. Ивина. М.: Гардарики. 2004.

## 1.8. Klassik yunan fəlsəfəsi

Sokrat, Platon və Aristotelin fəlsəfəsi qədim yunan düşüncəsi və elminin ən yüksək zirvəsi sayılmaqdadır. Bu filosoflar keçmiş irsi mənimsəmiş, onu sistemləşdirərək elm halına gətirmiş və bütün bunlara öz fikirlərini əlavə etmişdirlər. Yunan fəlsəfəsinin klassik dönəmindən öncə elm və fəlsəfə fraqmentlər və pərakəndə biliklər halında olmuşdur. Həmin dönəmdən başlayaraq bu biliklər sistemləşdirilmiş və elmi kateqoriyalara salınmışdır. Bu prinsip də sonrakı dövrlərdə bütün dünya elmində tətbiq olunmuş və insanlığı tərəqqiyə doğru aparmışdır.

Sofistlərin təlimləri yunan polislərində [49] şiddətli tənqidlərinə məruz qalmışdır. Onların iddialarını rədd

[49] **Polislər** (yun. *πόλις* – şəhər) – qədim Yunanıstanda şəhər dövlətləridir.

edən başqa filosoflar hamı üçün bir olan obyektiv biliyə nail olmanın yollarını axtarmış, sofistlərin subyektivliyindən aralanmağın metodlarını araşdırmışdılar. Onlardan biri də Afinada yaşayan **Sokrat**[50] (yun. *Σωκράτης* m. ö. 469 – 399) olmuşdur. Öncə o sofirstlərin təlimi ilə maraqlanmış, ancaq sonra onlardan aralanaraq bu cərəyanı tənqid etmişdir. Daha sonra Sokrat öz fəlsəfi fikirlərini açıqlamış və beləliklə o, ətrafına çoxlu öyrənci yığa bilmişdir.

*Peloponnesus savaşından*[51] sonra afinalılar spartalılara məğlub olmalarının səbəblərini araşdırarkən daxili düşmənlər axtarışında olmuşdurlar. O zaman Sokrata qarşı olanlar onu dövlətin dayaqlarının dağıdılmasında və təhlükəli təbliğatın aparmasında ittiham edib mühakimə etmişdilər. Onu həm də gənclərin əxlaqının pozulmasında, qədim tanrıları inkar edərək yeni tanrılar kultunun yaradılmasında suçlamışdılar. Məhkəmənin qərarı ilə Sokrat zəhər içərək intihar etmişdir (9).

Sokrat öz fikirlərini mübahisə və söhbətlərində açıqlayırdı. Onun fəlsəfi fikirlərinin məzmununu öyrəncisi Platon öz ***"Dialoqlarında"*** açıqlamışdır. Bundan başqa, Aristotel və Ksenofon da Sokrat haqqında xəbərlər vermişdilər.

Sokrat fəlsəfənin istiqamətini dünya və təbiətin dərk olunmasından insan problemlərinin araşdırılmasına doğ-

---

[50] Rusca səslənmədə verilmişdir. Yunancada və başqa dillərdə onun adı *"Sokrates"* kimi səslənir.

[51] M. ö. 431 – 404-cü illərdə baş vermiş Afinanın Sparta dövləti ilə savaşıdır. Bu savaşqan spartalılar qalib çıxmışdırlar.

ru dəyişə bilmişdir. O, öz mübahisə aparmaq istedadı, məntiqi, həmsöhbətlərinin səhvlərinin üzə çıxarması, müzakirə mövzusu olan məsələni hissələrə bölüb həll etmə qabiliyyəti ilə tanınmışdır.

Onun fəlsəfəsində hər şeyin tək bir həqiqəti vardır. Onu hamılıqla araşdırıb tapmaq lazımdır. Bu məqsəd üçün də o, *"evristika"* (yun. *ευρίσκω* – tapıram) adlanan öz metodunu təklif etmişdir.

Bu metodda *ironiya, maevtika* və *induksiyadan* istifadə edilir. ***İroniya*** (yun. *εἰρωνεία*) hərfi mənasına əks olan və mahiyyəti gülünc olan sözdür. İroniya ondan ibarətdir ki, hər bir ağıllı adam ilk növbədə özü öz lovğalığını, geri zəkalılığını etiraf etməli, özü-özünə istehza ilə baxmalı və gülməlidir. Sokrat həmsöhbətlərini öz "Mən"ini qırağa qoymağa, məsələlərin obyektiv həllinə yönəlməyə çağırırdı. O demişdir; *"Mən bilirəm ki, mən heç nə bilmirəm"*.

Platon bu deyimin yaranma tarixçəsini aşağıdakı kimi vermişdir (9, 115-116). Bir kərə Sokrat bir varlı və yüksək vəzifəli afinalının yanına gəlmişdi. Hamı deyirdi ki, o ağıllı və müdrikdir. Ancaq onunla bir qədər söhbət etdikdən sonra bilinmişdir ki, onda heç bir ağıl və müdriklik yoxdur, həmin afınalı yalnız bunun görüntüsünü yaradır. Sokrat da bunu bildirəndə, o adam ona düşmən kəsilmişdir. Ondan ayrılan Sokrat düşüncələrə qapanıb özü-özünə belə dedi: *"Biz ikimiz də nə ağıllıyıq, nə də müdrik. Nə mən, nə sən heç nə bilmirik. Ancaq mən bilirəm ki, heç nə bilmirəm. Ona görə də özümdən razı deyiləm. O adam isə bunu bilmir, ancaq öyünür, özündən çox razıdır. Əslində mənim müdrikliyim və biliyim ondan dəfələrlə çoxdur. Çünki o*

*heç nəyi bilmədiyini bilmir, mən isə bunu bilirəm"*. Bundan sonra Sokrat daha bir neçə varlı və vəzifəlilərin yanında olub onlarla söhbətlər aparmışdır. Hər dəfə də buna bənzər hallarla rastlaşmışdır. Onların hamısı Sokratla düşmən kəsilmişdir.

İronik üslubuna görə bir çox varlı afinalılar Sokratla düşmənçilik, sonda onlar məhkəmədə ona qarşı çıxış belə etmişdirlər. Sokratın afinalı *Anitusa* qarşı yönəlmiş ironik üslubunun parlaq nümunələri Platonun "Menon" dialoqunda verilmişdir (11, 601).

Bundan sonra euristik metodda ***maevtika'***ya (yun. *μαιευτική*) keçid olur. Bu da hərfi mənada *"mamalıq"* deməkdir. Maevtikanın vasitəsilə Sokrat, müzakirə edilən mövzu ətrafında dolayı sualların verilməsi ilə həqiqi biliyi üzə çıxarırdı. Mamalıq terminindən bilinir ki, bu prosesi o qadının bala doğmasına bənzər şəkildə görürdü. Sadəcə mamalığın nəticəsində balanın deyil, həqiqətin və biliyin doğulması baş verir (19, 201-202). Bu prosesdə Sokrat heç nə iddia etməyərək həmsöhbətlərinə yalnız köməkçi sualları verərək həqiqətin açıqlanmasını onların özlərindən gözləyirdi. Beləliklə, həqiqəti insanların özləri "doğmalıdır". Deməli, maevtika həm də sualların düzgün verilməsindən asılı idi.

Bu zaman təriflərin verilməsi də mühüm məsələdir ki, ona ***induksiya*** (lat. *inducsio*) deyilir (3, 319-322). Çünki, tərif vermədən heç bir şey haqqında hansısa fikir yürütmək olmaz. Gəlinən obyektiv nəticələrə də tərif vermək lazımdır. Ona görə də, Sokrat hansısa bir şeyin mahiy-

yətinə varmaq üçün həmsöhbətlərindən onun tərifinin verilməsini tələb edirdi.

Bu mərhələlərdən keçdikdən sonra həmsöhbətlər hamı üçün bir olan həqiqəti üzə çıxardırdılar. Ancaq, sonra o həqiqət şübhə altına qoyulardısa, yenə də ironiya, maevtika və induksiya yolu ilə yeni həqiqət ortaya çıxarılırdı. Bu proses də hər zaman baş verir. Beləliklə, Sokrat sofistlərin biliyin nisbilik nəzəriyyələrinə qarşı obyektiv həqiqətin var olması və onun çıxarılması metodunu ortaya qoymuşdur.

Fəlsəfə Sokrat üçün təbiət haqqında nəzəri fikirlər toplusu deyil, həm də "Həyat necə olmalıdır?" sualına cavab verən bilikdir. Ona görə də o, fiziklərə qarşı çıxış edərək onların təkcə duyğularla dünyanın dərk edilməsi iddialarına şübhə ilə yanaşırdı. Sokrat hesab edirdi ki, insan yalnız özünün hökmündə olan şeylər haqqında bilik əldə edə bilər. Kainat ya da dünya insanın hökmündə deyil. Onun hökmündə olan yalnız onun öz ruhudur. Buna görə də insan özünü tanımalıdır. Sokratın məşhur kəlamı olan: *"Özünü tanı"* sözləri sonralar Delfada Apollon məbədinin divarlarında həkk olunmuşdur.

Fəlsəfəni insanın özünə doğru yönəldən Sokrat, *əxlaqi problemlərə* önəm verirdi. Ona görə fəlsəfə xeyir və şərin nə olmasını araşdırır. Xeyir bilikdə, şər cəhalətdədir; var-dövlət isə heç bir xeyir gətirmir (7, 69). Bu kimi əxlaqi rasionalizm Sokrat təliminin əsasını təşkil edir. İnsan əxlaqsız hərəkətin nə olduğunu bilsə heç vaxt pis hərəkət etməz. Pis hərəkət onun fikrincə, insanın yanılması və səhfidir. Səhfi isə heç kəs bilərəkdən etməz.

Bu səbəbdən fəlsəfənin "biliyə doğru yönəlmə" kimi anlaşılması xeyirli və yetkin insanın yetişdirilməsi, eləcə də ədalətli cəmiyyətin yaradılması üçün vasitədir. Xeyir haqqında bilik əldə etmək ona doğru yönəlmək deməkdir. Bu isə insanı və toplumu xoşbəxt etməkdədir.

Sokratın dünya fəlsəfi fikrinin inkişafına çox böyük təsiri olmuşdur. Onun ardıcılları sonrakı dövrlərdə yeni fəlsəfi məktəblər yaratmışdılar. Bunlar *kirena, kinik* və *meqara* kimi məktəblər idilər.

Müasir tədqiqatçılar qədim yunan fəlsəfəsi tarixini ***sokratöncəsi*** və ***sokratsonrası*** dövrlərə bölürlər. Beləliklə, Sokrat qədim yunan fəlsəfə tarixinin mərkəzində duran bir şəxsiyyətdir.

Klassik yunan fəlsəfəsinin ikinci nümayəndəsi olan **Platon** (yun. *Πλάτων*) təxminən m. ö. 427 – 347-cı illərdə Afinada dünyaya gəlmiş, orada yaşayıb yaratmışdır. O, Sokratın öyrəncisi olmuşdur. Onun dünyagörüşünün formalaşmasına qədim Misir elmi, mədəniyyəti, inancı və düşüncəsi əhəmiyyətli dərəcədə təsir etmişdir (8, 232-233). Çünki, Platon bir zaman Misirdə olmuş, kahinlərdən dərs almış, sonra Siciliya və Cənubi İtaliyaya səfərlər etmişdir. Orada olarkən Elea məktəbinin və pifaqorçuların təlimləri ilə də tanış olmuş, sonra isə öz fəlsəfi fikirləri ilə çıxış etmişdir. M. ö. 387-ci ildə Afinaya qayıtdıqdan sonra orada ***Akademiya*** (yun. *'Ακαδήμεια*) adlanan bir məktəb təsis etmişdir (8, 233).

Platonun bir çox əsərləri dövrümüzə gəlib çatmışdır. Onları şərti olaraq ***"Corpus Platonicum"*** adlandırırlar. Bu əsərləri ilk dəfə m. ö. III yüzillikdə İskəndəriyyə kitab-

xanasına başçılıq edən *Bizanslı Aristofanes* (m. ö. I – m. I yüzilliklər) və yeni-platonçu filosof *Trasillus* yığmışdılar. ***"Timeus"*** (yun. *Τίμαιος*), ***"Kritias"*** (yun. *Κριτίας*), ***"Fedon"*** (yun. *Φαίδω*), ***"Dövlət"*** (yun. *Πολιτεία*) və s. kimi əsərlərin çoxusu dialoq formasında yazılmışdır.

Platon öz fəlsəfəsində əsas diqqəti ontoloji məsələlərə eləcə də, dövlət və cəmiyyət problemlərinə yönəltmişdir. Sokratın ideyalarını davam etdirərək o, sofistlərin iddialarına qarşı çıxmış və obyektiv biliyin əldə edilməsini mümkün hesab etmişdir.

Platon özündən öncəki filosoflardan fərqli olaraq hər şeyin əsasını hər hansı bir maddədə deyil, ***ideyada*** (yun. *ἰδέα*) görürdü (20, 455-466). O hesab edirdi ki, bizim yaşadığımız və duyduğumuz dünya gerçək deyil, çünki dəyişkəndir. Bütün şeylərin əsl mahiyyəti onların görüntülərində yox, səbəblərində və ya *ideyalardadır* (2, 246-248). Deməli, bu dünyada hər bir şey *ideya* ilə *müqayisədə* tanınır. İdeyalar sanki qəliblərə bənzəyir, hər şey onların formalarında olur. Eyni zamanda, duyğu aləmində hər şey ideyalara doğru yönəlir, onlara can atır. İdeyaları duymaq olmaz, onları yalnız düşüncə ilə dərk etmək mümkündür.

Buna örnək kimi at, qoyun, bəbir və siçanı göstərmək olar. Onların hər biri fərqli varlıq olmasına baxmayaraq, biz onların hamısını "heyvan" adlandırırıq. Halbuki, onların hər biri fərqli varlıqlardır: biri at, başqası siçan və s. Ancaq Platona görə həmin "heyvan" anlayışı təkcə bizim beynimizin məhsulu deyildir. O müəyyən bir məkanda doğrudan da vardır. At, siçan, bəbir, qoyun və s.

onun görüntüləridirlər. Deməli o "heyvan" bunların pərdə arxasında olan ideyasıdır.

Platona görə bu dünyanı yalnız ideyalar aləmini dərk etməklə anlatmaq mümkün deyildir. Hər şey müvəqqəti və keçici olduğuna görə, burada *"varlıq"*dan başqa *"yoxluq"* da vardır. Bununla da o, *Parmenidesin* fəlsəfəsinə zidd getmiş, yoxluğun maddə olduğunu, ideyaların isə onda təcəssüm etdiyini iddia etmişdir. Deməli, yuxarıdakı örnəkdə sözü keçən at, qoyun, bəbir və siçan əslində yoxdur. Onlar ideya olan həqiqi varlığın yansımasıdırlar (əks olunmasıdırlar). Beləliklə, Platonun fəlsəfəsində varlıq ideya, yoxluq isə materiyadır (20, 455-466). Bu dünya əslində varlıq olan ideyalarla, yoxluq olan materiyanın (maddənin) arasındadır. Bir tərəfdən onun var olması ideyalar aləmindən xəbər verir; başqa tərəfdən isə o həm də yoxluqdur, çünki bu dünya keçicidir və onun üzərində olan hər şey ölümə, həmçinin məhv olmağa məhkumdur.

İdeyalar aləmi Platonun fəlsəfəsində çoxpilləli və piramida şəkilindədir. Bu piramidanın başında xeyir və həqiqət rəmzi olan ***Əql*** (yun. *νοῦς*) durur, hər şeyin məqsədi də odur (1, 17-19). Əbədi olan ideyalar da Əqldədir. Eyni zamanda, ideyalar yaradılmamış və ölməzdirlər, zaman və məkandan asılı deyil, dəyişməzdirlər. Duyğular aləmində isə hər şey əksinə cərəyan edir, orada hər şey keçici və ölümə məhkumdur. Bundan başqa bu dünya zaman və məkandan asılıdır. Həyatın məqsədi ideyalar aləminə (Tanrıya) yaxınlaşmaq, ona bənzəmək, müvəqqəti xarakter daşıyan maddi aləmdən uzaqlaşmaqdır (1, 37-38).

Platon tanrı barəsində özəl fikirlərlə çıxış etmişdir. Onun fikrincə, ideyaları maddi aləmdə təzahür etdirən və onları əlaqələndirməyə çalışan bir tanrı vardır. Bu tanrı "***Demiurqos***"dur (yun. *Δημιουργός* – sənətkar) (20, 432). Ancaq nə ideyalar, nə də maddə ondan asılı deyildir. Çünki, onları o yaratmamışdır. Demiurqos əbədi olan ideyaları onun təzahürləri ilə uyğunlaşdırmışdır. Bu baxımdan Demiurqosu "yaradıcı" adlandırmaq olar. Bununla da, Platonun tanrısı hər şeyi heçdən yaradan monoteistik Tanrıdan fərqlənir. Eyni zamanda, Demiurqos hər şeyə qadir də deyildir. O yalnız materiyanın müqavimətini qıraraq onu ideyaya uyğunlaşdırmaq istəyir, ancaq bunu qismən edə bilir[52].

Tanrı (Vahid) və dünya anlayışları Platon fəlsəfəsində həm də eyniləşir. "Parmenides" dialoqunda o, Vahidin mahiyyətini açmış və onun çoxluqla (başqa şeylərlə) əlaqəsi probleminə toxunmuşdur. Bunu edərkən o, Vahidin dərk olunmazlığı (transsendentliyi) ilə eyni zamanda dünyada təzahür etməsi məsələləri haqqında düşünmüşdür. Çünki, bir tərəfdən Vahid sonsuz uzaqlardadır və onu duymaq mümkün deyildir. Digər tərəfdən isə o dünyada da təzahür etməli və duyulmalıdır.

Burada Vahidin eyni zamanda həm var olması, həm də yoxluğu; həm bir, həm də çox olması kimi paradoksal nəticələrə gəlinir. Belə ki, Platon "Parmenides" dialo-

---

[52] Gələcəkdə bəzi qnostik xristian cərəyanlarının təlimində Demiurqos "ikinci" və ya "saxta" tanrı kimi tanınmışdır. Onlara görə həqiqi Tanrı kainatı yaratdıqdan sonra, yerdə hakimiyyəti şər qüvvələr ələ keçirmişdirlər. Onların başçısı da Demiurqos olmuşdur. Bu səbəbdən də dünyada şər vardır.

qunda (16, 368-411) ***hipotezlər*** (ehtimallar) irəli sürmüşdür. Burada iddia edilir ki, əgər Vahid vahiddirsə, onda onun hissələri yoxdur. Çünki, bu anlayışda hissə bölgüsü ola bilməz. Deməli, o tamlıq deyil, çünki tam olan şeyin hissələri olmalıdır. Belədirsə, onda onun əvvəli, ortası, sonu yoxdur, yəni o hüdudsuzdur. O nə başqa şeydə, nə də özü özündə yoxdur; nə hərəkət edir, nə də sükunətdədir. O heç nəyə də bənzəmir, onu dərk etmək ya da duymaq olmaz. Onun haqqında nə bilik, nə fikir, nə də söz irəli sürmək mümkündür. Nəticədə isə Vahid haqqında hər bir iddia, fikir, söz və düşüncə yalnız inkara çevrilir. O bu dünya anlayışlarına sığmayan bir şeydir, olmamış kimidir, yəni yoxdur.

Başqa tərəfdən isə dünya varsa Vahid də var. Çünki, dünyanın başlanğıcı olmalıdır. Belədirsə, onda deməli bu dünya elə Vahidin özüdür və o mövcuddur. Bu da o deməkdir ki, bir tərəfdən Vahid özü-özü üçün var, digər tərəfdən isə dünya üçün mövcuddur. Deməli, Vahidi dərk etmək üçün çoxluq anlayışına keçilməlidir. Bu da "vardır" və "mövcuddur" ikiliyindən başlanır; ikilik isə çoxluğun başlanğıcıdır. Çoxluqda olduğuna görə Vahid haqqında fikir irəli sürmək də olar. Beləliklə, Vahidi ancaq o durumda dərk etmək və onun haqqında fikir yürütmək olar ki, o çoxluq olsun.

Daha sonra "Vahid yoxdur" iddiasının nəticələri onun özü və ondan ayrısı üçün araşdırılır. Sonda isə bu iddia Vahidə çoxluğun və çoxluğun çoxluğa münasibəti baxımından baxılır. Əgər Vahid yoxdursa, onda başqa

şeylər nə tək, nə də cəm olaraq düşünülməz, çünki Vahidsiz çoxluq haqqında düşünmək mümkün deyildir.

Platon ***ruh haqqında*** da düşünmüş və onu bədənə qarşı qoymuşdur. Hər bir insan ideal aləmin və eyni zamanda materiyanın (maddənin) daşıyıcısıdır. Bədən keçici və ölümə məhkum olan materiya, ruh isə dəyişməz və ölməz ideyadır (22, 36). Ona görə də həyatın mənası əbədiliyə hazır olmaq, onu qazanmaqdan ibarət olmalıdır.

Platona görə ruhların *ağıllı, qəzəbli* və *nəfsi* səviyyələri vardır (10, 212-219). Ağıllı səviyyə insanı ideyalar aləminə yaxınlaşdırır, onun mənəviyyatının əsasında durur və onu həmişə xeyrə yönəldir. Qəzəbli səviyyə onu nizamlayır və çətinliklərə qarşı dözümlü edir. Nəfsi səviyyə isə insanı maddi aləmə bağlayır, onu geriyə çəkir və ideyalar aləmindən uzaqlaşdırır. Durumdan asılı olaraq insanlarda bəzən ağıllı, bəzən qəzəbli, bəzən isə nəfsli səviyyə üstün olur (1, 22-25).

Qeyd etmək lazımdır ki, Platon *reinkarnasiyaya*[53] da inanırdı. O hesab edirdi ki, öz əməllərinə görə insan gələcək həyatda müxtəlif bədənlərdə yeni həyat qazanacaqdır (22, 38). Ancaq, yetkinlik səviyyəsinə çatmış ruhlar əbədi olaraq bu dünyadan ayrılır və ideyalar aləmi ilə qovuşur. Beləliklə, Platon ruhun maddə (bədən) ilə qovuşmasına bir mənalı baxmırdı. Onun üçün bədən ruhun zindanıdır. Ruh o zindandan qurtarmağa və öz azadlığına qovuşmağa can atır. Ona görə də, insan ruhunu azad etmək üçün dünya ilə bağlarını qırıb ən yüksək məqsəd olan ***"Xeyrə"*** yönəlməlidir.

---

[53] Ruhların bir bədəndən başqasına köçməsidir.

Bundan başqa, Platon ruhların insan bədənində olmasından öncə var olmasına da inanırdı (22, 26). Buna görə də, insan ideal aləmdə olanları xatırlayır. Orada ruh hər şeyi ən mükəmməl və gözəl şəkildə görürdü. O, maddi aləmdə hər şeyin həqiqi mahiyyətini dərk etməyə çalışır və onların ideyalarını yada salır. Sonralar, Platonun *"ruhun xatirələri"* haqqında fikri ***apriorizm***[54] adlanmışdır.

Platona görə ruh ölməzdir, çünki insanın bilikləri onun ruhunun məhsuludur. Onlar səbəbsiz yaranmır, keçmiş həyatın xatirələridir. Bu baxımdan da bilik itmir və heç bir vaxt yaddan çıxarıla bilməz. Bu da unutma və xatırlama silsiləsini təşkil edir. Platon qeyd etmişdir ki, heç də hər bir insanın ruhu ölümdən sonra tanrılar aləminə ucalmır. Ancaq həyatı boyu özünü tanıma ilə məşğul olan, hər şey haqqında düşüncələrə qapına və həqiqəti axtaranların (filosofların) ruhları bu məqamlara çatır. Filosof olmayan insan isə saflaşaraq tanrılara bilməz. Filosoflar bədənin ölümündən sonra yeni bədəndə dünyaya gəlməzlər. Başqa insanların ruhları isə yaşadıqları həyat tərzinə uyğun olaraq yeni bədənlərə köçürlər.

Beləliklə, öncə dini məzmun daşıyan ölməzlik ideyası ilk dəfə fəlsəfəyə keçmişdir. Filosofun ölümü adi insanın ölümünə bənzər deyil. Onun ruhu ilahi əbədilik ideyasının təcəssümüdür. Yenə Platona görə yüksək məqamlara çatmaq üçün dini ayinlərə riayət etmək deyil, fəlsəfi məqamlara yüksəlməklə mümkündür. Ümumiy-

---

[54] **Apriorizmə** görə insanın düşüncəsində elə biliklər və qəliblər vardır ki, onlar təcrübə nəticəsində əldə edilməmiş, öncələrdən olmuşdur.

yətlə, ideyalar *intuisiya*[55] vasitəsi ilə dərk edilir və bu həqiqi bilikdir. Maddi aləmin təzahürləri isə yalnız təsəvvürlərdir. Bu təsəvvürlər isə heç də həqiqi bilik deyildir.

Platon fəlsəfəsində ***sevgi hissinə*** də böyük əhəmiyyət verilir. Onun təsiri o qədər böyükdür ki, onsuz heç nə təsəvvür edilməz. Hətta, gözəlliyə və xeyrə olan sevgi hissi insan ruhunun ideyasıdır. Ən böyük güc isə sevgi tanrısı ***Erotdur*** (17, 86). Onun verdiyi güc heç nə ilə müqayisə edilə bilməz. Erot təkcə insanda deyil, bütün təbiətdə yaşayır və onu idarə edir (17, 94-97). Hər şey sevgidən yaranır və ondan doğulur. Ona görə Erota ən böyük sayğı bəslənilməlidir. Eyni zamanda, Erot bəlkə də tanrı da deyildir. Sadəcə insan təbiətini tanrılarla bağlayan bir gücdür. Ola bilsin ki, Erot gözəl də deyildir, sadəcə gözəlliyə və xeyrə yönəlir. Çünki, onda olmayan bir şeyi əldə etməyə çalışır. Həmçinin Erot, cismani və mənəvi sevgini birləşdirən bir gücdür.

Bədənə qarşı olan bir sevgidə bayağılıq olsa belə, o lazımdır. Çünki, öncə gözəl bədənə vurulan insan, sonra onun ruhunda olan *Xeyri* və mənəvi gözəlliyi axtarır və ona qovuşmaq istəyir. Sonra isə sevgi gücü insanı *İdeal Gözəlliyə* yönəlməklə tərbiyələndirir, elmini artırır və onu yüksək dəyərlərlə yaşamağa vadar edir. Beləliklə, sevgi hissi bizi mənəvi cəhətdən də təkmilləşdirir. Nəticədə, bu hisslər ədəbiyyatda əks olunur. Ona görə də, sevgi xeyrin təcəssümüdür.

---

[55] **İntuisiya** (lat. *intuitio* – seyr etmək) – həqiqətə məntiqi təhlil və düşüncənin nəticəsində deyil, duyğu, öncədəngörənlik və təsəvvür vasitəsi ilə çatmaqdır.

Platonun sevgi haqqındakı fikrini sonrakı dövrlərdə müxtəlif xristian və müsəlman (sufi) mistik təlimləri mənimsəmişdirlər. Ancaq, onlar sevgini yalnız mənəviyyatda görmüş, onu Tanrıya qovuşma yolunda əsas vasitə kimi dəyərləndirirdilər. Elmdə isə Platonun bu fikirlərini ***Ziqmund Freyd*** istifadə etmişdir. Onun psixoanalizində Sevgi hissi insan təbiətinin aparıcı güvəsidir.

Platon öz fəlsəfəsində ***dövlət*** və ***cəmiyyət*** məsələlərinə də böyük əhəmiyyət vermişdir. Bu məsələlər əsasən insan və ruh fəlsəfəsi aspektində açıqlanır. O hesab edirdi ki, insanlar yetkin cəmiyyəti fərdi şəkildə qura bilməzlər. Ona görə də, dövlətə və qanunlara ehtiyac vardır. Ancaq dövlət öz vəzifəsini yerinə yetirmək üçün ideala yaxın olmalıdır. Bu məqama çatmaq üçün isə idarəçilik üsullarının və qanunun müəyyən tələblərə cavab verməsi lazımdır.

Ümumiyyətlə, Platon insanları üç təbəqəyə bölmüşdür. Birinci təbəqədə *ağıl sahibləri* olan insanlar yer almaqdadır (10, 253). Çünki, onların mənəviyyatında düşüncə digər duyğuları üstələyir. Bu səbəbdən də ağıl sahibi olan insanlarda ideyaların ardıcıllığı ilə ahəngi əks olunur və bu kimi insanlar ideal gözəlliyi də dərk edə bilirlər. Onlar həmçinin ***Xeyrə*** doğru yönələrək ədalət və həqiqət tərəfdarları olub, dünyanın aldadıcı özəlliklərinə aldanmırlar. Məhz, ağıl sahibi olan insanlar müdrik filosoflardır və onlar dövləti idarə etməlidirlər.

İkinci təbəqəni *emosianal insanlar* (10, 190) təşkil edir. Onların mənəviyyatında emosianallıq (affektlik) payı daha çox olur. Bu kimi insanlar əsasən özlərinə qapanırlar.

Ancaq, bu təbəqədən olanlar igidlik və mərdlik örnəyi də ola bilərlər. Onlar əsasən orduda qulluq etməli, ictimai asayışı qorumalı, öz xidməti borclarını yerinə yetirməlidirlər.

Üçüncü təbəqəni isə *dünyaya bağlı olanlar* təşkil edirlər (10, 189). Onların ruhları maddi aləmdən həzz almağa meyllidir. Bu təbəqədən olan insanlar əsasən fiziki əməklə məşğul olmalı, dövlətin maddi vəziyyətini yaxşılaşdırmalı, ölkəyə qulluq etməlidirlər[56].

Platona görə bir neçə dövlət quruluşu vardır (10, 333-354). Bunlar əsasən aşağıdakılardır:

1. ***Aristokratiya*** (yun. *ἀριστεύς*-sayğın soydan olan + *κράτος*-hakimiyyət) – azlığı təşkil edən ən yaxşı vətəndaşların ədalətli hakimiyyəti;
2. ***Timokratiya*** (yun. *τῑμή*-dəyər + *κράτος*-hakimiyyət) – azlığı təşkil edən hərbiçilərin və başqa dəyərli insanların ədalətsiz hakimiyyəti;
3. ***Oliqarxiya*** (yun. *ὀλίγος*-azlıq + *κράτος*-hakimiyyət) – azlığı təşkil edən varlıların ədalətsiz hakimiyyəti;
4. ***Demokratiya*** (yun. δῆμος-xalq + *κράτος*-hakimiyyət) – çoxluğun həm ədalətli, həm də ədalətsiz hakimiyyəti;
5. ***Tiranlıq*** (yun. *τυραννίς*-istibdad) – bir nəfərin ədalətsiz hakimiyyəti.

---

[56] Qeyd etmək lazımdır ki, insanların təbəqələrə bölünməsi prinsipi hind fəlsəfəsində də vardır. Orada bu kimi təbəqələr *"varna"*lar adlanır. Varnalar dörddür: kahinlər (*brahmanlar*), hərbçilər (*kşatriyalar*), tacirlər və sənətkarlar (*vayşyalar*), aşağılanan və heç bir hüquqları olmayanlar (*şudralar*).

Platonun fəlsəfəsində ədalətli və kamil dövlət ən yüksək idealdır. Bu dövlətdə hamı öz vəzifəsini yerinə yetirməlidir. O hesab edirdi ki, şəxsi mülkiyyət və ailə toplumda qarşıdurmaların yaranmasına gətirib çıxardır. Bu isə toplumun və dövlətin birliyini pozur. Ona görə də, hakimiyyətdə olan təbəqənin və əskərlərin mülkiyyəti və qadınları ümumi olmalıdır (10, 327).

Klassik yunan fəlsəfəsinin üçünçü nümayəndəsi **Aristotel** (yun. *Ἀριστοτέλης*, m. ö. 384 – 322) olmuşdur. Frakiyanın Stagira şəhərindən idi. Aristotel Platonun öyrəncisi olmuş, müəlliminin ölümündən sonra bir müddət Kiçik Asiyada yerləşən Atarne, sonra isə Lesbos adasındakı Militena şəhərində yaşamışdır. Gənc yaşlarından elmə və fəlsəfəyə böyük maraq göstərmişdir.

Aristotel m. ö. 367-ci ildə Afinaya köçmüş, Platonun Akademiyasında fəaliyyət göstərmişdir. M. ö. 343-cü ildə Makedoniya kralı Filippin dəvəti ilə Makedoniyaya köçmüş, onun sarayında gənc şahzadə ***Aleksandrın*** (Makedonlu İskəndərin) müəllimi olmuşdur. M. ö. 335-ci ildə Afinaya qayıtmış, orada *Likeion*[57] (yun. *Λύκειον*) adlanan öz fəlsəfi məktəbini açmışdır. Onu **"Peripatetik"** (ərəbcə "məşşai") məktəb də adlandırırlar.

Aleksandrın ölümündən sonra Afinada makedoniyalıların tərəfdarlarını təqib etməyə başlamışdırlar. Ona görə Aristotel m. ö. 322-ci Euboia adasında yerləşən Xalkida şəhərinə köçmüş və orada dünyasını dəyişmişdir.

---

[57] Yaxınlığında yerləşən yunan tanrısı Likeionlu Apollonun adı ilə adlanmışdır. Latınca *"lyceum"* (liseum) kimi səslənir. Günümüzdə ***"liseylər"*** adlanan məktəblər Aristotelin likeionunun adını daşıyır.

Aristotel qədim dünyanın ən böyük filosoflarından biri olmuşdur. Onun elmi fəaliyyəti nəticəsində qədim yunan fəlsəfəsi ən parlaq dövrlərini yaşaya bilmişdir. O, ilk dəfə insan düşüncəsinin bütün sahələrini əhatə edən fəlsəfi sistem yarada bilmişdir; məntiq, təbiət, metafizika, ontologiya, əxlaq, dövlət, ritorika, poetika və s. sahələrinə aid əsərlər yazmışdır. Onların arasında ***Metafizika*** (yun. *Μετὰ τὰ φυσικά*), ***Fizika*** (yun. *Φυσικὴ ἀκρόασις*), ***Göy haqqında*** (yun. *Περὶ οὐρανοῦ*) ***Nikomaxus əxlaqı*** (yun. *Ἠθικὰ Νικομάχεια*), ***Meteorologiya*** (yun. Τα μετεωρολογικά), ***Kateqoriyalar*** (yun. Κατηγοριῶν), ***Sofistlərin təkzib edilməsi*** (yun. *Περὶ τῶν σοφιστικῶν ἐλέγχων*), ***Ruh haqqında*** (yun. *Περὶ ψυχῆς*), ***Politika*** (yun. *Πολιτικά*) kimi bütün dünyada tanınan və sonrakı dövrlərdə elmin inkişafında misilsiz rol oynayan kitablar vardır. Ümumiyyətlə, o bəşəriyyət tarixində ilk insandır ki, elmlərə sistemli yanaşmış və onların təsnifatını vermişdir.

Aristotelin çoxlu əsərləri zamanımıza gəlib çatmışdır. Bundan başqa Aristotelin fəlsəfi düşüncələri onun öyrəncilərinin və başqa yazarların əsərlərində də verilmişdir. Bir sıra tədqiqatçılar ehtimal edirlər ki, onun müəllifliyi ilə tanınan bəzi əsərlər ola bilsin Aristotelin deyil, başqa müəlliflər tərəfindən yazılmışdır.

Aristotel ***"metafizika"*** sözünü birbaşa işlətməsə belə, mənaca bu anlayışın əsasını qoyan ilk filosof kimi tanınmışdır. Metafizika fəlsəfənin predmeti olaraq təbiət üstü aləmlə bağlı problemlər haqqında təsəvvürlərdir. Metafizika həm də dialektikaya qarşı durur. Metafizikanı

fəlsəfənin predmeti kimi ilk dəfə fəlsəfi ədəbiyyata daxil edən və onun ilkin anlamını verən də Aristotel olmuşdur.

Aristotel Platonun ideyalar haqqında təlimini tənqid etmişdir (3, 19-22). Onun *"Platon mənim dostumdur, ancaq həqiqət dostluqdan üstündür"* kimi məşhur kəlamı da vardır. Aristotelə görə ideyalar və gerçək dünya bir-birindən fərqli məkanlarda mövcud ola bilməz. Çünki, bir şeyin kölgəsi başqa məkanda deyildir. Onların hər ikisi bir yerdə olmalıdırlar. Ona görə də, onlar birlikdə vəhdət təşkil edirlər.

Eyni zamanda, Platonun ideyaları bu dünyadakı hərəkəti, eləcə də şeylərin və canlıların yaranması, inkişafı, məhv olması və ölümünü izah etmir. Çünki, onlar (ideyalar) gerçək aləmdən uzaq olan başqa aləmdədirlər və daha çox sükunəti təcəssüm etdirirlər. Bundan başqa Platonun nəzəriyyəsi dünyadakı şeylərin dərk olunmasını imkansız edir, çünki onların əsl mahiyyəti özlərində deyil, bizim duymadığımız ideyalarda olur.

Bu səbəblər üzündən Aristotel varlığı başqa çür təsəvvür edirdi. Onun fikrincə hər şeyin əsasında hər zaman var olan *materiya* durur. O elə bir cansız və ruhsuz bir maddədir ki, ondan hər şeyi yaratmaq mümkündür (3, 90-92). Bu yaradılış prosesini də ***"İlk mühərrik"*** (yun. *τὸ πρῶτον κινοῦν*) adlanan bir başlanğıc həyata keçirdir. Aristotel onun varlığını hərəkətin varlığı ilə əsaslandırmışdır, çünki bir şey hərəkətdədirsə onda bu hərəkətə təkan verən olmalıdır. Hər şeyi hərəkətə gətirən "İlk mühərrikin" özü isə hərəkətsizdir (23, 372). O materiyanı canlandırır və ondan bitki, heyvan və insanlar kimi

canlılar yaradır (3, 166). Bu dulusçunun gildən düzəltdiyi müxtəlif şeylərə bənzər bir prosesdir. Məsələn, "İlk mühərrik" ilkin olaraq insanın *formasını* və ya Platonun ifadəsi ilə desək, onun *ideyasını* düşünür. Sonra ona öncə düşündüyü görkəmdə bədən verir və bununla da insan yaranmış olur. Bütün dünya və kainat əslində *maddədən* (materiyadan) ibarətdir. Beləliklə, Aristotelin istifadə etdiyi ***"forma"*** anlayışı, Platonun *"ideyasına"* çox yaxın məna daşıyır.

Aristotelə görə "İlk mühərrik" insanların ibadət etdiyi tanrı deyildir. O maddə də deyil, ***"Əqldir"*** (yun. *νοῦς*). Planonun *Demiurqosundan* fərqli olaraq, Aristotelin "İlk mühərriki" ideyalardan kənar olan bir gerçəklik kimi qəbul edilir. O hər zaman fəaliyyətdədir və cansız materiyaları formalaşdırır. Bu fikirlər sonralar xristian və müsəlman fəlsəfəsində də istifadə edilmişdir.

Ümumiyyətlə, Aristotel fəlsəfəsində *formaya* xüsusi əhəmiyyət vermiş və o təbiətlə eyniləşdirilmişdir (23, 430-431). Onsuz materiya yalnız bir *imkandır* (potensiyadır). Məsələn, daşların bir araya yığılması imkan verir ki, bina tikilsin (forma alsın). Ancaq, o bina tikilməzsə daşların bir araya yığılmasının heç bir mənası yoxdur. Deməli, imkanın varlığı əhəmiyyətli olsa belə, o həlledici amil deyildir. Hərəkət olmasa imkan keyfiyyətə keçməz. Kainatı təşkil edən materiya da belədir. Ondan formalar yaranmasa, mənasız bir şey olar. Deməli əslində hər şey *materiya* və *formanın* vəhdətindən ibarətdir (3, 154).

Beləliklə, Aristotel formaları şeylərdən ayırıb, onları substansiya kimi təsəvvür edirdi. Materiya isə Aristotelin

fəlsəfəsində "İlk mühərrik" kimi əbədidir, o yaradılmayıb və məhv edilməzdir. Onun əsasını *dörd ünsür* (od, hava, su və torpaq) təşkil edir. Bu ünsürlər həm də dərk edilməyən "İlk mühərriklə" reallıqda mövcud olan və duyulan aləm arasında bir bağlantı və keçiddir. Duyulan şeylərin isə bir-birinə zidd olan iki cüt xassəsi vardır. Biri *isti-soyuq*, digəri isə *quru-nəmdir*. Yuxarıda qeyd edilən dörd əsas element isə bunların xassələri vasitəsi ilə formalaşır. Dünyada bütün duyulan şeylər yuxarıda qeyd edilən elementlərin kombinasiyalarının nəticəsidir. İlk materiyadan fərqli olaraq onlar dərk olunur və əsas kateqoriyalar vasitəsi ilə təyin edilir.

Aristotel ***kateqoriyalar və idrak prosesi barəsində*** də xüsusi fikirlərlə çıxış etmişdir. Müəyyən bir şey haqqında tam təsəvvür yalnız onun mahiyyətinin bilinməsindən sonra yaranır. Bu da Aristotel fəlsəfəsinin ən əsas məqamlarından birini təşkil edir. O hər şeyin mahiyyətinin izahını vermək üçün *kateqoriyaları* (yun. *κατηγορία* – ittiham, xassə, deyim) tətbiq etmişdir. Kateqoriyalar hər bir anlayışın, ifadənin, həqiqətin ən ümumi və sadə formasıdır ki, onların əsasında bir tərəfdən digər anlayışlar (*idrak kateqoriyaları*), başqa tərəfdən isə dərk edilən obyektlərin gördüyümüz varlıq formaları (*varlıq kateqoriyası*) ortaya çıxır. Başqa sözlə, kateqoriya reallığın ən əhəmiyyətli tərəflərini əks etdirən ümumi anlayışdır. Bununla da, Aristotel idrak və varlıq kateqoriyalarının münasibətlərini araşdıran *idrak nəzəriyyəsinin* əsaslarını qoymuşdur. Onun **"Orqanon"** (yun. *Ὄργανον)* əsərinin birinci kitabı ***"Kateqoriyalar"*** adlanır. Orada 10 kateqoriya

göstərilmişdir: 1) substansiya (yun. *οὐσία*), 2) kəmiyyət (yun. *ποσόν*), 3) keyfiyyət (yun. *ποιότης*), 4) münasibət (yun. *τὸ πρός τί*), 5) məkan (yun. *τὸ που*), 6) zaman (yun. *τὸ πότε*), 7) hal (yun. *τὸ κεῖσθαι*), 8) fəaliyyət (yun. *τὸ ποιεῖν*), 9) məxsusluq (yun. *τὸ ἔχειν*) və 10) məruz qalma (yun. *τὸ πάσχειν*) (5, 5-6). Aristotelə görə hər bir şeyin mahiyyətinin açılmasının əsasında bu kareqoriyalar durur.

İdrak haqqında (idrak nəzəriyyəsində) Aristotel subyektdən asılı olmayan *obyektiv reallığın mövcudluğu* mövqeyindən çıxış edirdi. O hesab edirdi ki, ətrafımızda olan şeylər insanda duyğular vasitəsi ilə əks olunur. Həqiqi biliyi ideal aləmdə görən Platondan fərqli olaraq Aristotel hesab edirdi ki, insandan asılı olmayan real dünya vardır. Orada olan hər bir şeyi insan öncə duyğu vasitəsi ilə qavrayır. Bilik və yüksək ağıl formaları isə duyğu yolu ilə əldə edilmir. Bunlar daha yüksək əqli fəaliyyətlə əldə edilir.

Aristotel tərəfindən kateqoriyaların fəlsəfi izahının verilməsi həm də ***məntiq*** elminin inkişafına təsir etmişdir. Çünki, hər bir şeyin mahiyyətində duran anlayışların müəyyən edilməsi o şey haqqında tam təsəvvür yaradır. Beləliklə, Aristotel məntiq elminin inkişafında müstəsna rol oynamışdır. Onun üçün məntiq ayrıca elm deyil, hər bir elmin əsasıdır. Aristotelin məntiq haqqında təlimi də ***"Orqanon"*** əsərində verilmişdir.

Aristotel hesab edirdi ki, məntiq sübutlar haqqında elmdir. Əqli fəaliyyət gerçəklikdə var olan şeyləri əks etdirir. Məntiqi mülahizə və əql yolu ilə əldə edilən nəticə,

fikir və terminlər bir-birinə zidd olmamalıdır. Bu fikirlərin əsasında isə sonralar ***sillogizm*** (yun. *συλλογισμός*) haqqında təlim yaranmışdır (6, 199-201). Bu təlimə görə, hər hansı bir ümumi növ ya cins haqqında irəli sürülən fikir o növə və ya cinsə aid olan ayrıca fərd haqqında da irəli sürülməlidir. Buna görə də, sillogizmlər böyük və kiçik *önərmə* (mülahizə) və *qərardan* ibarətdir. Önərmə qərarın verilməsinin təməlində duran iddia və ya fikirdir. *Böyük önərmə* ümumi nəticəni, *kiçik önərmə* isə subyekt haqqında nəticəni açır. Sillogizmin örnəyi kimi belə bir üçlü mülahizəni gətirmək mümkündür: *"Hər bir insan ölməlidir* (böyük önərmə). *Sokrat da insandır* (kiçik önərmə). *Deməli, Sokrat da ölməlidir* (qərar)*"*.

***"Sofistlərin təkzib edilməsi"*** kitabında Aristotel yazırdı ki, bütün məntiqi yanlışlıqların kökü sillogizmlərdə olan yanlışlıqlardadır. Bu yanlışlıqlar isə ikiyə bölünür: bir qismi *dilin* xətaları, digəri isə *anlamların* təhrifidir. Dildəki xətalar sözlərin çoxmənalılığından, vurğuların düzgün qoyulmamasından irəli gəlir. Məna xətalarının isə səbəbi şeylərin mahiyyətinə deyil, onların təsadüfi tərəflərinə varmaq, mütləqlə nisbini fərqləndirməmək, sualları düzgün qoymamaq kimi amillərdən irəli gəlir (21, 560-562).

Daha sonra Aristotel **"Orqanon"** əsərinin ***"Topika"*** (yun. *Τοπικά*) kitabında *həqiqət* anlayışını izah edən məntiqi dialoqlarını vermişdir. Burada o həqiqətin açılması üçün hər bir şeyin ilkin durumunun açılmasını və onun mahiyyətinin üzə çıxarılmasını tövsiyə etmişdir (21, 349-350). Onun fikrincə mülahizələrin istiqaməti də buna

doğru sürülməlidir. Yəni həqiqi fikir mahiyyətə yönəlməlidir. Çoxmənalı söz haqqında fikir söylədikdə onu irəli sürülən iddianın mənasına uyğunlaşdırmaq lazımdır. Məsələn, "*təbiət*" sözünü insan və ya çevrəmizdə olan bütün canlılar mənasında işlətmək mümkündür. Ona görə də, istifadə edilən söz irəli sürülən fikrə uyğun olmalıdır.

Aristotelə görə məntiqi dialoqda sistem də olmalıdır. Öncə problem ortaya qoyulmalı, sonra mülahizənin *induktiv*[58] ya *deduktiv*[59] metodlarla irəli sürülməsi yolları haqqında düşünülməli, məsələlərin bənzər və fərqli tərəflərinə diqqət yetirilməlidir. Suallar doğru və konkret qoyulmalı, cavabların isə strategiyası olmalıdır (21, 363-364).

Platon kimi Aristotel də ***ruh haqqında*** düşünmüşdür. O, ruhu həyatın əsası hesab edirdi. Ruh maddə və bədənin forması, onların hərəkətlərinin səbəbi və məqsədidir. O bitki, heyvan və insanlarda yaşayır. Ruh bədənlə birlikdə var olsa belə, ondan daha üstündür. Beləliklə, Aristotelə görə bədən ruha tabedir (13, 131-135).

Platonda olduğu kimi, Aristotel də ruhların səviyyələri haqqında söhbət açmışdır. Onun fikrincə ruhların üç səviyyəsi vardır. Birincisi *bitkiseldir* (nəbatidir) ki, onun sayəsində fiziki inkişaf baş verir. İkincisi səviyyə *nəfsani* (heyvanidir). Bu səviyyədə ruh artıq görmək, eşitmək, duymaq, toxunmaq; ehtirasa və iştaha gəlmək kimi

---

[58] **İnduksiya** (lat. *inductio*) – tək-tək hallardan ümumi nəticələrə, ayrı-ayrı faktlardan ümumiləşdirmələrə gətirən məntiqi nəticənin çıxarılmasıdır.
[59] **Deduksiya** (lat. *deductio*) – ümumi müddəa ya da qanunlardan fərdi nəticənin çıxarılmasıdır.

xüsusiyyətlərini təmin edir. Üçüncüsü isə *düşüncəvidir* ki, o ruhun ən yüksək səviyyəsidir (13, 145-147).

Aristotelə görə bitkilərdə ruhun yalnız bitkisel, heyvanlarda nəfsani, insanlarda isə həm bitkisel, həm nəfsani, həm də düşüncəvi səviyyəsi vardır. Məhz düşüncəvi səviyyəsini inkişaf etdirən, xeyrə yönələn, mənəvi cəhətdən yüksələn, müdrikliyə çatan insanlar *xoşbəxt* olurlar.

Heyvanlar xoşbəxtliyin nə olduğunu bilmir, tanrılar isə daim xoşbəxt həyat keçirirlər. Yalnız insan öz xoşbəxtlik yolunu seçmək ya da onu inkar etmək imkanındadır. Aristotelə görə xoşbəxt olmaq üçün ruhun düşüncəvi səviyyəsini inkişaf etdirmək lazımdır ki, insan heyvanlardan seçilsin.

Aristotel ***əxlaq*** haqqında fikirlərini də ortaya qoymuşdur. Onun fikrincə əxlaqın məqsədi ruhun *Xeyrə* yönəlməsidir (4, 265-267). Bu isə insanı xoşbəxtliyə çatdırır. Bu yolda ruhun əqli səviyyəsi bitkisel və nəfsani səviyyələri üstələyir. Bunu əldə etmək üçün insan özünü Xeyrə yönəltmə istiqamətdə tərbiyələndirməlidir ki, bu da sonra vərdiş halını alsın və zaman keçdikcə insanın xüsusiyyətinə çevrilsin. Bununla belə xoşbəxt olmaq üçün sağlamlıq, yaxşı görkəm, müvafiq maddi durum kimi keyfiyyətlər də olmalıdır.

Xeyrin özəlliyi isə hər bir aşırılıqdan uzaqlaşmaqdır (4, 121-123). Məsələn, qorxaqlıq və məğrurluq aşırılıqlardırsa, bunların arasında olan comərdlik əxlaqın əsası olan Xeyirdir. Yenə də israfçılıq və xəsislik aşırılıqlardırsa, qənaətçilik məqsədəuyğun əxlaq nümunəsidir (4, 56-57).

Aristotelə görə insan həyatdan həzz almalıdır, bu da *Xeyrə* çatmanın nəticəsində baş verir. Beləliklə, insanın mənəvi durumu o zaman yüksək olur ki, o etdiyi əməllərin doğru və xeyrə uyğun olduğunu hiss etsin. Əxlaqlı hərəkət isə hər hansı bir xeyirli işin görülməsi ilə dəyərləndirilmir, çünki xeyir əməllər çoxdur və insanlar onları eyni dərəcədə bütün həyatları boyu etməlidirlər ki, həyatdan həzz alsınlar (4, 74-79). Hər bir insan təbəqəsinin öz əxlaqi vəzifələri vardır. Eyni zamanda, ədalət anlayışı kimi hamı üçün bir olan xeyir vardır ki, ona hamı əməl etməlidir. Qeyd etmək lazımdır ki, hər bir əxlaqi hərəkət şüurlu olaraq yerinə yetirilir. Deməli, əxlaq düşüncə ilə sıx bağlıdır və buna görə də, insanın xeyirlə şəri bir-birindən ayırmaq imkanı vardır.

Aristotelin özəl ***kosmologiası*** olmuşdur. Onun kosmologiasının əsasını *yermərkəzçilik* (geosentrizm) təşkil edirdi. Bu da yerin kainatın mərkəzində yerləşməsi haqqında təsəvvürdür. O hesab edirdi ki, yer kürə formasında olaraq hərəkətsizdir. Onun ətrafında ay, günəş, ulduzlar və göy fırlanır. Yermərkəzçilik təlimi orta əsrlər fəlsəfəsində kosmoloji baxışların formalaşmasında çox böyük rol oynamışdır.

***Fizika*** sahəsinə toxunan Aristotel hesab edirdi ki, dünyanın əsasını *beş ünsür* təşkil edir. Onlardan dördü *torpaq, su, hava* və *od* bizim səmaaltı dünyadadır (12, 444). Onlar hərəkətdədir və eyni zamanda formalarını da dəyişdirə bilərlər. Buna görə də, dünyada müxtəlif proseslər baş verir və dəyişikliklər müşahidə edilir. Bu ünsürlər isə öz növbəsində iki qütblü və ziddiyyətli ikiliklərdən ya-

ranır. Belə ki, yer soyuqla istinin, hava quru ilə nəmin, su soyuqla istinin, od isə isti ilə qurunun əlaqələrindən doğur (12, 448).

Aristotelə görə göydə olan nə varsa beşinci ünsür olan *efirdən* əmələ gəlmişdir (14, 272). Orada yalnız planetlərin və ulduzların əbədi və bərabər dairəvi hərəkəti mövcuddur. Bütün bunları isə simasız tanrı kimi təsəvvür edilən *"İlk mühərrik"* əmələ gətirmişdir. Onun fikirlərinə görə, kosmos sonsuz deyildir, onun bitdiyi yerdən yoxluq başlayır (14, 284).

Bu fikirlər orta əsr Xristian və İslam teologiyasında (ilahiyyatında) da geniş istifadə edilmişdir. Belə ki, orta əsrlərdə ilahiyyatçılar düşünürdülər ki, günah yerlə bağlı bir şeydir, ona görə də göy ünsürləri yerdəkilərdən fərqlənməlidir. Çünki, ideal aləm olaraq *efir* Tanrı və onun məlaikələrinin yeri kimi təsəvvür edilirdi. Bu səbəbdən də, varlığın başlanğıcı və sonu Tanrıdır. Yoxluq da buradan başlayırdı. Sonra isə elm inkişaf etdikcə sübut olunmuşdur ki, əslində yer və göy ünsürləri arasında heç bir fərq yoxdur. Bu da onu göstərirdi ki, Aristotelin bu kimi fikirləri artıq köhnəlmişdir.

Daha sonra Aristotel ***dövlət və cəmiyyət haqqında*** fikirlərini ortaya qoymuşdur. O, Platonun ideal dövlət haqqında təlimini tənqid etmişdir. Platonun ideal dövlətindən fərqli olaraq Aristotelin dövləti utopik deyil, gerçəklik kimi təsəvvür edilir. Bu dövlət modelində insanların xoşbəxtliyi əsas şərtdir, ancaq burada bütün münasibətlər gerçək və düşüncə ilə uyuşan müddəalara əsaslanır (18, 414).

Dövlətin başlıca məqsədi xeyrin və ədalətin qurulmasıdır. İnsan öz təbiətinə görə şüura malik *ictimai heyvandır* (4, 308). O yalnız icma şəklində yaşayıb tərbiyə oluna bilər. Buna isə yalnız dövlətdə nail olmaq mümkündür. Ona görə də, insan həm də *siyasi varlıqdır* (18, 378).

Əsl ədalət qanunların mövcudluğu ilə xarakterizə olunur. Dövlətdə yaşayan insanlar isə mütləq şəkildə qanunlara tabe olmalıdırlar. Bu isə əslində hər bir insanı ucaldır. Ona görə də, dövlət inkişaf etmiş cəmiyyətlərin birliyidir.

Eyni zamanda, cəmiyyətin əsasını həm də ailə təşkil edir. Ona görə də onun qanun və strukturunu Aristotel dövlətlə əlaqələndirirdi. Onun fəlsəfəsində ailə ictimai həyatın ilk mərhələsi kimi xarakterizə edilir (18, 380), cəmiyyət və dövlət isə eynilik təşkil edir. Dövlətin məqsədi hər bir vətəndaşın xoşbəxt və güvəncli yaşamasını təmin etməkdir (18, 591).

Aristotel quldarlıq cəmiyyətinin tərəfdarı idi, bu quruluşu da təbii durum kimi dəyərləndirmişdir. Tale insanların bir qismini hakimiyyət üçün, digərlərini isə onlara xidmət etmək üçün yaratmışdır. Buna baxmayaraq Aristotel aşırı olaraq varlanmağa da qarşı olmuşdur. Həm də Platondan fərqli olaraq Aristotel insanların şəxsi mülkiyyətinə böyük önəm vermişdir (18, 605). O, dövlətdə yaşayan azad insanları mülkiyyətlərinə görə siniflərə bölürdü. Bunlar da *varlılar, orta təbəqə* və *yoxsullar* idilər[60] (18, 511). Bu bölgüdə

---

[60] Aristotelin bu fikirləri sonralar kommunist və başqa solçu təlimlərində istifadə edilmişdir. Orada təbəqələşmə *burjua*, *ziyalı* və *fəhlə-kəndli* sinfi kimi verilmişdir.

Aristotel ən çox orta təbəqəyə əhəmiyyət verirdi. Çünki, varlılarla yoxsullar arasında davamlı ziddiyyətlər vardır. Ona görə də o, dövlətin sabitliyi üçün orta təbəqənin möhkəmlənməsini vacib bilirdi. Aristotel düşünürdü ki, dövlətdə yoxsulların sayı artmamalıdır, çünki belə olarsa sabitlik pozula bilər[61] (18, 529).

Aristotelə görə siyasət insanların dövlətdə öz həyatlarını yüksək səviyyədə qurmaq və yönləndirmək üçün istifadə etdikləri vasitədir. Onun məqsədi insanları xeyrə doğru yönəltməkdir (18, 590-591). Ancaq, insanların çoxlu əskiklikləri də vardır. Ona görə də siyasətin məqsədi onları tərbiələndirməkdir. Beləliklə, hər bir vətəndaş qanunlara və hakimiyyətə tabe olmalı, öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Bu məqsədlə də dövlət cəmiyyətə uyğun olan siyasi quruluşu seçməlidir.

Aristotel dövlətdə insanlar nemətlər əldə etmək üçün birləşirlər. Dövlət vətəndaşlara həddən artıq varlanmaq imkanı verməməlidir. Hər hansı bir şəxsin həddən artıq hakimiyyət əldə etməsinin də qarşısı alınmalıdır. Dövlət həm də kölələri öz tabeçiliyində saxlamalıdır. Varlı vətəndaşlardan fərqli olaraq kölələr və yoxsullar dövlət işlərində iştirak edə bilməzlər.

Onu da qeyd etmək lazımdır ki, Aristotelin dövlət və siyasət haqqında fikirləri yunanlara ünvanlanmışdır. Başqa millətləri o *barbar* hesab etmiş, onların kölə ruhlu olduqlarını iddia etmişdir (18, 475). O qeyd edirdi ki, əgər

---

[61] Günümüzdə də, siyasi quruluşlarda stabilliyin davamlı olması üçün orta təbəqənin formalaşdırılması və möhkəmləndirilməsi, bununla da varlı və yoxsul təbəqə arasında ziddiyyətlərin yumşadılması yolu tutulmuşdur.

yunanlar obyektiv səbəblər üzündən yaşadığı yerlərdə məqsədəuyğun dövləti qura bilmirlərsə, onda onlar xarici qüvvələrə müraciət edə bilərlər. O, burada əsasən makedoniyalıları nəzərdə tuturdu. O düşünürdü ki, onların vasitəsi ilə İran məğlub edilməli və bu ərazilərdə yeni yunan dövlətləri yaranmalıdır. Bunu isə öyrəncisi Makedonlu İskəndər reallaşdırmışdır.

Aristotelə görə bir necə dövlət quruluşu vardır. Onlar *düzənli* (nizamlı) və *düzənsiz* (nizamsız) olmaqla iki yerə bölünürlər. Düzənli quruluşlar monarxiya, aristokratiya və politiyadır. *Monarxiya* bir adamın (kralın), *aristokratiya* isə yüksək imtiyazlı siniflərin hakimiyyətidir. Burada tək adamın deyil, azlığın hakimiyyəti həyata keçirilir. *Politiya* çoxluğun maraqlarını əks etdirən çoxluğun hakimiyyətidir, bu həm də mötədil demokratiyadır. Bu idarəetmə sistemi çox az millətlərdə ola bilər. Orada hər şey (əxlaq, rifah və s.) mötədildir, hədlər aşılmır, aşırılıqlara yol verilmir (18, 502-503).

Düzənsiz dövlət quruluşu isə *tiraniya* (istibdad), *oliqarxiya* və *demokratiya* kimi idarə etmə üsullarına bölünür. Burada hakimiyyəti əldə etmişlər öz şəxsi maraqlarını güdürlər. *Tiraniya* belə bir monarxiya quruluşudur ki, orada bir nəfər hakimiyyəti öz şəxsi maraqları üçün istifadə edir. *Oliqarxiya* öz maraqlarını güdən imtiyazlı siniflərdən olan azlığın hakimiyyətidir. *Demokratiya* isə cəmiyyətdə çoxluqda olan yoxsulların və azad vətəndaşların hakimiyyətidir. Bununla belə, demokratiya başqa düzənsiz hakimiyyətlərin arasında ən yaxşısıdır. (18, 457)

Monarxiyadan yayınma tiraniyaya, aristokratidan yayınma oliqarxiyaya, polisiyadan yayınma demokratiyaya, demokratiyayadan yayınma isə oklokratiyaya gətirib çıxardır. *Oklokratiya* isə demokratiyanın aşırı formasıdır. Bu quruluşda boşboğazların (demaqoqların) idarə etdiyi kütlə öz istəyi və nəfsinə uyğun olaraq hakimiyyət qurur (18, 496-497). Bu kimi quruluş əsasən ölkələrdə qarışıqlıq zamanı ortaya çıxır.

Aristotelin fəlsəfi irsi bəşəriyyətin düşüncə tarixində çox böyük izlər buraxmışdır. Ellinizm və Roma dövrləri, sonra isə orta əsrlər boyu filosoflar və alimlər Aristotelin əsərlərindən bəhrələnmiş, öz dünyagörüşlərini formalaşdırmışlar. *Peripatetiklər* adlanan bu filosoflar onun fəl-səfi irsinə müraciət edərək onu inkişaf etdirmişdirlər.

**Mövzu ilə əlaqəli suallar:**

1. Sokrat kim olmuş, hansı şəxsi keyfiyyətləri ilə fərqlənmişdir?
2. Evristika nədir, onun hansı tərkib hissələri vardır?
3. Sokrat fəlsəfəsində ironiyanın rolu və onun mahiyyəti nədən ibarətdir?
4. Maevtika və indiksio nədir, Sokratın fəlsəfəsində onların əhəmiyyəti nədən ibarətdir?
5. Sokrat fəlsəfəsi hansı istiqamətə yönəlmişdir?
6. Sokratın əxlaqi problemlərə münasibəti necə olmuşdur?
7. Platon fəlsəfəsində hansı problemləri qaldırmış, onun hansı əsərləri olmuşdur?

8. Platonun ideyalar haqqında təlimi nədən ibarətdir?

9. Platon materiyanı necə təsəvvür edirdi?

10. Platon tanrını necə təsəvvür edirdi?

11. Platonun hipotezlərinin məzmunu nədir?

12. Platon ruhlar, onların öncədən olması və köçməsi haqqında nə düşünmüşdür?

13. Platon sevgi hissinə nə dərəcədə əhəmiyyət verirdi?

14. Platonun dövlət və cəmiyyət məsələlərinə münasibəti necə olmuşdur?

15. Platona görə insanlar hansı təbəqələrə bölünürlər?

16. Platona görə hansı dövlət quruluşları vardır?

17. Aristotel kim olmuş, dünya fəlsəfəsinə və elminə hansı töhfələr vermişdir?

18. Metafizika nədir?

19. Aristotel Platonu tənqid edərək hansı müddəalar irəli sürmüşdür?

20. "İlk mühərrik" və onun vəzifəsi nədir?

21. Aristotelin fəlsəfəsində materiya və forma nədir, onların vəhdəti necə təsəvvür edilir?

22. Aristotelin fəlsəfəsində "kateqoriyalar" nədir və onlar hansılardır?

23. Aristotelin idrak nəzəriyyəsi nəyə əsaslanırdı?

24. Aristotelin məntiq təliminin əsasları nədən ibarətdir?

25. Sillogizm nədir?

26. Aristotel ruh haqqında hansı fikirlərlə çıxış etmiş, onun hansı çeşidləri haqqında söhbət açmışdır?

27. Aristotel əxlaq haqqında nə demişdir?

28. Aristotel dünyanın quruluşunu necə təsəvvür edirdi?

29. Aristotelin dövlət və cəmiyyət haqqında fikirləri necə olmuşdur?

30. Aristotelin siyasi təlimində hansı hakimiyyət növləri vardır?

**Ədəbiyyat:**

1. Alcinous. The Handbook of Platonizm / Translated by J. Dillon. Oxford University Press, 2002.

2. Anonymous Prolegomena to Platonic Philosophy, 2 // Journal of the History of Philosophy. Vol.1, № 2, December 1963.

3. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor, 1801.

4. Aristotle. Nicomachean Ethics / Translated by D. P. Chase. London: George Routledge & Sons, 1910.

5. Aristotle. Organon / Translated by Octavius Freire Owen. London: Henry G. Bohn. 1853.

6. Aristotle. Prior Analytics / Translated by H. Tredennick. London: William Heinemann LTD, 1949.

7. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

8. Olympiodorus. Life of Plato // The Works of Plato: A NEW and literal version. Vol. VI. London: Henry G. Bohn, 1865.

9. Platon. Apology // The Dialogues of Plato / Translated by B. Jowett. Vol. 2. Oxford University Press, 1892.
10. Государство / Перевод А. Н. Егунова. // Платон. Собрание сочинений в 3-х томах. Т. 3 (1). М.: Мысль, 1994.
11. Менон / Перевод С. А. Ошерова. // Платон. Собрание сочинений в 4-х томах. Том 1. М.: Мысль, 1990.
12. Метеорологика / Перевод Н. В. Брагинской // Аристотель. Сочинения в 4 томах. Т. 3. М.: Мысль, 1981.
13. О душе / Перевод П. С. Попова // Аристотель. Сочинения в 4-х томах. Т. 1, М.: Мысль, 1976.
14. О небе / Перевод А. В. Лебедева // Аристотель. Сочинения в 4-х томах. Т. 3, М.: Мысль, 1981.
15. О софистических опровержениях / Перевод М. И. Иткина // Аристотель. Сочинения в 4 томах. Т. 2. М.: Мысль, 1978.
16. Парменид / Перевод Н. И. Томасова. // Платон. Собрание сочинений в 4-х томах. Том 2. М.: Мысль, 1990.
17. Пир / Перевод С. К. Апта. // Платон. Собрание сочинений в 4-х томах. Том 2. М.: Мысль, 1993.
18. Политика / Перевод С. А. Жебелева // Аристотель. Сочинения в 4 томах. Т. 4. М.: Мысль, 1983.
19. Теетет / Перевод Т. В. Васильевой. // Платон. Собрание сочинений в 4-х томах. Том 2. М.: Мысль, 1993.
20. Тимей / Перевод С. Аверинцева. // Платон. Собрание сочинений в 4-х томах. Том 3. М.: Мысль, 1994.
21. Топика / Перевод М. И. Иткина // Аристотель. Сочинения в 4 томах. Т.2. М.: Мысль, 1978.

22. Федон / Перевод С. П. Маркиша. // Платон. Собрание сочинений в 4-х томах. Том 2. М.: Мысль, 1993.
23. Физика // Аристотель. Сочинения в четырех томах / Том 3. Перевод В. П. Карпова: М. Мысль, 1981.

## 1.9. Sokratçı məktəblər

Qeyd olunduğu kimi Sokratın irsini davam etdirən çoxlu öyrənciləri olmuşdur. Onun ölümündən sonra onlar müxtəlif fəlsəfi məktəblər yaratmışdırlar. Bu məktəblərə **"sokratçı"** məktəblər deyilir. Ümumiyyətlə, bir çox araşdırmaçılar qədim yunan fəlsəfəsini *iki mərhələyə* bölürlər: *sokratöncəsi* və *sokratsonrası*. Bu da onu göstərir ki, Sokratın irsi qədim yunan fəlsəfə tarixinin mərkəzində durur.

### 1.9.1. Kinik məktəbi

Sokratçı məktəblərdən biri olan **Kinik** ya da **Sinik** (yun. *κῡνικοί* – it, lat. *cynici*) məktəbinin ardıcıllarının fikrincə müdriklik nəzəri biliklər deyil, xeyrin nə olduğunun dərk edilməsidir. Həqiqi xeyir hər bir şəxsə ayrı-ayrılıqda aid edilə bilər. Ərdəmli[62] həyatın məqsədi bir məqamdır, yəni məmnunluq halıdır. Bu hala çatmağın şərti hər bir asılılıqdan (o cümlədən ailədən, əmlakdan) azad olmaqdır. Ona görə də kiniklər abidliyi, sadə həyat yaşamağı təbliğ etmişdirlər. Hətta onlardan bəziləri bir çox ehtiyac

[62] **Ərdəm** – insanın müsbət keyfiyyətlərinin toplusu, xeyrə yönəlməsi və o xeyrin həyata keçirilməsidir.

və tələbatlarını inkar edib onları rədd edirdilər. Onlar adətlərə və dini ayinlərə istehza ilə yanaşırdılar. Kiniklər çox vaxt ictimai əxlaqa və qaydalara qarşı olduqlarını açıq olaraq sərgiləyirdilər. Buna da *sinizm* (kinizm) deyilir.

Kiniklər bütövlükdə dərin fəlsəfi təlimlər ortaya qoymamışdılar. Kinizm daha çox bir həyat tərzi idi. Onlar abidliyi, yoxsulluğu və cəmiyyətdən ayrılaraq xüsusi bir həyatın sürülməsini təbliğ edirdilər (10). Onların fikrincə həyatın məqsədi azadlığa nail olmaqdır ki, bunu da cəmiyyətdə yaşayaraq əldə etmək mümkün deyildir.

Kiniklərin daimi yaşayış yeri olmamışdır. Onlar təkliyə çəkilərək fərdi həyat sürür, köhnəlmiş libaslar geyinib gəzir, dilənçiliklə məşğul olurdular (10). Yoxsulluq kiniklər üçün vacib şərtlərdən biri idi.

Daha sonra kiniklər heç bir avtoritetləri tanımır, başqa ideyaları və fəlsəfi məktəbləri inkar edir, beləliklə öz həyat tərzlərini istənilən vasitələrlə olsa belə müdafiə edirdilər. Onlar üçün vətənə bağlılıq anlayışı olmamışdır, hər bir cəmiyyətdə öz qanunları ilə yaşaya bilərdilər. *Kosmopolitizm* adlanan bu dünyagörüşün əsasını onlar qoymuşdur (4, 371). Həmçinin onlar mübahisələrdə rəqiblərinə qarşı dözümsüzlük sərgiləyirdilər.

Kiniklərin yolunu sonralar Xristian abidləri və müsəlman dərvişləri davam etdirmişdirlər. Müasir dövrdə inkişaf etmiş ölkələrdə bu kimi baxışlar metallistlər, hippilər, anarxistlər kimi qruplarda və təlimlərdə özünü göstərməkdədir.

Kinik məktəbinin yaradıcısı **Antisfenes** sayılır (yun. *Ἀντισθένης*, təxminən m. ö. V yüzilliyin 1-ci yarısı). An-

tisfenes öncə Qorgiasın öyrəncisi, sonra isə Sokrat təliminin ardıcılı olmuşdur. Onun fəlsəfəsində ümumi anlayışların mövcudluğu inkar edilir. O hesab edirdi ki, yalnız fərdi şeylər vardır. Antisfenes deyirdi: *"Mən atı görürəm, atlığı yox"* (12, 64) və iddia edirdi ki, insanı görmək mümkündür, insanlığı yox. Hər bir fərdi şey haqqında demək olar ki, o vardır. Məsələn, "at atdır", "fil fildir". Ümumi şeylər isə yoxdur, onlar yalnız insan düşüncəsindədir (7, 31). Bu baxımdan Antisfeni ilk *nominalist*[63] adlandırmaq mümkündür. Bu problem sonralar ortaəsr fəlsəfəsinin əsas mövzularından biri olmuşdur.

Antisfenesə görə fəlsəfənin vəzifəsi insanın iç aləminin araşdırılmasından ibarətdir. Ərdəmə çatmaq, xeyirlə həyat sürmək həyatın mənasıdır ki, buna da abidliklə çatmaq mümkündür (3, 220-221). İnsan öz təbiətinə uyğun yaşamalı, şəxsi maraqlarını cəmiyyətin maraqlarından üstün saymalıdır. Heyvanların (özəlliklə də itlərin) həyatı insanlar üçün təbii yaşamın nümunəsi olmalıdır. Ona görə də, Antisfenesa ***"İt"*** (yun. *κῦνικοί* – kinik) ləqəbini vermişdirlər (3, 221). Bu səbəbdən sonralar onun bütün ardıcılları kinik adlandırılmışdır. Ancaq başqa bir məlumata görə məktəbin adı Antisfenesin dərs dediyi yerin adı ilə bağlıdır.

Eyni zamanda, Antisfenes özünü hansısa dövlətin deyil, bütün dünyanın vətəndaşı elan etmişdir. Dini və ictimai qanunlar da onun tərəfindən inkar olunurdu.

---

[63] **Nominalizm** (lat. *nominalis*) – ümumi anlayışların gerçəklikdə deyil, yalnız insan düşüncəsində olduğunu iddia edən fəlsəfi təlimdir.

**Sinoplu Diogenes** (yun. *Διογένης ὁ Σινωπεύς*, m. ö. 412 – 323) da kinik məktəbinin tanınmış təmsilçisi, Antisfenesin öyrəncisi idi. Onun barəsində əsasən Diogenes Laertius yazmışdır (3, 224-248).

Sinoplu Diogenes özünü açıq şəkildə ictimai əxlaqa qarşı qoyan adam olmuşdur. Buna da *epataj* deyilir. Onu epataj üslubunun ilk fəlsəfi nümayəndəsi saymaq mümkündür. Məsələn, günlərin birində Diogenes meydanda fəlsəfi nitq söyləyərkən insanların onu dinləmədiklərini görmüş və buna görə də onların diqqətini cəlb etmək üçün quş səsləri çıxarmışdır. O zaman hamı susub onu dinləməyə başlamış və bunun qarşılığında Diogenes onlara demişdir: *"Bu da sizin ağlınız. Mən ağıllı şeylər haqqında danışanda məni dinləmədiniz, indi isə ağılsız quşun səslərini çıxardıram, siz də ağzıaçıq məni eşitməyə başladınız".*

Bir kərə çəlləkdə oturan Diogenesin yanına Makedoniyalı İskəndər gəlib demişdir ki, *"məndən dilədiyin bir şey varmı?"*. Diogenes isə cavabında: *"Sən mənim isindiyim günəşin önünü kəsdin; ona görə istəyim odur ki, qarşımdan çəkiləsən".*

Bundan başqa Diogenes bir çox cəmiyyət tərəfindən qınanılan hərəkətləri hamının qabağında edirdi. Bununla da öz azadlığını sərgiləyirdi. Diogenesin fikrincə əxlaq nisbi anlayışdır. O, bu hərəkətləri ziyan vermək üçün deyil, insanların diqqətini müxtəlif problemlərə cəlb etmək üçün edirdi. O həm də, hər şeyi üzə deyən kobud insan olmuşdur. Ona görə Platon ona ***"Dəli Sokrat"*** demişdi. Diogenes dünyadan ayrılaraq abid həyatı keçirdirdi. O hətta, evini tərk edib çəlləkdə yaşamış və orada olarkən

dünya haqqında fikirlərə qapanmışdır. Diogenes zənginliyə nifrət edib və köhnə geyimlərdə gəzirdi. Həmçinin o, evlənməyə qarşı idi. O deyirdi ki, kişilərlə qadınların münasibətləri azad olmalıdır.

Diogenesə görə xeyrə yönəlmək ictimai qanunlara riayət etməkdən üstündür. O, dövləti və dini də inkar edərək onları bəzi demaqoq insanların uydurması hesab edirdi.

Tanınmış kiniklərdən biri də **Bion Boristenes** (yun. *Βίων ὁ Βορυσθενίτης*; m. ö. 325 – 250) olmuşdur. Bion Boristenes öncə bir neçə fəlsəfi məktəblərin ardıcılı olmuş, ancaq sonra kinik olaraq əyninə xirqə, əlinə əsa alaraq gəzən abid həyatını yaşamışdır (3, 174). Bion sadə xalq kütlələri arasında fəlsəfi fikirləri ədəbi üslub vasitəsi ilə yayırdı. Bunun üçün o *parodiya, istehza, ironiya, sarkazm* və *kinayədən* istifadə edirdi. Beləliklə, başqa kiniklər kimi Bion ***"diatriba"***[64] adlanan ədəbi janrının yaradıcılarından biri olmuşdur. Bu janrda ciddi və dərin mövzular sadə xalq dilində anlaşıqlı olaraq təqdim edilir; həmçinin, burada müqayisələrdən, əsatirlərdən, xalq deyimlərindən, istehzadan, bayağı xalq sözləri və zarafatlarından da geniş istifadə edilirdi. Bion öz diatribalarında insanların nöqsanlarını, varlanmaq istəklərini və ağılsızlıqlarını tənqid etmiş; tanrıları və onlara yönələn duaların əhəmiyyətini inkar etmişdir.

Filosof **Kerkidasın** (yun. *Κέρκιδᾶς*) da Misirdə tapılan və ***"meliambalar"*** adlanan poetik üslubu diatribalara

[64] **Diatriba** (yun. *διατριβή*) – sarsıdıcılıqla dolu söz, "yıxıb sürümək"dir.

çox yaxın idi (13, 94). Kerkidas aristokratlardan idi, ona görə də başqa kinik filosoflarından fərqli olaraq daha da mötədil mövqedə durmuşdur. Meliambalarda Kerkidas təvazökarlığın və sadəliyin carçısı kimi çıxış etmiş, var-dövlətə nifrət hissləri aşılamış, insanları ədalətə və yüksək əxlaqa çağırmışdır. Ona görə də sonralar bəzi Xristian ataları onu hörmətlə yad edirdilər.

Kinik məktəbinin daha bir tanınmış nümayəndəsi Diogenesin öyrəncisi **Krates** (yun. *Κράτης*) və onun həyat yoldaşı **Hipparxia** (yun. *Ἱππαρχία*) olmuşdur. Məlumdur ki, onlar da abid həyatı sürmüşdürlər. Onların ikisi də varlı ailədən olduqlarına baxmayaraq hər şeydən imtina etmiş, abid həyatı yaşamışdırlar (3, 251 və 254-255). Onlar hesab edirdilər ki, zənginliyi və şöhrəti dəyər kimi qəbul etmək olmaz. Çünki, müdrik insan üçün bütün bunlar şərdən başqa bir şey deyildir. Krates və Hipparxia cəmiyyətdə hökm sürən ictimai əxlaq qaydalarına istehza ilə yanaşır, imkan olduqda onları hamının gözü önündə kobudcasına pozurdular.

### 1.9.2. Kirena məktəbi

Daha bir sokratçı məktəb Kirena şəhərində yerləşmiş və o məktəbin ardıcılları isə **kirenaçılar** adlandırılmışdır (yun. *Σχολή της Κυρήνης*). Onlara ilk *hedonistlər*[65] də deyirlər.

---

[65] **Hedonizm** (yun. *ἡδονή*) – həyatın məqsədini həzz almaqda görən əxlaqi təlimdir.

Kirenaçıların çoxusuna görə insan çevrəsindəki dünyanı duyğular vasitəsi ilə qavrayır (dərk edir); ona görə də duyğu qavramın (idrakın) əsasında duran əsas amildir (8, 99). İnsana xoş gələn duyğular qəbul edilməli, gəlməyənlər isə rədd edilməlidir.

İnsanın məqsədi həyatdan həzz almaq və ağrıdan çəkinməkdir (3, 89). Həzz keçmiş və gələcəyə deyil, yalnız indiki mövcud zamana aid edilə bilər. Məhz, bu kimi həzzə can atılmalıdır. Keçmiş və gələcək isə bizim hökmümüzün xaricindədir. Ona görə nə keçmişdəki günahlarımızdan peşman olub üzülmək, nə də gələcəyin sınaqlarından qorxmaq lazımdır. Azadlıq xoşbəxtliyə aparan nemətdir.

Kiniklər kimi bir çox kirenaçılar da əxlaqi qadağanların insan təbiətinə zidd olduğunu iddia edib, onlara riayət edilməsini vacib saymırdılar (3, 93-94). Hətta, "xeyir" və "maddi zənginlik" kimi anlayışlar əslində həzz almaq üçün vasitədirsə, onda gərəkli və yararlı sayıla bilərlər. Belə olmasa onda onlar mənasızdır.

Kirenalılar dinə qarşı da inkarçı mövqedə durmuşdular. Ona görə də onların bəzilərini "ateist" adlandırırdılar. Onların fikrincə vətənə bağlanmaq yox, dünya vətəndaşı olmaq lazımdır. Onlardan bəziləri bu dünyada yaşamağın mənasız olmasını və intihar etməyin üstünlüyünü də iddia edirdilər.

Eyni zamanda, kirenalıların mötədilləri də olmuşdur. Mötədillər bu kimi aşırı fikirləri qəbul etmirdilər. Onların fikrincə insan cəmiyyətdə yaşamalı, onun qanunlarına tabe olmalıdır. Ancaq eyni zamanda bacardığı

qədər həyatından həzz də almalı, narahatlıqlardan qaçmalıdır.

Kirena məktəbinin yaradıcısı **Aristippus** (yun. *Ἀρίστιππος*, təxminən m. ö. 435 – 355) olmuşdur. Diogenes Laertiusa görə, Aristippus üç hissədən ibarət olan ***"Liviyanın tarixi"*** və bir çox dialoqların müəllifi olmuşdur (3, 88).

Aristippusa görə biz yalnız öz duyğularımıza əsaslanaraq bu, ya digər şey haqqında hökm veririk. Halbuki bu heç də o demək deyil ki, duyğularımız o şey haqqında doğru bilgi verib. Deməli, əslində şeylərin əsl mahiyyətini açmaq olmaz və təbiətin öyrənilməsi imkansızdır.

Təbiətdə isə hər şeyi yalnız "xeyir" və "şərə" bölmək mümkündür. Ona görə də, onlara müvafiq dəyərlər ancaq "yaxşı" və "pis" ola bilər. Bu səbəbdən də, Aristippus bu anlayışlar arasında fərq qoymayan riyaziyyatı inkar edirdi (1, 51). Aristippusa görə həyatın məqsədi həzz almaqdan ibarətdir. Bununla belə, bunu edərkən aşırılığa yol vermək və həzzlərin köləsi olmaq olmaz.

Aristippus şəxsi azadlığı yüksək dəyərləndirmişdir. Onun fikrincə, hansısa ölkənin vətəndaşı olmaq vacib deyildir. İnsana yetər ki, hər yerdə yadelli kimi yaşasın (11, 40). Çünki, var-dövlət insan azadlığını məhdudlaşdırır. Ona görə də, onun miqdarı gəmi qəzası anında apara biləcəyin qədər olmalıdır.

**Hegesias** (yun. *Ἡγησίας*, m. ö. 320 – 280) və onun ardıcıllarının fikirlərini də Diogenes Laertius açıqlamışdır (3, 89-92). Onlar hesab edirdilər ki, həzz və ağrı hissləri vardır. Məqsəd ağrıdan qaçıb həzzə doğru yönəlməkdir.

Əslində nə dostluq, nə ərdəm, nə kimdənsə razılıq kimi hisslər yoxdur. Biz onlara hansısa məqsədlər üçün yönəlirik, çünki məqsədlər olmasa bu hisslər də olmaz.

Xoşbəxtliyi əldə etmək mümkün deyildir. Çünki, həyat istənilən arzuların qarşısını alır. Həzz almaq üçün varlı və ya yoxsul olmağın fərqi yoxdur. Çünki, həzz alırsansa hər iki durumda onu ala bilirsən. Əgər həzz ala bilməsən, o zaman var-dövlətin heç bir əhəmiyyəti yoxdur.

Bizim duyğularımız dəqiq biliyə gətirib çıxartmır. Ona görə ağılımıza güvənməliyik. Başqa adamların yanlışlıqlarını bağışlamaq lazımdır. Çünki onlar bilmirlər ki, yanılırlar. Ona görə insanlara davranışlarına görə nifrət etməkdənsə, onları öyrətmək yaxşıdır. Beləliklə də, başqa adamların davranışlarına və hərəkətlərinə qarşı *biganə* (yun. *ἀδιαφορία*) olmaq lazımdır. Biganəlik isə iztirabın qabağını ala bilməyəndə, onda insana ancaq ölmək qalır.

Son olaraq Hegesias belə bir nəticəyə gəlmişdir ki, həzzə çatmaq mümkün deyildir. Ona görə də, yaşamağın mənası yoxdur. Bu fikri inkişaf etdirərək o, ***"Aclıqla özünü öldürmək"*** (yun. *ἀποκαρτερνῶ*) kitabını yazmışdır və buna görə də ona *"Ölüm müəllimi"* adı vermişdilər. Onun bir çox öyrəncisi intihar etməklə həyatlarına son qoymuşdular.

Daha bir kirenaçı **Annikeris** (yun. *Ἀννίκερις*, m. ö. III – II yüzilliklər) olmuşdur. Annikeris və onun ardıcılları haqqında da Diogenes Laertius xəbər vermişdir (3, 92-93). Onun fikrincə dostluq, valideynlərə ehtiram, vətənə qulluq hissləri reallıqda vardır. Dosta yalnız maraqlarla ya-

naşmaq olmaz. Onunla münasibətlərdən ruhi məmnunluq alınmalıdır. Hegesiasdan fərqli olaraq o, müdrik insanın xoşbəxtliyə çatmağını mümkün saymışdır.

Diogenes Laertiusa görə Kirena məktəbinin ardıcıllarından biri **Teodorus** (yun. *Θεόδωρος*, m. ö. V – IV yüzilliklər) olmuşdur (3, 93). Teodorus xalq arasında yayılmış tanrılar haqqında təsəvvürləri inkar etmiş, buna görə də "Ateist" adlandırılmışdır. O, bu barədə hətta ***"Tanrılar haqqında"*** kitab da yazmışdır.

Onun fikrincə sevinc və kədər hissləri vardır. Birincisi düşüncədən, digəri isə düşüncəsizlikdən irəli gəlir. Xeyir düşüncədəndir və ədalətdir, şər isə onlara əks olan hər şeydir. Bunların ortası isə həzz və ağrıdır.

Dostluq əslində yoxdur. Maraqlar sona çatan kimi dostluq da qurtarır. Müdrik insan isə özü özünə yetərlidir, ona dost lazım deyildir. Həmçinin ağıllı insan üçün bütün dünya vətəndir, hansısa bir yerə bağlı olmaq olmaz.

Oğurluq, əxlaqsızlıq, müqəddəsliyə qarşı olmaq kimi əməllərdən ikrah doğuran bir şey yoxdur. Bu anlayışlar təbiətdən deyil, yalnız insan cəmiyyətindən irəli gəlir. Buna görə də, bu anlayışlar haqqında cəmiyyətdə qəbul olunmuş fikirlərlə razılaşmaq olmaz. Bu barədə müdrikin öz fikri olmalıdır. Bu əməllərə görə ictimai qınaqlar ağılsızların qarşısını almaq üçün tətbiq edilmişdir. Bunlar müdrik insan üçün deyildir.

Kirena məktəbinin daha bir ardıcılı **Euhemerus** (yun. *Εὐήμερος*, təxminən m. ö. 340 – 260) olmuşdur. Euhemerus Messena şəhərindən idi. Bizim zamanımıza onun *Panheya* adasına səyahəti haqqında ***"Müqəddəs siyahı"***

(yun. Ἱερά ἀναγραφή) adlı utopik hekayəsi çatmışdır. Bu əsərin fraqmentləri qədim yunan tarixçisi *Siciliyalı Diodorusun* (yun. *Διόδωρος Σικελιώτης*, m. ö. 90 – 30) kitabında verilmişdir (9, 108-110). Orada Euhemerus bir məbədin yanındakı sütun üzərində həkk olunan bir yazını görmüşdür. O yazıda yunan tanrılarının siyahısı verilmiş və onların keçmişdə krallar olduqları haqqında məlumat verilmişdir.

Beləliklə, Euhemerus qədim tanrıları inkar edirdi. Onun fikrincə bütün tanrılar əslində ölümlərindən sonra tanrılaşdırılan krallar və qəhrəmanlar idilər (5, 71). Məsələn, o, baş tanrı Zeusu Krit adasının kralı olduğunu, sonra isə tanrılaşdırıldığını iddia edirdi. Euhemerusun bu fikirləri ***"euhemerizm"*** adlanmışdır və buna görə onu ateizmdə suçlamışdılar. Sonralar euhemerizm dinşünaslıq elmində bir nəzəriyyə kimi istifadə edilmişdir.

### 1.9.3. Meqara məktəbi

Meqara məktəbi (yun. *Μεγαρική σχολή*) daha bir Sokrat ardıcılları tərəfindən yaradılan məktəblərdən biri idi və onun adı yerləşdiyi şəhərlə bağlı olmuşdur. Onları daha çox metafizika, məntiq və ərdəm kimi məsələlər maraqlandırırdı. Meqaraçıları mübahisə etməyə meylli olduqlarına görə "eristiklər" [66] və ya "dialektiklər" də adlandırmışdırlar.

---

[66] **Eristika** (yun. *ἐριστικὴ τέχνη*) – sofistlər tərəfindən tərtib olunmuş mübahisə aparmaq sənəti, ustalığıdır.

Meqara məktəbi Sokratın öyrəncilərindən olan **Meqaralı Euklides**[67] (yun. *Εὐκλείδης ὁ Μεγαρεύς*, m. ö. 450 – 360) tərəfindən yaradılmışdır. O, Sokrat kimi bir çox zamanımıza çatmayan dialoqların müəllifi olmuşdur. Onun çoxlu öyrənciləri var idi.

Euklides hesab edirdi ki, dünyada yalnız ***Xeyir*** vardır, ona Həqiqət, Ağıl, Tanrı da deyilir. İnsan həyatının ən yüksək məqsədi onu dərk etməkdir. Dünyadakı bütün başqa şeylər və olaylar əslində yoxdur, onların var olması aldadıcıdır. Bir olan Xeyri deyil, başqa xeyirləri axtaranlar hər zaman ziddiyyətlərlə qarşılaşırlar. Beləliklə, Euklidesə görə varlıq birdir (3, 97).

Euklides həm də analogiyalarla (bənzər hallarla) nəyinsə haqqında qəti qərar verməyə qarşı çıxmışdır. Çünki, analogiya nə qədər hansısa olaya yaxın olsa belə, ondan fərqlənir və onun mahiyyətinə uyğun deyildir. Beləliklə, bir şey haqqında fikir yürütmək üçün bənzərinə deyil, o şeyin özünə müraciət edilməlidir (3, 97).

Diogenes Laertius Meqara məktəbinin daha bir görkəmli nümayəndəsi **Stilpon** (yun. *Στίλπων*, təxminən m. ö. 360 – 280) haqqında xəbər vermişdir (3, 100-103). O, fəlsəfi polemikanın ustadlarından biri idi, həm də siyasətlə də məşğul olurdu. Misir hökmdarı *Ptolemeus Soter* ona yaxşı münasibət bəsləmiş, ölkəsinə dəvət edərək ona çoxlu pul təklif etmişdir. Ancaq, Stilpon hər şeydən imtina etmiş və o pulun isə çox az hissəni götürmüşdür.

Meqarada savaş zamanı Stilponun evi qarət olunmuşdur. Makedoiya kralı Antiqonun oğlu *Demetriusa* bu xəbər çatdıqda o Stilpona təklif etdi ki, zərərin qar-

[67] Rus ədəbiyyatında onun adı *Evklid (Эвклид)* kimi səslənir.

şılanması üçün qarət olunmuş əmlakının siyahısını gətirsin. Kralın məqsədi ondan ibarət idi ki, ona itirilmişləri geri qaytarsın. Ancaq, Stilpon isə krala dedi ki, ona heç bir zərər dəyməmişdir. Çünki, onun malı, mülkü oğurlansa da, əxlaqı və ağlının ondan alınmamasını qeyd edərək, əsl zənginliyin də məhz bu olduğunu bildirmişdir.

Stilpon həm də tanrılara və dinə qarşı şübhəçi mövqedə dururdu. O demişdir ki, memar Fidiusun ərsəyə gətirdiyi Afinanın heykəli onun yaratdığı incəsənət incisidir. Deməli o, tanrı ola bilməz (3, 101). Bu iddiaya görə onu mühakimə edib sürgün etmişdirlər.

Stilpon *ümumi anlayışların var olub-olmaması haqqında* düşünən ilk filosoflardan biri olmuşdur. Onun fikrincə "insan" sözünü deyən heç nə demir, onun bu ifadəsinin mənası yoxdur (3, 102). Çünki "insan" deyilən söz ümumi bir şeydir; nə bu, nə də o adama aid deyildir. Yuxarıda qeyd edildiyi kimi, ümumi anlayışların var olub-olmaması problemi sonralar formalaşan ortaəsr fəlsəfəsinin ən maraq doğuran mövzularından birinə çevrilmişdir.

**Miletli Eubulides** (yun. *Εὐβουλίδης,* m. ö. IV yüzillik) də Meqara məktəbinin tanınmış nümayəndələrindən idi. Onun fikrincə duyğularımız bizə ətrafımızda olan şeylər haqqında yanlış bilgi verir. İstənilən şeyin həqiqi mahiyyəti onun görkəmində deyil, mahiyyətindədir. Məqsəd də o mahiyyətləri qavramaqdır. Bu kimi iddiaları irəli sürməklə o, *Elealı Zenonun* yolunu getmiş, bir çox ziddiyyətləri (paradoksları) açıqlamış, onların vasitəsi ilə öz fikirlərini əsaslandırmağa çalışmışdır. Bu paradokslar haqqında Diogenes Laertius xəbər verərək onlardan

bəzilərinin başqa meqaraçı *Diodorus Kronosa* aid olduğunu qeyd etmişdir (3, 99). Həmin paradoksların ən tanınmışları ***"Yalançı"***, ***"Keçəl"***, ***"Qalaq"***, ***"Elektra"*** və "***Buynuzlu***" adlanır. Günümüzə qədər elmi ədəbiyyatda onların çözülməsi haqqında müxtəlif fikirlər irəli sürülür (6, 287-295).

***"Yalançı"*** (yun. *Ψευδόμενον*) adlı paradoksda *"Mən yalan danışıram"* iddiası araşdırılır. Bir tərəfdən bunu iddia edən kəs heç də yalan danışmır, həqiqəti deyir. Çünki, yalan danışdığını etiraf edir. Digər tərəfdən isə bu iddiada o adamın yalan danışdığı iddia edilirsə onda o yalandır. Beləliklə, danışan yalan deyirsə düz danışır. Düz danışırsa, yalan deyir.

Daha bir paradoks ***"Keçəl"*** adlanır. Burada Eubulides deyir ki, bir tükü itirən keçəl olmaz, ikincisini itirsə də olmaz. Bəs onda neçənci tükün tökülməsindən başlayaraq insanı keçəl saymaq olar?

Buna bənzər daha bir paradoks ***"Qalaq"*** adlanır. Bir ya iki taxıl dəni qalaq deyil. Bəs neçənci dəndən qalaq başlanır?

Bir başqa paradoks ***"Elektra"*** adlanır. Elektra adlı qadının qarşısında örtük altında onun qardaşı durub. O, öz qardaşını tanıyır. Ancaq o, o örtüyün altında kimin olduğunu bilmir. Deməli, Elektra öz qardaşını eyni zamanda həm tanıyır, həm də tanımır.

***"Buynuzlu"*** adlanan paradoks isə daha da çox sofizmə yaxınlaşır. Burada Eubulides iddia edir ki, insan bir şeyi itirməmişdirsə, deməli o şey onda var. Əgər o buynuzları itirməyibsə, deməli buynuzludur. Burada bir

tərəfdən demək olar ki, olmayan şeyi itirmək olmaz, ancaq digər tərəfdən "məndə olmadığı şeyi heç vaxt itirə bilmərəm" də demək mümkündür.

Meqara məktəbinin məşhur nümayəndələrdən biri misirli **Diodorus Kronus** (yun. *Διόδωρος Κρόνος*, m. ö. IV yüzillik) idi. O, Elea məktəbinin nümayəndələri kimi hərəkətin olmasını inkar edirdi. Onun fikrincə hərəkətin özünü yox, onun nəticələrini dərk etmək mümkündür.

Hərəkət hər hansı bir yeri əhatə etməlidir. Ancaq bununla belə, hər hansı bir yerdə olan hər bir şey hərəkətsizdir. Deməli, hansısa şey hərəkət edirsə həmin anlarda hansısa bir yeri tutur və ona görə də hərəkətsizdir. Ya da hərəkət edən şey olduğu və olmadığı yerdə düşünülə bilər. Ancaq, olan yerdə o hərəkətsizdir, olmayan yerdə isə hərəkət olmaz. Beləliklə, o zaman hərəkətdən deyil, yerdəyişmədən söhbət gedə bilər (8, 375-376).

Daha sonra Diodorus ehtimal edilən şeyləri var olmuş kimi sayırdı. Ancaq, oluşan (həyata keçirilən) ehtimallar haqqında söhbət açmaq mümkündür. Oluşmayanlar isə mövcud deyildir. Yəni, gələcəkdən keçmişə baxanda məlum olur ki, həyata keçirilən ehtimallardan başqa digər ehtimallar olmamışdır. Belə olanda bu ehtimal deyil, həqiqətdir. Ancaq, bu gündən gələcəyə baxdıqda bizə elə gəlir ki, bir neçə ehtimallar vardır.

Diodorusa görə mövcud olmaq və mümkünlük eyni anlayışlardır. Çünki, mümkünlük mümkünsüzlüyə çevrilə bilməz, bu anlayışlar bir-birinə ziddir. İki hadisədən biri baş vermişdirsə, deməli ikincisi mümkünsüz imiş. Çünki,

o öncədən mümkün olsaydı, onda mümkünsüzlük mümkünlükdən doğmazdı. Belədirsə, onda deməli öncədən bu mümkün olmamışdır. Beləliklə, ancaq mövcud olan şey mümkün ola bilər. Məsələn, *"Dünya var"* və *"Dünya yoxdur"* bir-birinə qarşı olan iddialardır. Ancaq biz görürük ki, dünya var. Deməli, onun olmaması imkansızdır. An-caq, dünyanın yoxluğu mümkün olsaydı, onda imkan imkansızlığa çevrilərdi. Bu isə ola bilməz. Deməli, dünyanın yox olması ehtimalı heç vaxt olmayıb (2, 117).

### 1.9.4. Eretriya məktəbi

Bu məktəbi həm də Elida-Eretriya məktəbi də adlandırırlar, çünki o Elidada yaranmış, sonra isə Eritreyada fəaliyyətini davam etdirmişdir.

Eretriya məktəbinin fəlsəfəsi haqqında zamanımıza çox az məlumat çatmışdır. Ümumiyyətlə demək olar ki, bu məktəbin filosoflarının dünyagörüşü Meqara mək-təbinin nümayəndələrinə yaxın idi. Meqaraçılar kimi ere-triyaçılar da deyirdilər ki, həqiqi Xeyir birdir və ondan başqa xeyirlər yoxdur. Xeyirlə Həqiqət eynilik təşkil edirlər. Xeyri yalnız ağılla dərk edib, ona yönəlmək olar. (14)

Məktəbin yaradıcıları **Elidalı Fedon** (yun. *Φαίδων*, m. ö. IV yüzillik) və **Eretriyalı Menedem** (yun. *Μενέδημος*, təxminən m. ö. 345-261) olmuşdurlar. Platonun məşhur dialoqlarının biri olan ***"Fedon"*** Elidalı Fedonun adını daşıyır. Fedon və Menedem haqqında bir neçə pərakəndə fraqmentlərdən başqa heç bir məlumat zamanımıza çatmamışdır. (14)

**Mövzu ilə əlaqəli suallar:**

1. Kiniklər kim olmuş, onların həyat tərzi necə olmuşdur?
2. Kiniklərin təlimlərinin əsas müddəaları nədən ibarət idi?
3. Kiniklərin ictimai qanunlara münasibətləri necə olmuşdur?
4. Antisfenes ümumi anlayışların mövcud olmasını nəyə istinad edərək inkar etmişdir?
5. Antisfenesə görə insan həyatını necə yaşamalı, hansı dəyərlərlə üstünlük verməlidir?
6. Sinoplu Diogenesin dünyagörüşünün özəllikləri nədən ibarət olmuşdur?
7. Bion Boristenes və Kerkidas öz fəlsəfi fikirlərini açıqlayaraq hansı üslubdan istifadə etmişdilər?
8. Krates və Hipparxia nəyi təbliğ etmişdilər?
9. Kirenaçıların fəlsəfəsinin əsas müddəaları hansılar idi?
10. Aristippusa görə həyatın mənası nədən ibarətdir və insan dünyanı necə dərk edir?
11. Aristippus insan azadlığı haqqında nə düşünürdü?
12. Hegesiasa görə həyatın mənası nədədir və xoşbəxtliyə necə çatmaq olar?
13. Hegesias öz fəlsəfəsində hansı nəticəni əldə etmişdir?
14. Annikeris hansı fikirlərlə çıxış etmişdir?

15. Teodorusun insanın çeşidli halları və dostluq haqqında fikirləri nədən ibarət olmuşdur?

16. Euhemerusun dinə və tanrılara münasibəti necə olmuşdur?

17. Meqara məktəbinin fəlsəfi təlimi nədən ibarət idi?

18. Euklides varlığı necə təsəvvür edirdi?

19. Stilponunun tanrılara və ümumi anlayışlara münasibəti necə olmuşdur?

20. Miletli Eubulides hansı paradokslarla çıxış etmiş və onların məzmunu nədir?

21. Diodorus Kronosun hərəkət, ehtimal, imkan, imkansızlıq, və var olmaq haqqında hansı fikirləri irəli sürmüşdür?

22. Eretriya məktəbinin fəlsəfəsi nəyin üzərində qurulmuşdur?

**Ədəbiyyat:**


1. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor, 1801.

2. Copleston F. A History of Philosophy. Greese and Rome. New York: İmage Book, 1993.

3. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

4. Gilbert Leung. A Critical History of Cosmopolitanism // Law, Culture and the Humanities 2009.

5. Marcus Tullius Cicero. On the Nature of the Gods / Translated by F. Brooks. London: Methuen, 1896.

6. Samuel C. Wheeler. Megarian Paradoxes As Eleatic Arguments // American Philosophical Quarterly Volume 20, Number 3, July 1983 / University of Illinois.

7. Асмус В.Ф. Античная философия. М.: Высшая школа, 1976.

8. Две книги против физиков // Секст Эмпирик. Сочинения. Том. 1. М: Мысль, 1976.

9. Диодор Сицилийский. Греческая мифология (Историческая библиотека) / Перевод О. П. Цыбенко. М.: Лабиринт, 2000.

10. Киники // Философский энциклопедический словарь. М.: Советская энциклопедия. Гл. редакция: Л. Ф. Ильичёв, П. Н. Федосеев, С. М. Ковалёв, В. Г. Панов. 1983.

11. Ксенофонт. Воспоминания о Сократе / Перевод С.И.Соболевского. М.: Наука, 1993.

12. Маковельский А.О. История логики, М.: Кучково поле, 2004.

13. Нахов И. М. Киническая литература. М.: Наука, 1981.

14. Элидо-Эритрейская школа // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция, 2008.

# II. ELLİNİZM VƏ ROMA DÖVRLƏRİNİN FƏLSƏFƏSİ

## 2.1. Ellinizm və Roma dövrünün ümumi səciyyəsi

Ellinizm dövrü m. ö. 338 ildə Makedoniyanın Yunanıstan üzərində qələbə əldə etdiyindən sonra başlamışdır. Bu qələbədən sonra ***Makedoniyalı İskəndər*** Əhəmənilər dövlətini darmadağın edərək bütün Yaxın Şərq, Misir və Orta Asiyanın bir hissəsinin hökmdarı olmuşdur. Ancaq, İskəndərin ölümündən sonra onun yaratdığı imperiya dağılmış və onun ərazisində bir neçə dövlət yaranmışdır. Bu dövlətlərin ən böyükləri və nüfuzluları ***Selevkoslar*** (Orta və Yaxın Şərqdə) və ***Ptolemeuslar*** (Misirdə) olmuşdur.

Ellinizm dövrü özünə məxsus mədəniyyəti ilə seçilmişdir. Bu mədəniyyət yunan dünyagörüşü, fəlsəfəsi və elminin Yaxın və Orta Şərq mədəniyyətləri ilə qarışması nəticəsində yaranmışdır. Makedoniyalıların böyük ərazilər və xalqları istila etməsindən sonra həmçinin, müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqələri güclənmişdir.

Yunanlar ellinist dövlətlərində azlıqda idilər və yerli əhali ilə qarışmışdılar. Ancaq, buna baxmayaraq müxtəlif

xalqları yunan mədəniyyəti və fəlsəfəsi ilə tanış etmişdilər. Yunan dili və dünyagörüşü uzun müddət Avropa və Asiyada hakim mövqelərini saxlaya bilmişdir. Eyni zamanda, Yaxın və Orta Şərq mədəniyyəti və dünyagörüşü də qarşılıqlı olaraq yunanlara güclü təsir etmişdir.

Dövlət quruculuğunda ellin dövlətləri quldarlıq demokratiyasına son qoymuş və ***monarxiya*** (krallıq) quruluşunu gətirmişdilər. Ellin dövlətləri krallar tərəfindən idarə olunurdu. Həmin dövrdə müxtəlif elmlər surətlə inkişaf edirdi. Misirin İskəndəriyyə şəhəri dünyanın ən böyük və əhəmiyyətli elmi mərkəzlərdən birinə çevrilmişdir. Ptolemeuslar sülaləsi elmlərin inkişafına böyük önəm verirdilər. İskəndəriyyədəki elmi mərkəz **"Museyon"** (yun. *Μουσεῖον*) adlanırdı. Museyonda məşhur kitabxana var idi. Bu kitabxanada qədim dünyanın elmi və fəlsəfi fikrini əks etdirən kitablar toplanmışdı. M. ö. 48-ci ildə ***Yulius Sezar***[68] Misiri istila edən zaman İskəndəriyyəyə daxil oldu. Orada gedən döyüşlər zamanı kitabxananın böyük bir hissəsi məhv edilmişdir. Ancaq, sonradan bu kitabxananı qismən dirçəldə bilsələr də, bu hadisədən bir neçə əsrlər sonra ikinci dəfə Museyon və orada yerləşən kitabxananı təəssübkeş xristianlar miladi IV yüzillikdə darmadağın etmişdilər. Bundan sonra isə Museyonun və onun kitabxanasının fəaliyyətinə son qoyulmuşdur. Orta

---

[68] **Yulius Sezar** (lat. *Gaius Iulius Caesar*) – qədim Romanın dövlət xadimi və hərbi komandanı idi. Romada konsul vəzifəsini tutmuş, sonra diktator olmuşdur.

əsrlərdə miladi VII yüzillikdə bu kitabxananın ərəblər tərəfindən də yandırılması haqqında əfsanələr də yayılmışdır. Ancaq bu əfsanələr həqiqəti əks etdirmir, çünki o zaman kitabxana artıq yox idi.

Miladdan öncə III yüzillikdən başlayaraq Aralıq dənizi hövzəsini əhatə edən ərazilərdə **Romanın** nüfuzu artmağa başlamışdır. Miladdan öncə 265-ci ildə Roma güclənib bütün İtaliyanı özünə tabe etdirə bilmiş, sonra isə başqa ölkələrlə uzunmüddətli qanlı savaşlara başlamışdır. Yüz ildən sonra güclənmiş Roma *Kartacanı* (Karfageni) və *Makedoniyanı* yenərək bütün Aralıq dənizi hövzəsini öz hakimiyyəti altına almışdır. Miladdan öncə 64-cü ildə Romalılar Selevkoslar, 31-ci ildə isə Ptolemeuslar dövlətlərini məğlub edərək onların ərazilərini öz dövlətlərinə qatmışdılar. Bu olaylardan sonra ellinizm dövrünə son qoyulmuşdur.

Beləliklə, ellinizm dövründən sonra antik dünyanın lider mədəniyyət Roma olmuşdur. Təxminən miladi II yüzillikdə antik dünyada *Xristianlıq* yayılmağa başlamışdır. IV yüzillikdə isə bu din bütün başqa inancları sıxışdırıb Roma imperiyasının dövlət dininə çevrilmişdir. Bununla da antik dövrə son qoyulmuşdur.

Ellinizm və Roma dövründə fəlsəfi fikrin inkişafı davam etdirilmişdir. Bu dövrdə akademiklər, peripatetiklər, stoaçılar və başqa fəlsəfi məktəblərin ardıcılları fəaliyyət göstərirdilər. Görkəmli düşünürlər yunanların vasitəsi ilə fəlsəfə ilə tanış olmuşdurlar.

O zamanlar filosoflar əxlaqla bağlı problemlərə daha da çox önəm verilirdilər. Filosoflar artıq şeylərin və

olayların mahiyyətinin nədən ibarət olması probleminə əhəmiyyət vermirdilər. Onları daha çox xeyrə, ərdəmə, xoşbəxtliyə hansı yollarla çatmağın mümkünlüyü ilə bağlı məsələlər maraqlandırırdı.

Bir çox fəlsəfi məktəblər həm də müxtəlif mistik və dini təlimlərin təsiri altına düşmüşdürlər. Bununla belə, bəzi filosoflar dinlərə və mövhumatlara qarşı çıxış edirdilər.

Xristianlıq Roma imperiyasında dövlət dininə çevriləndən sonra bütün fəlsəfi məktəblərin fəaliyyətinə son qoyulmuşdur.

## 2.2. Skeptisizm

**Skeptisizm** (yun. *σκεπτικός* – araşdıran) ya da **şübhəçilik** Ellinizm və Roma dövrünün ən çox yayılmış fəlsəfi məktəblərindən biri idi. Onun ardıcılları obyektiv həqiqətin dərk olunmasının mümkünlüyünü şübhə altına alırdılar (7). Skeptiklər hesab edirdilər ki, iki iddia yetərincə dəlillərlə əsaslandırılırsa, onda onlardan hansısa birinə üstünlük verərək onu qəbul etmək olmaz. Bu fikir də onların təliminin əsasını təşkil edirdi. Aşırı şübhəçilik *aqnostisizmə* və *nihilizmə*[69]yaxınlaşır, hətta onu onların bir növü kimi dəyərləndirmək də mümkündür.

Skeptisizm fəlsəfəsi ellinizm dövründə quldarlıq quruluşunun böhranı sonrası yaranmışdır. Onun ***iki böyük qolu*** olmuşdur. Onlardan biri m. ö. IV – III

[69] Cəmiyyətdə qəbul edilmiş hər bir dəyərin inkar edilməsidir.

yüzilliklərdə Yunanıstanda *Pirron*, başqası isə miladi II yüzillikdə Roma imperiyasında *Sekstus Empirikus* tərəfindən yaradılmışdır. Skeptisizmin ideoloji əsasları daha da qədim təlimlərə əsaslanır. Məsələn, hələ ilk yunan məktəblərinin nümayəndələri hər şeyin nisbi, keçici və axıcı olduğunu iddia edirdilər. Bu kimi ideyalar sofistlərin, eleaçıların, eləcə də Platonvə Demokritin fəlsəfəsində öz əksini tapmışdır. Ancaq, o zaman bu ideyalar tam formalaşmamış, təlim kimi yalnız ellinizm dövründə yaranmış və "skeptisizm" adlandırılmışdır (2, 5-6).

Skeptisizmin yaradıcısı **Pirron** (yun. *Πύρρων*, m. ö. 365 – 275) hesab olunur. O Peloponnesus yarımadasının Elida şəhərindən idi.

Diogenes Laertius Pirronun dünyagörüşü haqqında xəbər vermişdir (1, 407-420). O hesab edirdi ki, heç bir şey haqqında qəti iddia yürütmək olmaz, çünki hər bir insan və ya hər hansı bir varlıq onu fərqli qavrayır (dərk edir və duyur). Eyni şey biri üçün xeyirli, başqası üçün ziyanlı ola bilər. Bu da o deməkdir ki, xeyir və şər əslində yoxdur. Həm də xarici amillər də şeylərin özəlliklərinə təsir edir. Məsələn, daş suda yüngül olur, havada isə ağırdır. Bu da o deməkdir ki, onun çəkisi haqqında qəti fikir yürüdülməz. Buna görə də, dünyanı dərk etmək olmaz. Belədirsə, onda hər bir iddiaya qarşı onu təkzib edən iddia yürütmək olar və onların heç biri başqasından üstün deyildir. Şeylərin təbiətini anlamaq imkansızdırsa, onda insan da bu barədə düşünməməli və həyatını adətlərlə gələn qanunlar üzərində qurmalıdır. Pirrona görə *insan*

*hər şeyin həqiqi yada yanlış olduğunu təyin edir və o hər şeyin ölçüsüdür*.

Pirron öz fəlsəfəsində xoşbəxtliyin hansı yollarla əldə olunması probleminə diqqət yetirmişdir. Onun fikrincə xoşbəxtlik təmkinlik, sakitlik və iztirabların yoxluğu halıdır, bu da ***ataraksiya*** adlanır (5, 406). Bu hala isə yalnız skeptiklərin dünyagörüşünə yiyələnərək nail olmaq olar. Pirrona görə xoşbəxt olmaq istəyən insan üç suala cavab verməlidir:

1. Çevrəmizdə olan şeylərin mahiyyəti nədən ibarətdir və onların tərkibi nədir?
2. Bizim onlara münasibətimiz necə olmalıdır?
3. Onlara münasibət bildirməyimizdən biz nəyi qazanırıq? (5, 407)

Birinci suala insan cavab tapa bilməz, çünki hər hansı şeyin mahiyyəti ya da onun var olub-olmaması haqqında heç bir iddia yürütmək olmaz. Hər bir iddiaya qarşı onu inkar edən iddia vardır. Deməli, biz bir şey haqqında fikir yürüdürüksə, onun həqiqi ya da yanlış olduğu haqqında heç nə deyə bilmərik.

İkinci suala gəldikdə isə insan heç nəyə birmənalı münasibət bildirməməlidir. Bu o demək deyil ki, hər hansı bir şey və ya olay haqqında bizim bilgimiz ola bilməz. Onlar haqqında bizə duyğularımız xəbər verir. Yanlışlıqlar isə onlar haqqında iddialar ortaya qoyanda ortaya çıxır.

Üçüncü suala cavab verərkən Pirron deyirdi ki, xoşbəxtliyi axtaran kəs gərək hər hansı bir şey haqqında iddia ortaya qoymaqdan çəkinsin. Bununla da

“ataraksiya” halını əldə etmək mümkündür. Belə olan halda isə bu hala çatmış insanı “filosof” adlandırmaq olar (5, 407).

Pirronun öyrəncilərindən ən tanınmışı **Timon** (yun. *Τίμων*, m. ö. 320 – 230) olmuşdur. O, müəlliminin fəlsəfi irsini təbliğ etmiş; eyni zamanda skeptisizmi inkişaf etdirmiş, öz fikirlərini ortaya qoymuş, bununla əlaqədar bir neçə kitab da yazmışdır. Timon həm də çoxlu ədəbi əsərlərin müəllifi olmuşdur.

Timonun fikrincə duyğular vasitəsi ilə biz ətrafımızda olan şeylərin mahiyyətini qavraya bilmirik. Hər bir şeyin mahiyyəti və onun duyğular vasitəsi qavranılması arasında fərq vardır. İnsan elə bilir ki, onun duyğuları şeylər haqqında ona həqiqi bilik verir və bunu güman edərkən yanılır. Ona görə də, hər bir şey, hətta ziddiyyətli olan iddialar da həqiqi ola bilər. Buna görə də, Timon da Pirron kimi şeylərin mahiyyəti haqqında hansısa qəti bir fikir irəli sürməyi imkansız bilirdi (4, 301-302).

Timondan sonra skeptisizm iki yüz il zəifləmə dövrünü yaşadı. Sonra bu məktəbin ənənələrini **Enesidemus** (yun. *Αἰνησίδημος*) davam etdirmişdir. Enesidemus ya m. ö. I, ya da m. I yüzilliyində yaşamışdır. Onun soyu Krit adasından idi, ancaq həyatı İskəndəriyyədə keçmişdir.

Enesidemus bir neçə kitabın müəllifi olmuşdur. Onlardan ən tanınmışı ***“Pirronun sözləri”*** (yun. *Πυρρώνειοι λόγοι*) adlanır. Bu kitabda o, bir neçə maraqlı məsələlərə toxunmuşdur. Məsələn, o, səbəblərin olub-

olmaması haqqında düşünürdü. Onun fikrincə səbəb anlayışı ziddiyyətlidir. Ətrafımıza nəzər saldıqda təbiətdə bir-birinin yaranmasına səbəb olan müəyyən olayların baş verməsini müşahidə edirik. Hər bir hərəkət onu doğan səbəbdən öncə yaranır. Belədirsə, onda səbəb hərəkətlə eynilik təşkil edir ya yox? Edirsə, onda səbəb və hərəkət bir-birindən ayrı anlayışlar deyildirlər. Əgər onlar eynilik təşkil etmirlərsə, onda deməli səbəb hərəkəti ortaya çıxara bilməz, çünki onların təbiətləri fərqlidir.

Enesidemus skeptisizmə dair ***"tropos"***lar (yun. *τρόπος*) adlanan dəlillərini açıqlamışdır və onların sayı ondur (6, 219-239):

1. Canlıların duyğuları fərqlidir, hər bir canlı dünyanı özünəməxsus tərzdə görür və qavrayır. Deməli, eyni şey müxtəlif canlılar üçün fərqli görsənir. Beləliklə, biz şeylərin bizə görsənən özəlliklərindən danışsaq da, onların təbiəti haqqında heç nə deyə bilmərik.

2. İnsanların da şeylərə münasibəti fərqlidir. Ona görə də, o şeylər haqqında birmənalı fikir yürütmək mümkün deyildir.

3. İnsanın bir neçə duyğu orqanları vardır, onlar eyni şey haqqında fərqli xəbərlər verir. Məsələn, bal ilk baxımdan ikrah hissi doğurur, ancaq o dadlıdır. Ona görə də əvvəlcədən bilinmir ki, onlardan hansına üstünlük verilməlidir.

4. İnsanın halı hər zaman dəyişir. Məsələn, aç olan insana yemək dadlı, tox olana isə dadsız gələ bilər. Buna görə də, onun gəldiyi qərarlar fərqli olur və bilinmir ki, onlardan hansına üstünlük verilməlidir.

5. Gəlinən nəticələr məsafə və yerin təsiri altında irəli sürülə bilər. Hər bir şey tutduğu məsafə və yerdən asılı olaraq bizə fərqli görsənir. Məsələn, gəmi uzaqdan kiçik, yaxında isə böyükdür.

6. Heç bir şey bir maddədən ibarət deyil, qarışıqdır. Məsələn, biz bir şeyi dərk ediriksə, mütləq ona öz düşüncəmizi və münasibətimizi qatırıq. Ona görə də, hansısa bir şeyin mahiyyəti haqqında heç nə demək olmur.

7. Kəmiyyətlərin (eləcə də dəyərlərin) nisbətinə və quruluşuna görə şeylər müxtəlif görünə və duyula bilər. Məsələn, qum eyni zamanda həm bərk, həm də yumşaqdır.

8. Şeylər kəmiyyət və keyfiyyətdən asılı olaraq dəyişir. Hər şey nəyə isə nisbətdə bu və ya başqa cür görsənir. Ona görə də, onun hansısa görkəmdə görünməsi daha da çox ehtimal oluna bilər, onun həqiqi təbiəti bilinməz.

9. Şeylərə münasibət onlara rast gəlməkdən asılıdır. Belə ki, bəzi şeylər nadir hallarda rast gəlindiyi üçün qiymətli sayılır. Məsələn, əgər qızıl daş kimi hər yerdə olsaydı, onda o heç də qiymətli metal sayılmazdı.

10. Şeylər haqqında iddialar qanunlar, inanclar və adətlərin təsiri altında da yürüdülə bilər. Ona görə də, onların mahiyyəti haqqında birmənalı fikir yürütmək olmur.

Enesidemusun ardıcıllarından biri **Aqrippa** (yun. *Ἀγρίππας*) idi. O, təxminən m. I yüzillikdə yaşamışdır. Diogenes Laertiusa görə Aqrippa Enesidemusun 10

troposuna daha beşini əlavə etmişdir (1, 412). Onlar aşağıdakılardır:

1. Hər hansı bir şey haqqında ziddiyyətli fikirlər irəli sürülür. Buna görə də, onlar haqqında qəti bir fikir söyləməkdən çəkinmək lazımdır.

2. Sübutlar silsiləsi sonsuzluğa qədər davam edir. Deməli, hansısa fikri əsaslandırmaq üçün gətirilən sübutun özü də sübut edilməlidir. Sonra bu yeni sübut başqası ilə isbatlanmalıdır. Bu silsilə də sonsuzluğa qədər sürəcəkdir.

3. Hər şey nisbidir. İnsana şeylərin mahiyyəti deyil, onun duyğuları daxilində onların görsəntiləri (təzahürləri) açılır. Ona görə də onların əsl təbiətinin nə olduğu haqqında fikir yürütməkdən çəkinmək lazımdır.

4. Hər bir həqiqət kimi iddia edilən şey əslində fərziyyədir (hipotez). Bu kimi fərziyyələr nəyinsə barəsində nəticə çıxartmaq üçün kifayət etmir.

5. Sübutlar bir-birini sübuta yetirməlidir. Bu da o deməkdir ki, hansısa iddianı sübut etmək üçün irəli sürülmüş sübutu da qarşılıqlı olaraq həmin iddia ilə sübut etmək lazımdır. Onda belə nəticəyə gəlinir ki, onlardan heç biri başqasını sübut etmək üçün yetərli deyildir. Buna görə də, hər hansı iddiadan çəkinmək lazımdır. (6, 239-240)

Skeptisizmin Roma dönəminin ən tanınmış nümayəndəsi **Sekstus Emprikus** (yun. *Σέξτος Εμπειρικός,* m. II yüzilliyin ikinci yarısı) olmuş və o, bu məktəbin ənənələrini davam etdirmişdir (3, 21). Sekstus Emprikus ixtisasca həkim idi. O, ***"Pirron müddəaları"***

(yun. *Πυῤῥώνειοι ὑποτύπωσεις*) və ***"Riyaziyyatçılara qarşı"*** (yun. *Πρὸς μαθηματικούς*) kimi bir neçə kitabın müəllifi idi. Bu kitablarda o şübhəçiliyin tarixi, əsasları və nəzəriyyəsini vermişdir.

Sekstus Emprikus skeptik baxışlarını tibb elmi ilə əlaqələndirirdi. O həm də, skeptisizmi başqa fəlsəfi məktəblərin təlimlərindən ayırır, onlarla qarışmağa qarşı çıxırdı. Onun əsərlərində skeptisizm ətraflı və dolğun bir təlim kimi təqdim edilmişdir. Sekstus Emprikus Enesidemusdan sonra skeptisizmin əsaslarını sübuta yetirən 10 troposda yetərincə dəyişikliklər etmiş, onları yenidən sistemləşdirmişdir.

Bilindiyi kimi digər antik düşünürlər bilginin əldə olunmasının mümkünlüyünü iddia edirdilər. Sekstus Empirikus isə şübhəçilərin gələnəyini (ənənəsini) sürdürərək iddia edirdi ki, bilgi nisbidir. Ona görə də, problemlərin çözülməsi və şeylərin mahiyyətini açmaq cəhdlərindən çəkinmək lazımdır (3, 22). Belə olarsa, insan kamilliyə çatmış olur. Onun fikrincə qanunlar, ənənələr, qaydalar və vərdişlərə riayət edilməlidir. Bu sırada sağlam düşüncəyə özəl yer də verilməlidir.

Qədim zamanlardan başlayaraq duyğular vasitəsi ilə əldə edilən biliyin nisbiliyini və ziddiyyətli olduğunu sübuta yetirmək istəyən düşünürlər öz dəlillərini Sekstus Empirikusun kitablarından gətirirdilər. Onun *"problemlərin həllindən çəkinmə"* prinsipi tibb, fiziologiya, zoologiya, fizika və digər elmlərdən alınmış faktlara əsaslanırdı.

**Mövzu ilə əlaqəli suallar:**

1. Skeptisizm fəlsəfəsi hansı müddəalar əsasında qurulmuşdur?
2. Pirrona görə şeylər hansı meyarla ölçülür?
3. Pirrona görə xoşbəxtliyə hansı yollarla çatmaq olar?
4. Ataraksiya nədir?
5. Timonun şübhəçiliyi nəyin üzərində qurulmuşdur?
6. Enesidemus səbəblər haqqında hansı fikirdə idi?
7. Enesidemus öz "tropos"larında nədən bəhs etmişdir?
8. Aqrippa hansı "tropos"ları irəli sürmüşdür?
9. Sekstus Emprikus fəlsəfəsinin mahiyyəti və əhəmiyyəti nədən ibarət olmuşdur?

**Ədəbiyyat:**

1. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.
2. Long, A. A., 2006, From Epicurus to Epictetus: Studies in Hellenistic and Roman Philosophy, Oxford: Oxford University Press.
3. Mary Mills Patrick. Sextus Empiricus and Greek Scepticism. Cambridge Deighton Bell & Co. London George Bell & Sons, 1899.

4. Zeller E. Outlines of the history of Greek philosophy. London: Longmans, Green and Co, 1886.
5. Асмус В.Ф. Античная философия. М.: Высшая школа, 1976.
6. Секст Эмпирик. Три книги Пирроновых положений / Перевод Н. В. Брюлловой-Шаскольской // Секст Эмпирик. Сочинения в двух томах. Том 2. М.: Мысль, 1976.
7. Софисты // Философия: Энциклопедический словарь / Под ред. А.А. Ивина. М.: Гардарики. 2004.

## 2.3. Epikürçülük

Epikürçülük ellinizm və Roma dövrlərində ən yayılmış fəlsəfi cərəyanlardan biri olmuşdur. Onun yaranması **Epikürün** (yun. *Ἐπίκουρος*, m. ö. təxminən 342 – 270) adı ilə bağlıdır[70]. O, Samos adasında anadan olmuş və daha sonra Afinaya gedərək orada *"**Bağ**"* (yun. *Κῆπος*) adlanan öz fəlsəfi məktəbini yaratmışdır (7, 32). Epikür bir çox kitabın müəllifi olmuş, ancaq onlardan zamanımıza yalnız bəzi fraqmentlər gəlib çatmışdır.

Epikür təliminin məqsədi insanlara xoşbəxtliyin əldə olunması və qorxu hissindən aşma yollarını göstərmək idi. Bunun üçün də o, əfsanələrə inanmamağa və təbiəti dərk

---

[70] Epikür fəlsəfəsini ətraflı araşdıran alimlərin sırasında azərbaycanlı Əddin Şakirzadə də olmuşdur. Onun "Epikür" adlı monoqrafiyası Moskvada 1963-cü ildə yayımlanmışdır və zamanımıza kimi bu sahədə ən dəyərli rusdilli araşdırmalardan biri kimi qiymətləndirilir, ona elmi istinadlar edilir. Bu kitabın ön sözünü isə tanınmış Azərbaycan (Sovet) alimi A. O. Makovelski yazmışdır.

etməyə çağırırdı. Beləliklə, Epikürün və onun ardıcıllarının fəlsəfəsi *fizika, kanonika* və *etikadan* (əxlaqdan) ibarət olmuşdur (1, 434).

***Fizikasında*** Epikür Demokritin atomlar nəzəriyyəsini inkişaf etdirmişdir. Məsələn, Demokrit atomların kəmiyyət, forma və fəzada tutduğu yerə əhəmiyyət vermişdirsə, Epikür buna daha bir kateqoriyanı – onların *ağırlığını* da əlavə etmişdir. Demokrit kimi, Epikür də düşünürdü ki, atomlar boşluqda hərəkət edirlər. Ancaq, ondan fərqli olaraq Epikürün fəlsəfəsində atomlar təkcə düzxətli istiqamətdə hərəkət etmir, onlar hərəkət zamanı bu istiqamətdən yayına bilərlər. Deməli, atomların hərəkətində əyintilər ola bilər. (1, 439-440)

Epikür hesab edirdi ki, əgər atomların hərəkəti yalnız düzxətli olsa, onda onlar bir-biri ilə toqquşmazlar. Bu halda onlar eyni surətlə hərəkət edərək bir-birinə qarşı müəyyən məsafədə olmalıdırlar. Ancaq, düzxətli istiqamətdən yayınma baş verdikdə də onların bir-biri ilə toqquşması və dolaşması mümkün olur. Bu səbəbdən də dünyada hər şey yaranır.

Atomların hərəkətində əyintilərin olması ideyası həm də Demokritin taleçiliyinə (fatalizminə) qarşı yönəlmişdir. Məlumdur ki, Demokrit təsadüfü inkar etmiş, təbiətdə yalnız zərurətin hökm sürməsini iddia etmişdir (6, 62). Bu fikri də atomların yalnız düzxətli hərəkət etməsi ilə əsaslandırmaq olardı. Epikür isə atomların hərəkətində müəyyən hallarda əyintilərin olması fikrini ortaya atmaqla təsadüfün də var olmasını

iddia edirdi (4, 242-244). Beləliklə Epikür həm zərurətin, həm də təsadüfün var olması fikrini irəli sürmüş, Demokritin providensializm (qədərçilik) ilə razılaşmamışdır. Mahiyyətcə isə atomlar əbədi, dəyişməz bölünməz və məhv olunmazdırlar. Atomların və onların hərəkət etdikləri boşluqların sayı sonsuzdur.

Epikürün kosmoqonik fikirləri də maraq doğurur. Onun fikrincə kainat sonsuzdur və onda sonsuz miqdarda atomlar vardır. Bütün dünya cisimləri atomların qasırğasından yaranmışdır. Onlar isə atomların hərəkəti və birləşmələrindən ortaya çıxır. ***"Herodotusa məktubunda"*** Epikür yazmışdır ki, dünyanı heç kəs yaratmayıb, bütün olaylar isə təbii qanunauyğunluq səbəbi ilə baş verir; yoxluqdan heç nə yarana bilməz (1, 437).

Epikürün fəlsəfəsində ruhlar materiyanın özəl bir formasıdır və atomlardan ibarətdir (1, 447). Ona görə də ruhlar ölməz deyil, sonludurlar. Bədənin ölümündən sonra ruhlar da ölür. Epiküra görə ölümdən qorxmaq lazım deyil, çünki o yalnız duyğuların kəsilməsidir.

***"Kanonika"*** adlandırdığı idrak və dünyanın qavranması ilə bağlı məsələlərdə Epikür sensualizmə (duyğuçuluğa) üstünlük verərək duyğunu həqiqətin əsas meyarı elan etmişdir. Onun fikrincə düşüncənin fəaliyyəti tam olaraq insanın düyğularından asılıdır. Ətrafda olan şeylərdən onların *obrazları* (yun. *εἴδολα*) ayrılır. Onlar incə atomlardan ibarətdir və o şeyləri əks etdirir. Bu obrazlar insanın duyğu orqanlarına daxil olur, onlarla təmasa girir və insan öz ruhu vasitəsi ilə hiss etməyə başlayır.

Eyni zamanda, bu obrazlar insan orqanlarına birbaşa təsir etməyə də bilərlər. Onlar havada yayılarkən bir-biri ilə qarışır və yalnız sonra insan tərəfindən qavranılır. Belə olduqda insanda gerçəkliyə uyğun olmayan fantastik təsəvvürlər yaranır. Məsələn, kentavr kimi mifik heyvanın təsəvvürü insan və at obrazının qarışığından yaranır. Ancaq reallıqda isə belə bir şey yoxdur.

Duyğu ilə əldə edilən bilgilərdən fərdi təsəvvürlər, onların əsasında isə *prolepsislər* (yun. *προλήψεις*) adlandırılan ümumi anlayışlar yaranır. Prolepsislər duyğulara gələn şeylər haqqında xatirələrdir və onlar təcrübə yolu ilə əldə olunur. Məsələn, qabağımızda at ya inəkdir sualına düzgün cavab vermək üçün insan öncə onların vücudunu xatırlamalıdır (1, 436).

Bundan başqa Epikür həqiqətin meyarını həm də *"düşüncə sıçrayışında"* (yun. *τὰς φανταστικὰς ἐπιβολὰς τῆς διανοίας*) görürdü. Bu da intuisiyadır ki, yuxularda ya da sayıqlama kimi hallarda üzə çıxır. Onlar gerçək obrazlardan yaransa da insanın subyektiv aləmi və ya xəyalları ilə qarışır və buna görə də yanlış olur.

Duyğularla alınan bilgi yanlış ola bilməz və düşüncənin onları təkzib etməsi imkansızdır, çünki düşüncə həmin duyğulara əsaslanır (1, 235). Yanlışlıq düşüncənin onun haqqında çıxaran qərarlarından və hökmlərindən irəli gəlir.

Demokritdən fərqli olaraq Epikür *etik* (əxlaq) məsələlərə böyük önəm verirdi. Onun etik təliminin əsasında duyğusallıq dururdu. Epikürün fikrincə əgər insanın duyğuları varsa, onda onlar əxlaqın əsas

meyarıdır. Çünki, ümumiyyətlə onun fəlsəfəsində idrakın əsasını duyğular təşkil edir. Xeyir və şər anlayışları duyğularla əldə olunur. Ən yüksək nemət isə həzz, zövq, məmnunluq və ləzzət hissləridir. İnsan bunlara mane olan hər bir şeydən çəkinməlidir. Həyatdan həzz alma və iztirablardan çəkinmə hər bir insanın məqsədi olmalıdır. (1, 471)

Müdrik insan ölümdən qorxmamalıdır, çünki ölüm yalnız duyğuların sona çatmasıdır. Ondan sonra əbədi *"olmamazlıq"* başlanır. İnsan mövcud olduqda onun məqsədi həzz almaqdan ibarət olur. "Olmamazlıqda" isə duyğular yox olduğundan həzz almaq mümkün olmur. Ona görə də, hər iki hal bir sabitlikdir: biri duyğuların olması, digəri isə olmaması kimi. (1, 468-469)

Xoşbəxt olmaq üçün möhkəm və dayanıqlı ləzzət halını yaşamaq lazımdır. Epikür mənəvi ləzzəti üstün bilsə də, cismi ləzzəti də inkar etmirdi. Həzz alaraq insan xoşbəxt olur və bunun üçün tanrılara ibadət etməyə ehtiyacı olmur. Bu kimi fikirlərə görə sonralar xristianlar Epikür məktəbinin ardıcıllarını əxlaqsızlıqda suçlayırdılar. Ancaq Epikürün özü deyirdi ki, həzz alma heç də əxlaqsızlıq demək deyildir, o bədənin əzablardan azad olmasıdır. Qadınlarla yaxınlıq etmək ya da yemək kimi cismani həzzlər bizim həyatımızı gözəlləşdirmir. Onu gözəlləşdirən isə bizim istəklərimizi yönəldən sağlam düşüncədir ki, o ruhumuzda olan rahatsızlığı ortadan qaldırır (1, 471-473).

Epikürə görə müdriklik və xoşbəxtlik insan ruhunun müstəqil və sakitlik məqamına çatmasıdır. Bu məqama

çatan müdrik insan ona zərər verən hər bir şeydən uzaqlaşır, ona xeyir verən şeylərdən həzz almağa başlayır. Həzz alma məqamına çatmanın zəruri şərti ***ataraksiyadır*** (yun. *ἀταραξία* – ruhun sakitliyi) (1, 453-454). Ataraksiya halına dünyanın xarici təsirindən və ehtiraslardan azad olduqdan sonra çatmaq mümkündür. Fəlsəfə ilə məşğul olmaq isə ruha ən böyük həzz və məmnunluq hissləri verir (7, 133). Bu baxımdan Epikür fəlsəfəsinin bu məqamı da sonrakı dövrlərdə tənqid olunaraq eqoizm kimi başa düşülmüşdür.

Həzz alma prinsipi Epikürün ictimai baxışlarına da təsir etmişdir. O hesab edirdi ki, cəmiyyət üzvləri bir-birinə zərər verməmək haqqında anlaşmışdırlar (1, 477). Çünki, zərər əzabdır, ona görə də həzzə qarşı durur. Bu anlaşmaya əməl etmə ədalət, bundan çəkinmə isə ədalətsizlikdir. Dostluq müdrik insanın ən yüksək məqamıdır (1, 477).

Siyasətdə epikürçülər quldarlıq demokratiyasının tərəfdarları idilər. Epikürün fikrincə müdrik insan (filosof) siyasi fəaliyyətdən çəkinməlidir.

Epikür tanrılar haqqında da fikirlər irəli sürmüşdür. O, tanrıların varlığını inkar etmir, ancaq hesab edirdi ki, onlar aləmlərarası məkanlarda yaşayıb, təbiət hadisələrinə və insan həyatına müdaxilə etmir. İnsanlar isə özü-özlərinin problemlərini həll etməli, bu barədə tanrılara yalvarmamalıdırlar. Əgər tanrılar insanların bütün yalvarışlarını qəbul etsəydilər, onda bəşəriyyət məhv olmalı idi. Çünki, insanlar bu yalvarışları bir-birinə qarşı edirlər. (7, 70)

Epikürə görə xalq kütlələrinin tanrılar haqqında təsəvvürləri yanlışdır. Buna görə də o, tanrıları inkar edənləri deyil, onları kütlələrin düşündüyü kimi təsəvvür edənləri qınamışdır (7, 69). Bununla belə o, kütlə inancına qarşı açıq çıxış etməyin əleyhinə idi. Hətta, Epikürə görə zərurət olduqda xalq qınağından qurtarmaq üçün dindar kimi görsənmək də olar (7, 70-71). Beləliklə, Epikür ənənəvi dinə qarşı çıxmağı mənasız hesab edirdi, çünki onsuz da xalqın çoxu öz inanclarında qalacaq. Müdrik üçün isə əsas məqsəd təbiətlə uyğunlaşaraq yaşamaq, iztirablardan çəkinərək həzz almaqdır.

Epikürün fikrincə tanrılar əbədi deyil, onların varlığı sonludur. Çünki, onların da təbiəti atomlardan ibarətdir. Sadəcə tanrılar insanlara nisbətən çox yaşayırlar (7, 69).

Epikürün bir çox öyrənciləri olmuşdur. Onlardan biri **Lampsakuslu Metrodorus** (yun. *Μητροδωρος*, m. ö. 331 – 278) idi. O, bir sıra zamanımıza çatmayan kitabların yazarı olmuşdur. Sisero yazırdı ki, Metrodor öz fəlsəfəsində cismani hissiyyatlara böyük önəm verirdi (2, 68-69).

Epikürün daha bir öyrəncisi **Militenalı Hermarxus** (yun. *Ἕρμαρχος*, m. ö. 325 – 250) olmuşdur. O, müəlliminin ölümündən sonra onun məktəbinə başçılıq etmiş və onun fikirlərini yaymışdır. Eyni zamanda, Hermarxus Aristotel və Platonun ardıcılları ilə də fəlsəfi polemikalar aparmışdır. Ancaq, onun da əsərləri zamanımıza gəlib çatmamışdır. (7, 136-137)

Epikürün təlimi m. ö. II yüzillikdən başlayaraq Roma imperiyasında yayılmışdır. Roma epikürçülüyünün ən

görkəmli nümayəndələrindən biri **Qadaralı Filodemus** (yun. *Φιλόδημος,* m. ö. 110 – 40) idi. O, Afina epikürçü məktəbinin başçısı Sidonlu Zenonun öyrəncisi idi. M. ö. 80-ci ildə Filodemus İtaliyaya gedərək orada Neapol şəhərinin yaxınlığında yerləşən Herkulanumda epikürçü məktəbinin əsasını qoymuş və ona rəhbərlik etmişdir. İkiyüz ildən sonra Vezuvium vulkanının püskürməsi sonu Herkulanum Pompeya ilə birlikdə məhv olmuşdur.

Bizim zamanımızda aparılan arxeoloji qazıntılar nəticəsində orada Filodemusun bəzi əsərləri tapılmışdır. Onların arasında ***"İnduksiya haqqında"*** adlı bir kitab da var idi. Orada Filodemus stoaçıların bəzi fikirlərini təhlil etmişdir. Belə ki, stoaçılara görə *induksiya* yolu ilə gəlinən nəticə *apriori*[71] dəlillərin əsasında çıxarıldığı zaman həqiqi olur (3, 445). Filodemus isə burada ön plana *görünən* (zahirin) və *görünməyənin* (batinin) müqayisəsinə arxalanan analogiyanı önə çəkirdi. Məsələn, induktiv metodla belə qərara gəlmək olar ki, bəzi cisimlərin hərəkət etməsi üçün müəyyən şərtlər olmalıdır. Belədirsə, onda ümumiyyətlə bütün digər cisimlərin hərəkətinin də həmin şərtlərlə baş verdiyini iddia etmək mümkündür. Burada Filodemus hərəkətin mövcud olmasının zəruri şərti kimi boşluqların olmasını sübuta yetirirdi. Deməli, onun fikrincə hər bir nəticənin əsasında analogiyaya arxalanan düşüncə metodu durur. Əgər induksiyanın istinad etdiyi

---

[71] **Apriorizm (**lat. *a priori*) təcrübədən öncə olan və ondan asılı olmayan bilikdir. Bu cür bilik öncədən vardır və əzəlidir.

faktları və müşahidələri təkzib edən bir dəlil yoxdursa, deməli yürüdülən əqli nəticə düzgündür. (3, 445)

Roma epikürçülüyünün ən tanınmış təmsilçisi isə **Titus Lukretius Karus** (lat. *Titus Lucretius Carus*, m. ö. 99 – 55) olmuşdur. ***"Hər şeyin təbiəti haqqında"*** (lat. *De rerum natura*) adlı məşhur əsərində o bir çox fəlsəfi problemlərə toxunmuşdur, bunu edərkən Epikürün fəlsəfəsindən yararlanmışdır. Bu kitabda Lukretius ilk növbədə xalqın arasında yayılmış müxtəlif mövhumat və inanclara qarşı çıxış etmişdir. Onun fikrincə onlar insanlarda qorxu hissi yaradır. Azadlığı əldə etmək üçün isə bu qorxudan qurtarmaq gərəkdir (5, 60-61). Bunun üçün təbiət olduğu kimi öyrənilib qavranılmalıdır. Mövhumatların əsasını isə din təşkil edir, insanları bədbəxtliklərə sürükləyir. Ona görə də, Lukretius dini tamamilə inkar edirdi.

Lukretiusdan da öncə bəzi filosoflar (örnək üçün Kritius) hesab edirdilər ki, əslində tanrılar yoxdur. İnsanlar onları uydurmuşdurlar. Ancaq, tanrılara inanc və onlardan qorxu hissi olmasaydı, insanlar ağlasığmaz dərəcədə qətllər və digər başqa cinayətlər törədərdilər. Ona görə tanrıları uyduranlar cəmiyyətdə düzənin saxlanması üçün müsbət iş görmüşdülər.

Ancaq, Lukretius bu fikirlə razılaşmırdı. Onun fikrincə, dini inkar etməklə insanlar arasında cinayətkarlıq artmayacaq, əksinə bəzi hallarda müxtəlif dini

mövhumatlar adamları cinayətin törədilməsinə sürükləyəcəkdir [72] (5, 29-30).

Təbiətdə hər şey özü-özlüyündən, yəni onun əzəli qanunauyğunluğundan irəli gələrək baş verir. Bütün bunların yaranmasında heç bir tanrı iradəsi yoxdur. Dünyanı da heç bir tanrı yaratmayıb və idarə etmir, çünki heç nədən nə isə yarana bilməz (5, 31). Eyni zamanda, dünya yalnız insanlar üçün deyil, özü üçün mövcuddur. İnsan isə dünyanın məqsədi deyil, yalnız onun bir hissəciyidir. O da təbiətin qanunlarına tabedir və onu üstələyə bilmir.

Lukretius tanrıların var olmasını inkar etməsə də, onları yaradıcı və idarəçi funksiyalardan məhrum etmişdir. O hesab edirdi ki, tanrılar ölməzdir, ancaq təbiətin və insanların işlərinə qarışmırlar. Onlar özlərinə məxsus bir məkanda yaşayır və həzzlərlə dolu həyat sürürlər (5, 28). O məkan insanlardan sonsuz qədər uzaqdadır. Bu səbəbdən tanrılara nə insanlar, nə də edilən ibadət və dualar gərək deyildir. Onlar insanlara qarşı biganədirlər. Bu səbəbdən də, Lukretiusa görə dinlərə, kahinlərə, falçılara, peyğəmbərlərə heç bir ehtiyac yoxdur.

Lukretius tanrılar və dinlərin rolunu heçə endirərək əsas dəyəri insanların düşüncəsində görürdü. Düşüncəsiz insanın ömrü qaranlıq və qorxu içində keçir. Ağıl və sağlam düşüncə isə mövhumatın qarşısını alır; insanı

---

[72] Bəlkə də bu fikir zamanımızda İsveç, Norveç, Danimarka kimi əsasən sekulyar (laik) və liberal dövrlərdə cinayətkarlığın yayğın olmamasında və dində möhkəm olan Yaxın Şərqdə din adı ilə çoxlu cinayətlərin törədilməsində öz təsdiqini qismən də olsa tapır.

ölüm, xəstəlik və həyatın problemləri qarşısında qorxudan qurtarır. Yalnız sağlam düşüncənin vasitəsi ilə təbiətdə hər şeyi olduğu kimi anlamaq olar. İnsan sağlam düşüncədən başqa mühakimə etmə xüsusiyyətinə də malikdir. Çünki, dünyada bir çox şeyləri yalnız mühakimə yolu ilə izah etmək mümkündür.

Lukretiusa görə təbiətdə fövqəladəlik yoxdur. Dünyalar gözə görünməyən və duyulmayan hissəciklərin qasırğalarından yaranır. Bu hissəciklər hər şeyin ***"toxumlarıdır"*** (atomlardır) (5, 34-35). Cisimlər, ruhlar və dünyalar onlardan ibarətdir. Onlar təbii zərurətdən yaranır. Hissəciklərin hərəkətdə olması üçün boşluqlar vardır (5, 35-37). Hissəciklər əbədidir, onlardan ibarət olan hər şey məhvə məhkumdur və keçicidir.

Ətrafımızın dərki prosesində duyğulara böyük əhəmiyyət verən Lukretius, eyni zamanda onların çərçivəli olmasını etiraf edirdi. Buna görə də o, idrakda düşüncəyə də böyük əhəmiyyət verirdi. Məsələn, kainat duyğu vasitəsi ilə deyil, düşüncənin fəaliyyəti nəticəsində anlaşıla bilər.

Ümumiyyətlə, heç nədən nə isə yaranmır. Hər şeyin əsasında toxumlar (atomlar) durur (5, 39-43). Şeylərin məhv olması materiyanın məhv olması demək deyildir. Bu yalnız daha mürəkkəb şeyin ən sadə elementlərə bölünməsidir.

Lukretiusun fikrincə ruh da bədən kimi kiçik hissəciklərdən (atomlardan) ibarətdir və o bədəndən asılıdır. Bədənin ölümü hissəciklərin əlaqələrinin pozulması və dağılmasıdır. Bu baş verən kimi bədənlə bir

yerdə ruhun hissəcikləri də dağılır və o məhv olur. Beləliklə, Epikür kimi Lukrtetsius da ruhun ölməzliyini qəbul etmirdi. (5, 97-98)

Daha sonra o, ölümlə həyatın bir-biri ilə qarşılaşmamasını iddia etmişdir. Onlar qarşılaşmır deyə ölüm həyatda olan insan üçün qorxulu deyil, çünki həyatda olan insanın ölüm haqqında təsəvvürü yoxdur. Ölümün gəlişindən sonra isə insanlar artıq bu dünyada olmur və heç nəyi duymur. Ona görə də ölümün qarşısında qorxu hissi olmamalıdır (5, 415-420).

Ruhun bir bədəndən başqasına köçməsi ideyasını (metempsixozu) və onun insanın doğulmasından öncə var olması inancını rədd edən Lukretius hesab edirdi ki, belə bir şey olsaydı, onda insanlar öz keçmiş həyatlarını yada salardılar. Metempsixoz ya da ruhların öncə var olmasını iddia edənlərin fikrincə ruh bədənə girərkən öz keçmiş həyatını yaddan çıxarır. Bu belədirsə, onda Lukretiusa görə bu hal ölümdən fərqlənmir. İnsanın keçmişdə həyatda olmasının mənası yoxdur. Ona görə ölən adamların ruhları ölü, dirilərin isə diri hesab edilməlidir. (5, 410-413)

Bundan başqa əgər metempsixoz real bir şey olsaydı, onda heyvanların davranışı bir-biri ilə qarışardı. Məsələn, şahin göyərçindən qorxardı. Düşüncə isə təkcə insanlarda deyil, həm də heyvanlarda olardı.

Lukretius əxlaqi fikirləri irəli sürərkən Epikür təliminin müddəalarını təkrar edir və deyirdi ki, iztirabların aradan qaldırılması, ruhi sakitlik və ataraksiya xoşbəxtliyin əsas şərtləridir.

**Mövzu ilə əlaqəli suallar:**

1. Epikür fəlsəfəsinin əsas məqsədi nədədir?
2. Epikür fəlsəfəsi hansı tərkib hissələrdən ibarətdir?
3. Epikürün fizikası hansı nəzəriyyənin üzərində qurulmuşdur?
4. Epikürün atomçuluğu Demokritin təlimindən nə ilə fərqlənir?
5. Epikür kosmoqonianı necə təsəvvür edirdi?
6. Epikürün kanonikasında hansı problemlərə toxunulur?
7. Epikürə görə insan çevrəni necə dərk edir?
8. Epikür fəlsəfəsində əxlaqi problemlərin əsasında hansı müddəalar durur?
9. Epikürə görə xoşbəxtlik necə əldə olunur?
10. Epikürün ictimai və siyasi fikirləri necə olmuşdur?
11. Epikürün tanrılar haqqında nə düşünmüşdür?
12. Militenalı Hermarxus, Lampsakuslu Metrodorus və Qadaralı Filodemusun fəlsəfi fikirləri hansı müddəaları əhatə edirdi?
13. Lukretiusun dinə münasibəti necə olmuşdur?
14. Lukretius tanrıların varlığı və rolu haqqında nə düşünmüşdür?
15. Lukretius insanın rolu haqqında nə demişdir?
16. Lukretius ruhlar haqqında nə düşünürdü?
17. Lukretiusun dünya quruluşunu necə təsəvvür edirdi?

**Ədəbiyyat:**

1. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

2. Marcus Tullius Cicero. On the Nature of the Gods / Translated by F. Brooks. London: Methuen, 1896.

3. Асмус В.Ф. Античная философия. М.: Высшая школа, 1976.

4. Лосев А. Ф. История античной эстетики. Т. 5. М.: АСТ; Харьков: Фолио, 2000.

5. Лукреций. О природе вещей / Перевод Ф.Петровского. М.: Художественная литература, 1983.

6. Маковельский А. О. Древнегреческие атомисты. Издательство АН Азербайджанской ССР, 1946.

7. Шакир-Заде А. Р. Эпикур. М.: Соцэкгиз, 1963.

## 2.4. Peripatetizm

Qeyd edildiyi kimi Aristotel Afinada ***Likeion*** (yun. *Λύκειον*) adlanan məktəbini yaratmışdır. O məktəbin binasını və yerini öncə bədən tərbiyəsi üzrə oyunlar üçün istifadə edirdilər. Aristotel isə orada dərslər keçirirdi. Likeosun kölgəli bağlarında gəzintiyə çıxarkən Aristotel öz öyrəncilərini fəlsəfəsinin müxtəlif aspektləri ilə tanış edirdi. Ona görə də, Aristotelin bu məktəbi **"peripatetik"** (yun. *περιπατέω* – gəzinti) adlandırılmışdır.

Aristotelin ölümündən sonra onun ardıcılları fəlsəfi və elmi araşdırmalarını davam etdirmişdilər. Onların ən başlıca vəzifələrindən biri müəllimlərinin fəlsəfi əsərlərini şərh etməkdən ibarət idi. Miladi III yüzillikdə peripatetizm *yeni-platonçuluqla* (neoplatonizmlə) qarışaraq ortadan çıxmışdır.

Aristotelin öyrəncilərindən olan **Teofrastus** (yun. *Θεόφραστος*, m. ö. 370 – 285) onun irsinin davamçısı olmuş və müəlliminin göstərişi ilə peripatetik məktəbə 34 il rəhbərlik etmişdir. O, bir çox kitabların müəllifi olmuş, ancaq onların çox az bir qismi zamanımıza gəlib çatmışdır (5, 197).

Teofrastus botanika elminin yaradıcılarından biri olmuşdur. Bizim zamanımıza qədər onun ***"Bitkilərin tarixi"*** (lat. *Historia plantarum*) və ***"Bitkilərin səbəbi"*** (lat. *De causis plantarum*) adlı əsərləri gəlib çatmışdır. Bu kitablarda bitkilərin təsnifatı və 500-ə yaxın bitki növlərinin özəllikləri verilmişdir.

Onun fikrincə bitkilər diri varlıqdır, onlar həyatlarını sürdürmək üçün suya və istiliyə möhtacdırlar. Teofrastus hesab edirdi ki, bitkilərin həyatına çevrə (mühit) və irsiyyət təsir edir.

Teofrastus bitki elminə aid problemləri həll etməyə çalışaraq onların daxili quruluşunu araşdırmış, bitkilərin heyvanlardan nə ilə fərqləndiyi sualına cavab tapmaq istəmişdir. O, bitkilərə canlı orqanizm kimi baxırdı.

Teofrastusa görə çevrənin təsiri və irsiyyət bitkilərin həyatında böyük rol oynayır. O müşahidə etməklə belə qənaətə gəlmişdir ki, çevrənin təsiri altında heyvanların

rəngi dəyişə bilər. Bu kimi iddialar sonrakı dövrlərdə elm tərəfindən təsdiq olunmuşdur. Ancaq, bəzi məqamlarda isə onun iddiaları öz təsdiqini tapmamışdır. Çünki. onun zamanında elm indiki qədər inkişaf etməmişdir. Ancaq, Teofrastusun araşdırmaları nəticəsində botanika elmi inkişaf etməyə başlamışdır. Həmçinin o, bitkilərin praktik baxımdan təsərrüfatda işlənməsinə dair tövsiyələr də vermişdir. (7, 186-189)

İdrak problemlərinə toxunan Teofrastus hesab edirdi ki, elmi nəzəriyyələr düyğusal (empirik) əsaslara dayanmalıdırlar (19). Duyğu vasitəsi ilə qavranılan biliyi elmi nəzəriyyələrə zorla uyğunlaşdırmaq olmaz. Deməli o, düşüncəni deyil, duyğusallığı idrakın əsası kimi qəbul edirdi.

Teofrastus yunan fəlsəfəsinə ilk dəfə olaraq *odu* yer, su və hava ilə birlikdə hər şeyin əsasında duran ünsürlərdən biri hesab etməmişdir (21). O deyirdi ki, od sərbəst olaraq var ola bilməz, çünki onun var olması üçün yanacaq olmalıdır. Ünsür isə başqa şeylərə bağlı olmadan səbəbsiz var olmalıdır. Buna görə də od ünsür ola bilməz.

*Fizika sahəsində* Teofrastus *kateqoriyalara* bir qədər fərqli yanaşırdı. Əgər Aristotel hərəkəti yalnız keyfiyyət, mahiyyət, miqdar və yer kateqoriyalarına uyğun olmasını iddia edirdisə, Teofrastus hərəkət anlayışını bütün kateqoriyalara, o cümlədən münasibət kateqoriyasına da aid edirdi. Buna dəlil olaraq oğulun ölümü ilə atalığın başa çatmasını göstərmək olar. Şeylərin keyfiyyət baxımından dəyişməsi bəzən bir an içində baş verir.

Məsələn, ağ olan bir şey keçid mərhələsi olmadan qara ola bilər.

Aristotel kimi Teofrastus da dünyanı hərəkətə gətirən *"İlk mühərrik"* haqqında düşünürdü. Burada o, bir neçə aporiyaların (ziddiyyətlərin və çətinliklərin) yaranmasına diqqət yetirmişdir. Məsələn o, belə bir suallarla çıxış edərək deyirdi ki, əgər bir mühərrik vardırsa, onda nəyə görə əşyaların və cisimlərin (məsələn göy cisimlərinin) hərəkəti eyni deyildir? Əgər mühərriklər çoxdursa, onda hərəkətdə olan olayların ümumi ahəngini nə ilə izah etmək olar? İlk mühərrik canlı deyilsə, onda o necə məqsədyönlü fəaliyyət göstərə bilər? Beləliklə, Teofrastus Aristotelin təlimində ziddiyyətləri açıqlamış, ancaq ümumiyyətlə onun fikirlərini rədd etməmişdir.

Teofrastusun Tanrı haqqında fikirləri isə ziddiyyətli idi. O, Tanrını özünü düşünən, özündə olan, və özünü dərk edən təfəkkür kimi qəbul edirdi. Başqa tərəfdən o, göyü və ulduzları da tanrılaşdırırdı (8, 30). Dünya isə onun fikrincə əbədidir.

Teofrastus həm də bəzi dini ayinləri tənqid edirdi. Xüsusən də o, qurbanların kəsilməsinə qarşı idi. O deyirdi ki, təbiətcə insanlarla heyvanlar birdirlər, onların davranışları, xasiyyətləri də bir-birinə bənzərdir. Ona görə də, heyvanların kəsilməsi insan tərəfindən törədilər amansızlıq və qəddarlıqdır (20). Hətta o, buna görə ət yeməkdən də çəkinmişdir.

Daha sonra Teofrastus ***məqsədəuyğunluq və təsadüf*** probleminə toxunmuşdur. Bir şey başqa şeyə görə ortaya çıxır, ya da onun varlığı təsadüfi xarakter daşıyır? Bu

suala cavab verən Teofrastus teleologiyanın[73] təsirini kiçiltmiş, onu mütləqləşdirməmiş, ancaq tam inkar da etməmişdir. Canlı və cansız təbiətdə bir çox şeylər təsadüfən baş verir. Belə olmazsa həyatda baş verən qanunauyğunsuzluğu və ahəngsizliyi izah etmək mümkün olmazdı. Yəni, bəzi hallarda təsadüf məqsədəuyğunluğa müdaxilə edərək onu pozur.

Bununla belə o, məqsədəuyğunluğu tam inkar etmirdi, onu botanikada istifadə edirdi. O göstərmişdi ki, bitkilərdə hər bir üzv başqasının varlığını təmin etmək üçün mövcuddur. Kök onu saxlamaq və qidalandırmaq, yarpaqlar isə günəş istiliyinin mənimsənilməsi üçündür. Hər bir üzv isə tamlığı təşkil edir.

Teofrastus həyatın məqsədini xeyrə qulluq etməkdə görürdü. Ancaq bunu edərkən o, aşırılığa varmağın və abid olmağın da əleyhinə idi. Ümumiyyətlə o düşünürdü ki, xeyir insan xoşbəxtliyi üçün əhəmiyyətlidir. Həyatın bütün zövqləri keçicidir. İnsan yaşamağa başlayan kimi həyat tez bitir. Ona görə də, şöhrət arxasınca qaçmaq mənasızdır. Ümumiyyətlə, həyat onun üçün boş və mənasızdır. (5, 196-197)

Teofrastus həm də insanın qüsurlu xasiyyətləri və özəlliklərini araşdırmışdır. O, insanları ikiüzlü, yaltaq,

---

[73] **Teleologiya** (yun. Τέλειος-sona çatmaq + λόγος-təlim) – məqsədəuyğunluq, məqsədyönlülük haqqında təlimdir. Teleoloji baxımdan təbiətdə hər şeyin bir məqsədi vardır. İnsandan fərqli olaraq başqa canlılar və əşyalar düşünməyərək ona doğru yönəlirlər. İlk dəfə teleoloji nəzəriyyə Aristotel tərəfindən irəli sürülmüşdür. O hesab edirdi ki, hər bir şeyin əsasında bir məqsədyönlülük durur. Bütün məqsədlər bir yüksək məqsədə tabedir və ümumdünya ahənginin bir hissəsidir.

mənəvi cəhətdən qüsurlu, hamının qarşısında baş əyən, çərənçi, xəbərçi, həyasız, sadə, təkliyi xoşlayan, mövhumatçı, biganə, pinti, başqalarına etibar etməyən, hamını boğaza yığan, şərəfbaz, xəsis, təkəbbürlü, qorxacaq, qara camaata doğru yönələn və acıdillərə bölürdü (22).

Teofrastusun ən tanınmış öyrəncisi **Lampsakalı Straton** (yun. *Στράτων*, m. ö. 340 – 268) olmuşdur. O, 18 il peripatetik məktəbə başçılıq etmişdir (5, 203). Ondan öncə isə o, məşhur Misir kralı II Ptolemeus Filadelfin müəllimi idi. Misirdə olarkən Straton Falerli Demetriusla birlikdə Museyonun yaradıcılarından biri olmuşdur.

Straton peripatetizmdə materialist ənənəsini davam etdirənlərdən idi. O, ilk növbədə metafizikanı, dərk olunmaz şeyləri inkar etmiş, təbiətin özünə istinad edərək onu izah etməyə çalışırdı (8, 20-21). Onun fikrincə dünyanın yaradılışını tanrılarla bağlamaq lazım deyildir. Hər şeyi təbiət özü yaratmışdır. Stratona görə təbiət daxili zərurətlə fəaliyyət göstərən, hissiyyatlara və düşüncələrə malik olmayan özü özünü yaradan bir varlıqdır. O canlı olmasa da kosmosu yaratmışdır. Hər bir şeyin dəyişikliyinin səbəbi də təbiətdir. Straton həm də Aristotelin "dünya ruhunun" olması fikri ilə razılaşmırdı. Onun təlimində ruh bədənlə birlikdə ölür.

Ancaq başqa tərəfdən Straton dünyanın atomlardan ibarət olduğunu inkar edərək bu fikrin Demokritin xəyalından doğulduğunu iddia etmişdir. Bəzən o, Demokritin fikirlərinə yaxınlaşsa da, ancaq Aristoteldən fərqli olaraq boşluqların var olmasını inkar etmirdi. Onun

fikrincə istinin və işığın yayılması kimi olaylar boşluqların varlığını sübut edir. Belədirsə, onda bütün şeylər hissəciklərdən ibarətdir və o hissəcikləri boşluqlar əhatə edir (14, 185). Ancaq o, bu hissəcikləri atomlar adlandırmırdı. Həmçinin, Stratona görə dünyanın əsasını iki bir birinə zidd qüvvə təşkil edir. Bunlar *"isti"* və *"söyuq"*dur. Dünyada baş verən olaylar isti və soyuğun mübarizəsinin nəticəsidir.

Stratona görə *"ağırlıq"* xüsusi əhəmiyyətə malikdir. O hər bir hərəkətin mənşəyidir. Ağırlıq kosmosu düzənləyir; yerin, suyun havanın və odun yuxarıdan aşağı ardıcıl yerləşməsi prosesini yaradır və təmin edir.

Straton cisimlərin sərbəst düşmə təcilinin açılmasına yaxınlaşmışdır. Aristotel hesab edirdi ki, düşən cisim eyni surətlə hərəkət edir. Ancaq ondan fərqli olaraq, Straton düşən (yıxılan) cisimlərin surətinin keçdikləri məsafədən asılı olaraq çoxalmasını təcrübələrlə sübut etmişdir (12, 344). Ancaq bunu qanun şəklində ifadə edə bilməmişdir. Bunu iki min ildən sonra Qaliley edə bilmişdir.

Straton Aristotelin zaman anlayışına verdiyi təriflə də razı olmamışdır. Aristotel hesab edirdi ki, zaman keçmişə və gələcəyə doğru hərəkət edən rəqəmdir. Stratona görə isə zaman hərəkət və sükunətin ölçüsüdür. O hesab edirdi ki, rəqəm sonludur, zaman isə sonsuz olduğuna görə rəqəmlərə sığa bilməz (12, 348).

Stratonun ən tanınmış öyrəncilərindən biri **Samoslu Aristarxus** (yun. *Ἀρίσταρχος ὁ Σάμιος,* m. ö. 320 – 250) olmuşdur. O, İskəndəriyyədə yaşamışdır. O, astronomiya

elmi ilə məşğul idi. *"Günəş və ayın məsafələri və kəmiyyətləri"* adlı kitabın müəllifi olmuşdur.

Aristarxus həndəsi yolla yerdən aya və günəşə qədər məsafəni, eləcə də kosmik cisimlərin ölçülərini ölçməyə çalışmışdır (15, 140). Bunun üçün o, tamamilə doğru düşünmüşdür ki, yerdən ayın yarısı görüldükdə, o günəş və yerlə düzbucaqlı üçbucaq təşkil edir. Beləliklə, yer-günəş-ay üçbucağını həndəsi yolla izah edərək, Aristarxus belə nəticəyə gəlmişdir ki, ayın radiusu yerin radiusundan üç dəfə kiçikdir; yerdən günəşə qədər məsafə isə aya qədər olan məsafədən 18 dəfə çoxdur (16).

Bu nəticələr onu Aristotelin *yermərkəzçi* (geosentrik) sisteminin inkar edilməsinə gətirib çıxartmışdır. Aristarxusun fikrincə planetlərin hərəkəti ilə bağlı bütün çətinliklər onların *günəş ətrafında fırlanması* nəzəriyyəsini qəbul edəndən sonra aradan qalxır. Beləliklə o, *günəşmərkəzçilik* (heliosentrik) sistemini əsaslandırmağa çalışmışdır (3, 525-545). Yer isə günəş ətrafında fırlanaraq, həm də öz oxu ətrafında fırlanır (15, 137). Ancaq onun bu fikirləri qədim zamanlarda qəbul olunmamışdır. Sonralar Kopernik bu nəzəriyyəni yenidən dirçəldə bilmişdir.

Bu kimi fikirlərin irəli sürməsinə görə Aristarxusu tanrılara qarşı çıxmaqda ittiham etmişlər, buna görə də o, Afinanı tərk etməyə məcbur olmuşdur (11).

Aristotelin daha bir öyrəncisi **Rodoslu Eudemus** (yun. *Εύδημος ο Ρόδιος,* m. ö. IV yüzillik) olmuşdur. O, müəlliminin əsərlərinə şərhlər, eləcə də elmlər tarixi üzrə kitablar yazmışdır. Onların bəzi fraqmentləri günümüzə gəlib çatmışdır və o dövrün

riyaziyyat və astronomiya haqqında biliklərimizin yeganə qaynağı hesab olunmaqdadır. Bundan başqa Eudemus Aristotelin tarix, fizika və ilahiyyata aid olan fikirlərini şərh etmiş, bu əsərlərdə olan ziddiyyətləri ortadan qaldırmağa cəhd etmişdir (24). Bəzi tədqiqatçılar Eudemusu Aristotel irsinin ilk şərhçisi kimi də dəyərləndirirlər.

Peripatetik məktəbin görkəmli nümayəndələrindən biri **Tarentli Aristoksenus** (yun. *Ἀριστόξενος ὁ Ταραντίνος*, m. ö. 360-cı ildə doğulmuşdur) olmuşdur. O, musiqi nəzəriyyəsi üzrə antik dünyanın ən tanınmış alimlərindən biri idi və bu sahədə çoxlu əsərlər yazmışdır**.** Bundan başqa Aristoksenusun başqa əsərlərindən olan fraqmentləri də zamanımıza çatmışdır.

***"Ritmikanın elementləri"*** və ***"Harmonikanın elementləri"*** adlı kitablar musiqi nəzəriyyəsi sahəsində yazılan və bu sahədə zamanımıza çatmış ilk əsərlərdir. Bu kitablarda musiqi nəzəriyyəsi *ritmika, harmoniya* və *metrika* kimi fəsillərə bölünmüşdür (2, 593). Musiqi alətlərinin araşdırılması da ayrıca bir bölümdə verilmişdir. Bundan başqa, bu kitablarda yunan musiqisinin mənşəyi və növləri haqqında bilgi və onları izah edən istilahlar açıqlanmışdır. Musiqinin özü isə orada səslər, intervallar, sistemlər və cinslər kimi hissələrə bölmüşdür.

Həmçinin, Aristoksenus Pifaqor, Sokrat, Platon və digər filosofların həyat və yaradıcılıqlarını qələmə almışdır. Ancaq onlardan bəzilərinin (Platon və Sokratın) qüsurlarını qabartmış, bəzilərini isə (Arxitusu və Pifaqoru) rəğbətlə yad etmişdir. Bu da onun tərəfkeşliyindən irəli

gəlirdi. Bir çox yazılarında o, pifaqorçulara və onların təlimlərinə üstünlük verirdi.

Aristoksenus peripatetizmə pifaqorçuluğun ənənələrini gətirmişdir. O, duyğularla alınan biliyin yanlış olmasını iddia edənlərə qarşı çıxış edirdi. Keçmişdə musiqiçi olduğuna görə Aristoksenus hesab edirdi ki, musiqi həm duyulmalı, həm də düşüncə ilə qavranılmalıdır. Onun fikrincə duyğular idrakın əsasında durur. Bunu iddia edərkən o, pifaqorçulara qarşı çıxış edirdi. Pifaqorçular hesab edirdilər ki, duyğular idrakın yalnız başlanğıcında durur, düşüncə isə onu tamamlayır. Aristoksenus isə idrak prosesində düşüncəni yalnız duyğulardan sonra gələn ikinci dərəcəli amil kimi qəbul edirdi. (9, 66-67)

Aristoksenusa görə musiqi həm də insanlarda igidlik hisslərini oyatmalıdır. O, hətta musiqi ilə xəstəliklərin müalicə edilməsini də mümkün saymışdır. Onun fikrincə dəbdə olan bayağı musiqi ilə bunları etmək olmur, onlar əxlaq pozuntusuna gətirib çıxardır. (9, 66-67)

Daha bir tanınmış peripatetik **Dikearxus** (yun. *Δικαίαρχος*, təxminən m. ö. 365 – 300) olmuşdur. Aristotelin və Teofrastusun öyrəncisi idi. O, psixologiya, tarix, mədəniyyət, dilçilik və siyasət elmlərini əhatə edən bir çox elmi kitablar yazmışdır.

Dikearxus ruhun varlığını və ölməzliyini inkar edirdi. ***"Ruh haqqında"*** (yun. *Περὶ ψυχῆς*) kitabında o yazırdı ki, ruh materiyanın formalarından biridir, cisimdir. Dünyada bütün varlıqlar dörd ünsürdən əmələ

gəldiyi kimi ruh da onlardan biridir, sadəcə onun vəzifəsi bədəni canlandırmaqdır (4, 17).

***"Trifoniusun məbədinə eniş"*** (yun. *Εἰς Τροφωνίου κατάβασις*) əsərində Dikearxus din xadimlərini tənqid etmişdir. Həmin bu əsərdə o, falçılığı rədd edərək yalnız ilham və röyaları inkar etməmişdir (13).

Dikearxus mədəniyyət tarixi elminin yaradıcısı hesab edilir. O, ***"Yunanıstan həyatı"*** (yun. *Βίος Ἑλλάδος*) kitabında yunan mədəniyyətinin icmalını vermiş, yunanların inkişafını Şərqin mədəni həyatı ilə bağlamışdır (13). Onun fikrincə insanlar təbii yaşamdan heyvandarlığa, sonra isə əkinçiliyə keçmişdilər.

Dikearxus siyasi məsələləri də araşdırmışdır. ***"Tripolitikus"*** (yun. *Τριπολιτικός*) adlı yazısında o hesab edirdi ki, dövlətin idarəçilik metodu demokratiya, monarxiya və aristokratiyanın qarışığından ibarət olmalıdır (13).

Dikearxus həm də təbiətşünas olmuş, xəritələr çəkmişdir (23, 107). ***"Yeri dolaşmaq"*** (yun. *Γῆς περίοδος*) kitabında o, yerin kürə formasında olmasını iddia etmiş, bəzi dağların hündürlüyünü ölçməyə çalışmışdır.

Peripatetik məktəbin daha bir nümayəndəsi **Falerli Demetrius** (yun. *Δημήτριος Φαληρεύς*, lat. *Demetrios Phalereus*, m. ö. 350 – 283) olmuşdur. O, Teofrastusun öyrəncisi idi. Demetrius həm də siyasi xadim kimi tanınmış, bir zaman Afina hökmdarı olmuşdur (18, 378). Ancaq sonra o, təqiblərə məruz qalmış və Misirə qaçmalı olmuşdur. Demetrius tarix, siyasət, bəlağət və başqa

sahələrdə çoxlu əsər yazmışdır (5, 210-211), ancaq onların çoxu zamanımıza gəlib çatmamışdır.

Onun bəzi ***əxlaqa*** aid fikirlərini Diogenes Laertius qələmə almışdır. O deyirdi ki, gənclər evdə öz ata-anasının, küçədə yoldan keçənlərin, təklikdə isə özlərinin qarşısında abırlarını saxlamalıdırlar (5, 212).

Misir hökmdarı I Ptolemeusun dövründə Demetrius İskəndəriyyədə elmi-mədəni mərkəz olan "***Museyonun***" və orada yerləşən məşhur kitabxananın yaradılması təşəbbüsü ilə çıxış etmişdir (6, 518). Eyni zamanda o, yəhudilərin müqəddəs kitabı olan Əhdi-Ətiqin yunan dilinə çevrilməsinin təşəbbüskarı idi. Bu tərcümə "Septuaginta" adlanmışdır. Bundan sonra yunan düşüncəsinə yəhudiliyin birbaşa təsiri dövrü başlamışdır. Bu proses sonralar Avropada xristianlığın yayılması ilə nəticələnmişdir.

Sonrakı dövrlərdə peripatetik məktəb tənəzzül dövrünü yaşamış və böhrana uğramışdır. O zamandan başlayaraq peripatetik məktəbin ardıcılları artıq orijinal fikirlər ortaya qoya bilməmişdilər. Onlar ancaq Aristotelin əsərlərinin toplanması, yayılması və onlara şərhlərin yazılması ilə məşğul olmuşdurlar.

Bu dövrün ən tanınmış filosoflardan biri **Rodoslu Andronikus** (yun. *Ἀνδρόνικος ο Ρόδιος*, m. ö. I yüzillik) olmuşdur. O, peripatetik məktəbə başçılıq etmişdir. Andronikusun ən böyük xidməti ondan ibarət idi ki, o, Aristotelin və Teofrastusun əsərlərini yenidən toplamış, redaktə etmiş və yayımlamışdır. Elə bu şəkildə də onlar bizim zamanımıza çatmışdır (1).

**Afrodisialı Aleksandr** (yun. *Ἀλέξανδρος ὁ Ἀφροδισιεύς,* II – III yüzilliklər) da Aristotelin əsərlərinə şərhlər yazanlardan biri olmuşdur. O, həm də Aristotelin təlimini başqa məktəblərin nümayəndələrinin tənqidlərindən müdafiə edirdi. Buna görə də sonralar ona ***"Şəhrçi"*** adını vermişdirlər. Aleksandrın məqsədi Aristoteli tanıtmaq, onun əsərlərindəki ziddiyyətləri ortadan qaldırmaq olmuşdur. Məlumdur ki o, Aristotelin "Metafizika", "Meteorologiya", "Topika", "Ruh haqqında", "Göy haqqında" kimi əsərlərinə ətraflı şərhlər yazmışdır. Onun bir çox əsərləri zamanımıza ərəb tərcümələri vasitəsi ilə gəlib çatmışdır. Çünki orta əsrlərdə ərəbdilli filosoflar Aristotelin və onun şərhçilərinin irsi ilə çox maraqlanmış və bu ənənəni davam etdirmişdirlər. (10)

Aleksandr öz şərhlərini özünəməxsus şəkildə verirdi. O, Aristotelin kitabından hansısa bir sətri olduğu kimi verdikdən sonra, onun altında böyük həcmli şərhini yazmış və sonra başqa sətrə keçirdi. Beləliklə, bütün kitab şərh olunurdu.

Aleksandr Aristoteli peripatetik ənənəyə dayanaraq şərh edən sonuncu şərhçi olmuşdur. Ondan sonra peripatetik məktəbin ardıcılları platonçularla qarışmışdırlar.

Aristotelin şərhçisi kimi tanınmış Aleksandrın özünə məxsus fikirləri də olmuşdur. Məsələn, ***"Tale haqqında"*** (yun. *Περὶἑίμαρμένης,* lat. *De fato*) əsərində o tale, azadlıq və təsadüf anlayışları haqqında düşünmüşdür. Aleksandr taleyin hər şeyi həll etməsini iddia edən stoaçılarla razılaşmırdı. Onun fikrincə tale qanunauyğunluqdur,

ancaq zərurət deyildir. Bu qanunauyğunluğun içində təsadüfə də yer vardır. Belə olmasaydı, onda insan fəaliyyətinin heç bir mənası olmazdı. İnsanın hərəkət və davranışlarının səbəbi elə o özüdür, hər şeyi taleyin üzərinə atmaq olmaz. (17, 187-188)

Aleksandrın ***"Ruh haqqında"*** (yun. *Περὶ Ψυχῆς*, lat. *De Anima*) əsəri bir çox hallarda Aristotelin fikirlərini təkrarlayır. Onun fikrincə, ruh bədənin ondan ayrılmaz formasıdır. Ruhun bitkisel, duyğusal və düşüncəvi funksiyaları vardır. Düşünən ruhun özəlliyi mülahizə və təhlil etməkdir. Bunun vasitəsi ilə insan fikir irəli sürür və ya elmi araşdırma aparır. Eyni zamanda, iki çür ruh vardır: *"imkanlı"* (potensial) və *"fail"* (aktual). Birincisi doğuşdan təbiət tərəfindən verilir; o yazılmamış vərəqə bənzərdir. İkincisi isə sonradan qazanılan, məhz bu düşüncənin əsasını təşkil edir. (17, 187-188)

Bu əsərin ikinci hissəsində ***"Düşüncə haqqında"*** (yun. *Περὶ νοῦ*) adlanan bölüm vardır. Orada Aleksandr düşüncənin nə olması haqqında düşünür. Onun fikrincə insanda üç növ düşüncə vardır. Birincisi, doğuluşdan var olur və o ən ibtidaisidir; ikincisini insan öz fəaliyyəti nəticəsində əldə edir; üçüncüsü isə insana əlavə olaraq daxil edilir. Onun vasitəsi ilə də düşünmə qabiliyyəti yaranır.

**Mövzu ilə əlaqəli suallar:**

1. Peripatetik məktəb kimin təlimini davam etdirmiş, vəzifəsi nədən ibarət olmuşdur?

2. Teofrastus botanika elmində nə kimi uğurlar əldə etmişdir?

3. Teofrastusun təbiət və idrak problemləri üzrə fikirləri necə olmuşdur?

4. Teofrastus tanrı, din və "İlk mühərrik" haqqında nə düşünmüşdür?

5. Teofrastus kateqoriyalarda hansı dəyişikliklər etmişdir?

6. Teofrastusun məqsədəuyğunluq və təsadüf probleminə münasibəti necə olmuşdur?

7. Teofrastusa görə həyatın məqsədi nədədir?

8. Rodoslu Eudemusun fəaliyyəti nədən ibarət olmuşdur?

9. Aristoksenusun müsiqi nəzəriyyəsi sahəsində hansı nailiyyətləri olmuşdur?

10. Aristoksenus hansı filosoflara üstünlük vermiş, kimləri qüsurlu göstərmişdir?

11. Aristoksenus dünyanın dərk edilməsini necə təsəvvür edirdi?

12. Dikearxus ruh haqqında hansı fikirdə olmuşdur?

13. Dikearxus bəşəriyyətin mədəniyyət tarixini necə təsəvvür edirdi?

14. Dikearxusun təbiət və siyasət haqqında hansı fikirləri olmuşdur?

15. Falerli Demetrius hansı fəlsəfi fikirlərlə çıxış etmişdir?

16. Straton təbiət, dünya quruluşu və zaman haqqında hansı fikirlər irəli sürmüşdür?

17. Aristarxus planetlər arasındakı məsafəni necə ölçmüşdür?

18. Aristarxus kosmosu necə təsəvvür edirdi?

19. Rodoslu Andronikusun və Afrodisialı Aleksandrın fəaliyyəti nədən ibarət olmuşdur?

20. Afrodisialı Aleksandr tale və təsadüf haqqında nə düşünmüşdür?

21. Afrodisialı Aleksandrın ruh və düşüncə haqqında fikirləri necə olub?

**Ədəbiyyat:**

1. Andronicus of Rhodes // Dictionary of Greek and Roman Biography and Mythology. Boston: C.C. Little and J. Brown, 1849.

2. Aristoxenus of Tarentum // Chambers's Encyclopædia. Vol. 1. London: George Newnes, 1961.

3. B. L. van der Waerden, The heliocentric system in Greek, Persian and Hindu astronomy. From deferent to equant: A Volume of Studies in the History of Science in the Ancient and Medieval Near East in Honor of E.S. Kennedy. Annals of the New York Academy of Sciences, Volume 500, June 1987.

4. Cicero. Tusculan disputations / Translated by Andrew P. Peabody. Boston: Little, Brown, and Company, 1886.

5. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

6. Georgius Sinkellus. Ecloga chronographica. Oxford University Press, 2002.

7. Greek Musical Writings. Vol. 1: Musician and His Art, edited by Andrew Barker. Cambridge, 1984.

8. Marcus Tullius Cicero. On the Nature of the Gods / Translated by F. Brooks. London: Methuen, 1896.

9. Sir John Hawkins, A general history of the science and practice of music, Volume 1, London: T. Payne and Son, 1868.

10. Александр Афродисийский // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция. 2008.

11. Аристарх Самосский // Философская Энциклопедия. В 5-х т. М.: Советская энциклопедия. Под редакцией Ф. В. Константинова. 1960-1970.

12. Две книги против физиков // Секст Эмпирик. Сочинения в двух томах / Перевод А. Ф. Лосева. Том 1. М.: Мысль, 1976.

13. Дикеарх // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция. 2008.

14. Лукулл // Марк Туллий Цицерон. Учение академиков / Перевод Н. А. Федорова. М.: Индрик, 2004.

15. Плутарх. О лике, видимом на диске луны / Перевод Г. А. Иванова // Философия природы в античности и средние века. М.: Прогресс-Традиция, 2000.

16. Протасов В. Ю. Геометрия звездного неба // «Квант» № 2, 2010.

17. Солопова М. А. Александр Афродисийский и его трактат «О смешении» в контексте истории комментаторской традиции аристотелизма. М.: Наука, 2002.

18. Страбон. География в 17 книгах / Перевод Г. А. Стратановского. Л.: Издательство Академии наук СССР, 1950.

19. Теофраст // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция. 2008.

20. Теофраст // Новая философская энциклопедия / Под редакцией В. С. Стёпина. В 4 тт. М.: Мысль, 2001.

21. Теофраст // Философская Энциклопедия / Под редакцией Ф. В. Константинова. В 5-х т. М.: Советская энциклопедия, 1960-1970.

22. Феофраст. Характеры / Перевод Г. А. Стратановского. Л.: Наука, 1974.

23. Цицерон М. Т. Письма Марка Туллия Цицерона к Аттику, близким, брату Квинту, М. Бруту. Том 2. Годы 51-46. / Перевод и комментарии В. О. Горенштейна. М.-Л.: Издательство Академии Наук СССР, 1950.

24. Эвдем Родосский // Энциклопедический словарь Брокгауза и Ефрона: в 86 т. СПб.: 1890-1907.

## 2.5. Stoaçılıq

**Stoaçılıq** (yun. *Στοά*) ellinizm dövründə Afinada təxminən m. ö. 300-cü ildə yaranmış fəlsəfi məktəb olmuşdur. Antik dünyanın ən tanınmış məktəblərindən biri idi. Məktəbin tarixini şərti olaraq üç dövrə bölürlər: ***qədim*** (m. ö. IV – II yüzilliklər), ***orta*** (m. ö. II – I yüzilliklər) və ***yeni*** (m. I – III yüzilliklər). Stoaçılığın yeni dövrünü ***"Roma stoaçılığı"*** da adlandırırlar. Stoaçılıq fəlsəfəsi bir çox hallarda Heraklitin, Platonun, Aristotelin, kiniklərin təlimlərinə çox yaxınlaşmış və onlardan qaynaqlanmışdır.

### 2.5.1. Qədim stoa

Məktəbin yaranması **Zenonun** (yun. *Ζήνων*, m. ö. 336 – 264) adı ilə bağlıdır. O, Kipr adasının Kitiya şəhərindən idi. 315-ci ildə ticarət məqsədi ilə Afinaya gəlmiş, orada məskunlaşmışdır. Afinada Zenon fəlsəfəyə böyük maraq göstərmiş və bir müddət kinik məktəbin nümayəndəsi olan Kratesin, daha sonra akademik məktəbin təmsilçiləri olan Stilpon və Ksenokratesin öyrəncisi olmuşdur. Zenon Afinada ***"Stoa Poykile"*** (yun. *στοά ποικίλη* – naxışlı portikus) adlı portikusda [74] öyrəncilər üçün dərslər keçmişdir (1, 259-260). Buna görə də məktəbin ardıcıllarını stoaçılar adlandırmışdırlar.

---

[74] Binaya bitişik olan sütünlu açıq tikilidir.

Diogenes Laertiusa görə, bəlkə də məhz Zenon *"İnsan təbiəti haqında"* əsərində ilk dəfə təbiətin qanunlarına uyğun ərdəmli həyat sürmək fikrini dilə gətirmişdir. Bununla da o, stoaçılığı etik problemlərin çözülmənsə yönəltmiş oldu. Həmçinin Zenon hesab edirdi ki, fəlsəfə üç tərkib hissədən: məntiq, fizika və etikadan ibarətdir və onlar vahid bir sistemdə birləşdirilməlidirlər (1, 274). Bu prinsipləri o özü həyatı boyu tətbiq etmiş, sonda isə intihar etmişdir.

Roma filosofu Sisero yazırdı ki, Zenon təbii qanunu tanrı sayırdı (4, 30). Onun fikrincə tanrının sifəti və şəxsiyyəti yoxdur. O bu dünyanın qanunauyğunluğudur ya da bir Əqldir. Buna görə də ona ibadət edilməz. Zenonun öyrəncilərindən bəziləri hesab edirdilər ki, bəzi ərdəmli insanları gələcəkdə tanrılaşdırmışdırlar. Həm də Zenona görə kainat canlı və diri varlıqdır. Hər şeyin əsasını isə "yaradıcı od" təşkil edir (4, 109). Bu fikrin ifadə edilməsi ilə Zenon Heraklitin baxışlarını təkrarlamış olurdu.

Zenon və onun öyrəncilər Xeyir anlayışına önəm verirdilər. Bunu edərkən onlar Platonu təkrarlayırdılar. Zenonun fikrincə həyatın gözəlliyi vahid bir xeyirdədir, xoşbəxtliyə isə yalnız müdrik insan çatır (2, 271). Eyni zamanda, nəfslər və mənfi ehtiraslar düşüncəyə qarşı duran və təbiətə zidd olan şeylərdir (2, 202).

Zenonun tanınmış öyrəncilərindən biri X**risippus** (yun. Χρύσιππος, m. ö. 280 – 207) olmuşdur. Onun fəaliyyəti nəticəsində stoaçılıq sistemləşmiş bir təlim kimi ortaya çıxmışdır. Ona görə Xrisippusu stoa məktəbinin

ikinci yaradıcısı sayırlar. Xrisippus çoxlu kitablar yazsa da, bizim zamanımıza onlardan bəzi fraqmentlər gəlib çatmışdır.

Xrisippus daha çox məntiqi məsələlərə önəm vermişdir. O, başqa stoaçılar kimi hesab edirdi ki, fəlsəfənin üç istiqaməti vardır: *məntiq*, *fizika* və *etika* (əxlaq). Məntiq *ritorika* (söz ustalığı) və *dialektikadan* (mübahisə bacarığı) ibarətdir. Dialektika isə *məna* və *səsə* bölünür. Mənalar təsəvvürlər və onlara əsaslanan mülahizələrdən, cins və növlərdən, eləcə də sofizmlərdən ibarətdir. Səslər isə deyilən sözlər, cümlələrdir.

Dünyada hər şey səbəb və nəticə qanununa tabedir. Ona görə də mülahizələr *sadə* və *mürəkkəb* olur. ***Sadələrdə*** şeyləri keyfiyyətlərə görə təsnif edib, onlara dəqiq təriflər verirlər. Sadə mülahizələrin örnəkləri kimi "o gəzir", "günəş göydədir" sözlərini misal gətirmək mümkündür.

***Mürəkkəb*** mülahizələri Xrisippus *şərtilərə* ("günortadırsa, onda hava işıqlıdır"), *birləşdiricilərə* ("həm günortadır, həm də işıqlıdır"), *müqayisəlilərə* ("gün gecədən uzundur") və s. bölürdü. Bunlardan ən önəmlisi şərti olan mürəkkəb mülahizələrdir. Orada sonrakı iddia öncəkiyə zidd olmamalıdır. Məsələn, "günortadırsa, onda hava işıqlıdır" cümləsini təhlil etsək, onun həqiqəti əks etdirdiyini görərik. Çünki "hava qaranlıqdır" desək, bu "günortadır" iddiasına zidd olar. Mülahizələrdən çıxan nəticə yalnız onda həqiqi sayılır ki, o həqiqi önərmələrə (iddialara) söykənsin. (18)

Zenonun ən tanınmış öyrəncilərindən biri **Kleantes**[75] (yun. *Κλεανθης*, m. ö. 330 – 232) olmuşdur. O, yeni ideyalarla çıxış etmiş, müəlliminin irsini yaymış və təbliğ etmiş, daha sonra stoa məktəbinə başçılıq etmişdir. Diogenes Laertiusa görə Kleantes çoxlu kitab yazmış, ancaq onlardan yalnız bəzi fraqmentlər zamanımıza çatmışdır (1, 325). Kleantes də bəzi digər filosoflar kimi könüllü olaraq yeməkdən imtina edərək ölmüşdür.

Kleantes *panteist* olmuşdur. O deyirdi ki, bu dünya tanrıdır, bəzən isə təbiətin Əqli və Ruhunu da tanrı adlandırırdı (4, 31). Tanrı bu dünyanı yandırır, sonra isə dirçəldir. O da, Zenon kimi təbiətə uyğun həyatın sürülməsini vacib hesab edirdi.

Fəlsəfəni bir tamlıq kimi dəyərləndirən stoaçılar məntiq məsələlərinə önəm verirdilər. Onların fikrincə məntiqsiz nə fizikanı (təbiət haqqında elmi), nə də onların fəlsəfəsinin əsasını təşkil edən etikanı (əxlaqı) anlamaq olmaz.

***Məntiq*** elminin inkişafında stoaçıların çox böyük rolu olmuşdur. Onların fəlsəfəsində məntiq həm natiqlik, həm də fikirləri əsaslandıran söz və cümlələr haqqında elmdir.

Stoaçılara görə ilk olaraq duyğu orqanlarının vasitəsi ilə şeylər haqqında təsəvvür yaranır. Sonra bu təsəvvürlər insanın ruhunda əks olunur və ağılla təhlil edilərək dərk edilir. Onlar hesab edirdilər ki, əgər duyğular şeylər haqqında düzgün (təbiətlərinə tam uyğun) xəbər

---

[75] Rus ədəbiyyatında onun adı Kleanf *(Клеанф)* kimi səslənir.

verirlərsə, onda onlar ruhda da düzgün əks olunurlar. Duyğular şeylər haqqında onların təbiətlərinə uyğun olmayan xəbərlər verirsə, onda yanlış təsəvvürlər yaranır. Yanlışlıq duyğu orqanlarında ola bilən qüsurlar, ağlın çatışmamazlığı, şeylərin insan duyğularına uyğun gəlməməsi kimi səbəblərdən ortaya çıxır.

Daha sonra stoaçılara görə *insan düşüncəsinin* böyük önəmi vardır. Düşüncə biliyin həqiqi olmasını təsdiq etməlidir. Düşüncənin duyğular vasitəsi ilə alınmış bilgilərlə barışması nəticələr ortaya çıxarır. Buna da ***katalepsis*** (yun. *κατάληψις*) deyilir. Ancaq, insan düşüncəsi eyni şey haqqında fərqli nəticələr ortaya qoya bilər. Ona görə insan o şey haqqında hökm verdikdə onlardan birinə üstünlük verir. Deməli, idrak təkcə bizə xaricdən gələn bilgilərdən deyil, həm də onlara göstərilən münasibətimizdən və bizim çevrədəki şeylər haqqında verdiyimiz hökmlərdən asılıdır. Bu da insanın *azad iradəsidir*. Səhv nəticələr onda ortaya çıxır ki, insan şeylərin mahiyyətinə varmır və onlar haqqında tam təsəvvür yaratmayaraq o şeylər haqqında hökm verməyə tələsir. Beləliklə, yalnız həqiqi katalepsis insanı həqiqətə çatdırır.

Həm də bizim düşüncəmiz daxil olan təsəvvürləri qavrayır və onlardan ümumi məntiqi nəticələr çıxarır. Əqlin bu keyfiyyətlərini stoaçılar ***"Loqos"*** adlandırmışdır. Onların fikrincə o həm söz, həm də təfəkkür vasitəsidir. Məhz, Loqos insanları heyvanlardan fərqləndirir. İnsanda olan Loqos Tanrıların əqlinə bərabərdir və dünya Əqlinin

tərkib hissəsidir. Ancaq, tanrılardan fərqli olaraq insan səhvlər etməyə meyllidir.

Bundan başqa yanlışlıqların yaranmasında bir başqa səbəb də vardır. İnsan duyğularla alınmış və düşüncə ilə qavranılmış şeyləri özünün və cəmiyyətin tətbiq etdiyi sözlər, cümlələr və hecalarla ifadə edir. Bunlar da o şeyləri əks etdirən işarələr, simvollar və rəmzlərdir. Yəni bizim danışdığımız dil özü bir simvollar sistemidir ki, onlarla biz çevrəmizdəki şeyləri ifadə etməyə çalışırıq. Burada da bir başqa problem yaranır. Duyğular və düşüncəmiz bizə şeylər haqqında doğru bilgi verirsə belə, onu işarələrlə (dillə) düzgün təqdim etmək lazımdır.

İşarələr gerçək şeyləri düzgün əks etdirirsə onda onun haqqında həqiqi bilik əldə olunur. Belə olmasa (işarə şeyə uyğun olmasa), şeylər haqqında yanlış təsəvvür yaranır. Yanlışlıqları həqiqətdən ayıran bilik sahəsini stoaçılar *dialektika* adlandırırdılar.

Duyğularla əldə edilən bilik və onun ağıl tərəfindən qavranılaraq nəticələr ortaya çıxarması elmi bilik deyil, yalnız onun mənbəyidir. Elmi biliyin meyarı isə hər şeyin sübuta yetirilməsidir[76].

Stoaçılara görə hər bir şey haqqında həqiqətə dayanan mülahizə və fikir məntiqi silsilə ilə başqa şeyin həqiqiliyindən doğmalıdır. Ona görə də müdriklik yalnız kataleptik təsəvvürlərlə düşüncənin razılıqda olması

[76] Burada qeyd edilməlidir ki, müasir dövrdə də elmi biliyin meyarı məhz iddia olunan problemlərin yoxlama yolu ilə sübuta yetirilməsidir. Bu da pozitivizmin əsasını təşkil edir. Göründüyü kimi, zamanımızın elmi metodunun əsasları da antik dövrdə formalaşmışdır.

deyildir. Müdriklik doğru nəticələrin əldə edilməsidir. Müdrikliyi çevrədəki şeyləri işarə edən sözlərin o şeylərə uyğun olub-olmamasını təyin etməklə əldə etmək olar. Deməli həqiqətə çatmaq üçün şeylərin təbiətinə uyğun olan söz və cümlələr tapmaq lazımdır. Belə olmazsa, onda həqiqət açılmaz. Beləliklə, bütün yanlışlıqların kökündə ikimənalı sözlər durur. Onların araşdırılıb ortalıqdan qaldırılması isə müdrik insanın vəzifəsidir.

***Fizika sahəsində*** stoaçılar hesab edirdilər ki, yalnız cisimlər vardır, boşluqlar isə yoxluqdur. Hər bir cismin substansiyası vardır, bu da ilk materiyadır. Dünya isə 4 ünsürdən – od, hava, su və yerdən – ibarətdir.

Heraklit kimi stoaçılar da hesab edirdilər ki, dünyanın əsasında ***od*** durur. Ondan hər şey yaranır və ona doğru qayıdır. Onlara görə iki başlanğıc vardır: birincisi passiv materiya, ikincisi isə onu hərəkətə gətirən *Loqosdur* (əql, tale). Loqos tanrı kimi də anlaşıla bilər. Hər iki başlanğıc əbədidir, yaradılmayıb və məhvedilməzdir. Ancaq, Aristoteldən fərqli olaraq stoaçılar tanrını materiyadan ayırmır və onları vəhdətdə təsəvvür edirdilər. Beləliklə, stoaçılar Aristotelin dualizmini (tanrı və materiya ikiliyini) qismən aradan qaldırıb, daha da çox monizmə[77] meylli idilər. Həm də onlara görə tanrının varlığı bir abstraksiya, nisbilik kimi qəbul edilir. O eyni zamanda, dünyanın Əqli və toxumudur.

---

[77] **Monizm** (yun. *μόνος* – vahid) – dünyada mövcud olan çoxluğun əslində vahid bir başlanğıcın hissəcikləri olması haqqında fəlsəfi təsəvvürdür.

Stoaçıların özünəməxsus ***teoloji baxışları*** (ilahiyyatları) da olmuşdur. Bu baxışlara görə dünyanı yaradan Tanrı öz ilahi substansiyasının bir hissəsini hava və suya çevirir. Sonra suyun bir hissəsi oda, daha bir hissəsi isə havaya çevrilir. Beləliklə, dünyanın bədəni yaranır. Bu bədəndə tanrı *yaradıcı od* kimi mövcud olur və ruh, əql, eləcə də tale kimi özünü göstərir.

Digər tərəfdən stoaçıların təlimində dünya ilk materiyanın qatılaşıb seyrəlməsindən yaranır. Bunun nəticəsində də ortaya ünsürlər çıxır.

Onlara görə dünyanın əvvəli və sonu vardır. Sonda o böyük yanğında məhv olur və oda çevrilir. Dünyanın inkişafı isə səbəb və nəticə qanunlarına uyğun şəkildə baş verir. Səbəbsiz heç nə olmur. Məhv olduqdan sonra dünyalar yenidən yaranır. Bu proseslər də sonsuzluğa qədər baş verir. Bütün olaylar zərurət, tale və qanunauyğunluq nəticəsində ortaya çıxır.

Stoaçıların fəlsəfəsində ruh isti və odlu ***pnevmadır*** (kosmosun nəfəsidir). Onun tərkib hissələri vardır. Zenon hesab edirdi ki, ruh səkkiz hissədən ibarətdir və onun razılıq, istək, anlamaq, qavramaq kimi özəllikləri vardır. Onlar da pnevmanı duyğu orqanlarına doğru yönəldir və insanda duyğu hissləri yaranır.

Bəzi stoaçılara görə ruh bədənin ölümündən sonra bir müddət yaşayır, sonra isə ümumdünya ruhuna qovuşaraq fərdi varlığını itirir. Müdriklərin ruhları daha çox yaşayır, ancaq dünyanın sonunda onlar da ölürlər. Ancaq, bəzi stoaçılar ruhun ölməz və öncədən olduğunu iddia edirdilər.

Tanrı (Zeus) dünyanın dağılmasından sonra məhv olmur. O, başqa tanrılardan fərqli olaraq ölməzdir. Eyni zamanda, Zeus və başqa tanrılar bir məcaz kimi də təsəvvür edilirdi. Məsələn, Hrisippus deyirdi ki, Zeus əslində hər şeyin ümumi təbiəti, taleyi və zərurətidir. Başqa tanrılar isə odu, ayı, günəşi və yeri təcəssüm etdirirlər.

Stoaçıların təlimində dünya insanlar və tanrılar üçündür. Onlar tanrının varlığını teoloji dəlillərlə sübuta yetirməyə çalışırdılar. Onların fikrincə, əgər bir şeyin təbiəti başqa şeyin təbiətindən daha yetkindirsə, onda ən yetkin təbiətə malik olan Tanrı vardır. Bu fikirdən gələcəkdə Anselm (XI yüzillik) və Dekart (XVII yüzillik) kimi Avropa düşünürləri də istifadə etmişdilər.

Daha sonra stoaçılar şərin təbiəti haqqında düşüncələrini irəli sürmüşdürlər. Onların fikrincə şərin dünyada olmasına görə Tanrı sorumlu deyildir. Çünki şər anlayışı nisbidir və yalnız insan fəaliyyətinin nəticəsində yaranır. Mütləq şər isə yoxdur. Deməli Tanrı onu yaratmamışdır.

Stoaçılar ***həqiqi ərdəmi*** təbiətə uyğun olan həyat sürməkdə görürdülər. İnsanı xoşbəxtliyə aparan tək bir yol yaxşılıq və ərdəmlilikdir. Buna qarşı olan anlayışlar isə qüsurlardır. Ərdəmin dörd əsas çeşidi vardır: *ağıl, mülayimlik, ədalət* və *igidlik*. Bunlara qarşı duran qüsurlar isə *ağılsızlıq, azğınlıq, ədalətsizlik* və *qorxaqlıqdır*. Bütün başqa anlayışlar isə *etinasızlıq* hissi doğuran şeylərdir. Yalnız ərdəm və qüsur insanın hökmündədir və onun tərəfindən könüllü olaraq seçilir. Başqa şeylərin üzərində

isə insanın hökmü yoxdur və o, onlara təsir edə bilmir, həmin şeylərin üzərində yalnız yüksəlmək olar. Deməli, insan öz taleyi qarşısında acizdir və onunla barışmalıdır. O yalnız kosmik qanunauyğunluğa tabe olmalı, özü üçün hökmündə olmayan şeyləri arzulamamalıdır.

Stoaçıların etik idealı ***ataraksiyaya*** (rahatlığa) çatmaq və ***səbrli*** (*anateya*) olmaqdır. Stoaçı müdrik əqlin təcəssümüdür. O, səbirli və təmkinli olmalıdır. Onun xoşbəxtliyi heç bir xoşbəxtlik arzusunda olmamasıdır. Bundan da belə nəticə çıxır ki, insan istənilər olayın qarşısını ala bilməz və yalnız öz içində ona münasibət bildirə bilər. Buradan da görünür ki, stoaçılar taleçiliyə (fatalizmə) böyük önəm vermişdilər. Taleyin qanunlarının əsasında baş verən olaylara qarşı insan yalnız öz daxili aləminə, mənəviyyatına arxalana bilər.

### 2.5.2. Orta stoa

Orta stoaçılar bir çox hallarda qədim stoaçıların ənənələrindən aralanırdılar. Bunun səbəbi birinci növbədə onların ünvanına söylənilən tənqidlər olmuşdur. Digər bir səbəb isə stoa məktəbinin ənənələrinin Romanın gerçəkliklərinə uyğunlaşması idi. Beləliklə, orta dövrün stoaçıları öz təlimlərini nəzəri müstəvidən həyatın problemlərinə yönəltmiş, nəzəri fəlsəfəni tətbiqi fəlsəfə ilə əvəz etmişdirlər. Orta stoaçılığın ən görkəmli nümayəndələri Panetius və Posidonius olmuşdurlar.

**Panetius** (yun. *Παναίτιος,* m. ö. 180 – 110) soyca Rodos adasından idi. Sonra Afinaya köçmüş, orada

stoaçılar məktəbinin ardıcıllarından biri olmuş, sonralar isə ona başçılıq etmişdir. Ancaq o, klassik stoa təliminə *peripatetik* və *platonik* məktəblərinin elementlərini də qatmışdır.

Daha sonra Panetius Romaya köçmüş, orada fəaliyyətini davam etdirmiş, həmçinin tanınmış Roma dövlət xadimi və filosofu Siseronun müəllimi olmuşdur.

Panetius həm də ***"Siyasət haqqında"***, ***"Vəzifələr haqqında"***, ***"Tale haqqında"*** kimi bir çox kitablar yazmışdır. Ancaq, zamanımıza onların yalnız bəzi fraqmentləri gəlib çatmışdır.

Panetius stoa fəlsəfəsini romalıların dünyagörüşünə uyğunlaşdırmışdır. O hesab edirdi ki, platonizmin, peripatetizmin və stoaçılığın mənşəyi eynidir, onlar Sokratdan başlayır. Buna görə də o, stoaçılığa yeni fikirlər gətirmişdir. Belə ki, Panetius başqa stoaçıların kosmosun zaman-zaman odda yanıb məhv olması və onun yenidən yaranması fikrini qəbul etməmişdir (4, 134). O, Aristotelin dünyanın əbədi olması fikrinə üstünlük verirdi. Həm də Platondan fərqli olaraq o, Panetius ruhun ölməzliyini inkar edirdi (2, 57).

Keçmişdə yaşayan stoaçılar ruhu bədənlə kəskin olaraq fərqləndirmiş, onların bir-biri ilə qarşıdurmada olmalarını iddia etmişdilər. Ancaq, Panetius insanı ruh və bədən vəhdətində olan yetkin bir varlıq kimi təsəvvür edirdi. Eləcədə o, taleyin önəmini inkar etməyərək insan azadlığının da əhəmiyyətini vurğulayırdı (6, 482).

Panetiusun fikrincə hər bir insanda 4 əsas yönəlmə vardır: *müdrikliyə*, *müstəqilliyə*, *kamilliyə* və *özünü qorumağa*.

Başqa stoaçılarda olduğu kimi o, həyatın son məqsədini "təbiətə uyğun yaşamaqda" görürdü (15, 300). Bunu da dünyanı dərk etmək, başqa insanlarla ünsiyyət qurmaq, mənəviyyatı yüksəltmək, həyatı düzənləməklə əldə etmək olur.

Qədim stoaçıların etik təlimlərində xeyrə doğru yönəlmək xoşbəxtliyə aparan yoldur. Bunu da onlar bir mənəvi hal kimi görürdülər. Ancaq Panetius, romalıların dünyagörüşünə uyğunlaşaraq xoşbəxtliyə aparan yol kimi həm də bədənin sağlamlığı və rifahın artması kimi maddi durumları da əlavə etmişdir. Falçılıq və öncədəngörənlik onun tərəfindən rədd edilirdi (1, 314).

Qədim stoaçılar hesab edirdilər ki, müdrik insanın sözündən və davranışlarından hər kəs örnək almalıdır. Panetius isə bunu vətəndaşın dövlət qarşısında sorumluluğu ilə əvəz etmişdir.

Orta stoa dövrünün daha bir görkəmli nümayəndəsi **Posidonius** (yun. *Ποσειδόνιος,* m. ö. 140 – 50) Suriyanın Apameya şəhərində anadan olmuşdur. Sonra Afinaya köçmüş, orada Panetiusun öyrəncisi olmuşdur. O, uzun müddətli səyahətlərə çıxmış, müxtəlif ölkələrə səfər etmişdir. Eyni zamanda o, elmlə də məşğul idi. Bütün bu amillər onun dünyagörüşünü zənginləşdirmişdir. (5)

Posidonius qırx yaşında olarkən Rodos adasında öz fəlsəfi məktəbini açmışdır. Sonra Romaya gələrək orada bir çox tanınmış adamlarla münasibətlər qurmuşdur. Daha sonra isə Rodosa qayıdaraq orada elmi və fəlsəfi fəaliyyətini davam etdirmişdir. Məşhur Roma filosofu

Sisero və tanınmış siyasi xadim Pompeus Podosda ondan dərs almışdırlar.

Səksən yaşı tamam olduqdan sonra Posidoniusun yenidən Romaya gayıtmış və orada da dünyasını dəyişmişdir.

O, ***"Okean haqqında", "Fizika haqqında fikirlər", "Kosmos haqqında", "Əxlaq haqqında fikirlər"*** kimi çoxlu kitablar qələmə almışdır. Ancaq, zamanımıza onların yalnız bəzi fraqmentləri gəlib çatmışdır.

Posidonius müxtəlif elmlərlə məşğul olmuşdur. Riyaziyyat, fizika, astronomiya, coğrafiya, tarix kimi elmlər onun maraq dairəsinə daxil idi. Demək olar ki o, antik dövrün ən bilikli alimlərindən biri olmuşdur.

Posidonius stoaçılığın həqiqəti əks etdirən yeganə təlim olduğunu inkar etmiş və oraya platonizmin ideyalarını da qatmışdır. O həmçinin, Platonun məşhur *"Timeus"* əsərinə şərhlər də yazmışdır.

Posidoniusun fizikası ***monizmin*** əsasında qurulmuşdur. O hesab edirdi ki, bütün dünya boşluqları olmayan tam vahid bir varlıqdır; onun sonu yoxdur, kürə şəklindədir və hərəkətsizdir (1, 311). Onu cisimsiz boşluq əhatə edir. Bu baxımdan onun fikirləri Parmenidesin fəlsəfəsinə yaxınlaşırdı.

Ancaq, Posidoniusun monizmi qədim stoanın monizmi kimi ardıcıl deyildi. Əgər qədim stoaçılarda tanrılar, əql və tale eynilik təşkil edirdilərsə, Posidoniusda bu eyniliyi baş tanrı Zeus və başqa təbiət və tale təcəssümü olan tanrıların örnəyində görürdü. Dünya əslində tanrının hal dəyişməsidir və odlu nəfəs (pnevma)

şəklində mövcuddur (1, 312). Odlu pnevmadan isə dünyada olan hər şeyin əsasını təşkil edən *"toxumlar"* ayrılır (6, 485). Əslində tanrı bir şəxs deyil, odlu pnevmadır. Onun şəxsiyyəti yoxdur; həm hər şeyə çevrilə, həm də şeyləri özünə bənzədə bilər.

Beləliklə, Posidonius dünyanı vəhdətdə və eyni zamanda bir olan tanrı kimi təsəvvür edirdi. Bu dünyanın (vahidin, tanrının) içində isə başqa tanrılar da vardır. Onlar pnevmadan yaranıb onunla birlikdə ideal aləmi təşkil edirlər. Burada Posidonius Platon idealizminin təsiri altına düşmüşdür. Sonralar isə bu fikir yeni-platonçu Plotinin fəlsəfəsinin əsasını təşkil etmişdir. Posidonius Platonun ideyalarını təkcə dərk olunmaz və uzaq məkanlarda deyil, bu dünyada və təbiətdə də görürdü. Odlu pnevma insanın və təbiətin nəfəs aldığı isti axındır. İnsan ruhu da həmin ideyalar aləminə aiddir. O, odlu nəfəsin daha da incə formasıdır. Bu cür fikirlər Platonun ikili dünya (maddi və ideal) prinsipini pozurdu.

Posidoniusun ruhlar haqqında fikirləri pifaqorçuların təsəvvürlərinə yaxın idi. Bu da ilk növbədə ***metempsixoz*** (ruhların köçməsi) inancına aid idi. Onun fikrincə yenidən dünyaya gəlmə prosesi daim baş verir. Ölümdən sonra ruh ayüstü məkanlara qalxır. Orada o dünya həyatında yığdığı bütün pisliklərdən təmizlənir. Sonra təmizlənmiş ruh daha yüksək aləmlərə qalxır. Orada təbiətinə uyğun olaraq ideyaları seyr edir və zövq alır. Ruh orada dünyanın yenidən yanğına bürünməsinə qədər qalacaqdır. Bundan sonra dünya yenidən qübbələrə

bölünəcək və ruh özü üçün yeni bədən tapıb dünyaya qayıdacaqdır.

Posidoniusa görə insan ruhla bədənin birliyidir. Ruh isə tanrının bir hissəciyidir. İnsan ruhu daim hərəkətdədir. Maddi dünyada həyat bitdikdən sonra, o bədəndən ayrılıb göylərdə gözəl məkanlarda olur. Bütün ruhlar bədənin yaranmasından öncə də mövcud idilər.

Qədim stoaçılar kim, Posidonius tale ilə bağlı məsələlərə də böyük önəm verirdi (1, 313-314). Tale həm təbiət qanunu, həm də insanın onu yönəldən iradəsidir. Bununla bərabər insan azadlığı da vardır, o da birbaşa onun düşüncəsi ilə bağlıdır. Hər şeyi tale həll etdiyinə baxmayaraq insan bəzən onu dəyişə də bilər. Taleyi dəyişdirmə yollarını isə müdriklər bilir.

Posidoniusun insan haqqında təlimində stoisizmin ideyaları ilə birlikdə platonçuluğun da əlamətləri vardır. O, insanın ikili təbiətli olduğunu vurğulayırdı. Onun fikrincə insan müxtəlif səmavi və dünyəvi aləmlərin arasında yer tutur. Cismi baxımdan o ən yetkin varlıqdır və insan bədəni başqa canlıların bədənindən daha üstündür. Ancaq, onun ruhu heç də yetkin (kamil) deyildir. Onun ruhundan daha yüksək qatlarda isə ***demonlar*** və tanrılar durur. İnsanın bədbəxtliyi ondadır ki, o heyvanlara bənzər həyat sürür, hər şeydən üstün olan ruha önəm vermir. Halbuki ruh onun daxili tanrısıdır, dünya pnevmasının bir hissəsidir. (16)

Posidonius ***tarixin fəlsəfəsi*** ilə bağlı da fikirlər irəli sürmüşdür. Onun fikrincə bəşər tarixinin iki mərhələsi olmuşdur. Birincisi ən yaxşısıdır - *"qızıl"* dövrdür. O

zaman ibtidai insanlar və tanrılar var idi. Onlar ilahi oda və ideal aləmə daha yaxın idilər. O dövrdə insanlar təbii həyat sürmüş, cinayətlər törətməmişdilər. Onların qanunlara ehtiyacı olmamışdır (6, 487-488). İkinci mərhələdə isə insanlar maddi cəhətdən inkişaf etdikcə mənəvi baxımdan geridə qalmışdırlar. Bundan sonra isə cəmiyyətləri idarə etmək üçün qanunlar yazılmışdır.

### 2.5.3. Roma stoaçılığı

Yeni stoanın tarixi Roma imperiyası dövrü ilə bağlı olmuşdur. Bu məktəbinin ən görkəmli nümayəndələri Seneka, Epiktetus, Markus Aurelius və Sisero olmuşdurlar.

**Lusius Anneus Seneka** (lat. *Lucius Annaeus Seneca*, m. ö. 4 – m. 65) Roma stoaçılarının ən görkəmli nümayəndələrindən biri, həm də tanınmış dövlət xadimi idi. İspaniyanın Kordova şəhərində anadan olmuş, kiçik yaşlarında ailəsi ilə birlikdə Romaya köçmüşdür. Orada stoa məktəbinin filosoflarından dərs almış, Posidoniusun ardıcıllarından biri olmuşdur.

Roma imperatorları Kaliqula və Klaudiusun dönəmində Seneka bir müddət təqiblərə məruz qalmış, Korsika adasına sürgün edilmişdir. Ancaq sonra Roma imperatoru olacaq Neronun anası kiçik Aqrippinanın dəstəyini qazanaraq onun oğlunun (Neronun) müəllimi olmuşdur (8, 199).

**İmperator Nero** (lat. *Claudius Caesar Nero*, m. 37 – 68) hakimiyyətə gəldikdən sonra Seneka Roma imperiyasında

ən yüksək dövlət vəzifələri tutmuş, dövlət siyasətinin istiqamətlərini təyin etmişdir. Miladi 59-cu ildə Nero öz anası Aqrippinaya qarşı suiqəsd hazırlayaraq onu qətlə yetirmişdir (8, 255). O, bu suiqəstdə Senekanı da dolayı olaraq iştirak etməyə məcbur etmişdir. Bundan sonra onun Nero ilə münasibətləri korlanmışdır. 65-ci ildə isə Seneka Neroya qarşı baş tutmayan sui-qəsddə iştirak etməsində ittiham edilmiş və intihar edərək öz həyatına son qoymuşdur (8, 307).

Seneka ***"Lusiliusa ünvanlanan əxlaqi məktublar"*** (lat. *Epistulae morales ad Lucilium*), ***"Helviyaya təsəlli"*** (lat. *Ad Helviam matrem, De consolatione*), ***"Təbiətin araşdırılması"*** (lat. *Naturales quaestiones*), ***"Xeyirli işlər haqqında"*** (lat. *De beneficiis*), ***"Qəzəb haqqında"*** (lat. *De Ira*), ***"Həyatın qısa olması haqqında"*** (lat. *De Brevitate Vitae*), ***"Mənəvi sakitlik haqqında"*** (lat. *De tranquillitate animi*), ***"Müdrikin dayanıqlı olması haqqında"*** (lat. *De Constantia Sapientis*), ***"Xoşbəxt həyat haqqında"*** (lat. *De vita beata*) kimi bir çox əsərlərin yazarı olmuşdur.

Senekanın dövründə bütün Roma imperiyasını və xüsusi ilə imperator sarayını istibdad, haqsızlıq və əxlaqsızlıq dalğası bürümüşdü. Bu şəraitdə fəaliyyət göstərən Seneka da tam mənada təmiz və vicdanla dolu həyat sürməmişdi. Onun fəlsəfi fikirləri ilə yaşadığı həyat arasında böyük uçurum var idi. Məsələn, yüksək əxlaqı və yoxsulluğu təbliğ edən Seneka, müxtəlif (hətta qanundan kənar) yollarla var-dövlət əldə etmişdi və həddən artıq varlanmışdı. Ancaq əsərlərində o, zənginlikdən çəkinməyi

məsləhət edirdi, onun mənəviyyata xələl gətirdiyi haqqında söhbət açırdı (9, 266).

"Xoşbəxt həyat haqqında" kitabının XVIII bölümündə öz həyat tərzi ilə fəlsəfəsinin ziddiyyət təşkil etməsi haqqında söhbət açan Seneka deyirdi ki, keçmişdə yaşayan filosofların (o cümlədən Platonun, Epikürün, Zenonun və başqalarının) fikirləri heç də onların həyat tərzini əks etdirmirdi (17, 167-192). Onlar xeyirli həyatın nə olduğunu nəzəri olaraq izah edirdilər. Bu da o demək deyil idi ki, özləri buna riayət edirdilər və yazdıqları kimi yaşayırdılar. Senekanın fikrincə gerçək həyatla mənəvi yönəlmələr fərqli ola bilər.

Həmin kitabın XXIII bölümündə isə varlı təbəqədən olan Seneka filosoflara maddi zənginlikdən uzaq olmaq şərtini qoyanlara qarşı çıxış edirdi. Onun fikrincə filosof (müdrik insan) o şərtlə varlana bilər ki, onun əldə etdiyi şeylər heç kəsdən zorla alınmasın, qana bulaşmasın və ədalətsizliklə kirlənməsin (17, 167-192).

Həyatının sonunda təqiblərə məruz qalmış Seneka *"mənim üçün fəlsəfə yetər..."* deyərək, imperator Neroya bütün var-dövlətinin alınması haqqında müraciət etmişdir (12, 311-312).

Senekanın fəlsəfəsi əsasən ***əxlaqi*** xarakter daşıyırdı. Yüksək əxlaqa malik olan insan şəxsiyyəti onun düşüncələrinin mərkəzində idi. İnsanın düşüncəli olması, başqaları ilə ünsiyyət bağlaması bacarığı onu bütün təbiət üzərində yüksəltmişdir. Cəmiyyət isə təbiətin qurduğu bir qurumdur. O müxtəlif insanların toplumudur. Beləliklə, insanın vətəni bütün dünyadır.

Senekaya görə insanlar bir-birinə ziyan yetirməməlidirlər. Hər bir insan başqa insanlara qayğı göstərməli, onları öz yaxınları kimi sevməli, onlara qarşı rəhmli olmalıdır. Hətta kölələrə qarşı da rəhmli və ədalətli olmaq lazımdır.

Yenə Senekaya görə ***Ruh*** tanrının hissəciyidir. Ona görə ruh üçün bir yerin sakini olmaq yetərli olmur, ona genişlik gərəkdir. Ruhu geniş olan insan üçün bütün dünya, hətta kainat vətəndir. Həm də o bədənin qısa yaşamı ilə kifayətlənmirdi. Məqam çatdıqda ruh bədəni tərk edərək tanrılarla qovuşur. Ölümdən qorxmaq olmaz, çünki bizə ölüm kimi görsənən şey əslində başlanan əbədi həyatdır, onu tezləşdirmək lazımdır. Əslində hər bir insan ana bətnindən də çıxmaq istəmir, oradan o zorla çıxır. Ancaq o çıxış ona yeni həyat verir. (9, 259)

Xeyrə yönələn insan dünyanı dəyişə bilməsə də, öz ruhunu yüksəldə bilər. Bunun da sonu olaraq o taleyin bütün sınaqlarından keçərək özünü təbiət qanunlarının axarına atmaq imkanındadır (9, 270). Çevrəmizdə olanlar çox vaxt bizim hökmümüzdə olmur, biz olayların axarını dəyişə bilmirik. Ancaq biz dünyada və çevrəmizdə baş verən olaylara təsir edə bilməsək və buna gücümüz çatmasa da, özümüzün üzərində işləməliyik, özümüzü düzəltməliyik. Buna bizim gücümüz çata bilər. Çünki, bizim ruhumuzun sahibi özümüzük. Hətta insan başqa adamın tam olaraq köləsi ola bilməz. Kölənin yiyəsi onun ruhunun deyil, yalnız bədəninin sahibi ola bilər. Ruhun sahibi isə kölənin özüdür.

Senekanın əxlaqi fikirləri sonralar daha da inkişaf etdirilib, ortaəsr dövrünün fəlsəfəsi və ilahiyyatına təsir etmişdir. Məsələn, xristian Kilsə xadimləri və düşünürləri Senekanın əxlaqi təlimini çox yüksək dəyərləndirirdilər. Məşhur xristian kilsə xadimi *Tertullian* Senekanı Xristianlığa çox yaxın olan bir şəxs adlandırmışdı. Başqa ilahiyyatçı *Laktantius* deyirdi ki, heç bir xristian Tanrı haqqında Senekadan daha doğru danışa bilməz.

Daha sonra Senekanın xristian olmasını sübuta yetirmək cəhdləri də olmuşdur. Hətta, onun həvari *Paulusla*[78] məktublaşması da tapılmışdı (3, 479-480). Bu məktublar haqqında kilsə müqəddəsi *Auqustinus Aurelius*[79] da yazmışdı. Ancaq sonra bilinmişdir ki, bu məktublar saxta imiş.

Senekanın əxlaqi fikirləri təktanrılı ibrahimi dinlərin (Xristianlığın və İslamın) bir çox müddəalarına yaxınlaşır. Ona görə F. Engels onu *"Xristianlığın dayısı"* adlandırmışdır (12, 307).

Senekanın əxlaqi fikirləri ilə onun ***tale*** haqqında təlimi əlaqədədir. O hesab edirdi ki, təbiətdə zərurət (tale) hökm sürür. Bütün baş verən olaylar ona tabedir. Bu həm də təbiətin qanunudur. Taledən qaçıb gizlənmək olmur. Taleyə tabe olmayanı o məcbur etdirərək özünə tabe etdirir (9, 270). O elə bir təbii qanundur ki, onu hətta tanrılar və ya onlara edilən dualar belə dəyişə bilməz. Nə olmalıdırsa, o da olacaqdır. Bu cür fikirlər *fatalizm* adlanır.

---

[78] Ruslar ona *Pavel* (Павел) deyirlər.

[79] Rus ədəbiyyatında adı *Müqəddəs Avqustin* (Блаженный Августин) kimi çəkilir.

Tale kortəbii fəaliyyət göstərmir, onun məqsədyönlülüyü bir düzəni vardır, o hər şeyi əhatə edir. Beləliklə, Senekanın fəlsəfəsində tale tanrılaşır və hər şeyə hökmranlıq edir. Onu heç nə dəyişə bilməz. Buna görə həyatın hər bir çətinliyinə və bədbəxtliyə qarşı dözümlü olmaq lazımdır. Burada Seneka təbiətə də tabe olmaqdan söhbət açmışdır. İnsan yalnız təbiətə tabe olaraq xeyrə çata bilər. Əxlaqlı insan təbiət qanunlarına və taleyə tabe olmalıdır.

Başqa stoaçılar kimi Seneka dünyanın və çevrənin qavranılmasında ***sensualizmə*** (duyğuçuluğa) üstünlük verirdi. O hesab edirdi ki, çevrədə olan şeylər insanın duyğu orqanlarına təsir edir və bunun nəticəsində də dərk etmə prosesi baş verir. Düşüncə isə duyğuların verdiyi bilikləri emal edərək nəticələr ortaya qoyur.

Senekanın ***fizikası*** Heraklit fəlsəfəsinin müddəalarını təkrar edir. Hər şeyin əsasında duran od ilk maddədir (6, 490). O təmizliyin rəmzi olaraq göylərdədir. Aşağı qatlara enərək od getdikcə bərkiyir, yerə çatdıqda isə daşlara dönür. Tanrıların və insan ruhlarının da cisimləri vardır. Ruh göylərdə olan təmiz odun hissəciyidir və ona doğru yönəlmək istəyir. Müdrik insanda bu proses surətlə baş verir və o ən yüksək mənəvi məqamlara çatır; ancaq belə insanlar az olur.

Senekanın ***tanrı*** haqqında fikirləri ziddiyyətli olmuşdur. O həm od, həm yaradıcı, həm sevgi ilə dolu Atadır. Onun siması yoxdur, o sadəcə *"İlk başlanğıcdır"*. Fatalizm (taleçilik) Senekanı həm də panteizmə gətirir. Onun fəlsəfəsində Tanrı ilə təbiət eyniləşir. Tanrı hər şeyi

bir məqsədə yönəldən qüvvədir. Bu kimi baxışlar ibrahimi (təktanrılı) dinlərdəki Tanrı təsəvvürlərindən fərqlidir. Senekanın tanrısı təbiətdən yadlaşan dünyanı odda yandırır.

Bundan başqa Senekanın dünyagörüşündə mistik məqamlara da rast gəlmək mümkündür. Məsələn o hesab edirdi ki, insan həyatı ulduzlardan asılıdır. O həm də falçılığı fəlsəfi baxımdan əsaslandırmağa çalışırdı.

Roma stoaçılarının daha bir tanınmış yunandilli nümayəndəsi **Epiktetus** (yun. *Ἐπίκτητος*, m. 50 – 138) olmuşdur. O, Senekanın öyrəncisi idi. Öncə kölə olmuş, sonra azadlığa buraxılmışdır. Epiktetus 94-cü ildə Epir adasının Nikopol şəhərində öz fəlsəfi məktəbini yaratmışdır. Onun mühazirələrini dostu olan Arrianus qələmə almışdır.

Müəllimi Seneka kimi Epiktetus da ***əxlaqi*** problemlərə önəm verirdi. O hesab edirdi ki, insanın mənəvi baxımdan azad olması problemi onun özündən asılıdır. Əgər qul bütün əzablara sinə gəlirsə, o əzablar haqqında düşünüb həyatı anlayırsa, o zaman sahibindən mənəvi baxımdan daha çox azad olur. Əslində isə kölə deyil, məhz onun sahibi öz ehtiraslarının və nəfsinin quludur. Beləliklə, kölənin mənəvi azadlığı ondan heç kəs ala bilməz.

Epiktetusun fikrincə təbiətin ***dərk edilməsi*** prosesi üç mərhələlidir. *Birincidə* insan öz bilməməzliyini, cahilliyini dərk edir. *İkincidə* o elmlərlə, nəzəri təlimlərlə məşğul olur, xeyirlə şəri bir-birindən fərqləndirir. *Sonuncu* mərhələ isə

müdriklikdir, o mərhələdə müdrik insan bütün insanlığın öndəri (müəllimi) olur.

Başqa stoaçı filosoflar kimi Epiktetusun fəlsəfəsi də üç hissəyə (*toposa*) bölünür; bunlar *fizika, etika* və *məntiqdir* (10, 13). Birinci topos insan təbiətini, onun hüdudlarını, eləcə də arzu və istəklərinin qanunauyğunluğunu təyin edir. İkinci toposda insanın düzgün davranışı, tərbiyəsi və əxlaqı məsələlərinə baxılır. Üçüncü topos isə insanın yanılmaması, düzgün mülahizələr irəli sürməsi, düşüncəsinin iti olması kimi problemlərə həsr edilmişdir. Topösların hamısının ümumi məqsədi isə insana xoşbəxtlik yolunu göstərməkdir.

Epiktetus hesab edirdi ki, dünya vahid substansiyadan yaranıb və onda dövr etmə qanunu hökm sürür. Hər bir şey vaxtı çatdıqda məhv olur, onun yerini başqa şey tutur. Ölüm isə şeylərin ilkin elementlərə parçalanması prosesidir.

Epiktetus taleyin hökmranlığını, eləcə də tanrıların çoxluğunu etiraf edirdi, onların vasitəsi ilə dünyanın təbiətini və hərəkətini izah etməyə çalışırdı. Dünyanın qavranılması məsələlərində isə o, duyğuçu (sensualist) kimi çıxış edirdi.

Epiktetusun fikrincə insan təbiətdə və cəmiyyətdə gedən prosesləri dəyişə bilməz; yalnız həmin proseslərə öz münasibətini bildirib, onlardan mənəvi cəhətdən azad ola bilər. Ona görə də, insan bədəninə deyil, ruhuna qayğı göstərməlidir. O maddi deyil, ruhun zənginliyinə can atmalıdır. İnsanın əsl mahiyyəti isə onun düşüncəsindədir. (7, 159)

Ən yüksək xoşbəxtlik insanın təbiətə və tanrıların qanunlarına uyğun həyat sürməsindədir. Epiktetusun fikrincə bütün insanlar tanrı oğulları və qızlarıdır; bu səbəbdən onların hamısı dünya vətəndaşı olaraq bərabər haqq və hüquqa sahibdirlər.

***İlahi tale*** qarşısında insanlar dözümlü olmalıdırlar (7, 49-51). Əgər onlar yoxsulluq, xəstəlik, bədbəxtlik içində yaşayırlarsa onda bu çətinliklərdən qurtulmaq üçün çarpışmalıdırlar. Ancaq, bu da bir müsbət sonluğa gətirmirsə, onda insan öz taleyi ilə barışıb, həmin çətinliklərə bir xeyir kimi baxmalıdır. Epiktetus həm də hesab edirdi ki, şərə qarşı mübarizə etmək deyil, ona qarşı davam gətirmək lazımdır. Hətta, döyülən adam ona qarşı zor işlədəni sevməli, müqavimət göstərməkdən çəkinməlidir. Epiktetusun bu kimi fikirləri sonralar Xristianlıq və İslamın bir çox təriqətlərinin təlimində də təkrar edilmişdir. Bilindiyi kimi bu dinlərdə də buna bənzər bir sıra etik prinsipləri vardır.

Roma stoaçılığının daha bir görkəmli nümayəndəsi **Markus Aurelius Antoninusdur** [80] **(**lat. *Marcus Aurelius Antoninus*, m. 121 – 180). O, həm də m. 161 – 180 illərdə Roma imperatoru olmuşdur. Bununla belə, Markus Aurelius həyatı boyu müxtəlif elmlər və fəlsəfə ilə də məşğul olmuş və bir filosof kimi tanınmışdır.

Markus Aureliusun dövründə Romada artıq bütün sahələri əhatə edən tənəzzül dövrü başlamışdır. Siyasi-iqtisadi və sosial böhranlar onun fəlsəfi fikrinə təsir

[80] Rus ədəbiyyatında onun adı Mark Avreliy Antonin *(Марк Аврелий Антонин)* kimi səslənir.

etmişdir. Onun fəlsəfəsində pessimist düşüncələr, dünyanın keçici və mənasız olması kimi fikirlərə tez-tez rast gəlinir. Buna görə Markus Aurelius *taleyə tabe olmağa*, ona qarşı çıxış etməməyə çağırırdı. Bütün bu fikirlər onun ***"Özün-özünlə təklikdə"*** kitabında söylənmişdir.

Markus Aurelius hesab edir ki, dünyada hər şey bir düzənə (nizama) tabedir. Eyni zamanda, tanrılaşdırılmış *Yüksək ədalət* də vardır. O hər şeyin əsasıdır, hər şey ondan yaranır və ona qayıdır. Həmçinin dünya əqli və tale də tanrılaşdırılmışdır. Dünyada hər şey tanrı düzəninə və məqsədinə tabedir. Markus Aureliusun fikrincə dünya yetkindir. Bu dünyada baş verən hər bir şər isə tanrının dünya üçün cızdığı plana uyğundur (11, 10-11). Şəri dünya düzəni baxımından dəyərləndirəndə o təbii bir şeyə çevrilir. Şərin Tanrının hökmü ilə yaranıb-yaranmaması problemi sonralar ortaəsr xristian və müsəlman ilahiyyatı və fəlsəfəsinin əsas problemlərindən birinə çevrilmişdir.

Xeyir isə ilahi iradəyə və təbiət qanunlarına uyğun olan bir ahəngdir. Xeyir həm də insanın özü-özü, öz təbiəti ilə razılığı və mənəvi ucalığıdır (11, 55). Ona görə də, insan təbii düzənə uyğun həyat sürməlidir. Həmin düzəni pozduqda o, ədalətsizliyə yol verir, təbiətə və cəmiyyətə qarşı üsyan edir (11, 49-50). Markus Aurelius dövlət qanunlarını da təbii qanunlara aid etmiş, onlara tabe olmağı hər bir insan üçün vacib bilmişdir.

Markus Aureliusun fəlsəfəsində dünya hər zaman dəyişən bir varlıqdır. Onun üzərində olan hər bir şey məhv olaraq bir durumdan başqasına keçir. Beləliklə,

dünyada hər şey dövr etməkdədir. İnsan həyatını təbiət qanunlarına uyğunlaşdırmalı, sonda isə başı uca və ləyaqətlə dünyanı tərk etməlidir.

Ən tanınmış Roma filosoflarından biri **Markus Tullius Sisero** (lat. *Marcus Tullius Cicero*, m. ö. 106 – 45) olmuşdur. O, Larisalı Filon və Askelonlu Antioxus kimi yunan və roma filosoflarının mühazirələrinin dinləyicisi olmuş, dərin fəlsəfi düşüncəyə malik insan kimi bir çox elmlərin bilicisi kimi tanınmışdır.

Eyni zamanda Sisero siyasi xadim idi, müxtəlif vaxtlarda Roma imperiyasının məsul vəzifələrində çalışmışdır. M. ö. 63-cü ildə Romanın ən yüksək vəzifəsi olan konsul görəvinə seçilmişdir (19, 322). O, diktatura və kral hakimiyyətinə qarşı olmuş, respublika quruluşunun qorunub saxlanmasının tərəfdarı kimi tanınmış, ona görə də Sezarla ixtilafa girmişdir.

Romada vətəndaş müharibəsi dövründə *Qaius Yulius Sezar* (lat. Gaius Iulius Caesar) hakimiyyətə gəldikdən sonra Sisero dövlət işlərindən uzaqlaşmış, fəlsəfi yaradıcılıqla məşğul olmuş, kitablar yazmışdır. Ancaq, Sezarın öldürülməsindən sonra Romada yenidən vətəndaş savaşı başlamışdır. O zaman *Oktavianus* və *Antonius* hakimiyyətə iddialı idilər. Ona görə də, Sisero yenidən siyasətə qarışmışdır. O hesab edirdi ki, Sezardan sonra Romada respublikanı bərpa etmək mümkün olacaqdır. Ancaq, o zaman imperatorluq iddiasında olan Antonius hakimiyyəti ələ almağa cəhd etmişdir. Bu məqsədlə o, müvəqqəti olaraq başqa iddiaçılar olan *Lepidus* və Oktavianusla birləşmişdir. İmperatorluğu rədd edən

Sisero isə Antoniusa qarşı çıxış etmişdir. Respublikaçılar vətəndaş savaşında yeniləndən sonra Sisero "xalq düşməni" elan olunaraq qəsd nəticəsində Antoniusun qatilləri tərəfindən öldürülmüşdür (19, 339-340).

Sisero öz əsərlərində ilk dəfə latın dilində fəlsəfi terminologiya yaratmışdır. Eyni zamanda o, keçmişdə yaşayan alimlərdən və filosoflardan xəbər vermiş, onların fikirlərini qələmə almışdır. Buna görə də, sonralar Siseronun əsərləri aristotelsonrası fəlsəfəsinin çox dəyərli qaynağı kimi də istifadə edilmişdir. Bununla belə o, əsərlərində təkcə keçmişdə yaşayan filosofların fikirlərini verməklə kifayətlənməmiş, öz fəlsəfəsini və dünyagörüşünü ortaya qoymuşdur. Ancaq, onun orijinal fəlsəfi fikirləri olmamışdır. Bir çox tədqiqatçılar onun fəlsəfəsinin müxtəlif məktəblərin təlimlərinin qarışığından (eklektikadan) ibarət olduğunu və onu stoa məktəbinin fəlsəfəsinə yaxın olan fikirləri ifadə etdiyinə görə stoaçı hesab edirlər.

Siseronun *"**Natiqlik haqqında**"* (lat. *De oratore*) kimi ilk əsərləri natiqlik və bəlağət sənətinə həsr olunmuşdur. Daha sonra ***"Dövlət haqqında"*** (lat. *De republica*) və ***"Qanunlar haqqında"***( lat. *De legibus*) kitablarında ictimai və siyasi problemlərə münasibət bildirən Sisero Roma imperiyasının hakimiyyət dairələrinin məmuru kimi çıxış etmişdir. Onun fikrincə ən məqsədəuyğun hakimiyyət monarxiya, aristokratiya və demokratiya elementlərinin qarışığından ibarət olmalıdır (13, 32). Buna *politiya* deyilir. Vətəndaşların dövlət quruculuğunda iştirak etməsi və öz iradələrini bildirməsi müdrik və alim

insanların rəhbərliyi ilə bir ahəng təşkil etməlidir (13, 32). Belə olarsa hər bir növ diktaturanın və istibdadın qarşısını almaq mümkündür.

Eyni zamanda, dövlətin məqsədi bütün əmlak növlərinin vətəndaşlar üçün açıq olması və onların təhlükəsizliyinin təmin edilməsindən ibarətdir. Qanun qarşısında bütün vətəndaşlar sorumlu olmalıdırlar (13, 24). Qanunvericiliyin əsasında insanların maraqları deyil, təbii qanunlar və ədalət prinsipləri durmalıdır (14, 102-103). Bütün insanların hissləri və yönəlmələri təbiətdəndir. Bunların əsasında insanın başqa insanlara qarşı sevgi duyğusu durur. Hansısa insanlar bunların qarşısını alıb öz istəklərini yeritməməlidirlər. Qanun insan təbiəti ilə uzlaşmalıdır.

Dövlət xalqın nailiyyətidir. Xalq isə insanların düzənsiz yığımı deyil, onların maraqlarının üst-üstə düşməsi və hüquq məsələlərində birliyə gəlməsi əsasında əldə olunan birlikdir (13, 20).

*"**Akademiklərin təlimi**"* (lat. *Academica*) əsərində varlıq və idrak məsələlərinə münasibət bildirən Sisero şübhəçi (skeptik) mövqedən çıxış etmişdir. Əxlaqi və dini mövzular isə onun fəlsəfi əsərlərində əsas yerlərdən birini tutur. O hesab edirdi ki, ilkin ümumi anlayışlar məfhumu vardır. Onları insana təbiət verir və onlar həqiqidir. Bu ilkin ümumi anlayışlar tanrılar, ruhlar və qədərə inanc kimi şeylərdir.

Sisero əxlaqla bağlı məsələlərə özəl diqqət yetirmişdir. Bu barədə o, öz fikirlərini *"**Xeyir və şərin hüdudları barəsində**"* (lat. *De finibus bonorum et malorum*)

əsərində yazmışdır. Xeyrin mahiyyəti problemi onun diqqət mərkəzində olmuşdur. Onun fikrincə Xeyir iradənin vasitəsi ilə bütün həyatın çətinliklərinə sinə gəlməkdir. Fəlsəfə bunu anlamağa yardım edir. İnsan ağıllı varlıqdır və onda tanrının ruhu vardır. Siseronun fikrincə hər bir fəlsəfi cərəyan son olaraq Xeyrin mahiyyətinin anlaşılmasına xidmət etməlidir. Belə olarsa o təlimlərin əsaslarını bir araya gətirmək, onları barışdırmaq və onlardan yararlanmaq yaxşı olardı. Siserona görə insanlar həyatlarını təbiətə uyğun olaraq yaşamalıdırlar.

*"**Tanrıların təbiəti haqqında**"* (lat. *De natura deorum*) və *"**Tale haqqında**"* (lat. *De fato*) əsərlərində Sisero tanrılara inanc, dinlərin mahiyyəti, tale və azadlıq, mövhumatlar kimi problemləri fəlsəfi baxımdan araşdırmış, ondan öncə yaşayan filosofların bu barədə fikirlərini açıqlamışdır. O, daha çox insan azadlığına üstünlük vermiş, mövhumatlara, ənənəvi dini baxışlara qarşı çıxmışdır. Onun din və tanrı haqqında baxışları və dünyagörüşü fəlsəfi düşüncəsinin əsasında qurulmuşdur.

Sisero yaradıcılığının ən uca zirvəsi *"**Tuskulan söhbətləri**"* (lat. *Tusculanae disputationes*) əsəri sayılır. Bu əsər Sezara qəsd edən ***Markus Brutusa*** həsr olunmuşdur və beş kitabdan ibarətdir: 1) *"Ölümə qarşı biganə olmaq"*, 2) *"Ağrıdan qurtarmağın yolu"*, 3) *"Kədərdən təsəlli tapmaq"*, 4) *"Ehtiraslar haqqında"*, 5) *"Yetərli olan ərdəm haqqında"*. Bu kitablarda Sisero çoxlu fəlsəfi və əxlaqi məsələlərə toxunmuşdur. Onun fikrincə fəlsəfi düşüncəyə yiyələnmək və müdriklik məqamına çatmaq həyatı

məzmunla doldurur və bunlar qocalıq, ağrı, ölüm, itki kimi əzabları yüngülləşdirir.

Bu əsərdə ölüm qarşısında qorxu hissi haqqında söhbət açılır. Həm də burada ölümün şər olub-olmaması və insan ruhunun mahiyyəti haqqında düşünülür. Ölüm şər ola bilməz, çünki demək olmaz ki, ölülər bədbəxtdirlər. Şər kimi anlayış yalnız bu dünyada vardır. Burada Sisero ruhun ölməzliyini və ruhların bədənlə birlikdə öldüyünü iddia edənlərin fikirlərini verərək belə qərara gəlmişdir ki, hər iki halda ölümdən qorxmaq lazım deyildir. Çünki, ölməzliyin tərəfdarları haqlıdırlarsa, insanı ölümdən sonra həzzlərlə dolu gözəl həyat gözləyir; ruhun ölümünü iddia edənlər haqlıdırlarsa, onda ölümdən sonra heç bir şey olmayacaqdır (2, 87-88). Bədənin ölümündən sonra ruhların əzabda olması haqqında inancları Sisero rədd etmişdir. Çünki belə olarsa, onda insanlar əbədi olaraq əzablar üçün yaradılmış olardılar, bu isə ədalətə uyğun deyildir (2, 12). Ona görə də, Siseronun fikrincə bu kimi inanclar uydurmadır.

Bu əsərdə həm də iddia edilir ki, ağrı əzablı olsa da rüsvayçılıq və abırsızlıq qədər şər də deyildir (2, 106). Buna görə də filosof gərək hər bir ağrıya və çətinliklərə qarşı dayanıqlı olsun, öz simasını itirməsin (2, 109). Əzablar dözülməz olsa da müdrik həyatına son qoymaqla onlardan qurtulmalıdır.

Hər bir insanda təbiətdən verilmiş xeyir və ərdəm vardır. Onları inkişaf etdirərək xoşbəxt olmaq mümkündür. Ancaq, insan dünyaya gələn kimi şərlə əhatə olunur və onlar onun canına hopur. Hər şey ailədən

başlayır, sonra cəmiyyətdə davam edir. Kütlələr, qohumlar, dostlar, fərqli mürşidlər və müəllimlər də insanda yanlışlıqları artırır. Beləliklə, təbiətdən yadlaşma baş verir. Belə bir təsəvvür yaranır ki, insan pul, şöhrət və hakimiyyəti əldə etmək üçün yaşamalıdır. Beləliklə, insan ərdəmlə deyil, şöhrətpərəstliyin arzusu ilə yaşayır. Xalq da bu hissləri dəstəkləyir. Hər bir bədbəxtliyin səbəbi də elə budur. Ona görə də, fəlsəfənin məqsədi ruhları tərbiyə etmək, onları təbii ərdəmə qaytarmaqdır. (2, 160-161)

Bədbəxtliklərdən qurtulmaq üçün fəlsəfəyə müraciət edilməlidir. Fəlsəfə insanı təbiətə qaytarır. Ancaq, o bir anda əldə edilmir. Fəlsəfəyə doğru uzun müddət gedilməlidir ki, o məqam gəlib çatasan. Bədbəxtlik hər insan üçün böyük əzabdır. Ancaq, müdrik insan onu daha yüngül keçirir, çünki o ona hazırlıqlı olur.

Siserona görə xoşbəxtliyə çatmağa ehtiraslar mane olur. Müdrik insan üzərində kədər hökmranlıq etməz. Kədərdən azad olmaq eyni zamanda qorxudan da azad olmaq deməkdir. Bundan başqa aşırı sevinc və istəklər vardır. Ancaq, kədər və qorxuya sinə gələn müdrik üçün onlardan yayınmaq daha asandır. (2, 200-201)

Xəsis, qəzəbli, həsəd aparan, vaxtını eyş-işrətlə keçirən, qorxaq, arvadbaz, acgöz kimi insanlar bədbəxtdirlər, çünki yanlış və təbiətə zidd olan ehtiraslar onlara güc gəlmişdir. Ehtiraslarını təmin edən və onların hökmü ilə davranan insanı heç nə sevindirə bilməz, çünki ehtirasların sonu yoxdur. Birini təmin edən kimi başqasını təmin etmək istəyi yaranır. Sağlam və varlı insan belə xoşbəxtliyin mahiyyətini bilmirsə, bütün maddi nemətləri

əldə etmiş olsa belə bədbəxt həyat sürür. Çünki o, ruhun yüksəlişinə aparan yollarını aça bilməmişdir. Xoşbəxt insanın ruhu isə küləksiz havada bir dənizə bənzərdir ki, onu heç nə sakit durumdan çıxarda bilməz. Belə insan təbiətinə uyğun yaşayır, ehtiraslarını cilovlayır. (2, 257)

Hər şeyin əxlaqı var və hər şeyin yaxşısı əxlaqlı olanıdır. Ərdəmli və xoşbəxt insan hər şeyi əxlaqla edir. O, həyatını və davranışlarını elə qurur ki, heç nədən utanmasın, heç nəyə ehtiyacı olmasın və heç nədən qorxmasın. Onun elədiyi hər şey gözəl, yüngül və ürəklərə yatan tərzdə alınır. (2, 265-266)

Siseronun əxlaqi problemlərinin mərkəzində insanpərvərlik (humanizm) ideyası dururdu. Bunun da sonralar Avropada humanist fəlsəfələrin yaranmasında böyük təsiri olmuşdur. Ümumiyyətlə, onun fəlsəfi fikirləri Qərb fəlsəfəsinin inkişafında böyük rol oynamışdır.

**Mövzu ilə əlaqəli suallar:**

1. Stoaçılığın hansı tarixi mərhələləri olmuşdur və onların ümumi səciyəsi nədədir?
2. Zenonun və onun ardıcıllarının etik fəlsəfəsinin məzmunu nə olmuşdur?
3. Hrisippusun stoaçılığın tarixində rolu nə olmuş, o hansı məsələlərə önəm vermişdir?
4. Hrisippusun məntiq nəzəriyyəsinin əsasında hansı müddəalar durmuşdur?
5. Kleantes hansı fəlsəfi fikirlərlə çıxış etmişdir?

6. Stoaçıların məntiq nəzəriyyəsinin əsas müddəaları nədən ibarətdir?

7. Stoa fəlsəfəsində dünyanın insan tərəfindən dərk edilməsi necə baş verir?

8. Yanlış təsəvvürlər necə yaranır?

9. Katalepsis nədir?

10. Stoa fəlsəfəsində "Loqos" nədir?

11. Stoaçıların fizikası və tanrılar haqqında təsəvvürləri necə olmuşdur?

12. Stoaçılar ruh haqqında nə düşünürdülər?

13. Stoaçıların taleyə və əxlaqa münasibətləri necə olmuşdur?

14. Orta stoaçılar qədim stoaçılardan nə ilə fərqlənirdilər?

15. Panetiusun fəlsəfi fikirlərinin ümumi məzmunu nədən ibarət idi?

16. Posidonius dünya, tanrı, ruh, tale, insan və əxlaq haqqında hansı fikirlərlə çıxış etmişdir?

17. Senekanın fəlsəfəsi ilə həyat tərzi arasındakı ziddiyyətli məqamlar nə ilə izah edilir?

18. Senekanın etik təliminin əsasları hansılar idi?

29. Senekanın əxlaqi fəlsəfəsi ilə xristian ilahiyyatının hansı bənzər cəhətləri vardır?

20. Seneka tale haqqında nə düşünürdü?

21. Senekaya görə insan çevrəni necə dərk edir?

22. Senekanın tanrı və dünya quruluşu haqqında fikirləri necə olub?

24. Epiktetusun əxlaqi fikirləri hansı müddəalardan ibarət idi?

25. Epiktetus fəlsəfəni neçə hissəyə bölürdü?

26. Epiktetusun tanrı, tale və insan həyatının məqsədi haqqında fikirləri necə olmuşdur?

27. Markus Aureliusun əxlaq fəlsəfəsinin əsas müddəaları nədən ibarət olmuşdur?

28. Siseronun fəlsəfənin inkişafında nə kimi rolu olmuşdur, onun əsərlərinin fəlsəfə tarixində əhəmiyyəti nədədir?

29. Siseronun siyasi fikirləri nədən ibarət olmuşdur?

30. Siseronun əxlaqa dair fikirləri hansı kitabında açıqlanmışdır?

31. Sisero ehtiraslar, ölüm və ağrı haqqında nə düşünmüşdür?

32. Sisero fəlsəfənin əhəmiyyəti haqqında hansı fikirlər irəli sürmüşdür?

33. Sisero tanrılarla bağlı məsələlərə hansı əsərində toxunmuşdur?

**Ədəbiyyat:**

1. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

2. Cicero. Tusculan disputations / Translated by Andrew P. Peabody. Boston: Little, Brown, and Company, 1886.

3. Hamm U. Dictionary of Early Christian Literature. New York: The Crossroad Publishing Company, 2000.

4. Marcus Tullius Cicero. On the Nature of the Gods / Translated by F. Brooks. London: Methuen, 1896.

5. Posidonius // Encyclopædia Britannica Eleventh Edition, 1911.

6. Асмус В.Ф. Античная философия. М.: Высшая школа, 1976.

7. Беседы Эпиктета. М.: Ладомир, 1997.

8. Корнелий Тацит. Сочинения в двух томах. Том I. // Анналы. Малые произведения / Перевод А. С. Бобовича. М.: Ладомир, 1993.

9. Луций Анней Сенека. Нравственные письма к Луцилию / Перевод С. А. Ошерова. М.: Наука, 1977.

10. Маковельский А. О. Мораль Эпиктета. Казань: Типо-литография императорского университета, 1912.

11. Марк Аврелий Антонин. Размышления / Перевод А. В. Добровольского. Л.: Наука, 1985.

12. Маркс К. и Энгельс Ф. Сочинения. Изд. 2. Т.19. М.: Государственное издательство политической литературы, 1955-1981.

13. О государстве // Цицерон М.Т. Диалоги: О государстве - о законах / Перевод В. О. Горенштейна. М.: Наука, 1966.

14. О Законах // Марк Туллий Цицерон. Диалоги / Перевод В. О. Горенштейна. М., Научно-издательский центр “Ладомир” – “Наука”, 1994.

15. Об обязанностях // Марк Туллий Цицерон. О старости. О дружбе. Об обязанностях / Перевод В. О. Горенштейна. М.: Наука, 1993.

16. Посидоний// Москва. Философская Энциклопедия. В 5-х т. М.: Советская энциклопедия. 1960—1970.

17. Сенека. О счастливой жизни / Перевод С. Ц. Янушевского // Древнеримские мыслители. Свидетельства. Тексты. Фрагменты. Киев, 1958.

18. Хрисипп // Новейший философский словарь. Сост. Грицанов А. А. Минск, 1998.

19. Цицерон // Плутарх. Сочинения / Перевод Е. Петуховой. М.: Художественная литература, 1983.

## 2.6. Akademiklər

Ellinizm dövrünün ən məşhur fəlsəfi məktəblərindən biri **Akademiya** (yun. *Ἀκαδήμεια*) idi. Bu məktəb Afinada Platon tərəfindən m. ö. 380-ci illərdə yaradılmış və m. 529-cu ildə Bizans imperatoru Yustinianın (lat. *Flavius Petrus Sabbatius Iustinianus*) bütün antik məktəblərin bağlanması haqqında fərman verməsinə qədər fəaliyyət göstərmişdir. Platon məktəbinin ardıcılları olduqları üçün akademikləri həm də ***"platonçular"*** da adlandırırlar. "Akademiya" sözü tanrılaşdırılmış igid *Akademin* adı ilə bağlıdır. Uzun müddət fəaliyyət göstərməsinə görə Akademiyanın (platonçuluğun) tarixini ***qədim, orta*** və ***yeni*** (neoplatonçu) dövrlərə bölürlər.

Qədim akademiklər Platon irsinin sistemləşdirilməsi və ona şərhlərin verilməsi ilə məşğul olmuşdurlar. Bundan başqa onlar bir çox elmləri də inkişaf etdirmiş, özəlliklə də riyaziyyat və astronomiya sahələrində uğurlar

əldə etmişdirlər. Ancaq, onların bir çoxlarının əsərləri bizim zamanımıza çatmamışdır. Bundan başqa platonçuların mistik təlimlərində də olmuşdur. Özəlliklə də, onlar rəqəmlərin mistikası ilə məşğul idilər.

### 2.6.1. Qədim platonçuluq

Platondan sonra qədim Akademiyanın başçısı (skolarxı) **Speusippus**[81] (yun. *Σπεὺσιππος*, m. ö. 409 – 339) olmuşdur. O, müxtəlif sahələr üzrə çoxlu əsərlərin müəllifi kimi tanınırdı (4, 153). Ancaq, həmin əsərlər bizim zamanımıza çatmamışdır.

Speusippus Platonun ontoloji təlimində də əsaslı dəyişikliklər etmiş, onun ideyalarını rəqəmlərdə təsəvvür etmişdir (2, 152). Bununla da o, ideyaları inkar edirdi. Aristotel yazırdı ki, Platondan fərqli olaraq Speusippus şeylərin gözəlliyini onların başlanğıclarında görmürdü, çünki bu gözəlliklər onların özlərində müşahidə olunur (2, 182).

Bütün rəqəmlərin başlanğıcı hər şeydən üstün olan *Vahiddir*. Platon fəlsəfəsində Vahid həm tanrı, həm də ərdəm kimi başa düşülürdü. Ancaq, Speusippusda o tam mənada nə tanrı, nə də ərdəmdir. Vahiddən başqa şeylərlə əlaqələndirilən rəqəmlər başlayır. Tanrını isə Speusippus Platonun *Demuirqosunda* görürdü, onu Əqllə eyniləşdirirdi.

---

[81] Rus ədəbiyyatında onun adı *Spevsipp (Спевсипп)* kimi səslənir.

Vahiddən fərqli olaraq maddi aləmdə hər şey çoxluqdadır (2, 152-153). Vahidlə çoxluğun ahəngi rəqəmlərdə əks olunur. Bunlar da Platonun ideyalarıdır. Rəqəmlər maddi təzahürlərdən və şeylərdən fərqli və transsendentaldır[82]. Speusippusun rəqəmlər mistikası onu pifaqorçulara yaxınlaşdırırdı. Həmçinin, Platondan fərqli olaraq Speusippus hesab edirdi ki, duyğular vasitəsi ilə həqiqi biliyi əldə etmək mümkündür.

Speusippus Platon təlimində düşüncə və duyğu arasında ziddiyyəti ortadan qaldırmaq istəmişdir. Onun fikrincə bəzi şeyləri duyğularla, başqalarını isə düşüncə ilə qavramaq mümkündür. Düşüncə ilə qavranılan şeylərin meyarı *"elmi düşüncədir"* (yun. *επιστημονικóν*). Duyğularla qavranılanların meyarı isə *"elmi hissdir"* (yun. *αισθησις*). Speusippus güman edirdi ki, *"elmi hiss"* həqiqətin açılmasında düşüncə ilə birlikdə fəaliyyət göstərir. Duyğu orqanları məşq vasitəsi ilə şeylərin arasındakı fərqi səhvsiz təyin edir. Məsələn, musiqiçi musiqidə ahəngi və ahəngsizliyi təbiətin vergisinə görə deyil, nəzəriyyəni öyrənib bilməsinə görə təyin edə bilir. (21, 90)

Beləliklə, güman etmək olar ki, Speusippusa görə belə bir duyğularla duyulan gerçəklik vardır ki, onu "elmi hissi idrakla" dərk etmək olar. Bu gerçəklikdən başqa heç nə yoxdur. Ancaq, onun hər bir hissəciyi özünəməxsus şəkildə müəyyən bir riyazi qurumla bağlıdır. (23, 439-445)

---

82 **Transsendentallıq** (lat. *transcendens* – hüdudlardan aşan) – duyulan aləmin anlayışlarına və meyarlarına sığmayan, onlardan daha uca olan və dərk edilməyən anlayışdır.

Speusippusdan sonra Akademiyaya **Kalkedonlu Ksenokrates** (yun. Ξενοκράτης, m. ö. 395 – 314) başçılıq etmişdir. O, fəlsəfəni sistemləşdirmiş, onu üç hissəyə bölmüşdür: *dialektika* (idrak nəzəriyyəsi və məntiqlə birlikdə), *fizika* və *etika*. Onun fikrincə üç növ ilk varlıq və ya başlanğıc (substansiya) vardır: *ağılla dərk edilən*, *hissi* və onların üzərində qurulmuş *mürəkkəb*. Ağılla dərk edilən göy qatından yüksəklərdə olanların, hissi yerin və göyaltı sahələrin, mürəkkəb isə göyün özünün substansiyasıdır. Buna görə də ağılla dərk edilən elmin, hissi substansiyanı duyğuların vasitəsi ilə qavramaq olar. Mürəkkəb substansiya isə rəylə dərk edilə bilər. Elm vasitəsi ilə qavranılarlar dayanıqlı və həqiqi olur. Duyğularla qavranılanlar da həqiqi olur, ancaq dərəcəsi elmlə qavranılarlar qədər olmur. Mürəkkəbdə isə həqiqət və yanlışlıq vardır. Çünki, hər bir rəydə həm həqiqət, həm də yanlışlıq mövcuddur. (21, 90)

Dünyanın əsasında *Vahid* və *Diada* (İkilik) durur. Vahidi Ksenokrates yunanların baş tanrısı Zeusla eyniləşdirib "Ata" adlandırırdı. Vahid həm də dünya Əqlidir. Diadanı isə o, "tanrıların anası" adlandırırdı və onu dünya "Ruhu" ilə eyniləşdirirdi. (28, 55-56)

Ksenokratesə görə dünya Ruhu rəqəmlər (ideyalar) və dəyişikliklərə məruz qalan maddi dünya arasında bir keçid mərhələsidir. Beləliklə o, ***Vahid*** başlanğıc və dünya ***Əqli*** anlayışlarına dünya ***Ruhu*** anlayışını da əlavə etmişdir. Bu fikir sonralar yeni-platonçular tərəfindən daha da inkişaf etdirilmişdir.

Ksenokratesə görə dünyanı ilahi qüvvələr bürüyüb və onlar dünya Ruhunda təcəssüm olunur. O kamildir, ancaq tədricən maddi aləmin təsiri ilə kamilliyini itirir. Ksenokrates göyü, ulduzları, hətta ünsürləri tanrılaşdırırdı (8, 47). Onun təlimində *ilk ünsürlər beşdir*: efir, od, hava, su və yer (17, 259).

Ksenokrates ***demonların*** varlığına da inanırdı. Onların yeri insanlarla tanrıların arasındadır, vəzifəsi isə onların arasında rabitə yaratmaqdır (23, 445-456). Şərin mövcudluğu da demonlarla əlaqəlidir.

Ksenokratesə görə insan həyatının məqsədi ruhun düyğular aləmindən azad olunmasındadır. Müdriklik isə özünü təkcə nəzəriyyədə deyil, həm də praktik həyatda göstərməlidir (17, 259).

Qədim Akademiyanın daha bir başçısı (skolarxı) **Polemon** (yun. *Πολέμων*, m. ö. 350 – 270) olmuşdur. O, Ksenokratesin fikirlərini inkişaf etdirmiş, daha da çox əxlaqi məsələlərə önəm vermişdir. Onun fikrincə hər bir canlı özünə qayğı göstərir, özünü qoruyur və sevir, təbiət tərəfindən verilmiş özəllikləri gerçəkləşdirmək istəyir. Buna görə də, həyatı təbiətlə uyğunlaşaraq sürmək lazımdır. Əslində xoşbəxtlik də budur (26, 89), o ərdəmsiz əldə olunmaz (14, 618). Polemon çoxlu kitab yazsa da, zamanımıza onun bu əsərləri gəlib çatmamışdır.

Polemondan sonra qədim Akademiyaya **Krates** (yun. *Κρατής,* ölüm tarixi təxminən m. ö. 268) başçılıq etmişdir. Onun da əsərləri zamanımıza gəlib çatmamışdır. Kratesin haqqında yalnız o məlumdur ki, o, Platon məktəbinin ənənələrini qorumuşdur.

Ondan başqa qədim Akademiyanın tanınmış nümayəndələri sırasında Pontlu Heraklides və Knidoslu Eudoksus da olmuşdurlar. Ancaq, onlar bir çox məqamlarda Platonun təlimindən fərqli mövqelərdən çıxış edirdilər. Ona görə də, bir çox tədqiqatçılar onları Platonun sadiq ardıcılları sırasına daxil etmirlər.

**Heraklides** (yun. *Ἡρακλείδης*, m. ö. 390 – 310) hesab edirdi ki, hər şey ən kiçik və bölünməz cismlərdən ibarətdir. Atomlar olan bu cisimlər ilahi Əqldən doğur. Ruhların isə tərkibi efirdən ibarətdir. Onlar öncə göylərdə yaşayır, sonra insan bədəninə köçürlər (20).

Heraklides həm də astronomiya elmi ilə məşğul olmuşdur. Onun fikrincə yer öz oxu ətrafında fırlanır, göy isə hərəkətsizdir; ulduzlar kürə formasında olan yerə bənzər dünya cisimləridir (7, 155-185).

**Eudoksus** (yun. *Εὔδοξος*, m. ö. 408 – 355) daha çox riyaziyyat və həndəsə elmləri ilə məşğul olmuşdur. İlk dəfə Yunanıstanda mütəmadi olaraq göy cisimlərini müşahidə etmək üçün elmi mərkəz yaratmışdır. Fəlsəfədə Eudoksus daha çox ontologiya, qnoseologiya və əxlaq sahələrində fikirlər irəli sürmüşdür. Onun fikrincə dünya birdir və bölünməzdir. Onun dərk edilməsində də duyğular və əqli fəaliyyət birlik təşkil edir.

Platon hesab edirdi ki, ideyalar düşüncə ilə dərk edilən əbədi varlıqlardır. Eudoksus onunla razılaşmayaraq onları hər bir şeydə olan qatqı kimi təsəvvür edirdi. Bir şeyə ağ qatılsa, o da o şeyin ağlığının səbəbi olduğu kimi, ideyalar da bunun kimi hər şeyin səbəbidir (2, 321).

Eudoksusa görə ən yüksək ərdəm və xeyir həzz almaqdır. Hər şey ona doğru yönəlir və o hər şeyin məqsədidir (3, 321). Həzzə qarşı duran istənilən şey isə əzabdır.

Qədim platonçuluq tarixinin ***ikinci mərhələsi*** skolarx **Arkesilausdan** (yun. *Ἀρκεσίλαος*, m. ö. 315 – 240) başlanmışdır. Onun dövründən başlayaraq Akademiyada *şübhəçiliyin* (skeptisizmin) təsiri artmışdır. Ona görə də, Arkesilaus hər bir iddiadan çəkinməyi məsləhət görürdü (4, 163) və stoaçıların *kataleptik* təsəvvür anlayışına qarşı çıxış etmişdir. O hesab edirdi ki, fəlsəfənin məqsədi həqiqətə çatma deyil, yanlışlıqlardan azad olmaqdır.

Arkesilausdan başqa Akademiyaya **Lakides** (yun. *Λακύδης*) və **Euandrus** (yun. *Εὔανδρος*) kimi skolarxlar başçılıq etmişdirlər. Ancaq, onlar haqqında zamanımıza çox az bilgilər çatmışdır.

Skolarx **Karneades**’dən (yun. *Καρνεάδης*, m. ö. 214 – 129) başlayaraq qədim platonçuluğun ***üçüncü tarixi mərhələsi*** başlamışdır. Həmçinin onun zamanında Akademiya yüksəliş dövrü yaşamışdır.

Karneades öz fəlsəfi görüşlərində şübhəçilik mövqeyində durmuşdur. Onun fikrincə nə təfəkkürdə, nə də duyğularda həqiqətin obyektiv meyarı yoxdur. Çünki, duyğu vasitəsi ilə əldə olunan bilgidə duyğuların aldadıcı xüsusiyyəti, məntiqlə əldə olunan bilgidə isə aporiyalar (məntiqi ziddiyyətlər) ola bilər. O, stoaçıların idrak nəzəriyyəsini tənqid edirdi, onların ziddiyyətlərini ortaya qoyurdu. Karneadesə görə idrakın üç pilləsi vardır:

birincisi *ehtimal olunan*, ikincisi *ehtimal olunan və ziddiyyəti olmayan*, üçüncüsü isə *ehtimal olunan, ziddiyyətsiz və yoxlamadan keçən* (22). Üçüncüsü ən etibarlı olsa da həqiqəti tam açmır, ona nisbətən yaxınlaşır. O, həm də dini inanclara tənqidi yanaşırdı.

Karneadesdən sonra Akademiyaya **Kliptomaxus** (yun. *Κλειτόμαχος*, vəfatı m. ö. 110) və **Larissalı Filon** (yun. *Φίλων*, m. ö. 154 – 84) başçılıq etmişdirlər. Ancaq, onların haqqında zamanımıza çox az məlumat gəlib çatmışdır. Məlumdur ki, onlar Karneadesin şübhəçi fikirlərini davam etdirmişdirlər.

### 2.6.2. Orta platonçuluq

Qeyd edildiyi kimi akademiklər Arkesilausdan sonra Platon təlimindən tədricən ayrılmışdırlar. Karneadesdən sonra isə bu proses daha da dərinləşmişdir. M. ö. I yüzillikdə Qədim Akademiya məktəbi tənəzzül dövrünü yaşamışdır. Ancaq, sonra Platonun təliminə qayıdış və şübhəçilikdən aralanma dövrü başlanmışdır. Onu ***Orta Akademiya*** dövrü (m. ö. 80 – m. 200) adlandırırlar. Bununla da, platonizmin ***dördüncü mərhələsi*** başlamışdır.

Orta Akademiyanın filosoflarının təlimləri daha çox *eklektik* xarakter daşımışdır (5, 305). Onlar Platon məktəbinin təlimini Aristotelin, Pifaqorun, stoaçıların və başqalarının təlimləri ilə qarışıq şəkildə sərgiləyirdilər.

Əxlaq sahəsində akademiklər ***"Tanrıya bənzəmək"*** məqsədini güdmüşdürlər, bu da "ən yüksək ərdəm" kimi dəyərləndirilirdi. Fizika sahəsində təbiət və *"İlk başlanğıc"*

münasibətləri problemi dualizm (ikilik) və monizm (varlığın birliyi) çərçivəsində çözülürdü. Platon təliminə uyğun olaraq Orta Akademiya məktəbi *"**iki tanrı**"* konsepsiyasını irəli sürmüşdür. Onlardan biri *Haqq* və ya *Xeyir* olandır, ancaq o uzaqlardadır və insanın məqsədi onu tapmaq və ona doğru yönəlməkdir. İkincisi isə *Demiurqosdur*. O dünyanın yaradıcısıdır.

Bundan başqa m. ö. I yüzillikdən başlayaraq orta platonçuluq fəlsəfəsinə monoteist dinlər olan Yəhudiliyin və Xristianlığın da təsiri olmuş, orada antik irslə monoteist ənənənin uzlaşdırılması cəhdləri müşahidə edilmişdir. Eyni zamanda, Akademik məktəbin nümayəndələri m. I – II yüzilliklərindən başlayaraq tədricən güclənən Xristianlığa qarşı da çıxış etmişdirlər. Müasir dini tənqidin əsasları məhz o zaman qoyulmuşdur.

Qeyd etmək lazımdır ki, Orta Akademiyanın coğrafiyası da genişlənmişdir. Onun dərnəkləri təkcə Afinada deyil, həm də Apameya, Smirna və başqa şəhərlərdə fəaliyyət göstərmişdir.

Orta Akademiyanın birinci başçısı (skolarxı) **Askalonlu Antioxus** (yun. *Ἀντίοχος ὁ Ἀσκαλώνιος*, m. ö. 130 – 68) sayılır. Orta dövrün Akademiyasında yeni fikirlərlə çıxış edənlərdən biri **İskəndəriyyəli Eudorus** (yun. *Εὔδωρος*, m. ö. I yüzillik) olmuşdur. O, ilk dəfə mümkün qədər *"Tanrıya bənzəyərək"* həyat sürmək və bunu məqsəd kimi qarşıya qoymaq ideyası ilə çıxış etmişdir (5, 306). Eudorusun əsərləri zamanımıza çatmamışdır deyə, onun haqqında bilgilər azdır.

Orta platonizmin tanınmış nümayəndələrdən biri **Alkinous**[83] (yun. *Ἀλκίνους;* m. II-ci yüzilliyi) olmuşdur. O, müəllimlərin istifadə etdiyi *"**Platon fəlsəfəsinin dərsliyi**"* (yun. *Ἀλκινόου Διδασκαλικὸς τῶν Πλάτωνος δογμάτων*) adlı kitabın müəllifi idi. Bu kitab günümüzə qədər platonizmin ən dəyərli qaynaqlardan biri hesab olunur. Bu kitabda məntiq, fizika və əxlaq sahələri üzrə fəsillər vardır və onlar orta platonizm haqqında kifayət qədər dolğun təsəvvür yaradır.

İlk olaraq Alkinous filosofun özəlliklərindən söhbət açır və qeyd edir ki, ən başlıcası onun fəlsəfəyə təbiət tərəfindən verilmiş vergisi olmalıdır. Onun vasitəsi ilə o dünyanın dəyişkən və axıcı olan şeyləri haqqında deyil, düşüncə ilə qavranılan biliklərə yiyələnməlidir (1, 3). Bundan başqa filosof ədalətli olmalı, həqiqəti sevməli, müstəqil mülahizələr irəli sürə bilməli, yalana yol verməməli, xırdaçılıqdan uzaq, ləyaqətli və təvazökar olmalı, həm də onun yaxşı qavrama qabiliyyəti və yaddaşı olmalı, mənəvi sıxıntılara düşdükdə sakitliyini itirməməlidir. Bütün bu keyfiyyətlər tərbiyə və savadla birlikdə, filosofu ərdəmə və düşüncəli həyata sahib olmağa gətirib çıxarmalıdır. Təcrübi həyata qatılmağa isə filosof məcbur olunur. Çünki ,o hiss edir ki, bununla o düzənsizliyi və qarışıqlığı ortadan qaldıra bilər (1, 3-4).

Filosof üç şeylə məşğul olur: o düşünərək mahiyyətə varır, xeyir verir və nəzəri cəhətdən cümlələrin mənalarını incələyir. Mahiyyəti bilmək *nəzəriyyə,* davranışın necə

[83] Rus ədəbiyyatında onun adı *Alkinoy (Алкиной)* kimi səslənir.

olması təcrübə, cümlələrin mənalarını bilmək isə *dialektika* adlanır. Beləliklə, fəlsəfə nəzəri, təcrübi və dialektik hissələrə bölünür. Nəzəri *ilahiyyat, fizika* və *riyaziyyatı;* təcrübi *xasiyyətin tərbiyə edilməsi, məişət* və *dövlət quruculuğunu;* dialektik hissə isə hər *şeyi təyin etmə, induksiya* və *sillogizmi* əhatə edir (1, 4-5).

**Dialektika** nitqin mahiyyətini bilməkdir. Hər bir insanda çevrədəki şeylər haqqında hökm verən onun *düşüncəsi* (mülahizə yeritməyin mənbəyi) və *təfəkkürüdür* ki, onlar da təbiət tərəfindən verilib. Onların vasitəsi ilə həqiqət yanlışlıqdan ayrılır. ***Təfəkkürün*** də iki tərəfi vardır: birincisi dərk edilmir, ancaq həqiqidir və bu Tanrıya aiddir; ikincisi şeyləri seçəndir və o həm də insanda vardır. İnsanda olan təfəkkür də ikilidir: bəzi şeyləri insan ağılla, bəzilərini isə duyğularla qavrayır. Ağılla dərk edilən *elmi bilikdir*. Duyğularla dərk edilən isə yaddaşla birləşərək *rəy* yaradır. Düşüncə bacarığı və duyğular düşüncə ilə qavranılan və rəyin əsasını təşkil edir. Duyğu bədəndə ruhun elə bir durumudur ki, o bədənə edilmiş hər bir təsirə reaksiya verir. Bu təsir zaman keçdikcə aradan qalxmazsa yaddaşa çevrilir. (1, 6-8)

Daha sonra Alkinous düşüncəni, duyğu ilə qavranılanı və yaddaşı Platon və Aristotelin təlimi əsasında təhlil etmişdir. Belə ki, Platon fəlsəfəsində hər şeyin mahiyyəti kimi dəyərləndirilən dialektika Aristotelin sillogizmlər haqqında təlimi ilə birlikdə araşdırılmışdır.

Nəzəri fəlsəfəni açıqlayan Alkinous ***riyaziyyatdan*** başlayır. Riyaziyyat dialektikadan fərqli olaraq ilk başlanğıclarla bağlı deyil, ancaq bu elm rəydən üstündür, çünki sağlam düşüncə sahəsinə aiddir (1, 13-14).

***Dünyanın yaranması*** problemi üzrə Alkinous Platonun "Timeusuna" uyğun olaraq əzəldən olan və yaradılmamış üç başlanğıc haqqında söhbət açır. Bunlar *maddə*, *"qəlib"* (ya da ideya) və *"Atadır"* (ya da səbəbdir). Maddəni qəliblər əsasında formalaşdıran səbəb vardır. İdeya (qəlib) hər bir təbii şeyin nümunəsi, Tanrının (Atanın, səbəbin) düşündükləri, bizim tərəfimizdən ilk dərk ediləndir. Çünki, hər bir şeyi yaradan sənətkar ilk olaraq onun obrazını (qəlibini) özü-özündə yaradır, sonra ona uyğun o şeyi ortaya qoyur (1, 16). Deməli, bu qəliblər (ideyalar) Tanrıdadır və ona görə onunla eyniləşir. Tanrı Aristotelin "İlk mühərrikidir" və eyni zamanda Platonun yaradıcı tanrısı *Demiurqosdur*. O ilk Əqldir, hərəkətsizdir və hər şeyin səbəbidir.

Alkinous ***Əql*** və ***Ruh*** anlayışlarını fərqləndirirdi. Ona görə, ***Tanrı*** ilə eyniləşdirilən Əql əbədidir və yüksək dairələrə aiddir; o aktiv deyil, özü özündədir. Əqldə olan ideyaları gerçəkləşdirən isə Ruhdur. O bütün kainatı bürüyür və onun vasitəsi ilə Tanrı bu dünyada hər şeyi oluşdurur. "Timeusda" olduğu kimi, Tanrının Ruhu kiçik tanrılar dairəsinə enir və onlar təbiətdə olan şeyləri yaradır. O tanrılar göyün *yeddi qatında* [84] yerləşir.

[84] Göyün yeddi qatının olması qədim zamanlarda yerin kainatın mərkəzində durması; günəşin, ayın və daha 5 planetlərin onun ətrafında fırlanması inancından yaranmışdır. Həmin inanca görə, onların tutduğu məkan və

Ümumiyyətlə, bütün kosmos, ulduzlar, planetlər canlıdırlar, dünyanın Ruhunu təşkil edirlər. (1, 23-24)

Aristoteldə olduğu kimi, Alkinous yerin dünyanın mərkəzində yerləşdiyini və başqa planet və ulduzların onun ətrafında fırlandığını iddia edirdi (1, 25). Yerin özü də bir tanrıdır. Planetlərarası məkan isə efirlə doludur.

İnsanı tanrılar yer, od, su və havadan yaratmış, ona ruh vermişdirlər. Bu ruhun bir neçə hissəsi vardır (1, 27). Birincisi başda yerləşən *düşünən* hissədir. İkincisi *duyan* hissədir ki, o bir qədər aşağıdadır. Bir başqası *nəfsi* hissədir ki, o qarından aşağıda yerləşir. Ölməz olan yalnız düşünən hissədir ki, onu tanrılar birinci Tanrıdan alıb insanın baş tərəfinə yerləşdirmişdirlər (1, 31). Bunu edərkən, ona bədənlə birlikdə ölən "duyan" və "nəfsi" hissələrini də əlavə etmişdirlər. Bu hissələr bir-biri ilə çarpışır deyə, insan birmənalı varlıq deyildir.

Bu kontekstdə də Alkinous əxlaq problemlərini araşdırmış və stoaçılar kimi belə bir nəticəyə gəlmişdir ki, xoşbəxtliyin şərti ərdəmdir. Məqsəd isə ərdəmlə dolu həyat sürərək tanrılara bənzəməkdir. (1, 40)

Antik dünyanın ən tanınmış şair və yazıçılarından biri olan **Apuleius Lusius** (lat. *Apuleius Lucius*, təxminən m. 125 – 170) da platonik məktəbin nümayəndəsi sayılır. O kahin olmuş, bir çox ədəbi əsərlərin yazarı idi. Onun ironik və satiristik roman janrında yazılmış "***Metamorfozlar***" (lat. *Metamorphoseon*) kitabı antik dünyanın ən çox yayılmış və başqa dillərə tərcümə

---

hərəkət etdiyi fəzalar göylərdir. Göylərin yeddi qatdan ibarət olması haqqında Yəhudilik, Xristianlıq və İslamda da rəvayətlər vardır.

olunmuş əsəridir. Onu ***"Qızıl eşşək"*** (lat. *Asinus aureus*) də adlandırırlar (9, 3-246). Bu əsərdə eyş-işrətlə dolu həyat sürən *Lusius* adlı bir gənc cadugərliklə maraqlanmış və onu öz üzərində sınamaq istəmişdir. Bir cadugər qadın o gənci öz xahişi ilə müvəqqəti olaraq quşa çevirmək istəmiş, ancaq yanlışlıq nəticəsində onu eşşəyə çevirmişdir.

Ancaq, eşşək olan Lusius insan düşüncəsində qalmış və hər şeyi insan kimi anlamışdır. Beləliklə, o müxtəlif adamların (əkinçilərin, quldurların, varlıların, kahinlərin) ev heyvanı olmuş, onların həyatlarını içəridən görmüş; insanların alçaqlığının, yalanlarının, xəyanətlərinin, ikiüzlülüklərinin, cinayətlərinin, əxlaqsızlıqlarının şahidi olmuşdur. Sahibləri onunla qəddarcasına davranmış və hər zaman alçaltmışdırlar. Sonda Lusius tanrılardan yardım diləmiş və tanrıca *İsis* (İsida) onu yenidən insana çevirmişdir. Bundan sonra o, gördüklərindən nəticə çıxararaq *Osiris* və İsis kultlarının kahini olmuşdur.

Fəlsəfi əsərlərindən biri olan ***"Platon və onun təlimi"*** (lat. *De Piatone et eius dogmate*) kitabında Apuleus özünəməxsus şəkildə oxucuları Platonun təlimi ilə tanış etmişdir. Ancaq, bir çox hallarda onun yazdıqları Alkinousun verdiyi bilgilərdən fərqlənmişdir. Bu kitabda Platonun kimliyi açıqlanmış, onun ilk dəfə fəlsəfənin üç bölümünü birləşdirdiyi bildirilmişdir. Apuleusa görə fəlsəfənin birinci bölümü kosmologia və antropologiyadan ibarət olan *fizikadır*. İkincisi ilahiyyatdır ki, o *başlanğıclar* (tanrı, maddə, ideya) və *iki mahiyyət* (düşüncə ilə qavranılan və duyğusal) haqqında

bölümləri əhatə edir. Fəlsəfənin üçüncü bölümü olan məntiq haqqında isə əsərdə bilgi verilməmişdir. Apuleusun dünyanın quruluşu haqqında baxışları (kosmologiası) Platotun *"Timeus"* əsərində olduğu kimidir. (16)

Tale (alın yazısı) problemi üzrə Apuleus tanrının *düşündüyünü* (sententia), *tanrı qanunu* (fatum) və *təsadüfü* (fortuna) fərqləndirir (16). Təsadüfə yer verməsi onun tərəfindən azad iradənin tanınmasıdır.

Baş ya da birinci Tanrı duyulmaz və ulaşılmazdır (transsendentaldir). Ona görə dünyanın axarını kiçik tanrılar təmin edir, onlara isə demonlar yardım edirlər. Əxlaq xoşbəxt həyatın əldə edilməsi üçün gərəkli biliklərə yiyələnməkdir. Bu biliklər ərdəmlərin, xeyirlərin, qüsurların nədən ibarət olduğunu əhatə edir. (16)

***"Sokratın tanrısı haqqında"*** (lat. *De Deo Socratis*) Apuleusun daha bir mistikaya yaxın olan fəlsəfi əsəridir (6, 351-374). Burada "tanrı" sözü *"demon"* mənasında işlədilir. Bilindiyi kimi yunanlar insanlarla tanrıların arasında duran varlıqları "demonlar" adlandırırdılar. Onlar kiçik tanrılar, ya da tanrıların balaları kimi də təsəvvür edilirdi. Platona görə insanlar tanrılarla birbaşa bağlantı yarada bilməzlər. Demonların ataları olan ilk Tanrını isə təsəvvür etmək və ona çatmaq mümkün deyildir. Bunu yalnız demonların vasitəsi ilə etmək olar.

İnsan bədənindən imtina etmiş ruhlar yüksək qatlarda demonların birliyini təşkil edirlər. Platona görə demonlar hər bir insanı həyatı boyu müşayiət edir, onun bütün əməllərinin şahidi olur. İnsan öldükdən sonra isə o

demon onu axirətə aparır və ölən mühakimə olunanda onun əməlləri haqqında deyilənləri təsdiq ya da inkar edir[85]. Buna görə də, hər kəs öz demonu ilə bağlantı yolunu axtarmalı, ona itaət etməli və onu duymalıdır. Bunu edərsə onda onun demonu ona yol göstərər, müxtəlif yollarla (məsələn yuxularla) bilgilər verə bilər. Məhz bunu da Sokrat etmiş, müdrikliyin yüksəkliklərinə çata bilmişdir. Son olaraq Apuleus məsləhət görür ki, Sokratın etdiyini hamı etsin və bu yolla tanrılara bənzər həyat sürsün.

Orta Akademiya məktəbinin daha bir tanınmış nümayəndəsi **Berqamalı Qalen** (yun. *Γαληνός*, lat. *Claudius Galenus*, təxminən m. 129 – 200) olmuşdur. O, yunan soylu romalı idi. Həkim kimi tanınmış, Roma əsilzadələrini müalicə edir və imperator Markus Aureliusun saray həkimi kimi tanınmışdır.

Qalen bir çox xəstəliklərin təsnifatını vermiş, onların müalicə yollarını araşdırmış, təbabət və anatomiya üzrə çoxlu bilgilər əldə etmişdir. Onlardan Avropa təbibləri 1300 il ərzində istifadə etmişdir. O, həmçinin f*armakalogiya* elminin əsaslarını qoymuşdur. Qalenin əsərləri müsəlman dünyasında təşəkkül tapmış təbabət elminin də inkişafında əhəmiyyətli rol oynamışdır. Müsəlman təbibləri və düşünürləri onun əsərlərini tərcümə etmiş və öz kitablarında onlara çoxlu istinadlar vermişdirlər.

---

[85] Müqayisə üçün, İslama görə də iki mələk hər bir insanın yaxşı və pis əməllərini yazır. Qiyamət günü onların yazdıqlarının əsasında insan mühakimə ediləcək.

Qalen həm də filosof kimi tanınmışdır. O, Platon məktəbinin nümayəndələrindən biri sayılır. Fəlsəfə üzrə bir sıra kitabların müəllifi olmuş, ancaq onların çoxusu bizim zamanımıza çatmamışdır. Qaleni fəlsəfədə daha çox məntiq, təbiət fəlsəfəsi və ruh haqqında təlim maraqlandırırdı. Çünki, bu sahələr təbabətlə daha çox bağlı idilər. Qalen deyirdi: *"Yaxşı həkim filosof olmalıdır"*. Onun eyni adlı əsəri də olmuşdur. Orada Qalen qeyd edirdi ki, həkimlər xəstəliyin mənşəyini bilmək və onu düzgün müalicə etmək üçün məntiqi yaxşı bilməlidirlər.

*"**Sofizmlər haqqında**"* (lat. *De captionibus*) və *"**Dialektikaya giriş**"* (lat. *Institutio logica*) Qalenin fəlsəfə və məntiq üzrə zamanımıza çatan kitablarıdır. Burada o, Aristotelin davamçısı kimi çıxış etmiş, onun *sillogizm* haqqında təliminə əlavələr etmişdir (24, 215-216). Aristoteldən fərqli olaraq Qalen elmlərdə daha çox empirik metoda üstünlük verirdi. Onun duyğusal təbabəti üç prinsipdən ibarət idi: *birbaşa müşahidə, keçmiş müşahidələr haqqında xatirələr* və *bənzərdən bənzərə induktiv əqli nəticələrin çıxarılması* (18).

Əsas əsərlərindən biri olan ***"Hippokrates və Platonun rəyləri haqqında"*** (lat. *De placitis Hippocratis et Piatonis*) kitabında Qalen iddia edirdi ki, bu filosofların baxışları bir-birinə uyğun olmuşdur. Hətta, ona görə birinci filosof təbabət elminin əsaslarını qoyan *Hippokratesdur* [86] , Platon isə öz fəlsəfəsinin bir çox

[86] **Hippokrates** (yun. Ἱπποκράτης, lat. Hippocrates; təxminən m. ö. 460 – 377) – ən tanınmış qədim yunan həkimi olmuşdur. Onu "təbabətin atası" adlandırmışdırlar. O, həm də təbabətdə əxlaq məsələlərinə toxunaraq həkimin

məqamlarını ondan almışdır. Kitabın I – IV bölümlərində insan və canlıları yönəldən təbiət güclərindən söhbət açılır, V – IX bölümlərində isə duyğular vasitəsi ilə idrak problemlərinə toxunulur. Burada Qalen Platon kimi ruhu üç səviyyədə: *əqli, duyğusal* və *ehtiraslı* olaraq təsvir edirdi. Eyni zamanda o, ehtirasları düşüncənin səhvi kimi təsəvvür edən və buna görə duyğusal və ehtiraslı ruhların varlığını inkar edən stoaçıları tənqid edirdi.

***"Bədən üzvlərin vəzifəsi haqqında"*** (yun. *Περὶ χρείαςμορίων*) əsərində Qalen canlıların bədənində bütün üzvlərin yetkin olduğunu vurğulayırdı. Onların quruluşu və öz vəzifələrini tam olaraq icra etməsi onu deməyə əsas verir ki, bunlar özbaşına yaranıb fəaliyyət göstərə bilməz. Deməli, bunların bir yaradıcısı vardır, onu da Qalen *Demiurqos* adlandırmış və onu təbiətlə eyniləşdirmişdir (19, 538-539).

Qalenin fikrincə keçmişin filosofları dərin elm qoyub getmiş, ancaq onların ardıcılları onları düzgün başa düşməmişdirlər. Ona görə də, Qalen Platona üstünlük versə də, özünü heç bir məktəbin ardıcılı saymamışdır. Son olaraq Qalen öz fəlsəfi fikirlərini ***"Mənim baxışlarım haqqında"*** (yun. *Περὶ τῶν ἰδίων δοξάντων*) kitabında toplamışdır. Ancaq, zamanımıza onun yalnız bəzi fraqmentləri gəlib çatmışdır. (18)

**Tirli Maksim** (*Μάξιμος Τύριος*, lat. *Cassius Maximus Tyrius;* II-ci yüzillik) də platonik məktəbin nümayəndəsi sayılır. O, Romada istedadlı natiq kimi tanınmışdır. Onun

davranış qaydalarına dair fikirlərini açıqlamışdır. "Hippokrat andı"nda hər bir həkimin riayət edəcəyi əxlaqi məsələlər öz əksini tapmışdır.

qırxa qədər fəlsəfi nitqləri zamanımıza gəlib çatmışdır. Onlar əsasən dini-fəlfəsi və əxlaqi məzmunludur. ***"Platona görə Tanrı nədir"***, ***"Sokratın demonu"***, ***"Tanrıya yalvarmağın mənası var, ya yox?"***, ***"Hər şey taleyə tabedirsə, iradə azadlığı var, ya yox?"*** adlanan fəlsəfi nitqləri daha çox maraq kəsb edir. Burada din fəlsəfəsinin əsas problemləri olan *Tanrının varlığı*, *şərin təbiəti*, *azad iradə* və *tale* problemlərinə diqqət yetirilir. Bütün bu problemlər sonralar, yəni ortaəsr fəlsəfəsinin ən mübahisəli məsələlərinə çevrilmişdir.

"Tanrıya yalvarmağın mənası var, ya yox?" nitqində Maksim demişdir ki, Tanrıdan nəsə istəyən insan istədiyi şeyə layiq olmalıdır. Əgər layiqdirsə, onda dua etməyin mənası yoxdur, çünki səbəb-nəticə qanununa görə istədiyi şeyi duasız da əldə edər. Layiq deyilsə, duaları etsə belə heç nə almaz. Heç olmasa ona görə ki, layiq olmayana nəsə vermək ədalətsizlikdir. Tanrı isə ədalətsiz ola bilməz. Dua etmək heç də istədiyin şeyə layiq olmaq demək deyil. Layiq olan təvazökar olar, yalvarmaqla heç kəsə əziyyət verməz. Əziyyət verən və həyasızlıq edən layiq olmayandır. Ona görə də, dua etməyən layiq olan adam dua edən layiq olmayandan yaxşıdır. Məsələn, Tanrı sərkərdə olsaydı və bir qul ondan əskər olmaq istəyində olduğunu bildirsəydi, məgər o ona istədiyini verərdimi? Ordu yaşasın deyə əskərliyə layiq olanı əskər edər, qulu isə qul yerində qoyardı, hətta o ona nə qədər yalvarsaydı belə. Beləliklə, yalvarmağın mənası yoxdur. (25, 196-204)

Daha sonra Maksim Platona istinad edərək yazmışdır ki, tanrılar insanlara tale yazmışdırlarsa, onda

onlara dua etməyin mənası yoxdur. Çünki, insan istəyi ilə tale dəyişməz. Hər şey *ümumi* və *fərdidən* ibarətdir. İnsan da kainatın tamlığında bir hissəcikdir. Tanrı isə taleyi *ümumi* üçün yazıbsa, *fərd* olan ayrıca insanın duasını təmin etməz. Çünki, fərdə görə o tamlığı pozmaz. Tanrı hər fərdin istədiyini təmin etsə, onda tamlıq pozular. Bir yerdə zəlzələdirsə, onun sakinlərinin duaları ilə ona son qoyulmaz, çünki o zəlzələ kainat tamlığının bir hissəsidir.

Əlbəttə ki, taledən başqa təsadüf də vardır. Ancaq, təsadüfün düzəni və düşüncəsi yoxdur. Çünki, öz ehtiraslarını təmin etmək üçün hökmdarlıq edən kralın düşünülmüş siyasəti yoxdursa, hər şey hərcmərclikdədirsə, onda kraldan nəyi diləmək olar? Beləliklə, təsadüf olsa belə tanrılara dua etməyin mənası yoxdur.

Dualar etməkdənsə insan öz işini möhkəm tutmalı, bacarıqlı olmalı, öz üzərində işləməlidir ki, istədiyinə layiq olsun. Belə olarsa, onda duasız da istənilən şeyi əldə edə bilər.

Maksimə görə Sokrat və Platon kimi filosoflar tanrılara ona görə müraciət etmirdilər ki, özləri üçün nəsə əldə etsinlər. Onların istəyi yalnız ərdəmli ruh, sakit həyat və ləyaqətli ölüm idi. (25, 196-204)

Antik dünyanın ən tanınmış yazıçı və filosoflarından biri Platon məktəbinin davamçısı olan **Plutarx** (yun. *Πλούταρχος*, təxminən m. 45-127) olmuşdur. O, Yunanıstanın Beotiya vilayətində yerləşən Heroneyadan idi. Plutarx gənc yaşlarından müxtəlif elmləri və fəlsəfəni öyrənmiş, platonçu filosof Ammoniusun öyrəncisi

olmuşdur. Sonralar isə o, öz evində gəncləri ətrafına yığaraq onlarla fəlsəfi dərslər keçirmiş. O, həmçinin başqa yerlərə səfərlər etmiş, tez-tez Romada olmuş, imperiyanın yüksək zümrələri arasında tanınmışdır. İmperator *Traianus* ona himayəçilik etmişdir. Daha sonra isə Plutarx Delfada yerləşən Apollon məbədinin kahini olmuşdur.

Plutarxın öyrəncilərinə görə o iki yüzdən çox kitabın müəllifi olmuşdur. Onlardan bir çoxu bizim zamanımıza gəlib çatmışdır. Müxtəlif tanınmış insanların bioqrafiyalarını qələmə aldığına görə həmin əsərlərin bəzilərini ***"Bioqrafik"***; digərləri isə daha çox əxlaq dair olduqlarına görə **"Əxlaqi"** (moralia) adlandırırlar. Əsərlərinin çoxluğuna baxmayaraq Plutarx orijinal müəllif olmamış, fəlsəfəyə yeniliklər gətirməmişdir. O, sadəcə keçmişdə yaşayan filosofların fikirlərini qələmə almışdır. Buna görə də elmə misilsiz xidmət göstərmişdir, çünki antik dünyanın dünyagörüşü bir çox hallarda onun əsərləri vasitəsi ilə günümüzə gəlib çatmışdır.

Plutarxın əsərləri arasında çoxlu fəlsəfi və əxlaqi mövzulara həsr edilmiş kiçik yazıları da vardır. Onlardan biri ***"Platon məsələləri"*** (yun. *Πλατωνικά Ζητήματα*) adlanır. Orada Plutarx Platonun təlimini özünəməxsus şəkildə vermişdir. Həmin əsərdə kosmos iki elementlərdən ibarət təsəvvür edilir: şər olan ruhdan və maddədən. Maddəni Tanrı yaratmamışdır, ancaq onu sonradan formalaşdırmış, sonra isə ondan bütün mövcudiyyəti yaratmışdır. Ruh da Tanrı tərəfindən yaradılmamış, o hər zaman mövcud olmuşdur. Kosmos

da yaranmış deyil, o diridir: bir tərəfdən materiyaya, digər tərəfdən isə Tanrıya bağlıdır. (30, 11-12)

Beləliklə, Plutarxa görə yaradıcı (ikinci) tanrı olan *Demiurqos* dünyanı yaradanda ilk başlanğıc (substansiya) kimi maddəni deyil, o maddənin şər olan ruhla qarışığını yaratmışdır. Deməli, *"şər ruh"* da əbədi olaraq hər zaman olmuşdur. Buna görə də hər şey hərəkətdədir. Ancaq. Plutarxın Platon fəlsəfəsini bu kimi yorumları başqa platonçular tərəfindən qəbul edilməmişdir. Bu iddia daha çox zərdüştiliyin şər tanrısının varlığına bənzərdir. Buna baxmayaraq "şər ruhu" inkar etsələr belə, platonçuların bir çoxu maddənin özünü şərlə eyniləşdirirdilər.

Plutarx hesab edirdi ki, dünya ilə insan ruhu arasında bağlantı vardır. Göylərdə *qünəş-ay-yer* iyerarxiası insanda *düşüncə-ruh-bədən* üçlüyündə əks olunur. Günəş tanrıdır, işıqdır, əqldir; yer isə zülmətdir, ruhsuzdur. Bunların arasında ay yerləşir, ona görə də onun təbiəti ikilidir. Bir tərəfi günəşə yönəlir deyə, tanrıya bənzərdir. Başqa tərəfi isə yerə yönəlir və ona görə qaranlıqla doludur.

Maraqlısı budur ki, Plutarx yerin kainatın mərkəzində durmasını inkar edirdi; onun fikrində kainat sonsuzdur və ona görə də onun mərkəzi ola bilməz (11). Həmçinin o, Samoslu Aristarxusun *"yer öz oxu ətrafında fırlanır"* fikrini də təsdiqləmişdir (11, 20-21) . Bu fikirlər bizim zamanımızda təsdiqini tapmışdır.

Plutarx həm də insanın bədənini, düşüncəsini və ruhunu fərqləndirirdi. Onun fikrincə, düşüncənin ruhun tərkibində olmasını iddia edənlər yanılırlar. Ruhla

bədənin qarışması ehtirasların yaranmasına gətirib çıxarır. Bu isə ehtiras və həzz alma duyğularıdır. Ruhun düşüncə ilə birləşməsi isə təfəkkür yaradır. Bu da ərdəmin, xeyrin və qüsurların səbəbidir. Ruh öz varlığını düşüncədən alır və sonra onu bədənə verir. Düşüncənin mənşəyi günəş, ruhların ay, bədənlərin isə yerdir. İnsan öldükdə onun ruhu ondan ayrılıb aya qalxır. Orada onun *ikinci ölümü* baş verir və ruhdan düşüncə ayrılır. Demonlar da ayda yaşayır və oradan yerə düşür. (11, 28-30)

Plutarx bir sıra əxlaqla bağlı məsələlərə də münasibət bildirmişdir. O, stoaçıları öz dediklərinə əməl etməməsində suçlamışdır. Onlar siyasətdən çox danışır, ancaq əslində ondan çəkinib Epikürçular kimi həzzlə dolu həyat sürürlər; ya da siyasətə gəlib öz əqidələrinə zidd işlər görürlər (27, 130). Burada nəzəriyyənin təcrübə ilə uyğunlaşmasının zəruriliyi vurğulanır.

Plutarx hesab edirdi ki, ərdəmə insanları öyrətmək olar, ona görə də onun yazılarının bir çoxu nəsihət xarakterlidir. Tanrılara baxışlarında o mövhumatı qınamış, onları mənəvi bir obrazlar kimi qəbul etmiş, qədim dinlərdəki tanrıların qısqanc və kinayəli olması, qisas alması, xırdaçılıq etməsi kimi sifətlərini rədd etmişdir.

Plutarxa görə cəmiyyətin əxlaqını dəyişmək çətindir. Bunu etmək istəyənin özünün də yüksək əxlaqı və nüfuzu olmalıdır. Ona görə də hər bir insan özünə tənqidi yanaşmalı, ilk olaraq öz danışığı və davranışına fikir verməlidir. Bizim hamımızın teatrda artistlərə bənzər olduğumuzu yaddan çıxartmamalıyıq. Ona görə də, bizi

hamı görür və dəyər verir. Əgər insan bütün qüsurlarından qurtarmaq üçün çətinlik çəkirsə, onda heç olmasa başqalarının gözlərinə görünən qüsurlardan qurtarmalıdır. (12, 161-162)

Plutarx insanlara qarşı dost münasibət bəsləməyin tərəfdarı idi. O qeyd edirdi ki, insanların halı ilə maraqlanmaq lazımdır ki, onlara kömək edə biləsən. Başqa insanlara qarşı ədəbli, xeyirli və mərhəmətli olmaq lazımdır. Bu hisslər heyvanlara və başqa canlılara da bəslənilməlidir. (12, 283-285)

M. ö. I yüzillikdən sonra antik fəlsəfəyə *Yəhudi*, sonra isə *Xristian* dinlərinin təsiri artmağa başlamışdır. Antik filosoflar bir tərəfdən öz fəlsəfələrində monoteizmin bəzi məqamlarından istifadə etmiş, digər tərəfdən isə onu tənqid etməklə məşğul olmuşdurlar.

Platon məktəbinə yaxın olan yəhudi soylu **İskəndəriyyəli Filon** (yun. *Φίλων τοῦ 'Αλεξανδρείας*, lat. *Philon Alexandreus*; təxminən m. ö. 25 – m. 50) antik fəlsəfi ənənələrini Tövratın təlimi ilə uyğunlaşdırmaq yolunu tutmuşdur. Ancaq, bir filosof kimi Tövratda müəyyən qədər ziddiyyətli məqamların olduğunu görərək onları məcazi mənada antik fəlsəfi kateqoriyalardan istifadə etməklə yorumlamışdır. Onun fikrincə Tövratın *gizli* (batini) mənaları vardır və onlar açılmadan bu kitabı düzgün anlamaq mümkün deyildir (13, 170-171).

Əhdi-Ətiqin Tanrısı hər bir çoxluğun üzərində yüksəlmiş mütləq *monadadır* (varlığın bölünməz vahididir). Tanrı elə bir vahiddir ki, onun yanında başqa vahidlər yoxdur, o kamil və bölünməzdir (13, 81-84).

Tanrının həqiqi mahiyyətini düşüncə ilə qavramaq mümkün deyildir. İnsanlar onun varlığı haqqında bilik əldə edə bilərlər, ancaq onun nə olduğunu bilə bilməzlər.

İnsan dili kamil deyil və onun vasitəsi ilə Tanrının bütün özəlliklərini dilə gətirmək mümkün deyildir. Ona görə də demək olar ki, Tanrının heç bir şeyə ehtiyacı yoxdur, O bənzərsiz, bölünməz və dəyişməzdir və s. Beləliklə, hər şeyi inkar edərək elə bir nəticəyə gəlirdi ki, Tanrı haqqında heç bir şey söyləmək olmaz. Bu hala çatanlar öz "Mən"inin xaricinə çıxaraq, ekstaz halına daxil olur, sonra isə daha da yüksək mistik məqamlara qədəm qoyur. Bu məqama çatan adam Tanrı ilə görüşür, ancaq onu qavraya bilmir, çünki onun nuru insanın düşüncə imkanını bağlayır. Bu hal içki içmədən sərxoş olmağa bənzərdir. (10)

Filon fəlsəfəsində Tanrı yaratdığı dünyadan daha ucadır. Ona görə o, yaradılışı *Loqos* vasitəsi ilə həyata keçirir. Loqos Tanrının sözüdür, onun sifətidir. O əvvəllər Tanrının özündə olub, sonra isə ondan ayrılaraq sərbəstlik qazanıb. Antik dünyaya məlum olan Loqosu (Sözü) Filon Tövratın birinci kitabında *"Tanrı dedi"* (Yaradılış 1: 3) sözlərində görürdü. Loqos haqqında Filonun fikirləri antik fəlsəfi irsinin yəhudi ənənəsi ilə qarışmasından irəli gəlmişdir.

Yunan fəlsəfəsində olduğu kimi Loqos dünya düzəni, gözəllik və harmoniyadır. Ondan hər şeyin təbii əlaqələri və forma müəyyənliyi yaranır. Eyni zamanda, Loqos ideyaların toplusudur. Dünya bu ideyaların obrazı (qəlibi) ilə Tanrı tərəfindən yaradılmışdır.

İnsan torpaqdan Tanrının obrazına bənzər yaradılıb. Onun düşüncəsi də ilahi Loqosa bənzərdir. Yəni kosmos və insanda olan loqoslar mahiyyətcə birdir və birlik təşkil edirlər. Belə olan təqdirdə, insanın məntiqi baxımından çevrənin qavranılması və onun barəsində düşüncələr ortaya qoyması yaradılmışdan Tanrıya doğru atılan addımlardır. Dünyanın varlığı və gözəlliyi insanı Tanrı varlığının anlamasına gətirməlidir. Beləliklə, məntiqi fikir İlahi ilham kimi də qəbul edilə bilər.

Buna görə də, Filona görə yunan fəlsəfəsi və ilahi vəhy olan Əhdi-Ətiq bir-birinə zidd deyildirlər, çünki hər ikisi Loqosun məhsuludur. Əhdi-Ətiqdə Loqos özünü peyğəmbərlərə vəhy, filosoflara isə məntiq və düşüncə vasitəsi ilə açmışdır. Ona görə də, Musa və Platonun müdrikliyinin mənbəyi birdir. Ancaq buna baxmayaraq, Platon və Pifaqor təkcə öz düşüncələri ilə Tanrının bir olması fikrinə gəlməmişdirlər. Filonun fikrincə onlar Əhdi-Ətiqlə tanış idilər. Bu fikri sonrakı xristianlar da təkrarlamışdırlar.

Filon Loqosu *"Tanrının oğlu"*, *"Səmavi Adəm"* və başqa adlarla adlandırırdı. Bu adlar onun Tanrı ilə dünya arasında bir vasitəçi olduğuna işarə edir.

Loqosa bu cür baxış Filona Müqəddəs Kitabı alleqorik yorumlara məruz qoyma imkanını yaratmış, onu fəlsəfələşdirmişdir. Bu baxımdan onu ortaəsr ilahiyyatının yaradıcısı adlandırmaq mümkündür.

Tədqiqatçılara görə sonralar xristianlar Filonun Loqosunu simalaşdırıb İsa ilə eyniləşdirmişlər. Bu ideya *Yəhya* İncilində öz əksini tapmışdır. Xristianlıqda olan ***Ata***

(Tanrı) – ***Oğul*** (Loqos) münasibətləri Filonun fəlsəfəsindən başlayır.

Daha bir platonçuluğa yaxın olan filosof **Selsus** (yun. *Κέλσον,* lat. *Celsus,* Iiyü zillik) Xristianlığın Romada yayılması dövründə yaşamış və onun tənqidçilərindən biri olmuşdur. Onun haqqında zamanımıza çox az bilgi gəlib çatmışdır. Məlumdur ki, o imperator *Markus Aureliusun* dostu idi.

Selsus ***"Doğru söz"*** (yun. *Λόγος ἀληθής*) adlı kitabın müəllifi olmuşdur. Bu əsərin orijinal mətni zamanımıza çatmamışdır. Ancaq, Selsusla çəkişməyə girən xristian ilahiyyatçısı *Origen* onun fikirlərinə rəddiyələr yazaraq "Doğru sözün" bir çox fraqmentlərini özünün ***"Selsusa qarşı"*** (lat. *Contra Celsum*) əsərində vermişdir.

Selsus dini təlimləri öz düşüncəsinin dəlilləri baxımından təhlil edərək belə bir nəticəyə gəlmişdir ki, Xristianlıq heç də başqa dinlərdən fərqlənmir. Çünki, başqaları kimi xristianlar da öz ehkamlarına düşünmədən inanmağa çağırırlar (29, 7-8). Onun fikrincə, İsa tanrı ola bilməz, çünki Tanrının xüsusiyyətləri başqadır. İsa tanrıdırsa, o yerə enə bilməz, çünki belə olarsa öz taxtını tərk etmiş olardı və dünya düzəni dağılardı. Daha sonra Selsus yazırdı ki, İsa *Loqos* (Tanrı sözü, kəlamı) da ola bilməz, çünki Loqos insan ola bilməz, çünki o insanlıqdan daha uca olan *Tanrı sözüdür* (29, 45-46). Onun fikrincə Xristianlığın bütpərəstliyi inkar etməsi müstəsna bir şey deyildir. Çünki, doğrudan da insanların düzəltdiyi təsvirlər və heykəllər heç də tanrılar deyildirlər. Hələ xristianlardan çox-çox qabaq Heraklit kimi filosoflar

demişdilər ki, bütlərə tapınmaq divarlarla danışmağa bənzərdir. Son olaraq Selsus hesab etmişdir ki, Xristianlıq dövlət üçün təhlükədir.

**Smirnalı Teon** (yun. *Θέων 6 Σμυρναῖος,* m. II yüzilliyin birinci yarısı) da orta dövrün akademiklərindən (platonçularından) biri olmuşdur. O, ***"Platonun əsərlərini oxuyarkən riyazi predmetlərin icmalı"*** (yun. *Τα κατά μαθηματικόν χρήσιμα εις την Πλάτωνος ανάγνωσιν*) adlı əsərin müəllifi idi. Həmin kitaba latın dilində qısaldılmış olaraq *"Expositio"* deyilir. Bu kitab antik dövrün məktəblərində tədris edilmək üçün yazılmış və orada riyaziyyat, musiqi nəzəriyyəsi və astronomiya elmlərindən bilgilər verilmişdir. Mətni yazarkən Teon, keçmiş alimlərdən çoxlu istinadlar gətirmişdir.

Əsərin riyazi bölümündə Teon "bir" və "vahid" anlayışlarının fərqləndirilməsini zəruri bilirdi, çünki hər bir rəqəm "birlərin" cəmidir. "Vahid" isə hər bir çoxluq çeşidlərindən aralanmış təklikdə olan ideal başlanğıcdır ki, onu yalnız düşüncə ilə qavramaq mümkündür və onun bölünməsi imkansızdır. Daha sonra Teon tərəfindən rəqəmlərin tək və cüt, sadə və mürəkkəb və s. növləri araşdırılmışdır. (15, 12-14)

Əsərin musiqi bölümündə nəğmələrdə rəqəmlər ahənginə riayət edilməsinin vacibliyi vurğulanmış və bunun qaydaları açıqlanmışdır. Burada musiqi nəzəriyyəsinin əsas elementləri də araşdırılmışdır. (15, 32-43)

Astronomiya bölümündə Teon yerin kürə olmasına dair çoxlu dəlillər gətirmiş, planetlər və göy cisimləri

haqqında öz zamanının təsəvvürlərini açıqlamışdır. Bu təsəvvürlər yuxarıda sözü keçən başqa yunan filosofların baxışlarına bənzər olmuşdur. Belə ki, Teon yerin kainatın mərkəzində olmasını iddia edirdi. Onun fikrincə planet və ulduzların çoxu hərəkət etmir. Bəziləri isə, günəş və ay kimi, yerin ətrafında fırlanır. Burada həm də günəşin və ayın tutulması kimi təbiət olaylarına da münasibət bildirilmişdir. (15, 81 və 89)

**Mövzu ilə əlaqəli suallar:**

1. Akademik məktəbin tarixi kimin adı ilə bağlıdır və hansı dövrlərə bölünür?
2. Qədim platonçular əsasən hansı problemlərə diqqət yetirirdilər?
3. Speusippus Vahid və çoxluq haqqında hansı fikirləri irəli sürmüşdür?
4. Speusippus çevrənin dərk edilməsində düşüncə ilə duyğu arasındakı ziddiyyəti ortalıqdan necə qaldırmaq istəmişdir?
5. Kalkedonlu Ksenokratesə görə fəlsəfə hansı bölümlərdən ibarətdir?
6. Kalkedonlu Ksenokratesə görə neçə çür substansiya vardır, onlar hansılardır, nə ilə səciyyələnirlər?
7. Kalkedonlu Ksenokrates Vahidi, Əqli və Ruhu necə təsəvvür edirdi?
8. Kalkedonlu Ksenokratesə görə şərin mənşəyi və insan həyatının məqsədi nədir?

10. Polemon və Kratesin fəaliyyəti hansı sahələri əhatə edirdi?

11. Heraklidesin atomlar və planetlərin hərəkəti haqqında fikirləri necə olub?

12. Eudoksus ideyaları necə təsəvvür edirdi?

13. Arkesilausun fəlsəfəsi nə ilə səciyyələnir?

14. Karneadesin şübhəçiliyi nəyə əsaslanırdı?

15. Karneadesə görə idrakın hansı pillələri vardır?

16. Orta platonçuluğun səciyyəvi xüsusiyyətləri nədədir?

17. Orta platonçuların fəlsəfəsində əxlaq və fizika ilə bağlı məsələlərin özəllikləri nədir?

18. Askalonlu Antioxus və İskəndəriyyəli Eudorus platonçuluğu hansı istiqamətə yönəltmişdirlər?

19. Alkinousa görə filosofun hansı keyfiyyətləri olmalıdır?

20. Alkinousa görə fəlsəfənin hansı bölümləri vardır?

21. Alkinousa görə təfəkkürün hansı səviyyələri vardır?

22. Alkinousun riyaziyyat və dialektika haqqında fikirləri necə olub?

23. Alkinous dünyanın yaranmasını və quruluşunu necə təsəvvür edirdi?

24. Alkinous fəlsəfəsində Tanrı, Əql və Ruh anlayışlarını necə təsəvvür edirdi?

25. Alkinousa görə insan ruhu hansı hissələrdən ibarətdir?

26. Alkinousa görə xoşbəxtliyin şərti nədir?

27. Apuleius Lusiusun "Metamorfozalar" əsərində nədən bəhs olunur?

28. Apuleiusa görə fəlsəfə hansı bölümlərdən ibarətdir?

29. Apuleius tanrılar, tale və əxlaq haqqında hansı fikirlər irəli sürmüşdür?

30. Qalen təbabət elmində hansı uğurlar qazanmış, onu fəlsəfə ilə necə uzlaşdırmışdır?

31. Qalen ruh haqqında nə düşünürdü?

32. Tirli Maksim Tanrının varlığı, şərin təbiəti, azad iradə və tale haqqında hansı fikirlərlə çıxış etmişdir?

33. Tirli Maksim tanrılara yalvarış haqqında və düşünürdü?

34. Heroneyalı Plutarxın yaradıcılığının əhəmiyyəti nədə olmuşdur, onun əsərləri necə təsnif olunur?

35. Plutarx kosmos, ruh və yaradılış haqqında hansı fikirlərlə çıxış etmişdir?

36. Plutarxa görə dünyanı kim yaratmışdır?

37. Plutarxa görə dünyanın və insanın quruluşları arasında hansı bağlantı vardır?

38. Plutarxa görə insanın bədəni, düşüncəsi və ruhu hansı münasibətlərdədirlər?

39. Plutarx tanrılar haqqında nə düşünmüşdür?

40. Plutarx əxlaq haqqında nə düşünmüşdür?

41. İskəndəriyyəli Filonun fəlsəfəsinin məqsədi nədə idi?

42. Filonun Tanrı haqqında fikirləri nədən ibarət idi?

43. Filona görə insan Tanrıya necə qovuşa bilər?

44. Filonun fəlsəfəsində “Loqos” nədir?

45. Filona görə yunan fəlsəfəsinin və ilahi vəhy olan Əhdi-Ətiqin mənşəyi nədir?

46. Selsus xristianlara qarşı hansı dəlillərlə çıxış etmişdir?

47. Smirnalı Teonun fəlsəfi fikirləri hansı problemləri əhatə edir?

**Ədəbiyyat:**

1. Alcinous. The Handbook of Platonizm / Translated by J. Dillon. Oxford University Press, 2002.

2. Aristotle. Metaphysics / Translated by T. Taylor. London: Printed for the author by Davis, Wilks, and Taylor, 1801.

3. Aristotle, The Nicomachean Ethics / Translated by F. H. Reters, M. A. London: Kegan Paul, Trench, Truebner & Co., 1893.

4. Diogenes Laertius. Lives and Opinions of Eminent Philosophers / Translated by C. D. Yonge. London: Georg Bell & Sons, 1915.

5. Eduard Zeller, Outlines of the History of Greek Philosophy. London: Longmans, Green, and Co, 1886.

6. God of Socrates // The Works of Apuleius. London: G. Bell and Sons, LTD. 1914.

7. Heraclides on the Rotation of the Earth // Heraclides of Pontus. Discussion. Vol. 15 / Edited by William W. Fortenbaugh, Elizabeth Pender. New Jersey: Transaction Publishers, 2009.

8. Marcus Tullius Cicero. On the Nature of the Gods / Translated by F. Brooks. London: Methuen, 1896.

9. Metamorphoses, or Golden Ass of Apuleius // The Works of Apuleius / Translated by Thomas Taylor. London: G. Bell and Sons, LTD. 1914.

10. On Abraham (XV – XXIV) // Philo. On Abraham. On Joseph. On Moses / Translated by F. H. Colson. Harvard University Press, 1935.

11. Plutarkh. On the Face which Appears on the Orb of the Moon / Translated by A. O Prickard. London: Simpkin and Co., 1911.

12. Plitarch's Moralia. Vol. 10 / Translation by H. N. Fowler. London: William Heinmann LTD, 1936.

13. The Allegories of the Sacred text // The Works of Philo Judaeus. The contemporary of Josephus / Translated by Charles Duke Yonge. London: George Bell & Sons, 1890.

14. The Miscellanies; or, Stromata // Ante-Nicene. Christian Library. The Writings of the Fathers Down to A. D. 325. Vol. 4. Clement of Alexandria. Vol 1. Edinburgh: T. and T. Clarc, 1867.

15. Theon of Smyrna. Mathematics Useful for the Understanding of Plato. San Diego: Wizards Bockshelf, 1979.

16. Апулей Луций // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция, 2008.

17. Асмус В.Ф. Античная философия. М.: Высшая школа, 1976.

18. Гален // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция, 2008.

19. Гален К. О назначении частей человеческого тела / Перевод С. П. Кондратьева. М.: Медицина, 1971.

20. Гераклид Понтийский // Новая философская энциклопедия. В 4 тт. М.: Мысль. 2001.

21. Две книги против логиков // Секст Эмпирик. Сочинения в двух томах / Перевод А. Ф. Лосева. Том 1. М.: Мысль, 1976.

22. Карнеад // Философская Энциклопедия. В 5-х т. М.: Советская энциклопедия. 1960-1970.

23. Лосев А. Ф. История античной эстетики. Т 3. М.: АСТ; Харьков: Фолио, 2000.

24. Маковельский А. О. История логики. М.: Наука, 1967.

25. Максим Тирский. О том, следует ли молиться / Перевод И. И. Ковалевой. // Античность в контексте современности. М.: МГУ, 1990.

26. Марк Туллий Цицерон. О пределах блага и зла. Парадоксы стоиков / Перевод Н. А. Федорова. М.: Российский государственный гуманитарный университет, 2000.

27. О противоречиях стоиков // Плутарх. Сочинения / Перевод Т. Г. Сидаша. СПб.: Санкт-Петербургский университет, 2008.

28. О рождении души по Тимею // Плутарх. Сочинения / Перевод Т. Г. Сидаша. СПб.: Санкт-Петербургский университет, 2008.

29. Ориген. Против Цельса, апология христианства Оригена, учителя александрийского / Перевод Л. И. Писарева. Одесса: Экуменический центр апостола Павла, 1996.

30. Платоновские вопросы // Плутарх. Сочинения / Перевод Т. Г. Сидаша. СПб.: Санкт-Петербургский университет, 2008.

## 2.7. Ellinizm və Roma dövrlərində dini-fəlsəfi təlimlər

Qədim romalıların dünyagörüşünün əsasını politeizm (çoxtanrılıq) təşkil edirdi. Onlar inanırdılar ki hər bir şeyin, eləcə də təbiət hadisələrinin tanrıları və ruhları vardır. Bundan başqa, qədim Romada ölmüş əcdadların ruhlarına pərəstiş kultu və magiya da yayılmışdı. Romalılar ovsun, sehr və cadulara öyrəncəli idilər. Tanrılara tapınma rituallarını, cadugərliyi və başqa adətləri kahinlər icra edirdilər. *Avqurlar* adlanan kahinlər gələcəkdə nəyin baş verəcəyini quşların uçuşuna görə müəyyənləşdirirdilər. *Qaruspik* adlanan kahinlər isə bunu qurbanlıq heyvanların daxili orqanları ilə yerinə yetirirdilər.

Kahinlər yaşadıqları cəmiyyətlərdə nüfuzlu təbəqənin üzvləri hesab olunurdular. Ən tanınmış və hörmətli kahinlər ***pontifekslər*** (lat. *pontifex*) heyətini təşkil edirdilər. Bu heyətin başçısı Baş kahin vəzifəsini tuturdu. Günümüzdə də Roma Papasının adlarından biri də məhz pontifeksdir.

İlkin dövrlərdə romalılar tanrıları təsvir etmir, onları yalnız xüsusi rəmzlərlə (simvollarla) ifadə edirdilər. Məsələn, savaş tanrısı Marsın simvolu nizə, işıq və ildırımın simvolu olan Yupiterin rəmzi isə ox idi. Sonrakı dövrlərdə yunan mədəniyyətinin təsiri ilə Romada tanrıların *panteonu* (tanrılar toplumu) yaranmışdır. Yunan baş tanrısı Zeus'la eyniləşdirilən Yupiter panteonun başında dururdu. Başqa Roma tanrıları da yunan tanrıları ilə: Hera Yuno (Yunona) ilə, Minerva Afina ilə, Venus (Venera) isə Afrodita ilə eyniləşdirilmişdir.

M. ö. IV yüzillikdən başlayaraq Romada yunan dili, adətləri və mədəniyyəti yayılmağa başlamışdır. Bununla da inkişaf etmiş yunan dili, mədəniyyəti, elmi, fəlsəfəsi Romanın ənənəvi latın dili və mədəniyyəti ilə qarışmışdır.

Digər tərəfdən romalıların istila siyasəti genişləndikcə Romada digər mədəniyyətlərin, xüsusi ilə Şərq mədəniyyətinin və dinlərinin də təsiri güclənmişdir. Məsələn, orada iranlıların Mitra, misirlilərin İsis (İsida) və Serapis, finikiyalıların Astarta tanrılarına ibadət edilirdi. Eyni zamanda, Fələstinin istilasından sonra romalılar *yəhudi monoteizmi* ilə də tanış olmuşdurlar.

Müxtəlif dinlərin axını ilə birlikdə Doğudan Romaya çoxlu ovsunçular, sehrbazlar, cadugərlər gəlmiş və orada fəaliyyət göstərmişdirlər. Bunun da nəticəsində əhali arasında müxtəlif dinlər, inanclar, mövhumatlar, mistik təlimlər daha geniş miqyasda yayılmışdır. Bu durumla əlaqədar zamanla Roma imperiyasında həm siyasi-iqtisadi, həm də mənəvi böhran dərinləşmişdir. Belə ki, dinlərin və inancların çoxluğu cəmiyyəti parçalamışdır.

### 2.7.1. Hermetizm

Hermetizm ellinizm dövründə yaranmış dini-fəlsəfi cərəyan olmuşdur. Neoplatonizmin cərəyanı olmasa da, onun yaranmasına təkan verən təlimlərdən biri idi. Bir çox yeni-platonçu filosofların astrologiya, mistika, teurgiya[87], cadugərliyə meylləri də Hermetizmdən qaynaqlanırdı.

Bu təlimin adı Misir tanrısı **Totla** bağlıdır (3, 158). Yunanlar ona **Hermes** və ya **Üç Kərə Ulu Hermes** (yun. *Ἑρμῆς ὁ Τρισμέγιστος*, lat. *Hermes Trismegistus*) deyirdilər. Mistik mətnə görə, bu ad dünyanın mistik yönlərini özündə ifadə edir (1, 863-875). Romada Hermes *Merkurius* tanrısı ilə eyniləşdirilməsinə görə, ona **Ulu Merkurius** (lat. *Mercurius ter Maximus*) deyirdilər. Onun təlimi Yunan, eləcə də Şərq fəlsəfəsi və inanclarının qarışığından (sinkretizmdən) ibarət idi. Hermetizm yeni-platonçuluq fəlsəfəsinin yaranmasına, daha sonra isə orta əsrlər mədəniyyətinə, gələcəkdə isə ortaya çıxan mistik təlimlərin yaranmasına təsir etmişdir.

Hermetizmin yazılı qaynaqları ***"Korpus Hermetikum"*** (lat. *Corpus Hermeticum*) adlanır. O tanrı Hermesin apardığı dialoqlar şəklində yazılmış 16 kitabdan ibarətdir. Onları gizli, yalnız yüksək biliklərə (loqosa) çatanlar üçün ünvanlanmış ədəbiyyat hesab edirdilər. Bu kitablarda tanrı Hermes bütün dünyanın sirlərini açır.

---

[87] **Teurgiya** (yun. *Θεός*-tanrı + *ὄργια*-mərasim) – tanrıların rəğbətini qazanmaq üçün onların iradəsinə təsir etmək sənətidir. Magiyanın bir növüdür.

Korpus Hermetikum m. ö. III və ya II yüzilliklərdə yazılmış və *münəccimlik, okkultizm, cadugərlik, fəlsəfə* və *mistika* sahələrini əhatə etmişdir. Ancaq bir çox araşdırmaçılar hesab edirlər ki, bu kitablar artıq Xristian dövrünün ilk yüzilliklərində (m. 100 – 300) hansısa qədim rəvayətlərin əsasında yazılmışdır (2, 3). Çünki, qədim yunan ədib və filosofları onlara istinad etməmişdirlər. Hermetizmin nisbətən sistemli dünyagörüşü o kitablardan biri olan ***"Poemandres"*** (yun. *Ποιμάνδρης*) əsərində verilmişdir (5, 502-511).

Orada hər şeyin başlanğıcında **Ata Tanrı** (*Əql*) durmuşdur. O zülmətdən çıxan maddi təbiətdən öncə var olmuş, sonra Əqldən *emanasiya* (işıqsaçma) baş vermiş və onun **Söz** (*Kəlam-Loqos*) adı ilə tanınan **Oğlu** yaranmışdır. Bu baxımdan Ata ilə oğul eynidirlər.

"Tanrı Sözü gözəl imiş", ona görə də bütün varlıqlar ona bənzər şəkildə yaranmış, sonra yeddiyə bölünmüş dünyanın yeddi Hökmranı xəlq edilmişdir. Daha sonra Tanrı Sözü yaradılmış təbiətə vararaq *Demiurqosla* (Yaradıcı ilə) birləşmişdir. Bu birləşmədən isə aşağı qatlarda olan maddi təbiət və heyvanlar yaradılmışdır. Beləliklə, yer göydən ayrılmışdır.

**İlk İnsanı** Ata Tanrı özünə bənzər şəkildə yaradıb, onu sevmiş, onun hökmünə bütün təbiəti vermişdir. O yaradıcı olmaq istəmiş və ona bunun üçün bütün imkanlar verilmişdir. İlk İnsanda kişi və qadın birləşmiş, təbiət onlardan həmən qarışıq cinsdən olan daha yeddi insan yaratmışdır. Müəyyən vaxtdan sonra kainat bağları qırılmış və bütün varlıqlar iki cinsli olmuşdur.

Bu baxımdan İnsan ikili təbiətə sahibdir: bir tərəfdən o ölməzdir, çünki onun İlk insandan miras qalan ruhu və düşüncəsi vardır, digər tərəfdən isə insanın zülmətdən alınmış cismani bədəni də vardır. O isə sonludur, ölümə məhkumdur. Buna görə də, insan gərək öz xilasına doğru yola çıxsın. Bu yol da öz ilahi mahiyyətini tanımaqda və Tanrıya uyğunlaşmaqdadır. Buna da özəl gizli biliklərlə (*qnosis*) çatmaq mümkündür. Qnosisə yiyələnmiş ruh bədənin ölümündən sonra yeddi göy qatından keçərək orada bütün pisliklərdən qurtarır və İlk Başlanğıca (Tanrıya) qayıdır. İlk Tanrı bunu etməyən və öz nəfsləri ilə yaşayan adamlardan uzaqlaşır və onlar şər varlıqların hökmünə verilir.

Xilas olmaq üçün insan öz həqiqi mahiyyətini dərk etməlidir. Hermetizmin əsaslarından biri odur ki *"yuxarıda olanla aşağıda olan eyni şeydir"*. Bu sözlər Hermetizmin əsas ideyalarını əks etdirən ***"Zümrüd lövhə"*** adlanan kiçik bir yazıda yazılmışdır. Beləliklə, görünən və görünməyənin arasında belə bir bağlılıq var ki, ona gizli biliyi əldə eləmişlər vara bilərlər. Bununla da, hermetizm magiya, münəccimlik, teurgiya və cadugərlik kimi mistik praktikalara yol açmışdır.

### 2.7.2. Yeni pifaqorçuluq

Yeni pifaqorçuluq m. ö. I yüzillikdə İskəndəriyyədə yaranmış mistik dini-fəlsəfi təlimdir. M. ö. IV yüzillikdən sonra qədim pifaqorçuların fəaliyyətinə son qoyulmuşdur. Roma imperiyası dövründə isə bu təlim yenidən dirçəlsə

də, onun qədim məktəbinin təlimi ilə çox az bağlılığı olmuşdur. Sadəcə bu məktəbin filosofları hansısa tanınmış ənənəyə bağlı olmasını sərgiləmək üçün öz təlimlərini qədim pifaqorçuluqla bağlayırdılar. Bu səbəbdən də, o zaman pifaqorçuluğa aid edilən çoxlu sayda saxta ədəbiyyat yazılmışdır.

Yeni pifaqorçuluq bir çox əlamətlərinə görə fəlsəfi cərəyandan daha çox dini təlim idi. Onun hətta Pifaqora aid edilən vəhy kitabları da mövcud olmuşdur. Bu təlimin əsasında kəskin dualizm dururdu. Maddi aləm *şərlə,* ruhi və səmavi başlanğıclar isə *xeyirlə* əlaqələndirilirdi. Bu baxımdan onlar düşünürdülər ki, Tanrı dünyanı rəqəmlərlə eyniləşdirilən ideyaların əsasında qurmuşdur. (10)

Yeni pifaqorçular ***Bir*** rəqəmini xeyir olan və hər şeyin başlanğıcında duran Tanrı ilə eyniləşdirirdilər. Şərin təcəssümü olan ***İki*** rəqəmindən isə artıq çoxluq, dəyişkənlik, xaos başlayır. Bütün rəqəmlər ideyalarla eyniləşdirilir və onların nisbətinə görə dünyada hər şey var olur. Ancaq, rəqəmlərin sərbəst varlığı yoxdur, onlar Birdən çıxırlar. (11)

Yeni pifaqorçular həm də dünyanın əbədiliyinə inanırdılar. İnsana isə "mikrokosm" kimi baxırdılar. Yeni pifaqorçuluqda tək tanrılığın əlamətləri olsa da, onunla maddi dünya arasında vasitəçi olan kiçik tanrıların və şər qüvvələrin varlığı da inkar edilmirdi. Həqiqi Tanrı ən yüksək mənəvi təbəqələrdə sonsuz uzaqlardadır. Vasitəçi kiçik tanrılar isə kamil olmadıqlarına görə, insanlara özlərinə tapınmağı buyururlar. Əbədiyyətə çatmaq üçün

isə onlara deyil, həqiqi Tanrıya doğru mənəvi cəhətdən yönəlmək lazımdır. Bunun üçün əxlaqlı abid həyatı yaşanmalı, qidalanma, and içmə, qüsul və dəstəmaz alma qaydalarına riayət edilməli idi. (11)

Yeni pifaqorçuluğun ilk nümayəndəsi kimi tədqiqatçılar **Publius Nigidius Fiqulus**'un (lat. *Publius Nigidius Figulus*, təxminən m. ö. 98 – 45) adını qeyd edilər. O, filosof Siseronun yaxın dostu idi. O, bir çox elmlər haqqında kitablar yazmışdır. Siserona görə, o qədim pifaqorçuluğu yenidən dirçəltmək istəmişdir. Publius Fiqulus mistikaya çox meylli idi. Siseron xəbər vermişdir ki, o öncədəngörənlik edərək Oktavianus Avqustusun doğum günündə onun imperator olacağını bəyan etmişdir. Fiqulusun ən tanınmış əsərlərindən biri dilçiliyə aid olan ***"Qrammatikaya aid şərhlər"*** (lat. *Commentarii grammatici*) kitabı idi. Bundan başqa o tanrılara tapınma və onlara ehtiram etmə haqqında ***"Tanrılar haqqında"*** (lat. *"De diis"*), eləcə də münəccimlik, öncədəngörənlik və yuxu yozumları sahəsində də əsərlər yazmışdır. Onların yalnız bəzi fraqmentləri günümüzə gəlib çatmışdır. (6)

Yeni pifaqorçuluğun ən tanınmış nümayəndəsi **Tiyanalı Apollonius** (yun. *Ἀπολλώνιος ὁ Τυανεύς*, təxminən m. 1 – 98) olmuşdur. Dövrümüzə onun adına yazılan 97 məktubu gəlib çatmışdır. Miladi III yüzillikdə yazıçı *Lusius Flavius Filostratus* Apolloniusun kimliyinə həsr olunmuş ***"Tianalı Apolloniusun həyatı"*** adlı bir roman yazmışdır. Bu roman hərəsində 40 fəsil olan 8 kitabdan ibarətdir. Orada Apolloniusun müxtəlif şəhərlərə səfərləri, onun krallarla, məmurlarla və müdriklərlə

görüşləri, dini-fəlsəfi mülahizələri, möcüzələri, sehrbazlığı haqqında söhbət açılmışdır. Sonra o, Romaya qayıtdıqdan sonra imperator *Nero* tərəfindən təqib olunmuş, ancaq növbəti imperator *Vespasianusun* zamanında yüksək vəzifəyə yüksəlmişdir. İmperator Domisianusun dövründə isə o yenə də təqib olunmuş və möcüzə göstərərək hamının gözü qarşısında qeyb olmuşdur. Sonra Efesdə peyda olmuş, orada Pifaqor məktəbini yaratmışdır. Beləliklə, Apollonius filosof kimi deyil, daha çox bir peyğəmbər, sehrbaz, öncədəngörən kimi təsvir olunmuş və antik dünyada bu keyfiyyətləri ilə tanınmışdır.

Bir çox Roma filosofları Apolloniusun həyatını İsa Məsihin həyat yolu ilə müqayisə edib, onun (Apolloniusun) daha da çox peyğəmbərliyə layiq olduğunu iddia edirdilər (13, 393). Bununla da, onlar Xristian ehkamlarını təkzib etməyə çalışmışdırlar. Məsələn, Roma filosofu *Hierokles* yazırdı ki, Apollonius İsadan daha çox möcüzələr göstərmiş, ancaq ondan fərqli olaraq, onu heç kəs tanrı elan etməmişdir. Daha sonra Hieroklesin fikrincə Romada Xristianlığı yayan həvari *Paulus* (Pavlos) və *Petrus*[88] etibarlı adamlar olmamışdırlar. Digər tərəfdən isə Apolluniusun haqqında məlumat verən *Filostratus* və *Damis* isə öz möminlik və doğruluqları ilə xalq arasında tanınmışdırlar. Hieroklesi təkzib etmək üçün kilsə tarixçisi Eusebius ***"Həqiqət sözü"*** (lat. *Philalethes logos*) əsərini yazmışdır (13, 393-394). Üstəlik Apolloniusun ölümündən sonra onun şərəfinə məbədlər

[88] Ruslar ona *Pyotr (Пётр)* deyirlər.

tikilmiş, orada insanlar ona tapınmışdırlar. Bütün bunlara görə də sonralar qalib gəlmiş Xristianlıq onun kitablarını tonqallarda yandırmış, məbədlərini isə darmadağın etmişdirlər.

Filostratusun romanından belə nəticəyə gəlmək olar ki, Apollonius pifaqorçuluğa xas olan çətin riyazi problemlərlə deyil, daha çox dini və əxlaqi məsələlərə önəm vermişdir. O, ruhların bir bədəndən digərlərinə köçməsinə inanırdı. Eləcə də Apollonius hesab edirdi ki, qanlı qurbanların kəsilməsi, ətin yeyilməsi, çaxırın içilməsi, ailə həyatı müdrik insana yaraşmayan əməllərdir. Həyatın mənası Tanrını anlamaq, onu duymaqdır. Onun fikrincə bütün dinlərdə həqiqət vardır və onların hamısı Tanrıya aparan yollardır. Bununla belə, o tanrılar haqqında Yunan və Misir xalq dinində olan ibtidai təsəvvürləri də pisləyirdi. Apollonius öz həyat yolunu mömin insanın örnəyi kimi təqdim edirdi.

**Gerasalı Nikomaxus** (yun. *Νικόμαχος ὁ Γερασένος*, II yüzilliyin birinci yarısı) da yeni pifaqorçuluğun tanınmış nümayəndələrində biri olmuşdur. O, daha çox riyazi məsələlərlə məşğul olmuş, rəqəm düzənini ilahiləşdirmiş, ona ilahiyyat məzmununu qazandırmışdır. Onun əsərlərindən biri ***"Arifmetik ilahiyyat"*** (yun. *Θεολογούμενα ἀριθμητικῆς*) adlanır[89]. Orada Nikomaxus ona qədər olan rəqəmlərin mistik mənalarını verirdi. Kitabın birinci hissəsində birdən dördə qədər olan, ikincisində isə qalan rəqəmlər haqqında düşünülür (14).

[89] Bəzi araşdırmaçılara görə bu kitabın yazarı Yamblix da ola bilərdi. Belə olsa da, o Nikomakhusun əsərindən istifadə etmişdir.

Hər bir rəqəm əxlaqi, təbii və ilahi obrazlarla uyğunlaşdırılır, onların arasında qanunauyğunluqlar araşdırılırdı.

Tanrı ***bir*** rəqəminə uyğundur, çünki ondan hər şey başlanır, həm də bir rəqəmi başqa rəqəmlərin əsasında durur. Ona görə də, ona uyğun olan Tanrı hər şeyin *"əvvəli, ortası və sonudur"*.

***İki*** rəqəmindən başlayaraq çoxluq başlanır. O materiyaya uyğunlaşdırılır və bir olan Tanrıya qarşı durur. Bütün ziddiyyətlər ikilidir: isti-soyuq, xeyir-şər, işıq-qaranlıq və s.

***Üç*** rəqəmində isə əvvəl, orta və son vardır. O hər şeyin tamlığının təcəssümüdür. Hətta canlılar üç cürdür: uçanlar, yeriyənlər və suda üzənlər. İnsanın yaşam dövrləri da üçdür: gənclik, yetkinlik və qocalıq. Tanrıya üç kərə dualar edilir və ümumiyyətlə hər şeyin üç dəfəsi ən mükəmməldir. Üç ahəng, barış və dostluqdur. O həm də bütün ziddiyyətləri bir-birinə yaxınlaşdırır.

Bu birinci üç rəqəm başqalarının əsasını təşkil edir. Bundan sonra gələnlər onların kombinasiyalarıdır. Kainat, kosmik təsəvvürlər, dairələrin bölgüsü ***dörd*** rəqəmində təcəssüm olunur. Bunların mahiyyətini anlamaq və onların üzərində riyazi hesablamalar aparmaq üçün onları xaç şəklində olan dörd hissəyə bölürlər. Bu bölgüyə əsasən elmlər arifmetika, həndəsə, harmoniya və astronomiya; canlılar isə mələikələr, şər qüvvələr, diri canlılar və bitkilər olmaqla dördə bölünürlər. İnsanın da dörd hissəsi vardır: baş, bədən, əllər və ayaqlar.

***Beş*** rəqəmində ilk cut və tək rəqəmlər (2 və 3) birləşir. O həm də on rəqəminə qədər olan ortadır. İki beşin cəmi ilk tamlıq olan ondur. Kainatın beş ünsürü vardır. Bunlar hava, od, su, torpaq və efirdir. Əxlaqda da beş rəqəmi ədalətin təcəssümüdür.

***Altı*** rəqəmi birin, ikinin və üçün cəmindən, eləcə də ikinin üçə vurulmasından ibarətdir. Bu da kişi və qadın başlanğıcı, eləcə də evliliyin rəmzidir. Həm də altı iki əvvəli, ortası və sonu olan üçlüklərdən ibarətdir. Bu da kosmosun təcəssümüdür ki, Yaradan Tanrı onu altılıqla kamilləşdirir.

***Yeddi*** rəqəminin özəllikləri çoxdur. Dörd yeddinin cəmindən kamil olan 28 rəqəmi yaranır. Bu da ay təqviminin günləridir. Antik dövrlərdə məlum olan və tanrılar kimi tanınan planetlərin sayı yeddi idi. Hərəkətlər də yeddidir: önə, arxaya, yuxarı, aşağı, sağa, sola və öz oxu ətrafında. Yeddi musiqi səsi (notlar) vardır. Yeddi yaşam dövrü vardır: uşaqlıq, gənclik, yetkinlik, kişilik, ahıllıq və qocalıq. Məhz yeddinci ayda uşaq doğulmaq üçün hazır olur. Toxum da yerə düşəndə təxminən yeddi günə bitməyə başlayır.

***Səkkiz*** rəqəmi iki rəqəminin kubudur (2x2x2). Deməli, qütblülüklər və ziddiyyətlər olan 2 rəqəmi onun əsasında durur. Bu isə həm sevginin, həm də doğuluşun əlamətidir. Səkkizlik göydə də özünü göstərir, çünki ulduz dairələri də səkkizdir.

***Doqquz*** rəqəmi üçün kvadratıdır (3x3) O onluğun içində ən böyük rəqəmdir ki, ondan sonra heç nə yoxdur.

Ona görə də, ondan sonra dairəvi hərəkət baş verir. Hər şey ona doğru gəlir və sonra ondan uzaqlaşır.

***On*** rəqəmi isə təbiətdə olan tamlıq, düzənlik və müvazinətin rəmzidir. Onun içində bütün başqa rəqəmlər vardır. Beləliklə, onluq bütün dünya və kainatdır. Ondan yüksək heç bir təbii rəqəm yoxdur. Çünki yüz on, min isə yüz onluqdan ibarətdir.

Yeni pifaqorçuluğun daha bir tanınmış nümayəndəsi **Apameyalı Numenius** (yun. *Νουμήνιος ὁ ἐξ Ἀπαμείας*, m. II-ci yüzilliyin ikinci yarısı) olmuşdur. Onun fikrincə tam olan varlığın üç əsası vardır (8, 158-162). Birincisi *İlk Tanrıdır.* O özünə qapanmış halda mövcuddur. İkincisi *İkinci Tanrıdır*. O maddə ilə münasibətdə olan *Demiurqosdur*; bir tərəfdən İlk Tanrıya, digər tərəfdən isə əbədi olan maddəyə yönəlir. Varlığın üçüncü əsasını isə *kosmos* təşkil edir.

Başqa məlumatlara görə, o varlığın üçüncü əsasını kosmosda deyil, *Dünya Ruhunda* görürdü (12). Ondan insan ruhunun ölən hissəsi yaranmışdır. İnsan ruhunun əqli hissəsi isə ölməzdir və dünya Əqlinə yönəlir.

Numenius platonçuluğu Müqəddəs kitabın (Bibliyanın) dünyagörüşünə, eləcə də Hind, Misir və digər dini təlimlərlə yaxınlaşdırmaq və uyğunlaşdırmaq istəmişdir. Hətta o, Platonu Musaya bənzədirdi (7, 449). Bunun da zərurəti ondan doğmuşdur ki, o zaman Romada ənənəvi yunan-roman dini böhranda idi və eyni zamanda imperiyada çoxlu dinlər ortaya çıxmışdır. Onlardan biri də sonralar dövlət dininə çevrilmiş *Xristianlıq* idi. Buna görə də, o dövrün filosofları bu həqiqətləri nəzərə alıb

antik təlimləri başqa inanclarla, xüsusən də Xristianlıqla qarışdırmağa çalışırdılar. Numeniusun varlıq haqqında nəzəriyyəsi də bu qəbildən idi. Sonralar bu ideya *yeni-platonçular* tərəfindən daha da inkişaf etdirilərək Xristian inancına uyğunlaşdırıldı.

**Qadesli Moderatus** (yun. *Μοδέρατος*, I yüzilliyin ikinci yarısı) da yeni pifaqorçulardan biri idi. O yeni-platonçu Plotinin ifadə etdiyi üçlük haqqında fikirlərinin əsasını qoymuşdur. Belə ki, Moderatusa görə bütün varlıq birdir və üç hissədən ibarətdir. Birincisi hər şeydən yüksək olan Vahiddir. İkincisi ideyalar toplusu və həqiqi varlıqdır ki, onu düşüncə ilə qavramaq mümkündür. Üçüncüsü isə Ruhdur ki, o birinci və ikinci hissənin sayəsində mövcud olur. Eyni zamanda, Moderatus Pifaqor fəlsəfəsinə üstünlük verərək hesab edirdi ki, Platon, Aristotel və digər filosoflar onun fikirlərini mənimsəmişdirlər. Bunu edərək, onlar bütün mənfilikləri və qüsurları pifaqorçulara aid edərək onu gözdən salmışdırlar. (9)

### 2.7.3. Qnostisizm

**Qnostisizm** (yun. *γνωστικός* – həqiqi biləyə yiyələnmək) antik dövrün sonlarında (I – V yüzilliklərdə) yaranmış dualistik dini təlimdir. Bu təlimdə Xristianlığın, yunan fəlsəfəsinin və bəzi Şərq dinlərinin ideyaları qarışmış, sinkretik hala gətirilmişdir (4, 3-23). Qnostisizm

ezoterik[90] bir təlim idi, onun ardıcılları iddia edirdilər ki, Tanrı onlara dünyanın sonu haqqında biliklər vermişdir.

Qnostisizmin yaranmasının əsas səbəbini ellinizm dövründə qədim yunan polislərinin tarix səhnəsindən silinməsində, böyük imperiyaların yaranmasında, çeşidli mədəniyyətlərin və dini-fəlsəfi təlimlərin bir-biri ilə qarışmasında, cəmiyyətdə axirətin yaxınlaşması inancında və mistik ənənələrin inkişafında görürdülər.

Qnostik cərəyanlar çox olsa da, onların bir-birinə bənzər təlimləri də olmuşdur. Qnostisizmi səciyyələndirən özəlliklər ilk olaraq ezoterizm və dualizmdir. Onlar bütün insanları *"maddi"* (bədənlə bağlı olanlar), *"ruhi"* (psixiklər) və *"mənəvi"* (pnevmatiklər) tiplərə bölürdülər. Onlara görə yalnız "mənəvi" insanlara həqiqi mistik biliyin (qnosisin) mahiyyəti açılırdı.

Qnostiklər həm də bütün varlığı ikili şəkildə təsəvvür edir, xeyirlə şəri substansional səviyyədə bir-birinə qarşı qoyurdular (4, 42). Onlara görə bütün maddi aləm şərdir, həmçinin o mənəviyyatın zindanıdır. Məqsəd bu zindandan azad olub xeyrə qovuşmaqdır. Bunu isə yalnız İlahi biliyə (qnosisə) yiyələnən insanlar edə bilərlər.

Qnostisizmdə maddi dünya *Mütləqin* səhvi nəticəsində yaranmışdır. Bu səhv nəticəsində qara qüvvələr işıqlı aləmlərə daxil olmuşdurlar. Bunu da qnostiklər belə təsəvvür edirdilər ki, Tanrı olan doğulmamış Ata özünü *"**eon**"* adlandırılan varlıqlarda təzahür edir. Bu eonlar əsasən cütlüklərdən ibarətdir.

[90] **Ezoterizm** – dünyanın və insanın gizli (batini) mahiyyətləri və özəllikləri haqqında təlimdir.

Eonlar ilahi tamlıq olan ***pleromanı*** (yun. *πλήρωμα*) təşkil edir. Ancaq, bəzi eonlar bir zaman başqalarının üzərində hakimiyyət əldə etmək istəmiş və pleromadan ayrılmışdırlar. Bundan sonra kosmosun yaranması (*kosmogenez*) baş vermiş, fərqli aləmlər yaranmışdır. Ən aşağı qatda yerləşən aləm isə bizim yaşadığımız dünyadır. Qnostiklərin əksəriyyəti eonlara insani xüsusiyyətlər qazandırmış, onlara konkret şəxs kimi baxmışdırlar.

Qnostiklərə görə pleroma öz tamlığını bərpa etmək istəyir. Bu isə yeni eonun yaranmasına gətirib çıxardır. Həmin eon İsa və ya İsa ilə Məsihin cütlüyüdür. O, bu dünyaya enir və seçilmiş, mənəvi cəhətdən yüksəlmiş insanlara həqiqi biliyin (qnosisin) nə olduğunu öyrədir. Beləliklə, qnosisi bilən insanlar İsanın vasitəsi ilə pleromaya qayıdıb maddi aləmdən qurtaracaqlar. Bu yolda isə abid həyatı yaşamaq vacibdir.

Qnostiklər hesab edirdilər ki, Tanrı bu dünyadan çox-çox uzaqlardadır (transsendentdir). Onun təbiəti dərkedilməzdir. Dünya isə ***arxonlar*** (yun. *ἄρχων* – başçı) adlanan ən aşağı qatlarda yaşayan qüvvələr tərəfindən yaradılmışdır. Onlar Tanrı tərəfindən yaradılsa da, onun haqqında bilikləri yoxdur. Ona görə də, bu qüvvələr həqiqi Tanrının dərk edilməsi yolunda bir maneədir.

Bütün kainat arxonlara tabedir. Qnostiklər onları bəzən Əhdi-Ətiqdə çəkilən Tanrının adları ilə adlandırırdılar (*Savaof, Adonai* və s.). Beləliklə, onlar hesab edirdilər ki, həqiqi Tanrının yalnız bir adı var. Ona aid edilən başqa adlar isə əslində müstəqil fövqəl varlıqlar olan arxonlardır.

Dünyanın ətrafında isə bir neçə kosmik qatlar vardır. Onları da arxonlar idarə edir. Dünyanın yaradılmasında arxonların ən böyüyünün müstəsna rolu vardır. Onun adı Platonun "Timeus" əsərində olduğu kimi *"Demiurqos"*dur. Arxonların zülmlə dolu hakimiyyəti isə ***"hermarmenus"*** adlanır (4, 43).

İnsan *bədən, mənəviyyat* (pnevma) və *ruhdan* ibarətdir (4, 44). Bədən və ruh dünyanın tərkib hissəsi olaraq hermarmenusa tabedir. Hermarmenus isə təbiət qanunlarıdır. O həm də Musaya verilmiş yəhudi qanunudur. Ruhun içində yaşayan mənəviyyat isə İlahi işığın hissəciyidir və o zindanda saxlanılır. Əsarətdə olan mənəviyyat pleromadan təcrid olunub və özünü onun hissəsi kimi dərk etmir. Onun dirçəlməsi isə *həqiqi bilik* (qnosis) vasitəsilə əldə edilə bilər. İnsan yalnız qaranlığı yarıb, işığa doğru yönələrək xilas olur. Ölümdən sonra qnosisə yiyələnmiş ruh həqiqi Tanrı tamlığı olan pleromaya qovuşur.

Bəzi qnostik təriqətlər cəmiyyətdə hökm sürən qanunları, ədəb və əxlaq qaydalarını belə arxonların qoyduğu qayda və qanunları hesab edirdilər. Ona görə də pnevmatiklər onlara riayət etməməli idilər (4, 46-47). Onların fikrincə, əgər pnevmatik hermarmenusdan azaddırsa, onda dünyaya bağlı olan və onun reallığını əks etdirən qanunlardan da azad olmalıdırlar.

Qnostisizm antik dünyada Xristianlıqdan öncə yayılmışdır. Ancaq, Xristianlıq yayılmağa başlayanda qnostiklər bu dinin bir çox elementlərini öz təlimlərinə qatmışdırlar. Bunun nəticəsində ***Xristian qnostisizmi***

yaranmışdır. Bundan öncə isə qnostisizm Yəhudiliyə də yol tapmışdı. Sonralar isə qnostik ideyaların əlamətləri İslam təriqətlərində də müşahidə edilmişdir.

### 2.7.4. Mitraizm

Qnostik inanca yaxın olan dinlərdən biri də Mitraizm olmuşdur. Mitraizm Roma imperiyasında Xristianlıqla bərabər yayılan və onunla rəqabət aparan İran məşəli bir din idi. İran mənşəli qnostik təlimlər dünyanı Zülmətlə Nurun mübarizəsi kontekstində görür və izah edirdilər (4).

Mitra arilərin panteonunun[91] tanrılarından biri idi. Yaxın Şərqdə bir çox xalqlar ona ibadət edirdi. Qədim arilər onu "Səhər işığının tanrısı" adlandırırdılar. Onların inanclarına görə, Mitranın qüdrəti dünyada həyatın mövcudluğunu təmin edir. Daha sonra iranlılar inanırdılar ki, Mitranı xeyir tanrısı olan Ahura-Məzda yaradıb və ona ibadət etmək vacibdir. Bu barədə "Avesta" da Mitr-Yaşt babının əvvəlində verilir.

M. ö V – VI yüzillikdə Mitra inancı unudulmuş, ancaq sonra bu kult yenidən bərpa olunmuş və İranda, Babilistanda, Pontda, Friqiyada, Kappadokiyada və başqa regionlarda yayılmışdır. Daha sonra Mitraya Romada da ibadət edirdilər. Mitra dininə tapınanlar inanırdılar ki, bu tanrı qara qüvvələrlə mübarizə aparır və insanlara xidmət edir. Eyni zamanda, Mitra dünyanın yaradıcısıdır. Ancaq,

[91] **Arilər** – hind-fars mənşəli xalqların ümumiləşdirilmiş qədim adıdır.

qnostiklərdən fərqli olaraq o Xeyrin təcəssümü kimi təsəvvür edilirdi.

Xristianlığın Mitraizmlə bir sıra oxşar cəhətləri vardır. Məsələn, 274-cü ildən başlayaraq, hər ilin 25 dekabr günü imperator Avrelianın əmri ilə günəş tanrısı Mitranın anadan olan günü kimi qeyd edilirdi. Sonralar isə IV əsrdən başlayaraq bu günü İsanın anadan olan günü kimi qeyd etməyə başlamışdılar. Bu adət bizim dövrümüzə qədər davam etməkdədir.

Xristianlıq və Mitraizmin oxşar cəhətlərində biri də Mitra və İsanın xilaskar olmasıdır. Onların hər ikisi Tanrı ilə insanlar arasında olan vasitəçidir. Onlar Atanın buyruqlarını yerinə yetirirlər. Bu baxımdan İsa kimi Mitra da axirətdə insanları mühakimə edəcəkdir. Hətta, Xristianlığın rəmzi olan xaç da mitraizmin simvollarından biri olmuşdur. Onlar xaçı dairənin içində təsvir edirdilər. Mitraizmdə Xristianlıqda olduğu kimi bu dini qəbul edənlərin xaç suyuna salma mərasimi də keçirilirdi. Bu barədə tanınmış xristian ilahiyyatçısı Tertulian da məlumat vermişdir (15).

**Mövzu ilə əlaqəli suallar:**

1. Romalılar nəyə inanırdılar, dinlərinin əsasını nə təşkil etmişdir?
2. Roma kahinlərinin vəzifəsi nədən ibarət olmuşdur?
3. Roma imperiyasında hansı dinlər yayılmışdır?

4. Hermetizmin əsasları hansılardır, adı nə ilə bağlıdır?

5. Hermetizmin hansı dini və fəlsəfi təlimlərə təsiri olmuşdur?

6. Hermetizmin hansı yazılı ədəbiyyatı vardır, onların məzmunu nədir?

7. Hermetizmə görə dünyanın başlanğıcında nə durur, dünya quruluşu necədir?

8. Hermetizmə görə insan necə yaranmışdır, onun hansı təbiətləri vardır, xilası nədədir vardır?

9. Yeni pifaqorçuluq qədim pifaqorçuluqdan nə ilə fərqlənir?

10. Yeni pifaqorçuluğun dualizmi nədən ibarət olmuşdur?

11. Yeni pifaqorçuluqda rəqəmlərə nə kimi yer verilirdi?

12. Yeni pifaqorçuluqda tanrı təsəvvürü necə olmuşdur?

13. Publius Fiqulusun fəaliyyəti nədən ibarət olmuşdur?

14.Tianalı Apollonius kim olmuş, nə kimi fəaliyyəti göstərmişdir?

15. Apollioniusu hansı məqsədlə İsa ilə müqayisə edirdilər?

16. Apolloniusun inancı nəyin üzərində qurulmuşdur?

17. Gerasalı Nikomaxusun rəqəmlər fəlsəfəsinin məzmunu nədən ibarət olmuşdur?

18. Apameyalı Numeniusun fikrincə varlığın neçə əsası vardır, onlar hansılardır?

19. Numenius dinləri birləşdirmək üçün hansı fikirlərlə çıxış etmişdir?

20. Qadesli Moderatus varlığın birliyi və eyni zamanda üçlüyünü necə təsəvvür edirdi?

21. Qnostisizm nədir, mahiyyəti nədən ibarətdir?

22. Qnostisizmin yaranmasının səbəbləri hansılar olmuşdur?

23. Qnostisizmdə dünyanın yaranması necə təsvir olunur?

24. Qnostisizmə görə dünya kim tərəfindən idarə olunur?

25. Qnostisizmə görə insan hansı yolla dünyanın zülmətindən qurtara bilər?

26. Mitraizmin tarixi və təlimi nədən ibarətdir?

**Ədəbiyyat:**

1. Davis, Tenny L. The Emerald Tablet of Hermes Tristmegistus: Three Latin versions which were current among later Alchemists. Journal of Chemical Education, Vol. 3, № 8, 1926.

2. Frances A. Yates: Giordano Bruno and the Hermetic Tradition. The University of Chicago Press Book, 1964.

3. Hart G. The Routledge Dictionary of Egyptian Gods and Goddesses. New York: Routledge. Oxon, 2005.

4. Jonas. H. The Gnostic Religion. Boston: Beacon Press, 2005.

5. Poemandres, The Shepherd of Men // Thrice-Greatest Hermes by G.R.S. Mead. Vol. 2. London, 1906.

6. Publius Nigidius Figulus // Encyclopedia Britanica, 1911.

7. The Miscellanies; or, Stromata // Ante-Nicene. Christian Library. The Writings of the Fathers Down to A. D. 325. Vol. IV. Clement of Alexandria. Vol I. Edinburgh: T. and T. Clarc, 1867.

8. Евсевий Памфил. Евангельское приготовление. Книга XI / Перевод А. Ястребова // Богословский сборник. М.: Православный Свято-Тихоновский богословский институт, 2001.

9. Модерат // Античная философия: энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция, 2008.

10. Неопифагореизм // Малый энциклопедический словарь Брокгауза и Ефрона: В 4 томах. СПб., 1907-1909.

11. Новопифагореизм // Энциклопедический словарь Брокгауза и Ефрона. СПб, 1890-1907.

12. Нумений // Философский энциклопедический словарь / Гл. ред. Ильичев Л. Ф., Федосеев П. Н. и др. М.: Советская энциклопедия, 1983.

13. Ранович А. Б. Первоисточники по истории раннего Христианства. Античные критики Христианства. М.: Политиздат, 1990.

14. Теологумены арифметики // Философское антиковедение и классическая традиция. Т. 3. Вып. 1, Новосибирск, 2009.

15. Тертуллиан. О крещении V, 1 / Общая редакция и составление А. А. Столярова. М.: Издательская группа "Прогресс"-"Культура". Москва, 1994.

## 2.8. Yeni-platonçuluq

Yeni ***Akademiya*** təxminən m. 200 – 529-cu illər arasında fəaliyyət göstərmişdir. Bu da "yeni-platonçuluq" (neoplatonizm) adlanan platonizmin sonuncu, ***beşinci tarixi mərhələsi*** hesab olunur. Onu səciyyələndirən xüsusiyyətlərdən biri neoplatonizmin dinə və mistikaya yaxınlaşması olmuşdur.

**Yeni-platonçuluq** Platon və Aristotelin fəlsəfəsini şərq inancları ilə birləşdirən antik idealist fəlsəfi cərəyandır. Neoplatonizmin əsas ideyaları varlığın birliyini ***Vahid-Əql-Ruh*** üçlüyündə təsəvvür etmək, insan ruhunun materiyanın təsirindən azad etmə yollarını göstərmək, həqiqətin intuisiya vasitəsi ilə kəşf olunmasından ibarət idi.

Yeni-platonçuluq antik dünyanın sonuncu fəlsəfəsi və mistik məktəbi olmuşdur. Bu təlim m. III yüzillikdə yaranmış və inkişaf etmişdir. Bu dönəm eyni zamanda xristian ilahiyyatının yaranması dövrü idi. Bu iki dünyagörüşü bir-biri ilə ideoloji çəkişmədə olmuşdur.

Yeni-platonçuluğun yaranması və inkişafı Roma imperiyasını bürümüş siyasi-iqtisadi və mənəvi böhranlar dövrünə təsadüf edir. İmperiya öz süqutuna doğru irəlilədikcə cəmiyyətdə gələcəyə inamsızlıq və mənəvi boşluq hissləri dərinləşmiş; istibdada, tiranlığa və zülmə qarşı etirazlar güclənmişdir.

Bu şəraitdə müxtəlif dini-fəlsəfi və mistik təlimlərin cəmiyyətdə yayılması qaçılmaz idi. Bütün imperiya boyu mövhumatlar, falçılıq və cadugərliyin müxtəlif formaları surətlə yayılırdı. Bununla yanaşı şarlatanlıq və fırıldaqçılıq da çoxalmışdır. Digər tərəfdən Romanın ələ keçirdiyi ölkələrin və xalqların müxtəlif mistik və dini təlimləri də imperiyada surətlə yayılırdı. O zaman imperiya boyu Misir tanrısı *Osiris* və Frigiya tanrısı *Attis* kimi ölən və dirilən tanrıların, *Mitra* adlı şərə qarşı mübarizə aparan İran mənşəli tanrının kultları geniş yayılmışdı.

Eyni zamanda, qədim Yunan və Roma mənşəli dini inanclar dərin böhran keçirirdilər. Onların cəmiyyətə təsiri getdikcə azalmış, üstəlik bu inanclar Şərqdə yayılmış dinlərlə qarışmışdırlar.

Ənənəvi dini görüşlərin böhranı dövlət başçılarının kultunu [92] da yaratmışdı. İmperatorların və senatın [93] şərəfinə tapınaqlar (məbədlər), heykəllər ucaldılırdı.

---

[92] **Kult** – tanrıya, tanrılara, hansısa müqəddəs şeylərə, müqəddəslərə, əcdadlara, hökmdarlara, gerçək ya da fantastik varlıqlara və s. tapınmadır və buna bağlı ayinlər toplusudur.

[93] **Senat** – qədim Romada yüksək idarəetmə orqanı olan şura və ya məclis idi.

Bundan başqa romalılar müxtəlif "kiçik" tanrılara və ruhlara da inanırdılar.

Yeni-platonçuluq fəlsəfəsi bu cür mürəkkəb sosial-siyasi böhran şəraitində yaranmışdır. İdealist və mistik təlim olduğuna görə o tədricən materialist sayağı təlimləri ortadan çıxardırdı. O şəraitdə bu proses qaçılmaz idi. Eyni zamanda, yeni-platonçuluq qədim yunan və Roma fəlsəfəsinin müddəalarını mənimsəmiş, onun qoruyucusuna çevrilmişdir.

Xristianlıqdan fərqli olaraq yeni-platonçuluq daha da çox hakim dairələrin, bilim adamlarının arasında yayılmışdır. Xristianlığa qarşı çıxış edən Romanın hakim dairələri çox vaxt məhz yeni-platonçuluq ideyalarına arxalanıb, onları Xristianlığa alternativ bir dünyagörüşü kimi təqdim edirdilər. İmperator Yulianın (361-363) hakimiyyəti dövründə bu cür hallar daha qabarıq şəkildə baş verirdi. Xristianlığın hakim dinə çevrilməsinə baxmayaraq o köhnə inancları bərpa etməyə, onların Xristianlıqla bərabər imperiyada yayılmasına çalışırdı. Ancaq, Yulianın ölümündən sonra Xristianlıq yenidən öz mövqeyini möhkəmləndirmiş və yeni-platonçuluğu sıxışdırıb ortadan çıxarmışdır. Bundan sonra antik dövr sona çatmış və ortaəsr dövrü başlamışdır. O dövrdən başlayaraq Aralıq dənizi hövzəsi ətrafında olan ərazilərdə xristian dininin və fəlsəfəsinin hökmranlığı dövrü başlanmışdır.

Yeni platoçuluğun *Roma, İskəndəriyyə, Apameya, Afina* və başqa şəhərlərdə məktəbləri olmuşdur. Bu təlimin sonuncu məktəbi Afinada yerləşirdi. VI yüzillikdə

imperator Yustinianın fərmanı ilə onun fəaliyyətinə son qoyulmuşdur.

### 2.8.1. Roma məktəbi

Roma məktəbinin və ümumiyyətlə, yeni-platonçuluğun ilk filosofu **Ammonius Sakkas** (yun. *Ἀμμώνιος Σακκᾶς*, lat. *Ammonius Saccas*; m. 175—242) hesab edilir. O, xristian ailəsində tərbiyə almışdır. Sonra isə Xristianlıqdan imtina etmiş, antik fəlsəfi irsi əsasında öz fəlsəfəsini irəli sürmüşdür. Ancaq, Ammoniusdan heç bir yazılı ədəbiyyatın qalmadığına görə onun fəlsəfi fikirlərini bərpa etmək çox çətin olmuşdur.

Ammoniusun bir sıra tanınmış öyrənciləri olmuşdur. Onların arasında *Plotin* və tanınmış xristian ilahiyyatçısı *Origen* də olmuşdurlar (7, 3).

Məlumdur ki, Ammonius bədən və ruh haqqında dualist fikirləri irəli sürmüşdür. Onun fikrincə bədəndə cisimsiz ruh vardır, o bədənin təbiətindən fərqlidir və maddə deyildir. Ruh yuxuda ya da insanın dərin düşüncələrə qapandığı zaman bədəndən müvəqqəti ayrıla bilər. Ammonius və onun öyrənciləri ilk dəfə ***"Teosofiya"***[94] sözünü işlətməyə başlamış və bu anlayışı təlim halına gətirmişdirlər (24). Bu təlimin vasitəsi ilə Ammonius bütün dinlər və inancları birləşdirmək istəmişdir.

---

[94] **Teosofiya** (yun. *θεοσοφία* – ilahi müdriklik) – hər şeyin həqiqi mahiyyətinin açılması üçün zəruri olan mistik Tanrı biliciliyi və Tanrının duyulması haqqında təlimdir.

Ammoniusun öyrəncisi **Plotin** (yun. *Πλωτῖνος;* m. 205 – 270) yeni platoçuluğun nəzəri əsaslarını qoymuşdur. Ona görə də Plotinə ***"İkinci Platon"*** da deyirlər.

Plotin Misirdə anadan olmuş, gəncliyini o dövrün mədəni mərkəzi olan İskəndəriyyədə keçirmiş və orada Ammonius Sakkasın öyrəncisi olmuşdur (7, 4). Təxminən 40 yaşında Plotin Romaya köçmüşdür. O vaxtlar Roma imperiyasını dərin siyasi-ictimai böhran bürümüşdür. Fars və hind dünyagörüşü ilə yaxından tanış olmaq istəyən Plotin, imperator *III Qordianusun* (lat. *Gordianus*) İrana qarşı hərbi yürüşündə iştirak etmişdir (7, 3). Ancaq, o yürüş Roma ordusunun yenilməsi ilə başa çatmışdır. Plotin isə yalnız təsadüf nəticəsində sağ qalmışdır.

244-cü ildə Romaya qayıtdıqdan sonra Plotin orada məktəb yaratmış və 25 ilə yaxın müddətdə ona başçılıq etmişdir. Bu məktəbdə müxtəlif ictimai təbəqə və millətlərin nümayəndələri oxuyurdular.

Əvvəllər Plotin öz təlimini yalnız şifahi olaraq tədris etmiş, daha sonra isə onu yazmağa başlamışdır. Plotinin öyrəncisi Porfirius isə onun əsərlərini yığmış, redaktə etmiş, altı fəsilə ayırmış və yayımlamışdır (7, 5-28). Bu fəsillər isə öz növbəsində, doqquz hissədən ibarət olmuşdur. Buna görə də həmin əsər ***"Enneadalar"*** (yun. *Ἐννεάδες* – doqquzluq) adlanır. Əslində Enneada qədim Misir əsatirlərində Heliopolis şəhərinin doqquz tanrısının[95] ümumiləşmiş adıdır. Enneada tanrıları Misirin

[95] Bunlar *Atum, Şu, Tefnut, Heb, Nut, Osiris, İsis, Set, Neftis* tanrılarıdır.

ilk kralları hesab olunurdular. Misirin digər şəhərlərinin isə öz tanrı doqquzluqları var idi.

Plotin bütün varlığı vahidlikdə görürdü, yəni onun dünyagörüşünün əsasını ***monizm*** təşkil edirdi. Plotinin *Vahidi* tanrıdır. Məsələyə bu cür yanaşılırsa, onda dünyada olan çoxluq və müxtəlifliyi izah etmək lazım olur. Yəni, əgər bütün varlıq Vahidin törəməsidirsə və onunla vəhdət təşkil edirsə, onda o digər varlıqlarla eyniləşməli, bərabərləşməli, qarışmalı yoxsa öz fərdiliyini saxlamalıdırmı?

Bu suala cavab verən Plotin Vahidi fərdiləşdirmiş, onu bütün digər şeylərdən ayıraraq üstün tutmuşdur. Ancaq belə olduqda Vahid dərk olunmaz, duyulmaz və görünməzdir. Hətta, onun var olması belə sual altına qoyulur. Bu da Plotinin fikrincə təbiidir, çünki Vahidin var olması iddiası onu müəyyən çərçivəyə salınması, zaman və məkanda təsəvvür edilməsi deməkdir. Beləliklə, Vahiddən hər şey törənir, ancaq o özü hansısa forma ya da çərçivə anlayışlarına sığmır. Çünki O, bütün varlıqlardan və təfəkkürdən daha üstündü, dərk olunmazdır (8, 616-617). Eyni zamanda, Plotin Vahidi günəşin, işığın, istinin, xeyrin mənbəyi hesab edirdi.

Hər bir anlayışdan uca olan Vahiddən hər bir şey törənir, doğulur. Monoteizmdə olan Tanrıdan fərqli olaraq Vahidin heç bir istək və iradəsi yoxdur. Dünyanın doğuşu (törəməsi) prosesi obyektiv bir hadisədir, kiminsə iradəsindən asılı deyildir. Bu törəmə ***emanasiya*** (axma, tökülmə) adlandırılır. Emanasiyanı Plotin Vahiddən ayrılan ışıq (nur) şəklində təsəvvür edirdi. İşıq mənbəyinə

yaxın olduqca parlaqlaşır, ondan ayrıldıqca isə tədricən sönür və qaranlığa çevrilir. Vahiddən törənən çoxluq heç də onun azalmasına və ya kiçilməsinə dəlalət etmir. O olduğu kimi bir ideal olaraq qalır.

Emanasiya nəticəsində Vahiddən daha iki substansiya (*hipostasis*) yaranır. Birincisi ***Əqldir***. Vahiddən fərqli olaraq o artıq mövcuddur. Əql özünü dərk edir. Plotinin Əqli Platonun ideyalar aləminə bənzəyir. O, bütün ideyaların cəmidir.

İkinci substansiya isə ***Ruhdur***. Vahiddən ayrılan İşıq bütövlükdə Əql tərəfindən mənimsənilmir. Ona görə İşıq hərəkətini davam edir və bunun nəticəsində Ruh yaranır. Eyni zamanda, onu Əql doğur. Ruh hər şeyin yaradıcısıdır. O bütün canlıları onlara həyat üfürərək yaratmışdır. Ruhdan günəş, göy və başqa kosmik cisimlər yaranmışdır. Eyni zamanda, Ruh hər şeyi hərəkətə gətirir (hərəkətverici qüvvədir). (8, 371)

Ruh iki tərkib hissədən ibarətdir. Birincisi ***səmavidir***; Əqlə yaxındır və maddi aləmlə əlaqəsi yoxdur. İkincisi isə ***dünyəvidir***; maddi aləmlə əlaqəlidir və təbiətin bütün proseslərini həyata keçirir. (8, 435-436)

Beləliklə Ruh, səmavi və yüksək qüvvələrlə dünyəvi qüvvələrin əlaqələndiricisidir. Ruhda ideyalar əks olunur. Plotinin təlimində yuxarıda göstərilən üç substansiya (Vahid, Əql və Ruh) ***hipostasis*** (yun. *ὑπόστᾰσις*) adlanır. Yəni hipostasis birliyin üzvlərinin hər birisidir. Vahid tanrı Uran, Ruh tanrı Zeus, Əql isə Kosmosla eyniləşdirilir. Əqldə yaşayan ideyalar da tanrılardır.

Təbiətə gəldikdə onun ən yetkin tərəfi Ruhun aşağı təbəqəsidir. Əqldə cəmləşən ideyalar bu təbəqədə konkret şeylərdə təzahür olunur. Əslində isə şeylər ideyaların əks olunmasıdır. *Fenomenal*[96] aləmdə Ruh hissəciklərə bölünür və hər şeyin əsasını, canını təşkil edir. Beləliklə, hər şeyin ruhu vardır: o cümlədən planetlərin və yerin. Yerin ruhundan bitkilərin və heyvanların ruhları; eləcə də insan ruhunun *aşağı*, qaranlıq hissəsi yaranır. Bu hissənin vasitəsi ilə insanlar dünyaya bağlı olurlar, ağırlaşırlar.

Təbiət dünya Ruhunun qaranlıq hissəsidir. Onun ən alçaq hissələri isə materiyadan yaranır. Materiya (maddə) Plotin fəlsəfəsində yoxluqdur. Ancaq materiya mütləq yoxluq deyil, sadəcə var olan şeydən fərqli bir şeydir (8, 67-68). Materiya əbədidir, ancaq Vahidlə birlikdə mövcud olan ikinci ilk substansiya deyildir. Buna görə də, Plotinin materiya haqqında fikirləri ziddiyyətlidir. O Vahiddən törənir və ondan ayrılan işığın sönməsinin nəticəsidir. Deməli, materiya zülmətdir (qaranlıqdır) və şərlə, hətta yoxluqla eyniləşir. Vahid isə xeyirdir.

Yuxarıda qeyd edildiyi kimi Plotinin fəlsəfəsində Vahid enərək çoxluğun yaranmasına səbəb olur. Ancaq çoxluq da Vahidə tərəf yönəlir, onunla qovuşmağa can atır. Bu cür yönəlmə insanda daha da çox təzahür olunur. *İnsan ruhu dünya Ruhunun hissəciyidir*. Onun *yüksək* və *aşağı* hissəsi vardır. İnsanların çoxusunda ruhun aşağı hissəsi üstünlük təşkil edir və onlar həddən artıq şərin təcəssümü olan materiyaya bağlanırlar. Ancaq, hər bir insan özündə

---

[96] **Fenomen** (yun. *φαινόμενον* – olay) – duyğularla hiss edilən hər bir şeydir.

ruhun yüksək hissələrini duyub inkişaf etdirə bilər. Bu isə ***ekstaz*** halında mümkündür. Ekstazda ruh artıq bədənlə özünü eyniləşdirmir və ondan müstəqil şəkildə varlıq qazanır. O Vahidə can atır, onunla qovuşur, onda əriyir. Ekstaza çatmaq üçün mənəvi həyat sürmək lazımdır. Plotin ruhların köçməsinə də inanırdı.

Plotinin təlimi sonrakı orta əsr Avropa və Yaxın Şərq fəlsəfi fikrinə çox böyük təsir göstərmişdir. Avqustin, Boesius, Fərabi, İbn Sina kimi filosofların təlimlərində Plotinin ideyalarından istifadə edilmişdir. Onun varlıq haqqında baxışlarını bu və ya digər dərəcədə ən tanınmış düşünürlər öz təlimlərində tətbiq edib inkişaf etdirmişdirlər.

Başqa tərəfdən Plotinin təlimi sonralar müxtəlif dini-mistik təlimlərin yaranmasına təkan vermişdir. Yəhudi (Kabbala), Xristian (İsihazm) və İslam (Təsəvvüf) mistisizmi ondan bəhrələnərək təlim halına gəlmişdirlər.

Yeni-platonçuluğun Roma məktəbinin daha bir tanınmış filosofu **Porfirius** (yun. *Πορφύριος*, m. 232 – 304) olmuşdur. O, Plotinin öyrəncisi olmuş, onun həyatını qələmə almış, əsərlərini (o cümlədən "Enneadalar"ı) toplamış və yaymışdır. Bundan başqa Porfirius yetmişdən çox fəlsəfi əsərin müəllifi olmuşdur. Onların çoxusu bizim zamanımıza gəlib çatmamışdır.

Hal-hazırda onun əsərlərindən ən tanınmışı ***"Aristotelin kateqoriyalarına giriş və şərhlər"*** kitabıdır. Bu kitabda Porfirius məntiq problemlərinə toxunurdu. O yazırdı ki, hər bir şey həmin şeyin müəyyən növünə aiddir. Növlər isə ona yaxın olan növlər və

cinsləri təşkil edir. Ancaq, növlər arasında fərqlər vardır. Buna görə hər bir şeyi cins, növ və növ fərqi xarakterizə edir. Eyni zamanda, hər bir şeyin ona məxsus, keçici və təsadüfi olan əlamətləri də vardır.

Sonra Porfirius ümumi şeylərin necə mövcud olması sualını ortaya qoyur. Yəni növlər və cinslər fərdlərdən fərqli olaraq varlıqlardır, yoxsa onlar yalnız düşüncənin məhsuludurlar? Əgər ümumi şeylər düşüncədən kənar mövcuddurlarsa, onda onların təbiəti nədir: ruhdur yoxsa materiyadır? Onlar fərdlərin bədənlərində yaşayırlar, yoxsa onlardan fərqli varlıqdırlar? Beləliklə, orta əsrlərdə müzakirələr səbəb olan ***ümumi anlayışların*** var olub-olmaması problemini ilk dəfə Porfirius səsləndirmişdir. (6, 5-15)

Porfiriusun ikinci məşhur əsəri "***Sentensiyalar***"[97] (lat. *Sentenze sugli intellegibili*) adlanır. Bu əsərdə Porfirius ruhun xilas olmasının yolları haqqında fikirlər irəli sürmüş, bunu da bədəndən ayrılmada, ehtiraslardan təmizlənməsində və Tanrıya (Əqlə) qayıdışda görmüşdür. Bədən ruhu saxlaya bilməz, o özü-özünü bədənə bağlayır. Çünki, o duyğular aləminə yönəlir və özünü onunla eyniləşdirir. Belə olduqda ruh özünü duyğu orqanları vasitəsi ilə göstərir. Ona görə ruh bədəndə deyil, bədən ruhdadır demək daha doğrudur (13, 48-49).

Ruhun Əqlə qayıtması üçün ona özəl bilik olan ***"qnosis"*** lazımdır. Ruh Tanrıdan ayrı da deyil, o hər yerdə var və eyni zamanda heç yerdə yoxdur. Qnosisə çatan

[97] **Sentensia** (lat.) – nəsihət yönümlü sözdür. Mənası aforizmə çox yaxındır.

insan Tanrını hər zaman duyur. Tanrı hər yerdə olsa belə, o cahil insan üçün yox kimidir.

Öldükdən sonra "qnosisə" çatmayan ruh Tanrıya qayıtmır, o yenə də özünü duyğular aləminə yönəldir, kabusa çevrilir və bu yaşam da əslində ***Aiddir*** (cəhənnəmdir) (13, 55-56). Filosoflar isə başqa cür ölür. Onların ölümü təbii qocalmadan və xəstəliklərdən öncə baş verir. Bunun üçün onlar ehtiraslardan azad olmalı, özlərini bədənlə eyniləşdirməməli, öz həqiqi təbiətinə qayıtmalıdırlar (13, 49). Belə olduğu halda onlar Tanrıya qovuşurlar. İnsanların, tanrıların, demonların, heyvanların və bütün canlıların ruhlarının təbiəti birdir.

Porfirius həm də ***Xeyrin növləri*** məsələsinə diqqət yetirmişdir. Onlar ruhun kamilliyə çatması (qnosis) üçün pillələrdir. Birinci pillə *vətəndaşların xeyirləridir*. Onları özündə tərbiyə edənlər mənfi ehtiraslarının qarşısını ala bilərlər. İkincisi pillə *katarsis halına çatmışların xeyirlərdir* ki, bunu ruhu yüksəklərə yönəlmişlər özündə tərbiə edir. Bu da dünyaya bağlılıqdan uzaqlaşaraq, yüksək ideallara doğru yönəlməkdir. Üçüncü pillə *ruhi xeyirlərdir*. Onlar bu təmizlənməni pozitiv aspektlərlə təkmilləşdirir, ruhu ilk səbəbə (Tanrıya) yönəldir. Dördüncü pillə isə *mənəvi* (yaxud əqli) *xeyirdir*. O, bütün xeyirlərin ilk obrazını (paradiqmasını) təşkil edir, bütün xeyir növlərini özündə birləşdirir. (13, 57)

Porfirius Roma imperiyasında yayılan Xristianlığa qarşı şiddətli tənqidlərlə çıxış etmiş, bu mövzuya həsr olunmuş 15 cilddən ibarət ***"Xristianlara qarşı"*** (lat. *Contra Christianos*) adlı külliyyatını yazmışdır. Bu kitabda

Porfirius, *Əhdi-Ətiqi* və *Əhdi-Cədidi* çox ciddi elmi tənqidə məruz qoyurdu. O, ilk dəfə iddia etmişdi ki, Tövratın müəllifi Musa ola bilməzdi. Onun yazdığına görə Musanın Tövratı yəhudi məbədi ilə birlikdə Qüdsü ələ keçirmiş Babil kralı Buhtunnəssarın əskərləri tərəfindən yandırılmışdır. Yəhudi və xristianlarda olan nüsxələri isə Musadan 1180 il sonra Ezdra (Üzeyir) yazmışdır (22, 349). Daha sonra o, *"Daniel"* kitabının qədim zamanlarda deyil, Suriya kralı Antioxus Epifanes dövründə (m. ö. 165) yazılmasına dair dəlillər irəli sürmüşdür (1, 71-83). Porfirius İncillərdə olan ziddiyyətləri qabarıq şəkildə ortaya qoymuş və İsanın tanrılaşdırılmasına qarşı çıxış etmişdir.

Xristianlığın tənqidi kilsə xadimlərinin etirazları ilə qarşılanırdı. Porfiriusun dəlillərini təkzib etmək üçün onlar çoxlu kitab yazmışdırlar. Daha sonra təəssübkeş xristianlar onun "Xristianlara qarşı" külliyyatını 448-ci ildə tonqallarda yandırmışdılar. Ancaq, onun bəzi hissələri bizim zamanımıza kilsə xadimlərinin müxaliflərə qarşı yazdığı rəddiyyə əsərlərində gəlib çatmışdır.

Porfirius dinin tənqidinin fəlsəfi və elmi əsaslarını qoymuşdur, buna görə də o, dinşünaslıq elminin əsasını qoyan sələflərindən biri kimi tanınmaqdadır. Onun metodlarından sonralar bütün din tədqiqatları istifadə etmişdirlər.

Yeni-platonçuluğun Roma məktəbinin filosoflarından biri **Amelius** (yun. *Ἀμέλιος,* lat. Amelius; III yüzillik) olmuşdur. O, Plotinin öyrəncisi idi və bir çox zamanımıza çatmayan kitabların müəllifi olmuşdur.

Amelius Plotinin irəli sürdüyü bəzi anlayışları üçlükdə təsəvvür edirdi. Belə ki, Amelius *Demiurqos* (ikinci yaradıcı) kimi təsəvvür edilən Əqli üçlükdə görürdü. Üçlüyün birinci üzvü (*hipostasisi*) Əqlin özüdür. İkinci hipostasis birincini, üçüncü isə ikincini dərk edir. Bunlar da Platonun "Timeus"unda söhbət açılan üç krallardır (demiurqoslardır): *Fanet* (varlığın əsası), *Uran* (hər şeyin sahibi) və *Kronos* (hər şeyi görən tanrı) (14).

### 2.8.2. Apameya məktəbi

Apameya şəhərində yerləşən yeni-platonçuluğun ***Suriya məktəbinin*** ən tanınmış nümayəndəsi və yaradıcısı **Yamblix** (yun. *Ἰάμβλιχος,* təxminən m. 245 – 325) olmuşdur. Yamblixin soyu Suriyanın Xalkida şəhərindən idi. O, Romada təhsil almış, Porfiriusun öyrəncisi olmuş, sonra isə Suriyanın Apameya şəhərində fəlsəfədən dərs demiş, bir sıra kitabların müəllifi kimi tanınmışdır.

Yamblix Plotinin davamçısı olaraq onun ***Vahid-Əql-Ruh*** üçlüyü haqqında monistik təlimini bir qədər fərqli şəkildə təsəvvür edirdi. Məsələn o, Vahidi ikiyə bölmüşdür. Plotində olduğu kimi, *Birinci Vahid* hər bir varlıqdan daha ucadır. *İkincisi* isə özündən sonra gələn hər şeyin başlanğıcıdır. Yamblix burada Vahid-Əql və Vahid-çoxluq arasında keçid mərhələsini qurmuşdur. Bu bölgünü ona görə etmişdir ki, bir tərəfdən hər şeyin başlanğıcı olan Tanrı sonsuz olaraq uzaqlarda təsəvvür edilir. Başqa tərəfdən isə o bu dünyada var və hər şeyi

yaradır. Vahid tanrının ikiyə bölünməsi ilə Yamblix bu ziddiyyəti aradan qaldırmaq istəmişdir.

Bu quruluşu Yamblix Əql anlayışına da aid edirdi. Onun fəlsəfəsində Əql də ikiyə bölünür. Birincisi hər bir var olan şeyin paradiqmasıdır (ilk obrazıdır), ikincisi isə ideyaların toplusudur. Bu kimi görüşlə Yamblix yenə də keçmiş platonçuların ziddiyyətlərini çözmək istəmişdir. Çünki, Əqldə ideyaların olmasından öncə onların ilk obrazları düşünülməli idi. Buna görə də, Yamblix bu ziddiyyəti həll etmək üçün Əqli iki hissədən ibarət təsəvvür edirdi.

Hər şeyin paradiqması olan birinci Əqlin tərkibi bir deyil, *ata* (varlıq) – *güc* (varlığın mümkünlüyü) – *əqlin özü* (varlığın həqiqiliyi kimi, onun mümkünlüyünün düşünülməsi) üçlüyündən ibarətdir (15, 23-30). Bu üçlüyün hər bir üzvü ayrıca varlıq və tanrılardır.

Bu cür bölgünü Yamblix ikinci Əqlə, sonra Ruha və onun hissələrinə də aid edirdi. Beləliklə, onun təsəvvüründə dünyanın üstündə duran Vahidə, Əqlə və Ruha aid tanrılar panteonu yaradılmışdır. Onların ardınca dünyanın içində olan tanrılar gəlir. Bu tanrılar isə öz növbəsində 12 göy tanrısına bölünürlər. Bu tanrılar da 36, onlar isə 360 tanrıya bölünür (27). Eyni zamanda, Yamblixa görə Tanrının birliyi və tanrıların çoxluğu arasında fərq də yoxdur. Çünki, bir olan yaradan çoxlu sifətlər və adlarda təzahür olunur. Onlar tanrılar kimi sayılsa da, bir Tanrının hissəcikləridir. Beləliklə, Yamblix göylərdən başlayan və yerdə bitən bir ardıcıl düzən

qurmuşdur. Bu düzəndə hər bir hissə öncəkinə tabe olur, ondan doğur. Buna da *iyerarxiya* deyirlər.

Yamblixə görə ideyalar da şeylərdən fərqlidir. Sadəcə şeylər onun bəzi özəlliklərini əks etdirir. Bu yansıma ideya haqqında qismən bilgi verir və sonludur. İdeya isə əbədi olaraq yaşayır. Deməli, hər bir şeyin əbədi və “yansıyan” (əks olunan) varlığı vardır. Maddi dünyada olan hər şey dünya Ruhundan yaranırsa, deməli o da ikiyə bölünür. Biri "təmiz" Ruhdur ki, onun bu dünyada "yansıması" yoxdur və o ideal aləmə yönəlir. Dünyada olan "yansımalar" ancaq dünya Ruhunun ikinci hissəsindən əmələ gəlir (26). Ola bilsin bu bölgü hansısa daha qədim dini inanclar, magiya və astrologiya əsasında yaranmışdır.

Yenə Yamblixə görə insan və heyvan ruhlarının təbiəti bir-birindən fərqlənir. İnsan ruhu düşüncə ilə qavranılan təbiətlə bağlantıdadır. Bu keyfiyyət heyvanlara aid edilə bilməz.

Porfirius kimi Yamblix də *teurgiya* ilə məşğul olurdu. Onun tanrılara ibadət edən zaman yer üzərində qalxması, işıq saçması haqqında əfsanələr gəzirdi (5, 363-373). Yamblixin fikrincə heykəllər tanrı deyillər və onlara ibadət etmək olmaz. Ancaq kahin zikr, qurbanlar və başqa mistik aktlarla göy tanrılarından aldığı gücü heykəllərə və başqa maddi obyektlərə ötürüb onları tanrılaşdıra bilər. Beləliklə, kahinin fəaliyyətindən sonra tanrı ruhu heykəllərə və başqa maddi şeylərə keçə bilər.

Göründüyü kimi Yamblix tənəzzülə uğrayan və Xristianlıqla artıq rəqabət apara bilməyən çoxtanrılığın

(politeizmin) dirçəldilməsi üçün yeni ideyalarla çıxış edirdi. Bunu edərkən o, qədim yunan-roma fəlsəfəsini mifləşdirmiş, onu müxtəlif mistik təlimlər və teurgiya ilə qarışdırmışdır.

Yamblixdən sonra Apameya məktəbinə onun öyrəncisi ***Apameyalı Sopater*** (yun. *Σώπατρος ὁ Ἀπᾰμεύς*, m. IV yüzillik) başçılıq etmişdir. O, müəlliminin irsini davam etdirmiş, zamanının ən bacarıqlı natiq və müəlliflərindən biri olmuşdur. Ancaq onun fəlsəfi görüşləri haqqında zamanımıza demək olar heç bir məlumat çatmamışdır. Tarixçi *Eunapius*[98] onun haqqında yazırdı ki, o Xristianlıqla rəqabət edən antik dinin dəyişdirilmiş təlimini Romada yaymaq istəmişdir (5, 379-391). Bir müddət imperator I Konstantin də onun təsiri altına düşmüşdür. Ancaq, sonra saray xadimləri Sopater haqqında mənfi rəy yarada bilmiş və o, imperatorun əmri ilə edam olunmuşdur.

**Deksippus** (yun. Δεξίππος, m. IV yüzillik) və **Asinalı Teodorus** (yun. *Θεόδωρος ὁ Ἀσίνεύς* təxminən m. 275 – 360) da Yamblixin ardıcıllarından olmuşdurlar. Ancaq, onların yaradıcılığı haqqında dövrümüzə çox az məlumat çatmışdır.

### 2.8.3. Perqama məktəbi

Daha bir yeni-platonçu məktəb Perqamada fəaliyyət göstərmişdir. Bu məktəbin **Kappadokiyalı**

98 Rus ədəbiyyatında *Yevnapiy (Евнапий)*'dir.

**Eustathius** (yun. *Εὐστάθιος Καππᾰδόκης,* m. IV yüzillik), **Efesli Maksim** (lat. *Maximus Ephesius,* ölüm ili m. 377/378) kimi nümayəndələri də Yamblix kimi mistika, teurgiya və hətta cadugərliklə məşğul olmuşdurlar. Ancaq, fəlsəfəni bu istiqamətə yönəldənlərə qarşı çıxanlar da olmuşdurlar. Onlardan biri həmin məktəbin ardıcılı **Mindioslu Eusebius** (yun. *Εὐσέβιος Μύνδιος,* m. IV yüzillik) idi. O, cadugərlik və teurgiyaya qarşı çıxış edərək deyirdi ki, həqiqət dialektik mülahizələrdə açılır. Fəlsəfənin məqsədi isə insanı məntiqə yönəltmək və onun beynini təmizləməkdən ibarətdir.

Yeni-platonçuluğun Perqama məktəbinin tanınmış nümayəndələrindən biri **Sallustius** (lat. *Sallustius,* IV yüzillik) olmuşdur. Onun kimliyi haqqında bilgi yoxdur. Ancaq, Sallustiusdan zamanımıza ***"Tanrılar və dünya haqqında"*** çox önəmli bir əsər gəlib çatmışdır. Burada yeni-platonçuluq təliminin ontoloji əsasları sistemli və anlaşıqlı şəkildə verilmişdir.

Sallustiusa görə bütün şeylər *kosmosdan yüksək qatlarda olanlara* və *kosmik varlıqlara* bölünürlər. Kosmosdan yüksək qatlarda olan hər bir şeyin əvvəlində *İlk başlanğıc* durur; onu dərk etmək mümkün deyildir(9, 24-27).

Kosmik tanrılar isə onikidir və üçlüklərə bölünürlər (9, 28-31). Üçlüklərdən birincisi dünyanı yaradanlar (*Zeus, Poseidon, Hefestos*), ikincisi onu ruhlandıranlar (*Demeter, Hera, Artemis*), üçüncü ona düzən verənlər (*Apollon, Afrodita, Hermes*), dördüncüsü isə onu qoruyanlardırlar

(*Hestia, Afina, Ares*). Digər tanrılar isə bunların xidmətində duranlardırlar.

Hava, günəş, ay və planetlər kimi Kosmik dairələr də onikidir və onların hər biri bu əsas tanrılarla bağlıdırlar. Bütün kainat tanrılar kimi əbədidir, onu heç kəs yaratmamışdır. Tanrılar *imkandır,* dünya isə o *imkanın gerçəkləşməsidir*. Deməli, dünya və tanrılar birlik təşkil edirlər.

Sallustiusa görə tanrılar ideal aləmdədir və onların məkanında şər yoxdur. Dünyada isə şər ona görə vardır ki, həmin ideal dünya burada tam olaraq əks olunmur, olunsa da onun işığı bu aləmə qismən çatır.

İnsan o tanrılara ibadət etməli, qurbanlar kəsməlidir ki, onlar onun ehtiyaclarını ödəsin. Tanrıların isə insanların ibadətlərinə ehtiyacı yoxdur. Onların razılığını qazanmaq üçün insan həm də xeyirli həyat sürməlidir. Bu kimi insanların ruhları ölümdən sonra məmnunluqla dolu həyat sürəcəkdir.

Sallustius əsatirlərin yorumlanması və anlaşılması probleminə də toxunmuşdur. Onun fikrincə eyni əsatiri ilahiyyat, təbiət, mənəviyyat, maddiyyat və bunların qarışığı baxımından yorumlamaq olar. Məsələn, bir əsatirə görə yunan tanrısı Kronos öz balalarını yemişdir. Bunu *ilahiyyat baxımından* izah edərkən bu olay Əqlin özünün özünə qayıtması deməkdir, çünki burada məcaz var və Kronos Əqlin təcəssümüdür. Həmin əsatiri *təbiət* (fiziki) *baxımından* izah etdikdə Kronosun öz balalarını yeməsi zamanın dünyada hər şeyi aşındırması kimi başa düşülməlidir. Əsatiri *mənəvi baxımdan* izah etdikdə isə

Kronosun öz balalarını yeməsi onun mənəviyyatının özündə qalması deməkdir. *Maddi yorumlara* gəldikdə onu bilmək lazımdır ki, daşlar ya da heyvanlar kimi maddi şeylər tanrı deyillər, onlar hansısa tanrıları yalnız təcəssüm edə bilərlər. (9, 13-23)

Perqama məktəbinin daha bir tanınmış nümayəndəsi isə Roma imperatoru **Yulian** (lat. *Flavius Claudius Iulianus Augustus*, 332 – 363) olmuşdur. Onun hakimiyyətə gəlməsindən öncə Xristianlıq dövlət dininə çevrilmişdir. Bundan sonra bütpərəst sayılan antik inanclar və fəlsəfələr təqiblərə məruz qalmışdır. Yulian isə bu prosesin qarşısını almağa çalışmışdır. O öncə xristian olmuş, ancaq sonra antik inancları qəbul edərək *Yamblixin* və *Efesli Maksimin* öyrəncisi olmuşdur. Buna görə də ona xristian ənənəsində ***Dinindən Dönmüş Yulian*** deyirlər.

Öz qısa hakimiyyəti dövründə (m. 361 – 363) Yulian bütün dinlərin bərabərliyini elan etmişdir. Yulianın əmrinə əsasən xristianlar bütpərəstlərdən ələ keçirtdikləri məbədləri və əmlakı kahinlərə qaytarmalı və məktəblərdə tədris sistemindən uzaqlaşdırılmalı idilər. Onun məqsədi Xristianlığın təqibi deyil, onunla rəqabət apara bilən islahatlardan keçmiş antik dinin bərpa edilməsi idi. Ancaq, Yulian bu məqsədə çata bilməmişdir. Az sonra o İranla aparılan savaşda döyüşlərin birində öldürülmüşdür. Onun həmin döyüşdə öz xristian döyüşçüləri tərəfindən öldürüldüyü də güman edilir. Yulianın ölümündən sonra Xristianlıq yenidən dövlət dininə çevrilmiş və bu proses artıq geriyə dönməz olmuşdur. (25)

Xristianlığın güclənməsi zamanı yaşayan Porfirius, Yamblix, Proklus kimi yeni-platonçular antik dini zəmanəyə uyğunlaşdırmağa çalışırdılar. Onlar təktanrılığı özlərinə məxsus şəkildə təqdim etmiş, mənəvi və əxlaqi məsələlərə toxunmuşdular; bununla belə antik irslə bağlılıqlarını kəsməmiş, mistik fəlsəfələrə və teurgiyalara önəm vermişdilər.

Bir çox Şərq dinlərində günəş tanrılaşdırılırdı. O zaman Romada *Mitra* adlı İran tanrısının qnostik kultu yayılmış, bu din orduya və Romanın hakim dairələrinə nüfuz etmişdir. Yulian da günəşi tanrı hesab etmiş, onu təbiətin əsası və həyatın mənası kimi dəyərləndirmişdir. Ancaq onu gördüyümüz çıxan və batan günəşlə eyniləşdirmirdi. Yuliana görə gördüyümüz günəş həqiqi tanrı işığının qismən yansımasıdır (əks olunmasıdır). Həmçinin Yuliana görə ümumiyyətlə bizim gördüyümüz dünya həqiqət deyildir. Həqiqətə çatmaq üçün şeylərin həqiqi mahiyyətinə varmaq lazımdır. Mənəvi təkmilləşmə də bundan ibarətdir. Onun bu yanaşması Platonun ideyalar haqqında təliminə uyğun idi. Plotinin emanasiyasına uyğun olaraq Yulianın təlimində bütün tanrılar və mövcud olan varlıq günəş işığından yaranır. (18, 454-471)

Yulian zamanımıza yalnız bəzi ***"Xristianlara qarşı"*** kitabından fraqmentlər gəlib çatmışdır. Bu kitabda o, xristian rəvayətlərində olan məntiqi ziddiyyətləri açıqlayaraq Xristianlığın Tanrıdan gəlmədiyini sübuta yetirmək istəmişdir. Eyni zamanda o, yunan dinində də çoxlu məntiqsizliklərin və nağılların olduğunu etiraf

etmişdir. Onun fikrincə yalnız Platon Tanrı, dünya və insan haqqında ən yetkin fikirlər irəli sürmüşdür. Yulian bu əsərdə Platonun fikirlərini Tövratın ayələri ilə müqayisə edərək onların yəhudi rəvayətlərindən daha üstün olduğunu iddia etmişdir. (22, 346-392)

### 2.8.4. Afina məktəbi

Afina şəhərində neoplatonçuluq məktəbinin yaradıcısı **Afinalı Plutarx** (yun. *Πλούταρχος ὁ Ἀθηναῖος*, ölüm ili m. 431) olmuşdur. O, Aristotelin və Platonun əsərlərinə şərhlər yazmış, ancaq onun əsərləri dövrümüzə gəlib çatmamışdır. Onun yaradıcılığı haqqında yazan başqa müəlliflərə görə öz əsərlərində Plutarx Artistotel və Platonun fəlsəfələrini bir-birinə uyğunlaşdırmağa çalışmışdır.

Plutarx Plotinin və ümumiyyətlə yeni-platonizmin *Vahid-Əql-Ruh* üçlüyü haqqında təliminini təkmilləşdirmiş, onu Platonun "Parmenides" dialoqundakı ***hipotezlərinə*** uyğunlaşdırmışdır. Plotində bu üçlüyün maddə və dünya ilə necə bağlı olduğu dəqiq verilməmişdir. Buna görə də, Plutarx varlıq haqqında baxışlarında bu üçlüyü əsas götürərək ona maddənin ***eidosunu*** (yun. *εἶδος* – ideyasını) və özünü əlavə etmişdir. Bundan başqa Plutarx Platonun "Parmenides" dialoquna uyğun olaraq buraya başqa hipotezlər də əlavə etmişdir. (18, 7-11)

Plutapx həm də fantaziya haqqında fikirlər irəli sürmüşdür. O hesab edirdi ki, duyğularla duyulan şeylər

bizim hisslərimizi, hisslər isə duyğulardan gələn təsəvvürlərimizi oyadır. Bu təsəvvürlərdə təkcə duyğularla hiss edilmiş şeylər deyil, həm də onların formaları və qəlibləri əks olunur. Duyğusal şeylər düşüncədə həkk olunan zaman orada fantaziya ortaya çıxır. Deməli, fantaziyalar tam mənada obrazlar deyil və onlar duyğu orqanları ilə də hiss edilmirlər. (18, 7-11)

Yeni-platonçuluğun Afina məktəbinin ən görkəmli nümayəndəsi isə **Proklus Diadoxus** (yun. *Πρόκλος ὁ Διάδοχος*, lat. *Proclus*; m. 412 – 485) olmuşdur. O, Platon Akademiyasının rəhbəri (skolarxı), neoplatonizm məktəbinin sonuncu ən tanınmış nümayəndəsi hesab edilir. Onun öyrənciləri yazırdılar ki, o çoxlu tanınmış müəllimlərdən dərs almış, müdriklik məqamına çatmış, çoxlu ibadətlər etmiş, ailə qurmamış və abid həyatı sürmüşdür (12).

***"İlahiyyatın ilk əsasları"*** (yun. *Στοιχείωσις θεολογική*), ***"Platon ilahiyyatı"*** (yun. *Περὶ τῆς κατὰ Πλάτωνα θεολογίας*), ***"Fizikanın başlanğıcı"*** (yun. *Στοιχείωσις φυσική*) kimi kitabların, eləcə də Platonun "Timeus", "Parmenides", "Alkibiades", "Kratilus" əsərlərinə edilən şərhlərin müəllifi olmuşdur. Ancaq onun əsərlərinin çoxu bizim zamanımıza qədər gəlib çatmışdır.

Digər neoplatoçular kimi Proklus da dünyanı Vahidin (tanrının) emanasiyası kimi təsəvvür edirdi (21, 17-18). O, emanasiyanı *triadik* (üç mərhələli) inkişafda görürdü. Ancaq, bu inkişaf əslində tənəzzül demək idi, çünki o əks istiqamətdə inkişaf edirdi: kamildən naqisə, işıqdan qaranlığa olan kimi. Triadik hərəkətin *birinci*

*mərhələsi* Vahiddə yerləşmişdir (21, 10). Bu o deməkdir ki, törənən şey törədəndə olmuşdur. *İkinci mərhələ* o şeyin Vahiddən axaraq çıxmasıdır. *Üçüncü mərhələ* isə törənənin törədiciyə qayıtmasıdır (21, 33-38).

Ümumiyyətlə, Proklus, üçlük ideyasını (triadanı) varlığın bütün aspektlərinə aid etmişdir. Onun tanrılaşdırdığı varlıq Vahid-Əql-Ruh üçlüyündən ibarətdir. O hər şeyin əvvəlidir, hər şeydən ucadır, dərk olunmaz və sözlə ifadə edilməzdir.

Vahiddən doğan emanasiyanın (işıqsaçmanın) sonu olaraq çoxluq yaranır. Bunlar da ***"henada"*** adlanan vahidlərdir (13). Bu henadalar tanrılar kimi təsəvvür edilir və ideal aləmdə olan ilk çoxluğun mərhələsini təşkil edirlər.

Proklusun ikinci üçlüyü olan *Əql* də üçə bölünür. Öncə o özü-özündə mövcuddur; bu düşünülən Əqldir (*noetoy*). Sonra əql özü-özündən çıxır və özü-özünü düşünür (21, 118-119). Özü-özünü düşünən *noeroy*'dur. Sonda əqlin özü-özünə, noeroyun *noetoya* qayıdışı baş verir və sintez alınır. Bu mərhələdə daha sonra yeni üçlüklər yaranır. Onlar üçlüklərdən ibarət halqaları təşkil edirlər. Bu halqalar *hebdomada* (yeddiliklər) adlanır. Əqlin bu üçlüyü (triadası) yunan tanrıları *Kronos*, *Zeus* və *Reya* ilə eyniləşir. Hebdomadada olan üçlüklərin hər bir üzvü də bir tanrı ilə eyniləşir. Noetoy və noeroy da onlara tabe olan tanrılaşmış üçlüklərə bölünür.

*Ruha* da Proklus üçlük prinsipi baxımından yanaşırdı (21, 131-149). Deməli, dünya triadasının üçüncü tərkib

hissəsi olan Ruh öz növbəsində ilahi, demonik və insani üçlüyə bölünür. Onların hər birinin də öz bölgüsü vardır.

Bu dünya və materiya Proklusun fəlsəfəsində qaranlıqla (zülmətlə) eyniləşir (21, 59-60). Onlar işığın (nurun) yoxluğudur. Ancaq, Plotindən fərqli olaraq Proklus materiyanı şər kimi təsəvvür etmirdi. Ona görə bu dünya nə şər, nə də xeyirdir. Şərin səbəbi materiyada yox, aşağıdakı dünyanın uca olan idealdan ayrılmasında və uzaqlığındadır.

İşığa (nura) qayıtmaq, ona qovuşmaq üçün insan tanrıya tərəf yönəlməlidir. Proklusa görə bu yolda da üçlük vardır. Bu *Erot-Həqiqət-İman* triadasıdır. Tanrıya qayıdışın qüvvəsi elmi bilik deyil, *ekstaz* halıdır. *Erot* (məhəbbət cazibəsi) insanı ekstaz halına hazırlayır, həqiqət onu tanrıya yaxınlaşdırır, iman isə tanrı ilə qovuşdurur. Ancaq, bu kimi ekstatik hallar çox nadir durumlarda baş verdiyi üçün tanrı ilə tam qovuşma yalnız ölümdən sonra baş verir.

**Neapollu Marinus** (yun. *Μαρῖνος ὁ Νεάπολίτης*, təxminən m. 450 – 495) yeni-platonçuluğun Afina məktəbinin daha bir nümayəndəsi idi. O, yəhudi soylu olmuş, ancaq sonra ellin inancını qəbul etmiş, Proklusun öyrəncisi olmuşdur. Onun ölümündən sonra isə Afina Akademiyasına başçılıq etmişdir (2). O, həmçinin astronomiya və fəlsəfə sahələrində ciddi işlər ortaya qoymuşdur.

Marinusun bir neçə əsəri zamanımıza çatmışdır. Onlardan biri Euklides və Platonun əsərlərinə şərhlər idi. Ən tanınmış əsəri isə ***"Proklus və ya xoşbəxtlik haqqında"***

(3) adlı kitabıdır. Orada o, Proklusun həyatı, fəlsəfəsi, mənəviyyatı, xasiyyəti və başqa özəllikləri haqqında söhbət açmışdır. Marinusun fikrincə məhz Proklus xoşbəxtliyi həyatında əldə etmiş adam idi, bununla da o, hər bir kəs üçün bir örnəkdir. Bu baxımdan o, hətta *"kamil insan"* idi. Xoşbəxtliyi əldə etmək istəyən hər bir insan öz həyatını Proklus kimi yaşamalı, mənəviyyatını fəlsəfə üzərində qurmalı, ona təmənnasız yönəlməlidir.

Afina məktəbinin daha bir nümayəndəsi ***Kilikiyalı Simplikius*** (yun. *Σιμπλίκιος ὁ Κἰλίκιος,* lat. *Simplicius*; təxminən m. 490—560) olmuşdur. O, Platon və Aristotel təlimlərinin bir mənşədən gəldiyini iddia edirdi. Onun fikrincə bu filosofların fikirləri arasında fərq yalnız sözlərdə və ifadələrdədir. Simplikius öz əsərlərində Zenon, Empedokles, Anaksaqoras, Parmenides və bir sıra başqa qədim filosoflardan sitatlar gətirmişdir. Zamanımıza onun Aristotelin "Göy haqqında", "Fizika", "Kateqoriyalar" əsərlərinə şərhləri gəlib çatmışdır. Bundan başqa o, Yamblix və Epiktetus kimi filosofların da əsərlərinin şərhçisi kimi tanınmışdır. (23)

Afina fəlsəfə məktəbinin sonuncusu skolarxı (başçısı) ***Damaskius*** (yun. *Δᾰμάσκῐός;* təxminən m. 462 – 538) olmuşdur. O, Aristotelin bir sıra əsərlərinə şərhlər yazmış, onları platonçu ənənələrinə uyğunlaşdırmışdır. Bundan başqa onun ***"İlk başlanğıclar"*** kimi öz əsərləri də olmuşdur.

Damaskius neoplatonizmi daha da təkmilləşdirmişdir. O, Vahidin haqqında hər hansı biliyin əldə edilməsinin mümkünsüzlüyünü iddia edirdi. Onun

fikrincə insanlar onun barəsində yalnız öz fikirlərini irəli sürə bilərlər. Ona görə də şeylərin yaranması barəsində dəqiq bir fikir yürütmək mümkün deyildir. Onun təlimində *Vahid,* Yamblixın fəlsəfəsində olduğu kimi ikiyə deyil, üçə bölünür. Birinci Vahid mütləq, ikinci və üçüncü Vahidlər isə nisbətən dərk olunmazdırlar. Sonra varlığın vahidi olan *monada* ilə cütlük (*diada*) bir-birinə qarşı qoyulur və bu qarşıdurma nəticəsində mahiyyət ortaya çıxır. (16)

### 2.8.5. İskəndəriyyə məktəbi

Yeni-platonçuluğun İskəndəriyyə məktəbinin ən tanınmış nümayəndələrindən biri onun yaradıcısı **İskəndəriyyəli Hierokles** (yun. *Ἱεροκλῆς,* m. V-ci yüzilliyin ikinci yarısı) olmuşdur. O, bir çox əsərlərin müəllifi idi. Onlardan bəziləri günümüzə gəlib çatmışdır. Bizə çatmış əsərlərin ən tanınmışları pifaqorçuların ***"Qızıl şeyrlər"*** kitabına şərhlər və ***"Tale haqqında"*** əsərindən fraqmentlərdir.

Hierokles artıq Xristianlığın çox geniş yayıldığı dövrdə yaşamışdır. Ona görə də bəzi tədqiqatçılar hesab edirlər ki, onun fəlsəfəsində bu dinin ilahiyyatı neoplatonizm fəlsəfəsi ilə qarışmışdır. Ancaq, başqaları bununla razılaşmış və iddia edirdilər ki, Hieroklesin fikirləri Platon fəlsəfəsinin fərqli yorumudur.

Hierokles başqa neoplatonçulardan fərqli olaraq birinci və hər şeydən uca olan *İlk başlanğıcı* dünyanın yaradıcısı olan *Demiurqosdan* ayırmır və onları birlikdə

olan Tanrı kimi görürdü. Onun fikrincə maddə və dünya da əbədi olmamış, onları Tanrı öz iradəsinin və xeyrinin gücü ilə heç nədən yaratmışdır. Bu xristian ilahiyyatı ilə uyğunlaşan məqamlardır. Ancaq, Xristianlıqdan fərqli olaraq Hieroklesin Tanrısı hansısa anda dünyanı yaratmamışdır. Dünya və maddə elə Tanrının özündədir, onun təbiətinə uyğun hərəkət edir. Ona görə də yaradılış əbədi olaraq hər zaman baş verir. Bu bir işlək orqanizmə bənzəyir. (17, 20-21)

Hierokles Tanrı tərəfindən qurulan *qanunauyğunluq* (lat. *providentia*), *tale* və *insan azadlığı* problemləri üzrə düşüncələri ifadə etmişdir. Providentia hər bir şeyə uyğun olan yoldur. Tale isə bu yolda baş verən Tanrı hökmüdür. Bununla belə insanın hökmündə olan şeylər də vardır.

Hierokles providentia, tale və insan azadlığı haqqında söhbət açarkən Tanrının şərlə münasibətləri (*teodiseya*) məsələsinə də toxunmuşdur. Əgər şər maddədə və dünyadadırsa, onda onları yaradan Tanrı da ona bulaşmış olur. Deməli, Tanrını təmizə çıxartmaq üçün bir tərəfdən şərin özəl təbiətinin olması sübuta yetirilməlidir, başqa tərəfdən isə onun var olmasının məsuliyyəti insan üzərinə atılmalıdır. Tanrı dünyanı yaradıb və hər şey onun qoyduğu qanunauyğunluğa tabedir. Belə olmasaydı, onda dünyada düzən olmazdı. Ancaq bu o demək deyil ki, şər də Tanrı tərəfindən yaradılmışdır. (17, 49-62)

Şərin təbiəti ikilidir: biri *məruzqalan,* digəri *törədiləndir*. Məruzqalan şər xəstəlik, yaxınların itkisi, təbii fəlakətlər kimi hadisələrdir. Bunlar həqiqi şərlər deyil, çünki insan tərəfindən törədilmir, onun ruhuna ziyan

yetirmir (17, 49-62). Deməli, bunlar təbii axarla baş verən hadisələrdir, hansı ki bunlara şər deyildirlər.

Həqiqi şər isə insan tərəfindən düşünülmüş şəkildə törədilir (17, 49-62). Bu da ona verilmiş azadlıqdan irəli gəlir. Azadlığı isə ona Tanrı vermişdir ki, o öz əməllərinə görə sorumlu olsun. Deməli, insan taleyində onun günahları və onlara görə cəzalar da vardır. Beləliklə, Tanrı tərəfindən qurulmuş *providensia* insanı seçim qarşısında qoyur, onun seçimi isə *tale* olur.

Hieroklesə görə Demiurqos və materiya arasında iyerarxia vardır. Bunlar göy tanrıları, göy və yer arasındakı tanrılar, tanrı iradəsinin carçıları olan demonlar və insanlardır. Ruhların da iyerarxiası vardır. Ən yüksəkdə ayüstü məkanının ruhlarıdır; sonra ayaltı, daha sonra isə yerüstü və yerdə olan ruhlar gəlir. (18, 11-12)

Neoplatonizmin İskəndəriyyə məktəbinin skolarxlarından biri **Hipatia** (yun. *Ὑπᾰτία ἡ Ἀλεξάνδρεῖα,* m. 370 – 415) adlı bir qadın olmuşdur. Onun atası **Teon** (yun. *Θέων,* 335 – 405) məşhur İskəndəriyyə kitabxanasının sonuncu başçısı olmuşdur. Onun zamanında bu kitabxananın fəaliyyətinə imperator fərmanı ilə son qoyulmuşdur. Teon Euklidesin [99]

[99] **Euklides** (yun. *Εὐκλείδης*) – qədim yunan riyaziyyatçısı idi. Ruslar ona *Evklid (Эвклид)* deyirlər. Onun ən tanınmış əsəri olan ***"Başlanğıclar"***da (yun. Στοιχεῖα, lat. *Elementa*) antik həndəsə və riyaziyyatın bütün nailiyyətləri qələmə alınmışdır. Bu kitabla Euklides həmin elmlərin gələcək inkişafına təkan vermişdir.

***“Başlanğıclarını”*** redaktə edib dərc etmiş və Ptolemeusun “Almagets”[100] əsərinə şərhlər yazmışdır.

Hipatia riyaziyyatçı, astronom və filosof idi. O, alimliyi ilə tanınmış və müəllimlik etmişdir. Çox ağıllı və bilikli, hamı üçün ünsiyyətə açıq və sadə qadın olmuşdur. Fəlsəfəni öyrənmək istəyənlər onun dərslərinə gəlirdilər. (10, 403-404)

O dövrdə Xristianlıq Romada hakim dinə çevrilmişdir. Dini fanatizm bütün imperiyanı bürümüş, xristianlar bütpərəst saydıqları antik mədəniyyəti və elmi darmadağın edir, alimləri və filosofları təqiblərə məruz qoyurdular. Antik mədəniyyətin mərkəzlərindən biri olan İskəndəriyyədə də bu proseslər gedirdi. Xristian fanatları Museyona hücum çəkmiş, onu dağıtmış və qədim kitabxananı yandırmışdılar.

Hipatia isə o zaman dini fanatizmə qarşı çıxış etmişdir. O, İskəndəriyyənin siyasi həyatına fəal qatıldığına və şəhər başçısı *Orestesə* yaxın olduğuna görə yerli xristian icmasının ona qarşı nifrəti ilə üzləşmişdir. Xristianlar onu bütpərəstlik, dinsizlik və əxlaqsızlıqda günahlandırmışdırlar. Hipatianın alimliyi, dini ehkamlara şübhələrlə yanaşması, dini fanatizmə qarşı çıxması, sərbəst davranışı xristianları qıcıqlandırırdı. Buna görə

---

[100] **Klauduis Ptolemeus** (yun. *Κλαύδιος Πτολεμαῖος*) – ellinizm dövrünün astronomu, riyaziyyatçısı və coğrafiyaçısı olmuşdur. Onun ***“Almagest”*** kitabında qədim dövrün bütün astronomik bilikləri toplanmışdır. Bu kitabın həqiqi adı *“Astronomiyanın böyük riyazi düzəni”*dir. “Almagest” isə ona verilmiş ərəb adıdır. Orta yüzillikdə ərəbdilli alimlər bu kitabı araşdırmışdırlar. Avropalılar isə bu kitabla onların vasitəsi ilə tanış olmuşdurlar.

İskəndəriyyə yepiskopu, sonralar kilsə müqəddəsi elan olunmuş *Kiril* ona qarşı çıxış etmiş, onu çoxlu günahlarda ittiham etmişdir.

Sonda Kirilin fanatik tərəfdarları Hipatiaya hücum çəkmiş, onu kilsəyə gətirərək orada diri-diri parçalayaraq edam etmişdilər. Güman edilir ki, bunu edənlər *"parabalani"* təriqətinin ardıcılları olmuşdurlar (4). Bununla da Hipatia sonralar formalaşan Avropa ictimai fikrində dini fanatizmin qurbanı və dini mövhumat və elmsizliyə qarşı mübarizənin simvoluna çevrilmişdir. Kirili təmizə çıxarmaq üçün kilsə xadimləri onun bu cinayətdə əli olmadığını iddia edirlər. Ancaq, o özü edamda iştirak etməsə belə, qatillərə mənəvi dəstək vermişdir (20). Hipatiadan sonra neoplatonizmin İskəndəriyyə məktəbi xristian ilahiyyatı mərkəzinə çevrilərək fəaliyyətini davam etdirmişdir.

Hipatia düşüncənin, elmin və məntiqin dindən üstün olmasını iddia etmişdir. Hesab olunur ki, o suyun distillə edilməsi və *astrolabia* [101] cihazlarını daha da təkmilləşdirmişdir. Bəzi tədqiqatçılar hesab edirlər ki, Hipatiyanın müəllifliyi ilə tanınan əsərlərini o əslində atası Teonla birlikdə yazmışdır.

M. IV yüzillikdən sonra yeni-platonçuluq Xristianlığa təsir etmişdir. Onlar bir-biri ilə çarpışaraq həm də bir-birindən ideya baxımdan bəhrələnmişdirlər. Yeni-platonçuluq Xristianlıqla mübarizədə məğlub olsa

[101] Astronomik baxış keçirmək üçün cihazdır.

da, ancaq onun ideyaları ortadan qalxmamış, sonralar dünya dinlərində özünü göstərmişdir.

Xristianlığın güclənərək dövlət dininə çevrilməsi prosesində yeni-platonçuların arasında artıq xristianlar da olmuşdurlar. Onlardan biri **İoann Filoponus** (yun. *Ἰωάννης ὁ Φιλόπονος,* m. 90 – 570) idi. O, Aristotelin və başqa keçmişdə yaşamış filosofların əsərlərinə şərhlər yazmışdır. Eyni zamanda onun ***"Dünyanın əbədiliyi haqqında", "Dünyanın yaranması haqqında. Proklusa qarşı", "Hakim və ya birlik haqqında"*** kimi öz əsərləri də var mövcud olmuşdur.

Bu əsərlərdə Filoponus keçmiş filosofların Xristianlığa uyğun olmayan fikirlərini tənqid etmişdir. Məsələn, Aristotelin dünyanın əbədiliyi haqqında fikirlərini rədd etmişdir. Bununla belə o, bir çox məqamlarda Xristian ilahiyyatına uyğun olmayan fikirlərlə də çıxış etmişdir. O demişdir ki, xristianların ***Ata-Oğul-Müqəddəs Ruh*** hissələrindən (hipostasislərdən) ibarət olan bir Tanrı o hipostasislərdən ayrı bir şey ola bilməzsə, deməli onların hər birində mövcuddur. Çünki, ümumi olan bir şey öz hissələrinin cəmidir. Deməli, Tanrı əslində elə üç tanrıdan ibarətdir və onların cəmidir (19, 221). Bu kimi baxışlar *triteizm* adlanır.

Daha sonra Filopones rəsmi kilsənin mövqeyinə zidd olaraq hesab edirdi ki, İsada ikili (insani və ilahi) təbiət ola bilməz. Çünki, İlahi və insani təbiətlər bir araya sığmaz. Beləliklə, Filopones İsada yalnız ilahi təbiəti qəbul etmişdir. Bu kimi baxışlar Xristianlıqda *monofizitlik* adlanır (19, 215).

Rəsmi kilsə Filoponesin triteizmini və monofizitliyini pisləmiş və onları rədd etmişdir (19, 214). Ancaq sonralar bəzi Xristian kilsələri monoteizmi qəbil etmişdirlər.

## 2.9. Antik fəlsəfənin sonu

Afinada antik irsin ənənələrini davam etdirən məktəbin olmasına baxmayaraq qədim Yunan və Roma dinləri, dünyagörüşü və ənənələrinin iflasa uğraması prosesi artıq V – VI yüzilliklərdə tamamilə başa çatmışdır. Antik ənənə Roma imperiyasında yayılmaqda olan Xristianlıqla rəqabət apara bilmirdi.

Bəzi hallarda Xristianlıqla antik mədəniyyətin mübarizəsi təkcə ideoloji müstəvidə getmirdi. Öncə bəzi Roma imperatorları və hakim dairələri xristianları təqib etmişdirlər. Sonra isə Xristianlığın yayılması daha da sürətləndikdən və kilsə xadimlərinin cəmiyyətdə nüfuzunun artmasından sonra əks proseslər baş vermişdir. İmperatorlar dövləti idarə etmək üçün yeni dindən istifadə etməyə başladılar. O, zaman Xristian təəssübkeşləri antik tapınaqlara (məbədlərə) və mədəniyyət mərkəzlərinə hücumlar düzənləyərək onları darmadağın etmişdirlər.

Antik mədəniyyətə sonuncu zərbəni Şərqi Roma imperatoru *Yustinian* vurmuşdur. O, 527-ci ildə hakimiyyətə gələrək Xristianlıqdan başqa bütün dinləri qanundan kənar elan etdi. Onun hakimiyyəti dönəmində bütün antik məbədlər bağlanıldı və ya dağıdıldı.

Xristianlığı qəbul etməkdən imtina edən adamları isə vətəndaş hüquqlarından məhrum edildilər.

Yustinian Afinada yerləşən fəlsəfi məktəbin də bağlanması haqqında əmr verdi. 531 – 532-ci illərdə orada fəaliyyət göstərən filosoflar təqiblərdən qurtulmaq üçün İrana mühacirət etdilər. Onların arasında ***Damaskius*** və ***Simplikius*** da olmuşdur. Sonra onlardan bəziləri geriyə dönmüş, ancaq artıq yeni məktəblər yarada bilməmişdirlər. Bununla da, antik fəlsəfənin tarixi Romada sona çatmışdır. Buna baxmayaraq sonralar neoplatoçuların və başqa məktəblərin təlimləri orta əsr xristian, sonra isə müsəlman ilahiyyatı və fəlsəfəsinə güclü təsir etmişdir.

İrana mühacirət edən filosof və alimlər isə ölkənin bir çox şəhərlərində fəlsəfi və elmi məktəblər (*akademiyalar*) yaratmışdırlar. Bu məktəblərin arasında **Cündişapur akademiyası** əhəmiyyətli yer tutmuşdur. Burada fəlsəfədən başqa riyaziyyat, astronomiya, təbabət, coğrafiya kimi elmlər də inkişaf etdirilirdi. Antik dünyanın elmi-fəlsəfi irsinin böyük hissəsinin Bizansda xristianlar tərəfindən darmadağın olunması şəraitində, İranda fəlsəfi məktəblərin nümayəndələri o irsin təsadüfən salamat qalmış bəzi nümunələrini süryani və fars dillərinə tərcümə etmişdilər.

VII yüzillikdə İran ərəblər tərəfindən istila edilmiş və bunun nəticəsində antik elmi-fəlsəfi irsi ərəbdilli filosofların əlinə keçmişdir. Onlar bu irsə böyük maraq göstərərək onu ərəb dilinə çevirmişdirlər. Ərəbdilli filosoflar qədim yunan düşünürlərinin əsərlərinə şərhlər

yazmış, alimlər onların elmi nailiyyətlərini inkişaf etdirmişdirlər. Orta əsr dönəmində Xilafətin elmi-mədəni inkişafında həmin antik irsin böyük rolu olmuşdur.

Bir neçə əsr keçdikdən sonra avropalılar ərəbdilli tərcümələr vasitəsi ilə antik irsə yenidən maraq göstərməyə başlamış və bir çox əsərləri latın dilinə tərcümə etmişdirlər. Bundan başqa, Avropanın kitabxanalarında da bir çox antik fəlsəfi əsərlər saxlanılırdı ki, sonralar onlar tədqiqatçılar tərəfindən araşdırılmışdır. Antik irsin öyrənilib inkişaf etdirilməsi nəticəsində Avropa mədəniyyəti və elmi irəliləməyə başlamışdır. *Dirçəliş* (İntibah) adlanan dönəm məhz antik mədəniyyətə, fəlsəfəyə, elmə və dünyagörüşünə qayıdış sloqanları ilə yaşanmışdır. Beləliklə, antik fəlsəfə bütün dünyanın inkişafında müstəsna rol oynamış, müasir tərəqqinin təməlində durmuşdur.

**Mövzu ilə əlaqəli suallar:**

1. Yeni-platonğuluğun əsasları hansı prinsipləri əhatə edir?
2. Yeni-platonğuluq hansı şəraitdə və hansı səbəblər üzündən yaranmışdır?
3. Yeni-platonçu ideyalar daha çox kimin arasında yayılmışdır?
4. Ammonius Sakkasın fəaliyyəti və fəlsəfi fikirləri nədən ibarət olmuşdur?
5. Plotinin yeni-platonçuluğun inkişafında rolu nədən ibarət olmuşdur?

6. Plotinin əsas əsərinin adı nədir və onun tərkibi hansı hissələrdən ibarətdir?

7. Plotin varlığı necə təsəvvür edirdi?

8. Plotin Vahid haqqında nə düşünürdü?

9. Vahid monoteizmdə Tanrı təsəvvüründən nə ilə fərqlənir?

10. Emanasiya nədir, Plotin onu necə təsəvvür edirdi?

11. Plotinə görə Əql nədir?

12. Plotinə görə Ruh nədir, onun hansı səviyyələri vardır?

13. Plotinə görə maddi dünya nədir?

14. Plotinə görə insan ruhu nədir, onun səviyyələri hansılardır?

15. Plotinə görə ekstaz halı nədir?

16. Plotin fəlsəfəsinin tarixi əhəmiyyəti nədən ibarətdir?

17. Porfirius növlər, cinslər və ümumi anlayışlar haqqında nə düşünmüşdür?

18. Porfiriusa görə ruh hansı yollarla xilas ola bilər?

19. Porfiriusun fəlsəfəsində "qnosis" nədir?

20. Porfiriusa görə Xeyrin növləri hansılardır?

21. Porfirius Xristianlığı hansı kitabında tənqid etmişdir?

22. Amelius hansı fikirlərlə çıxış etmişdir?

23. Yamblix Vahid-Əql-Ruh üçlüyünü necə təsəvvür edirdi?

24. Yamblixə görə Vahid, Əql və Ruh hansı hissələrdən ibarətdirlər?

25. Yamblixin tanrılar iyerarxiyası hansı prinsiplər üzərində qurulmuşdur?

26. Yamblix ideyalarla maddi dünya arasında bağlılığı necə görürdü?

27. Yamblixin teurgiyasının prinsipləri nə idi?

28. Yamblixin ardıcılları kimlər idi, onların hansı fəaliyyət istiqamətləri olmuşdur?

29. Perqama məktəbində hansı mistik yönəlmələr olmuş, onlara qarşı kim çıxış etmişdir?

30.Sallustius dünyanın quruluşunu necə təsəvvür edirdi?

31. Sallustius tanrıların bölgüsünü necə aparmışdır?

32. Sallustiusa görə şərin təbiəti nədir?

33. Sallustius dini rəvayətləri və mifləri necə yorumlayırdı?

34. İmperator Yulian nə kimi islahatlar həyata keçirmişdir?

35. Yulianın dünyagörüşü necə olmuşdur?

36. Yulian Xristianlara qarşı hansı kitabı yazmışdır?

37. Afinalı Plutarx Plotinin üçlük haqqında fikirlərinə hansı yeniliklər gətirmişdir?

38. Plutarxın fantaziya haqqında fikirləri nədən ibarət olmuşdur?

39. Proklus Üçlüyü və emanasiyanı necə təsəvvür edirdi?

40. Proklusa görə çoxluğa keçid necə baş verir?

41. Proklus materiya haqqında nə düşünüb?

42. Proklusa görə insanın tanrı məkanına qayıdışı necə baş verir?

43. Marinus “kamil insan” örnəyini kimdə görürdü?

44. Kilikiyalı Simplikiusun fəaliyyəti nədən ibarət olmuşdur?

45. Damaskiusun fəlsəfi fikirləri hansı problemləri əhatə edirdi?

46. Hierokles Tanrını necə təsəvvür edirdi?

47. Hierokles fəlsəfəsinin xristian ilahiyyatına uyuşan və ondan fərqlənən məqamları hansılardır?

48. Hieroklesin fəlsəfəsində providentia, tale və insan azadlığı nədir?

49. Hierokles şərin təbiəti və onun çeşidləri haqqında hansı fikirlər irəli sürmüşdür?

50. Hipatiyanın həyat yolu və elmi fəaliyyəti necə olmuşdur?

51. Filoponesin triteizmi və monofizitliyi nədən ibarətdir?

**Ədəbiyyat:**


1. Jerome's Commentary on Daniel / Translated by Gleason L. Archer. Michigan: Baker Book House, 1958.

2. Marinus (philosopher) // Encyclopædia Britannica, 1911.

3. Marinus. Life of Proclus. New York: Platonist Press, 1925.

4. Parabalani // The Oxford Dictionary of the Christian Church. Oxford University Press, 2009.

5. Philostratus and Eunapius. The lives of the sophists / Translated by W.C. Wright. London: William Heinemann, 1922.

6. Porphyry. Introduction / Translated by J. Barnes. Oxford University Press, 2003.

7. Plotinus. The Ethical Treatises, being the Treatises of the First Ennead, with Porphry's Life of Plotinus, and the Preller-Ritter Extracts forming a Conspectus of the Plotinian System / Translated by Stephen Mackenna. Boston: Charles T. Branford, 1918.

8. Plotinus. The Enneads / Translated by Stephen MacKenna. London: Faber and Faber Limited, 1962.

9. Sallust. On the Gods and the World. London: Printed for Edward Jeffrey, Pall Mall, 1793.

10. Socrates Scholasticus. Church History The Ecclesiastical History of Socrates Scholasticus // Nicene and Post-Nicene Fathers, Series II, Vol. 2. Edinburgh: T&T Clark, 1886.

11. Sopater // Philostratus Flavius, Eunapius. The lives of the sophists / With an engl. transl. by W.C. Wright. Harvard University Press; London: Heinemann, 1968.

12. The Life of Proclus or Concerning Happiness by Marinus of Samaria / Translated by Kenneth S. Guthrie. London: Phanes Press, 1986.

13. The Sentences of Porphyry the Philosopher. The Journal of Speculative Philosophy. Vol. 3. Penn University Press 2013.

14. Амелий // Философия: Энциклопедический словарь. М.: Гардарики / Под редакцией А.А. Ивина. 2004.

15. Гарнцев М. Дамаский о невыразимом // Логос, 1999, № 6.

16. Дамаский // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция. 2008.

17. Золотые стихи с комментариями Гиерокла / Перевод И. Ю. Петер. М.: Новый Акрополь, 2000.

18. Лосев А. Ф. История античной эстетики. Том VII. М.: Искусство, 1988.

19. Лурье, В. М. История Византийской философии. Формативный период. СПб.: AXIŌMA., 2006.

20. Преображенский П. Ф. Вступление // Кингсли Ч., Маутнер Ф. Ипатия. Харьков: Паритет ЛТД, 1994.

21. Прокл. Первоосновы теологии; Гимны / Перевод А. Ф. Лосева. М.: Прогресс, 1993.

22. Ранович А. Б. Первоисточники по истории раннего христианства. Античные критики христианства. М.: Политиздат, 1990.

23. Симпликий // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция, 2008.

24. Теософия // Краткий философский словарь М.: ТК Велби, Издательство Проспект, 2004.

25. Юлиан Отступник // М. В. Белкин, О. Плахотская. Словарь «Античные писатели». СПб.: Лань, 1998.

26. Ямвлих // Античная философия: Энциклопедический словарь / Составитель Е. В. Афонасин. М.: Прогресс-Традиция. 2008.

27. Ямвлих // Энциклопедический словарь Ф. А. Брокгауза и И. А. Ефрона. С.-Пб.: Брокгауз-Ефрон. 1890-1907.

# QƏDIM YUNAN ƏLIFBASI

| Hərf | Adı | Azərbaycanca səslənməsi |
|---|---|---|
| Α α | ἄλφα/alfa | [a] ya da [a:] (uzanan "a") |
| Β β | βῆτα / beta | [b] |
| Γ γ | γάμμα / qamma | [q] |
| Δ δ | δέλτα / delta | [d] |
| Ε ε | ἔψιλον / epsilon | [e] |
| Ζ ζ | ζῆτα / zeta | [dz] |
| Η η | ἦτα / eta | [ɛː] (uzanan "e") |
| Θ θ | θῆτα / theta | [th] |
| Ι ι | ἰῶτα / iota | [i], ya da [i:] (uzanan "i") |
| Κ κ | κάππα / kappa | [k] |
| Λ λ | λάμβδα / lambda | [l] |
| Μ μ | μῦ / mu | [m] |
| Ν ν | νῦ / nu | [n] |
| Ξ ξ | ξῖ / ksi | [ks] |
| Ο ο | ὂ μικρόν / omikron | [o] |
| Π π | πῖ / pi | [p] |
| Ρ ϱ | ῥῶ / rho | [r] |
| Σ σ/ς | σῖγμα / siqma | [s] |
| Τ τ | ταῦ / tau | [t] |
| Υ υ | ὖ ψιλόν / upsilon | [y] ("üi" birləşməsi) |
| Φ φ | φῖ / fi | [ph] ya da [f] |
| Χ χ | χῖ / xi | [x] |
| Ψ ψ | ψῖ / psi | [ps] |
| Ω ω | ὦ μέγα / omeqa | [ɔ:] (uzanan "o") |

Aydın Arif oğlu Əlizadə

# ANTİK FƏLSƏFƏ TARİXİ

*Ali məktəblərin tələbələri üçün dərs vəsaiti*


Mətbəənin direktoru: Şəddat Cəfərov,

Dizayn: M. Vəliyeva

Yığılmağa verilmiş:14.12.2015,
Çapa imzalanmış: 15.03.2015,
Şərti çap vərəqi: 18,
Sifariş:30
Kağız formatı:60x84 1/16,
Tiraj:250.

---

Kitab «3 saylı Bakı mətbəəsi» ASC-də hazır deopozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.

Unvan: Bakı şəhəri. A. Məhərrəmov küməsi, 4



Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun baş elmi işçisi, fəlsəfə üzrə elmlər doktorudur. Elmi fəaliyyətinin əsas istiqamətləri dinşünaslıq, fəlsəfə tarixi və kulturologiyadır.

Kitab və məqalələri Azərbaycanda, Rusiyada, Ukraynada, Belarusda, Qazaxıstanda, Özbəkistanda, Tacikistanda və Türkiyədə dərc olunmuşdur. Elmi əsərlərinə başqa müəlliflər tərəfindən çoxlu sayda elmi istinadlar edilmişdir. Bir çox beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişdir. Ali məktəblərdə fəlsəfi fənlərdən mühazirələr oxumuşdur.